AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
**TARİX İNSTİTUTU**

# ELMİ ƏSƏRLƏR

**2011, cild 36-37**

# SCIENTIFIC WORKS

**OF THE INSTITUTE OF HISTORY NAS OF AZERBAIJAN**

**2011, volume 36-37**

# ТРУДЫ

**ИНСТИТУТА ИСТОРИИ НАН АЗЕРБАЙДЖАНА**

**2011, том 36-37**

**1947-ci ildən nəşr olunur**

**36-37/2011**

**Azərbaycan Milli Elmlər Akademiyası**
**A.A.Bakıxanov adına Tarix İnstitutu Elmi Şurasının**
**qərarı ilə çap olunur**

Baş redaktor:
**Yaqub MAHMUDOV**
*AMEA-nın müxbir üzvü*
Redaksiya heyəti:
Akad. Nailə **VƏLİXANLI**, akad. Teymur **BÜNYADOV**,
AMEA-nın müxbir üzvü Oqtay **ƏFƏNDİYEV**
akad. İsmayıl **HACIYEV**,

t.ü.f.d. Tofiq **BABAYEV** (məsul katib), t.ü.e.d. İradə **BAĞIROVA,**
t.ü.f.d. Cəbi **BƏHRAMOV (**baş redaktorun müavini**)**,
t.ü.e.d. prof., Həsən **ƏLIBƏYLİ,** İradə **ƏLİYEVA** (buraxılışa məsul),
t.ü.e.d. prof., Şahin **FƏRZƏLİYEV**, t.ü.e.d. Qasım **HACIYEV**,
t.ü.f.d. Hacı **HƏSƏNOV**, t.ü.f.d. Ədalət **QASIMOV,**
t.ü.f.d.. Nigar **MAKSVEL**,t.ü.f.d. İsrafil **MƏMMƏDOV**,
t.ü.e.d. prof., Adil **MƏMMƏDOV**,
t.ü.f.d. Göhər **MƏMMƏDOVA (elmi katib)**,
t.ü.f.d. Elmar **MƏHƏRRƏMOV,** t.ü.e.d. Tamilla **MUSAYEVA**,
t.ü.e.d. prof., Tofiq **MUSTAFAZADƏ,** t.ü.f.d. Tofiq **NƏCƏFLİ,**
t.ü.f.d. Məryəm **SEYİDBƏYLİ**, t.ü.e.d. Kərim **ŞÜKÜROV**

ISBN 978-9952-8211-9-2

© AMEA Tarix İnstitutu, 2011

# AZƏRBAYCAN ƏHALİSİNİN ANTİK DÖVRDƏ MƏŞĞULİYYƏTİ

**Fəridə ƏLİYEVA***
aliyevafa@gmail.com

Azərbaycanın ərazisi əlverişli coğrafi mövqeyə və təbii zənginliklərə malik olduğundan, burada qədim cəmiyyətin təşəkkül tapıb inkişaf etməsi üçün real imkanlar mövcud olmuşdur. Cəmiyyətin inkişaf tarixinin öyrənilməsində ayrı-ayrı təsərrüfat sahələrinin arxeoloji material və yazılı məlumat əsasında təhlili başlıca məsələlərdən biridir. Arxeoloji qazıntılar nəticəsində aşkar olunmuş maddi mədəniyyət qalıqları Azərbaycan əhalisinin təsərrüfat və ticarət həyatını öyrənmək üçün müəyyən qədər imkan yaradır. Azərbaycanın qədim dövlətlərindən olan Albaniyanın e.ə.IVəsr - e.III əsrlərində ticarət münasibətlərinə dair materialların azlığına baxmayaraq, antik müəlliflərin məlumatları, müxtəlif sikkə nümunələri, Cənubi Qafqaz və dünya tranzit ticarətində mühüm rol oynayan Xəzər dənizi və Kür çayı kimi su yollarının olması onun bir çox ölkələrlə əlaqələrini aydınlaşdırmağa imkan yaradır. Ticarət antik dövr Albaniya şəhərlərinin iqtisadi həyatında böyük rol oynayırdı [2, s.152]. Ticarət istehsalı ilə əlaqədar olan əkinçiliyin və sənətkarlığın inkişafı öz növbəsində ticarətin inkişafına şərait yaradırdı.

Albanların təsərrüfatında əkinçilik, maldarlıq və sənətkarlıq əsas yer tutmuşdur. Bunlarla əlaqədar olaraq, yardımçı təsərrüfat sahələri - bağçılıq, bostançılıq, balıqçılıq da mövcud olmuşdur [ 6,s. 102]. Antik müəlliflərin məlumatları kənd təsərrüfatının kifayət qədər dəqiq mənzərəsini verir [1,s. 80].

Azərbaycanın təbii-coğrafi mühiti qədimdən əkinçilik təsərrüfatının inkişafı üçün imkan yaratmışdı.Tədqiq edilən ərazidən aşkar olunmuş müxtəlif əmək alətləri, təsərrüfat küpləri və quyuları, taxıl qalıqları və s. Albaniyada əkinçilik təsərrüfatının inkişafı haqqında aydın təsəvvür yaradır. Y.İ.Krupnov " Şimali Qafqazın qədim tarixi" adlı əsərində etnoqrafik dəlillərə və Strabonun Albaniyada xışdan istifadə haqqındakı məlumatına əsaslanaraq Qafqazda qədimdə kobud ağır xışdan istifadə edilməsi fikrini irəli sürür [3,s.313].

Əkinçiliyin Albaniyada başlıca təsərrüfat sahələrindən biri olmasını, Göyçay və Ağsu çayları hövzələrində aparılmış arxeoloji tədqiqatlar zamanı tapılmış müxtəlif əmək alətləri də təsdiq edir. Əldə edilmiş maddi mədəniyyət qalıqları içərisində müxtəlif ərzaq məhsullarının saxlanması ilə əlaqədar olan tapıntılar da maraqlıdır. Qalagah, Nüydi, Mollaisaqlı yaşayış yerlərindən və qəbir abidələrindən aşkar edilmiş iri küplər taxıl, un və bu kimi məhsulların saxlanması üçün əsas avadanlıq hesab edilir. Təsərrüfat küplərinə və torpaqda qazılmış təsərrüfat quyu-

---

* Fəridə Kamal qızı Əliyeva – t.f.ü.d. Bakı Dövlət Universitetinin dosenti

larına Albaniya yaşayış yerlərində çox təsadüf edilmişdir. Strabon qeyd edir ki, albanlar və iberlər "münbit torpağa malikdirlər və təsərrüfatı yaxşı inkişaf etdirə bilirlər"[ XI,2,19]. Biz Strabonda əkinçilik üçün yararsız ərazi haqqında da məlumata rast gəlirik. Məsələn, o, yazır ki, İberiyadan Albaniyaya gedən yol "Kambisenadan – suyu qıt olan dərə -təpəlik ərazidən keçir" [XI,4,5].

Azərbaycanda həm bərk, həm də yumşaq buğda növü əkilirdi. Bərk buğda dəninin və ununun Mingəçevirdə aşkar edilmiş qalıqları həmin vaxtlara aiddir [1,s.82]. Kənd təsərrüfatı məhsullarının emalında işlədilən alətlər taxıl istehsalının səviyyəsini göstərir. Əhali dən daşlarından geniş istifadə edirdi. Dən daşlarından əlavə əl dəyirmanları da aşkar olunmuşdur. Qeyd etmək lazımdır ki, bostançılıq yardımçı təsərrüfat sahələrindən biri olmuşdur. Bağçılığın albanların təsərrüfatında xüsusi rol oynadığını göstərən yazılı mənbələr arxeoloji tapıntılarla təsdiq edilir [6,s.106]. Strabon Albaniyanın üzümlüklərindən, habelə üzüm tənəklərinin bol üzüm gətirməsindən danışır. Məlum olduğu kimi, üzümdən müxtəlif məhsullar hazırlanması təsərrüfat həyatında böyük əhəmiyyətə malik idi.

Əhalinin iqtisadi həyatında maldarlıq nəzərə çarpacaq yer tuturdu. Yazılı qaynaqlarda Kaspi torpağında dəvələr olması haqqında da məlumatlar qalmışdır. Dəvələrdən digər ölkələrə mal daşımaq üçün istifadə olunurdu. Ticarət məqsədilə həyata keçirilən səyahətlərdə istifadə olunan minik və yük heyvanları maldarlıqda da xüsusi yer tuturdu. Bunlardan atı xüsusilə qeyd etmək lazımdır. Deməli, hərbi işlərdə geniş istifadə olunmalarından əlavə, Albaniyada dəvə və atlardan ticarətdə minik və yük daşımaq məqsədilə də istifadə olunurdu. Arxeoloji tapıntılardan və mənbələrin verdiyi məlumatdan göründüyü kimi, Albaniyanın iqtisadi həyatında heyvandarlıq böyük əhəmiyyət kəsb edirdi.

Bir çox mənbələr qədim Azərbaycan əhalisinin balıqçılıqla da məşğul olduğunu göstərir. Təbii ki, balıqçılıq Xəzər dənizi, Kür və Araz kimi iri çayların yaxınlığında yaşayan tayfaların həyatında mühüm rol oynaya bilərdi. Buna baxmayaraq, dağ çaylarında olan farel balıqlarından, eləcə də ölkə daxilində mübadilə yolu ilə Kür və Araz çaylarında və Xəzər dənizində ovlanmış balıqlardan istifadə olunmuşdur. Yəqin ki, Albaniyanın digər ölkələrlə ticarət əlaqələrində balıq və balıq məhsulları özünəməxsus yer tuturmuş. Klavdi Elian yazır ki, Kaspi torpağında nəhəng bir göl var və bu göldə itiburun adlanan nəhəng balıqlar üzür. Kaspilər onları tutur, duzlayır və ya qurudurdular. Sonra isə dəvələrə yükləyib Ekbatanaya aparırlar. Bu məlumat həm Albaniyaya, həm də Atropatenaya aiddir.Yəni, həm ölkə daxili, həm də ölkəxarici ticarətdə balıqdan istifadə edirdilər. Bu balıqların piyindən məlhəm hazırlayırdılar. Bundan başqa, çox əlverişli olan yapışqan düzəldirdilər. Yəqin ki, ticarətdə bu yapışqandan istifadə olununrdu. Həm də xaricdən gətirilən fil dişindən əşyalar hazırlayan ustalar da bu yapışqan-

dan işlədirdilər. Balıqlara vurmaq üçün lazım olan çoxlu duz Atropatena duz mədənlərindən gətirilirdi.

Albaniyanın iqtisadiyyatında əkinçilik və maldarlıqla bərabər, müxtəlif sənətkarlıq sahələri də başlıca yerlərdən birini tutmuşdur.Tədqiq olunan sahələrdən biri dulusçuluqdur və metalişləməyə aid, qismən də şüşə istehsalı ilə əlaqədar olan sənətkarlıq haqqında bir qədər ətraflı məlumat əldə edilmişdir. Qalan sənət sahələri haqqında məhdud məlumat və material vardır.

Arxeoloji qazıntılar nıticəsində dulus kürələrinin və çoxlu gil qabların tapılması sübut edir ki, bölgədə saxsı məmulat istehsalı geniş yayılmışdır. Bu tip qablar Mollaisaqlı, Mingəçevir, Qəbələ və Nüydi abidələrindən külli miqdarda aşkar edilmişdi. Albaniyada dulusçuluqda mürəkkəb proseslər tətbiq olunmuş və o, ayrıca bir sənət sahəsi kimi kütləvi şəkil almışdır.

Metalişləmə Azərbaycanın qədim əhalisinin həyatında əhəmiyyətli rol oynayırdı. Mis filizi çıxarılan qədim mədən və şaxtaların mövcud olması, arxeoloji qazıntılar zamanı çoxlu metal məmulat tapılması göstərir ki, qədim əmək alətləri, silahlar və bəzək əşyaları yüksək sənətkarlıq səviyyəsində istehsal edilirdi. Qədim Azərbaycanda metaldöymə, metalda naxışaçma və qəliblərə metaltökmə geniş yayılmışdı. Tunc, gümüş və qızıl əşyalar qədim ustaların zərgərlik sənəti texnologiyasını ətraflı izləməyə imkan verir. Antik dövrdə sənətlərin digər növləri də inkişaf etmişdi. Albaniya yaşayış yerləri və qəbir abidələrindən tapılmış metal ziynət əşyaları albanların zərgərlik işləri ilə məşğul olmalarını öyrənməyə xeyli kömək edir. II əsr Roma tarixçisi Appian Qafqaz çaylarının çoxunda xırda dənəciklər şəklində qızıl olduğunu qeyd edir. Metalişləmə ilə bərabər Albaniyada müxtəlif qiymətli daşlardan bəzək əşyaları, habelə müəyyən şəxsi və ictimai məqsəd daşıyan möhürlər hazırlanmışdır.

Albaniyada şüşə məmulatı istehsalı kimi nisbətən incə və mürəkkəb sənət sahəsinin mövcud olması haqqında arxeoloji materialların təhlili mülahizələrə imkan verir. Qazıntılar zamanı gətirilmə şüşə qablarla yanaşı, yerli istehsal nümunələrinin də varlığı müəyyənləşdirilmişdir [6,s.114]. Şüşə qablar Albaniyaya həm ticarət əlaqələri vasitəsi ilə xaricdən gətirilmiş, həm də yerli sənətkarlar tərəfindən istehsal edilmişdir. Bəzi şüşə qabların ətraflı tədqiqi nəticəsində aydın olmuşdur ki, onlar yerli istehsalın məhsuludur [5,s.113-122]. Lakin şüşə qablar istehsalında yerli formaların tətbiqi ilə yanaşı Yaxın Şərq şüşə istehsalı elementlərinin də varlığı məlum olur. Albaniyada şüşə istehsalı yerli gil qab istehsalının bəzi xüsusiyyətlərinin tətbiqi vasitəsilə, eyni zamanda mədəni əlaqələr nəticəsində mənimsənilmiş forma və üsullarla da təkmilləşdirilmişdir [ 6,s.97]. Azərbaycan ərazisində şüşə məmulatı, o cümlədən məharətlə düzəldilmiş küplər, qədəhlər, ətirqabılar və s.başlıca olaraq, küp, katakomba və taxta qəbirlərdə aşkar

edilmişdir. Məişətdə şüşədən düzəldilən qab-qacaqdan istifadə edilirdi, dəfn mərasimində lazım olan ətirlər və ətirli yağlar da şüşə qablarda saxlanılırdı [1,s.99]. K.V. Treverin fikrincə, Albaniya ərazisində üzə çıxarılmış bəzi şüşə məmulatların yerli, yaxud Suriya, Kiçik Asiya vilayətlərindən gətirilmə olduğunu demək hələlik çətindir [9,s.81].

Məlum olduğu kimi, toxuculuq hələ ən qədim zamanlardan insanların həyatında müəyyən yer tutmuşdur. II-III əsrlərdə yaşamış Klavdi Elianın verdiyi məlumatdan Albaniyada istehsal olunan yunun xarici ölkələrdə satıldığı aydın olur. O yazır ki, burada dəvələr olduqca çoxdur və onlar yumşaq yunla örtülmüşdür. Onların yunu çox zərifdir, belə ki, öz yumşaqlığına görə, Milet yunundan geri qalmır. Toxuculuğun inkişafı bir sıra xırda peşələrin də meydana çıxmasını və onunla əlaqəli şəkildə inkişaf etməsini şərtləndirmişdi. Bunlardan biri boyaçılıqdır. İstehsal olunmuş parçanı, lifi, ipi, yaxud da paltarın özünü bir çox bitkilərin kök, gövdə, qabıq və çiçəyindən, habelə başqa materiallardan müxtəlif üsullarla alınan cürbəcür rənglə boyamışlar. Yuxarıda deyilənlərdən belə nəticəyə gəlmək mümkündür ki, Albaniya toxucuları müxtəlif xammalla təmin olunmuşdular. Yerli boyalar olan- marena və koşenil haqqında da danışmağa əsas vardır [9,s.82] .

Arxeoloji tapıntılar gön və dəridən müxtəlif geyimlər tikilməsini söyləməyə imkan verir. Təbii ki, bunlar hamısı ticarət münasibətlərinin inkişafında mühüm rol oynayırdı. Toxuculuğun, eləcə də başqa sənət növlərinin inkişafı öz növbəsində iqtisadiyyatın digər sahələrinin – mübadilə və ticarətin inkişafına da təsir göstərə bilmişdi.

Arxeoloqlar müxtəlif rəngli və ölçülü asma bəzək əşyaları da üzə çıxarmışlar. Səliqə ilə düzəldilmiş heyvan heykəlcikləri, sxematik göz şəkilli muncuqlar, skarabeuslar [Misir və Suriya mənşəli, üzərində ornamenti olan daş və saxsı böcəklər] və başqa əşyalar bu qəbildəndir [1,s.73]. Torpaq və katakomba məzarlarından aypara şəkilli qızıl sırqalar üzə çıxarılmışdır. A.A.Qaraəhmədovanın fikrincə, bunlar Roma dövləti ilə ticarətin məhsulu olub, bu bölgəyə oradan idxal edilirdi. Həqiqətən, arxeoloji qazıntılar nəticəsində yerli istehsala mənsub olmayan, eramızdan əvvəl son illərə-eramızın başlanğıcına aid çox sayda gümüş, bürünc və dəmir fibulalar, eyni zamanda maddi mədniyyət ilə bağlı qızıl, gümüş, sümük, şüşə və qiymətli daşlardan hazırlanan tapıntılar üzə çıxmışdır. T.İ.Qolubkinaya görə, bu dövr üçün yunan-roma dünyasından gəlmiş və ya yerli istehsala məxsus gemmalı üzüklər əhəmiyyət kəsb edir. Roma gemmalarının yayılmasında Pompeyin və Antoninin yürüşləri mühüm rol oynamış, gəlmə gemmalar çox olduğundan onları yerli məmulatlardan ayırmaq mümkün deyildir. Tədqiqat göstərir ki, gemma qaynağı Qərb dünyası əraziləri olmaqla bərabər şərq ölkələrində, o cümlədən Azərbaycanda ortaya çıxması romalıların şərqə

doğru yürüşləri ilə bağlıdır. Müharibə allahı Mars, Günəş allahı Helios, sevgi tanrısı Eros və gözəllik ilahəsi Afroditanın şəkli olan gemmalar bu qəbildəndir. Digər hissəsi, yəni üzərində müqəddəs heyvan, bitki aləmi və dövrün sırf dini simvolları olan gemmalar yerli mədəniyyət məhsulu kimi qələmə verilir. Deməli, gemmaların əksəriyyəti Yunanıstan, Romadan gətirilirdi. Lakin gemmaların bir qismi Yunanıstan, Roma mədəniyyətinin təsiri altında olan yerli oymaçı ustaların əlinin məhsuludur.

Beləliklə, Azərbaycanın ellin dövlətlərlə ticarət əlaqələrinin inkişafında ölkələrin əlverişli coğrafi mövqeyi, bu dövrdə onların iqtisadi inkişafı, zəngin təbii şəraiti, bu regionların qədim şərq mədəniyyət mərkəzlərinə yaxınlığı və s. mühüm rol oynayırdı. Deməli, buna həm də Atropatena və Albaniya ərazilərindən keçən və bu iki ölkəni ellin dövlətlərlə birləşdirən tranzit ticarət yolları da təkan verirdi. Bu barədə həm antik müəlliflərin yazılı məlumatları, həm də arxeoloji və numizmatik materiallar məlumat verir. Ə.Rəcəbli özünün” Azərbaycanın numizmatikası”adlı kitabında yazır ki, ”Albaniyanın mühüm xarici əlaqələri cənub istiqamətində-Atropatena vasitəsilə, oradan isə nəhəng ellin dünyası ilə mövcud olmuş və inkişaf etmişdir”[8, s.12].

Ticarətin canlanması Ekbatanadan başlanan Qazakadan keçərək Artaksataya, oradan da şimala doğru uzanan ticarət yollarının daha da inkişaf etməsinə səbəb olurdu. Cənubda qədim quru ticarət yolları geniş Parfiya çarlığının ərazisi ilə qərbdən şərqə Dəclə çayının sahilindəki Antioxiyadan və Selevkiyadan Margianaya qədər uzanan böyük qədim şərq magistral yollarına çıxırdı. Bu magistrallar qərbə, Romanın tabeliyində olan ölkələrə və şərqə, Hindistan və Çinə aparır, başlıca olaraq Ekbatana yaxınlığında qovuşurdu. Antik müəlliflər quru ticarət yollarından əlavə, dəniz və çay ticarət yollarından da bəhs edirlər. Strabon, ehtimal ki, Qara dəniz sahillərindən Xəzərə gedən yolun ümumi uzunluğunu nəzərdə tutaraq yazırdı ki, bu ərazi “Kür çayının mənsəbindən Kolxidaya qədər, Albaniya və İberiya daxil olmaqla, dənizdən-dənizə tədricən üç min stadi uzanır, buna gorə də bərxəz şəklindədir”[XI,1,5].

Fəal ticarətdə duz mühüm yer tuturdu. Bununla əlaqədar olaraq, Strabonun Mateana gölündə ”duzxanalar duzəldilmişdir”[XI,14,8] - deyə verdiyi məlumat olduqca qiymətlidir. Duzxanaların olması, görünür, ona sübutdur ki, həm Atropatenanın, həm də qonşu ölkələrin uzaq və yaxın rayonlarına duz ixrac edilirmiş.

Parfiyanın iqtisadi həyatına qoşulmuş yerli tacirlər ticarətdə fəal rol oynamışdırlar. Onlar bir-birindən uzaq ölkələri birləşdirən böyük bir magistralı əllərində saxlayırdılar. Bütün bunlar göstərir ki, bir tərəfdən Avropadan, digər tərəfdən Çindən, Hinditandan, Orta Asiyadan uzanan ticarət magistralları Parfiya ərazisində kəsişir, gətirilən mallar isə ya yerli tacirlər tərəfindən başqa yerlərə

ötürülür, ya da iri şəhərlərdə qalaraq böyük yolların qolları ilə tədricən hər tərəfə yayılırdı. Atropatena və Albaniya bu ticarətdə müəyyən yer tuturdular: ixrac edilən mallar Ekbatanaya daşınır, buradan da başqa yerlərə aparılırdı. Antik Atropatena və Albaniya üçün nəzərdə tutulan idxal malları da Ekbatanaya bu əsas ticarət yolları ilə gətirilirdi.

Yuxarıda deyildiyi kimi, ticarət antik dövrdə Albaniyanın şəhərlərinin iqtisadi həyatında əhəmiyyətli rol oynayırdı. Şəhər bazarlarında kənd sakinləri, həmçinin əmtəə istehsalı ilə məşğul olan şəhər sənətkarları öz məhsullarının artıqlarını satırdılar. İstehsalçı ilə istehlakçı arasında vasitəçi rolunu da çox zaman fəaliyyət çevrəsini ticarət təşkil edən tacirlər oynayırdılar [2,s.152].

Azərbaycan ərazisinin coğrafi və iqlim şəraitləri qədim zamanlardan müxtəlif məhsulların istehsalı və onların mübadiləsinə şərait yaratmışdır. Antik dövrə qədər burada ticarət mübadilə yolu ilə aparılırdı.Ticarətin inkişafi və satılan malların assortimentlərinin artması onlardan bəzilərinin pul vasitəsi funksiyasını yerinə yetirməyə gətirib çıxardı. Ellinizm dövründə pul dövriyyəsi yüksək səviyyəyə çatmışdır və pul dövriyyəsi üçün uyğun iqtisadi bazası olan bir çox ölkələrə yayılmışdır.Yəni pul zərbi yunan dunyasından yavaş-yavaş pul dövriyəsinin yaranması və inkişafı üçün uyğun ictimai-iqtisadi bazası olan ölkələrə yayılmağa başladı. Bu məsələdə Albaniya da istisna təşkil etmirdi. Əhəməni İranında da pul zərbi mövcud idi. Güman edilir ki, Əhəmənilərin dövründə Albaniyada ticarət mübadilə vasitəsilə həyata keçirilirdi. Pul dövriyyəsinin yaranması üçün şərait Albaniyada ellinizm dövründə yarandı. Bu dövrdə ümumdünya ticarətinə yeni-yeni ölkələr cəlb olunurdu. Albaniya da belə ölkələrdən idi. Albaniyada artıq bir sıra yaşayış məskənləri şəhərlərə çevrilir və sənətkarlıq və ticarət durmadan inkişaf edirdi. Bütün bunlar pul dövriyyəsinin yaranıb inkişaf etməsi üçün içtimai-iqtisadi bazanın formalaşmağına gətirib çıxarırdı. Qafqazın numizmatik materiallarının davamlı tədqiqi Y.A.Paxomovaya belə qənaətə gəlməyə imkan vermişdi ki, Azərbaycan ərazisində pul dövriyyəsi e.ə.III əsrdən meydana gəlmişdir. Numizmatik tapıntılar əsasında Albaniyanın pul dövriyyəsini iki əsas böyük dövrə bölmək mümkündür: e.ə.VI əsrdən-e.ə.I əsrin ortalarınadək olan birinci dövr və e.ə.I əsrin ortalarından eramızın III əsrinədək olan ikinci dövr. Bu dövrlərin özlərini də Albaniyanın pul dövriyyəsində müəyyən dəyişiliklər baş verən bir neçə mərhələyə ayırmaq mümkündür [2,s.155].

Albaniyanın ellinizm dövründə pul dövriyyəsini işıqlandırmaq üçün mühüm material tapılmış ayrı-ayrı sikkə və böyük pul dəfinələridir. Dəfinələr arasında pulların sayına və tərkibinə görə ən əhəmiyyətlisi 1966-ci ildə antik dövr Qəbələ yaxınlığında tapılmış dəfinədir. E.ə. II əsrin 20-ci illərinə aid bu dəfinənin ümumi qiyməti ondadır ki, burada 500-dən artıq alban zərbli pul tapılmışdır.

Yalnız bu dəfinə Albaniyaya məxsus pul kəsilmə təkamülünü izləməyə imkan verir.Yerli zərbə aid pullar olan digər dəfinələr əsasında bu təkamülü izləmək mümkün deyil. Qəbələ dəfinəsi sayəsində dəqiq müəyyənləşdirmək mümkün oldu ki, ellinizm dövrünə aid yerli alban pulları Böyük İsgəndərin pullarının təqlidi idi. Zaman keçdikcə yerli pullar tənəzzülə uğradılar, İsgəndərin sikkələri ilə genetik əlaqəli olmalarına baxmayaraq, pulların növləri də dəyişdi. Tədqiqatçılar belə nəticəyə gəlmişlər ki, Albaniyada İsgəndərin pullarına bənzətmə artıq e.ə. III əsrdən başlamışdır. Belə sikkələr Makedoniyalı İsgəndərin sikkələrinin şərq ölkələri bazarlarında geniş yayıldığı dövrlərdə kəsilirdi. Məhz elə buna görə də bu pullar Qafqaz Albaniyasının ilk pullarının zərbində etalon rolunu oynamışlar [4,s.48].

İ.Babayevin fikrinə görə, Albaniyada Makedoniyalı İsgəndərin draxma və tetradraxmalarına oxşar pulların zərbinə e.ə.III əsrin birinci yarısında, hətta ola bilər ki, e.ə. IV əsrin sonu - III əsrin əvvəllərində başlamışlar. Albaniya Makedonyalı İsgəndərin Şərq yürüşü sayəsində əhəmənilərin zülmündən azad olub müstəqil dövlət olmuşdur. İlkin olaraq Albaniyaya çox sayda İsgəndərin pulları daxil olmuşdur və bununla da Albaniya ellinist dünyası ilə ticarətə cəlb olunmuşdur. Əhalinin artan tələbatını təkcə gətirilmə pullar ödəmədiyi üçün ölkədaxili ticarət də yüksək səviyəyə çatmışdı. Buna görə də Albaniya hökmdarları özləri pul zərb etməyə məcbur oldular. Əvvəlcə bu pullar orijinala daha yaxın idi, lakin vaxt keçdikcə öz görünüşlərini dəyişirlər[2,s.49]. Güman etmək olar ki, Makedonyalı İsgəndər və selevkilərin pullarının bir hissəsi Albaniyaya e.ə. IV əsrin sonlarında daxil olmuş və e.ə.III-II əsrlərdə burada əsas ödəmə vahidi rolunu oynamaqda davam edirmiş. Bunu, bir tərəfdən, məlum bir fakt sübut edir ki, ölümündən sonra Makedonyalı İsgəndərin pulları Şərqdə olduğu kimi, Yunanıstanda da uzun müddət zərb olunurdu.Onlar əvvəlki kimi beynəlxalq valyuta vəzifəsini yerinə yetirirdilər. Digər tərəfdən, bu, sözü gedən pulların selevki, roma və parfiya pulları ilə birgə dəfinələrdə üzə çıxarılmasını təsdiqləyir[7,s.93-94].

Ellin dünyası ilə Albaniyanın əlaqələri haqqında Mingəçevir və Şamaxıdan tapılmış möhürlər xəbər verir.Albaniya ərazisində tapılmış Suriya mənşəli şüşə muncuqlar da Albaniyanın Yaxın Şərq ilə ticarət münasibətləri haqqında məlumat verir. Dövlətin yaranması, şəhər mədəniyyətinin təşəkkülü beynəlxalq əlaqələrin genişlənməsinə zəmin yaradırdı. Beləliklə, Atropatenada olduğu kimi, Albaniyada da bu dövrdə şəhər mədəniyyəti, sinfi cəmiyyət inkişaf edirdi, yerli əhalinin qədim Şərq ölkələri, antik dünya ilə siyasi, iqtisadi, mədəni, ticarət əlaqələri genişlənirdi.

Yuxarıda deyilənlərdən belə nəticəyə gəlmək mümkündür ki, Azərbaycan öyrənilən dövrdə, bir tərəfdən müstəqilliyini qorumağa çalışaraq, bir sıra yaxın,

uzaq ölkələrlə mübarizə aparmış, digər tərəfdən isə kənd təsərrüfütını, ayrı-ayrı sənət sahələrini, dini baxışlarını, mədəniyyətinin müxtəlif sahələrini yüksək inkişaf səviyyəsinə çatdırmışdır.

**MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT**


1. Əliyev K.H., Əliyeva F.K. Azərbaycan antik dövrdə, Bakı, 1997, 119 s.
2. Бабаев И.А. Города Кавказской Албании в IV в. до н.э.- III в.н.э, Баку, 1990, 234 с.
3. Крупнов Е.И. Древняя история сев. Кавказа. Москва, 1960, 370 с.
4. Левиатов В.Н.Азербайджан с V в. до н э.- III в.н.э. Изв. АН Азерб.ССР, 1950, № 1, с.48-95.
5. Nuriyev A.B. B.Azərbaycan ərazisində aşkar edilmiş oymalı şüşə piyalələr haqqında. Az.SSR EA Tarix institutu aspir. I elmi konf.-nın mat.-rı. Bakı, 1965, s.11-12.
6. Osmanov F.L. Qafqaz Albaniyasının maddi mədəniyyəti, Bakı, 1982, 158 s.
7. Расулова М.М. Торгово-экономические и культурные связи Кавказской Албании с античным и эллинистическим миром: IV в.до н. э.- III в. н.э. Баку, 2008, 216 с.
8. Раджабли А.М. Нумизматика Азербайджана, Баку, 1997, 232 с.
9. Тревер К.В. Очерки по истории и культуре Кавказской Албании , М.-Л., 1959, 391 с.


**F.K.Alieva**

**OCCUPATION OF AZERBAIJAN'S POPULATIONS IN THE ANCIENT PERIOD**

**SUMMARY**


Written sources and materials of unique excavation give an opportunity to research economical life of Azerbaijan's population in the ancient period.

At the beginning of article saying about communication of ancient Azerbaijan and about role of trade in economical life of the Albanian's cities.

Ancient authors inform that in the Azerbaijan except overland route there were river way and seaway.

Agriculture and cattle raising were base of economical life Azerbaijan in the ancient period.

Brown ware, ceramics, glass were also developed in that epoch.

And of course, Azerbaijan was in the comfortable geographical location for development of trade relations.


**Ф.К.Алиева**

**ЗАНЯТИЕ НАСЕЛЕНИЯ АЗЕРБАЙДЖАНА В АНТИЧНОЕ ВРЕМЯ**

**РЕЗЮМЕ**


Письменные источники и материалы археологических раскопок дают возможность изучать хозяйственную жизнь населения Азербайджана в античное время.

В статье говорится о коммуникациях древнего Азербайджана, о роли торговли в экономической жизни албанских городо, о развитии производства изделий из стекла и керамики. Античные авторы сообщают, что кроме сухопутных в Азербайджане существовали также морские и речные пути.

Земледелие и скотоводство составляли основу экономической жизни населения Азербайджана в античное время.

В статье также подчёркивается роль благоприятного географического положения страны в торговых связях Атропатены и Албании с различными странами.

**Açar sözlər**: əkinçilik, maldarlıq, ticarət, yol
**Ключевые слова**: земледелие, скотоводство, торговля, путь
**Key words**: agriculture, cattle breeding, trade, a way

**Məqalə t.e.ü.d. Ə.Dadaşovun və t.ü.f.d. Y.Gözəlovanın müsbət rəyləri əsasında çap olunur.**

# AZƏRBAYCAN DİPLOMATİYASININ MİLADDAN ÖNCƏKİ TARİXİNDƏN

**Allahverdi ƏLİMİRZƏYEV***

Xalqımızın minilliklər boyu əldə etdiyi nailiyyətlər onun iqtisadi-mədəni yüksəlişi və mənəvi zənginliyi ilə məhdudlaşmır. «Azərbaycan» adlanan məmləkət neçə-neçə qəbilə icmalarına sığınacaq, tayfa birliyinə vətən, dövlət qurumlarına isə siyasi meydan olmuşdur. Tanrının tariximizə yazdığı qismətdəndir ki, bu coğrafiyada mövcud olmuş siyasi qurumları idarə edənlər qonşularla münasibətdə münaqişələrin savaş yolu ilə deyil, diplomatik vasitələrlə yazışma və danışıqlar müstəvisində həllinə üstünlük vermişlər.

Xalqımızın siyasi tarixi e.ə. XXVIII əsrin sonlarında formalaşan Aratta şəhər-dövləti ilə başlayır. Mesopotamiyanın möhtəşəm I Uruk sülaləsinin müasiri olan Aratta haqqında biliklərimiz 4 şumer dastanı ilə məhdudlaşır. Tarixi mətnlərdə bu şəhər-dövlət xatırlanmadığından dastanlardakı məlumatların həqiqətlə nə dərəcədə uzlaşdığını müəyyənləşdirmək olmur. Mesopotamiya şəhər mədəniyyətinin sübh çağında şumerlilərin Arattaya olan marağı onun zəngin təbii sərvətləri ilə bağlı idi; Aratta Şumerin şəhər-dövlətlərini qızıl, gümüş, lacivərd, tikinti materialları kimi əhəmiyyətli mallarla təmin edirdi. Erkən sülalələr dövrünün birinci mərhələsində bu malların təchizatında yaranan problemlər Uruk şəhərinin hökmdarı Enmerkarı təcili tədbirlər görməyə vadar edirdi. Vaxtı ilə icmalararası mübadilə yolu ilə Mesopotamiyaya daxil olan bu sərvətin keçdiyi marşrut üzərində – Azərbaycanın cənubunda Aratta kimi güclü siyasi birliyin yaranması[1] buranın sakinlərinə olan əvvəlki siyasi orientasiyanı dəyişmək zərurətini doğurdu. «Enmerkar və Aratta hökmdarı» dastanında iqtisadi-siyasi münasibətlər bədii ifadə vasitələri ilə yarımifoloji səpgidə təsvir olunub. Dastanın məzmunundan göründüyü kimi ilkin mərhələdə danışıqlar birtərəfli mövqedən, yalnız Uruk hökmdarı Enmerkarın təşəbbüsü ilə aparılırdı. Ermerkarın qasidi (şumercə *kingia*) bir neçə dəfə hökmdarının tələbini Aratta hökmdarına şifahi yetirir, əvəzində isə hər dəfə fərqli tapmacalarla geri qayıdır. Sonuncu dəfə qasidin tapşırığı yadda saxlaya bilməyəcəyini nəzərə alan Ermerkar tələblərini gil lövhəyə yazaraq göndərir.

Diqqəti cəlb edən məqam odur ki, Aratta hökmdarının davranışında tarixdə ilk dəfə münaqişələrin dinc yolla həll etmək təşəbbüsü ilə qarşılaşırıq. Enmerkarın ultimativ tələblərini təmkinlə qarşılayan Aratta hökmdarı ölkəsi üçün səmərəli görünməyən danışıqlardan yayınmağa çalışırdı. Enmerkar vədinə əməl edərək Arattaya taxıl göndərir, əvəzində isə Aratta hökmdarının adekvat

* Allahverdi Nüsü oğlu Əlimirzəyev – AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun elmi işçisi

addım ataraq Uruka lazım olan təbii sərvətləri çatdıracağına ümid edir. Dastanın sonu zədələndiyindən iki şəhər-dövlət arasındakı diplomatik manevrlərin aqibəti naməlum qalır [9, 191-220].

«Enmerkar və Ensuhkeşdanna» (və ya «Uruk və Aratta») adlı digər bir eposda diplomatik münasibətlərin maraqlı detalları üzə çıxır. Mal mübadiləsi ilə bağlı münaqişəni diplomatik yolla çözmək üçün Aratta hökmdarı ardıcıl olaraq üç vasitədən istifadə edir. Öncə Uruka «məktub» göndərilir. Enmerkar yazılı lövhəni diqqətlə oxuyub məzmunu ilə tanış olur və cavabında Arattanı müharibə ilə hədələyir. Atacağı növbəti addım üçün Aratta hökmdarı Ensuhkeşdanna[2] «kahinlər məclisinə» müraciət edir, lakin məclis üzvləri məsələnin həllini onun öz öhdəsinə buraxırlar. Sonda Aratta hökmdarı əslən Hamazi şəhərindən olan Urgirnunna adlı cadugərə (şumercə *maš-maš*) müraciət edir. Enmerkarı fikrindən çəkindirmək üçün edəcəyi ovsun və tilsimə görə cadugərə 5 mina qızıl və 5 mina gümüş verilir.[3] Lakin cadugəri Urukda öldürüb meyitini Fərat çayına atırlar.[4] Bundan qorxuya düşən Ensuhkeşdanna növbəti nümayəndəsini Uruka göndərir və Enmerkarın böyüklüyünü tanıdığını bildirir [7, 171-181].

E.ə. XXII əsrin əvvəllərində Azərbaycanın cənub torpaqlarında, Urmiya gölü hövzəsində məskunlaşan quti və lullubi tayfa birliklərinin hərbi dəstələri Mesopotamiyanın cənubunda baş verən siyasi hadisələrə müdaxilə edərək Şumerin zəngin şəhərlərinə sahib olmaq üçün cənuba yürüşə başlayırlar. Akkad cari Şarkalışarrinin bir neçə döyüşdə qələbəsi Şumer şəhərlərini qutilərin istilasından xilas edə bilmədi. Quti çarı Enridapizirin (və ya Elulu) orduları təxminən e.ə. 2159-cü ildə Şumerin şimal şəhərlərini zəbt edərək Akkad sülaləsinin hakimiyyətinə son qoyurlar [6, 121-124]. Yarım əsr ərzində qutilər Şumer şəhərlərinin iqtisadi idarəçiliyini yerli sülalələrin nümayəndələrinə həvalə edərək illik xəracın toplanması ilə kifayətlənmişlər. Vergilərin yığılması və yerli idarəçilik sisteminə nəzarət Quti elçiləri (şumercə *sukkal*) vasitəsi ilə həyata keçirilirdi. İraqın Tello şəhərindən tapılan ərzaq ödənişlərinə dair hesabatların birində Laqaş şəhərinə ezam olunmuş Quti elçisinə «keyfiyyətli» yağ (şumercə *ia nun*) verilməsi barədə qeyd var [15, p.20 №9].

E.ə. 2109-cu ildə Uruk şəhərinin sakinləri Utuheqalın rəhbərliyi ilə qutilərin əsarətinə son qoymaq üçün üsyan qaldırırlar. Hərbi əməliyyatların şumerlilərin üstünlüyü ilə keçdiyini görən Quti hökmdarı Tirikan konflikti diplomatik yolla həll etmək qərarına gəlir. Bu səbəbdən iki nümayəndəsini – Ur-Ninazu[5] və Nabi-Enlili[6] Utuhegal ilə danışıqlara göndərir.[7] Danışıqlar uğursuzluqla nəticələnir. Uruk qoşunları döyüşdə qalib gəlib qutilərin hakimiyyətinə son qoyurlar.

Ötən əsrin ortalarında Danimarka arxeoloqlarının İraqın Raniyə şəhərindən 8 km cənub-şərqdəki Tel-Şemşara (qədim Şuşarra şəhəri) qəsəbəsində apardıq-

ları qazıntılar zamanı Qədim Aşşur dövrünə aid (e.ə. XIX-XVIII yüzilliklər) xeyli sayda gil lövhələr aşkara çıxarılmışdır. Bu lövhələrdə Urmiya gölü hövzəsində baş verən hərbi-siyasi hadisələrə Aşşur hakim dairələrinin münasibəti və bölgədə məskunlaşan tayfaların – qutilərin, turukkuların və lullubilərin qarşılıqlı əlaqələri əks olunub.

Bu lövhələrdə yerli hakimlərin bir-biri ilə yazışmaları, eləcədə yerlərdəki canişinlərin, xəfiyyələrin və elçilərin Aşşur hökmdarını məlumatlandıran məktubları əks olunub. Məktublar diplomatik səpgilidir və Aşşur dövlətinin nəzarəti altında olan Urmiyaətrafı ərazilərin inzibati-idarə mərkəzinin – Şuşarranın hakimi Kuvariyə (və ya Kuvatal) ünvanlanıb. Akkad dilinin qədim aşşur dialektində yazılan bu məktublarda quti, lullubi və turukku elçilərinin[8] Aşşur dövləti üçün təhlükəli görünən hadisələr barədə lokanik məlumatları və alacaqları müvafiq təlimatlar yer tutur.

Bir məktubda qutilərin hökmdarının elçilərinin göndərilən taxılı müşayiət edən 200 döyüşçü ilə Kiçik Zab çayını keçdikləri bildirilir [12, №42]. Digər bir məktubda lullubilərin qasidinin taxıl almaq üçün Şuşarraya ezam olunduğu göstərilir [14, №812; 12, №63]. Qutilərin elçisi[9] Varad-Şarrum Şuşarra hakiminə göndərdiyi məktubda quti hərbi dəstələrinin bu şəhəri istila etmək niyyətində olmadıqlarını xəbər verir [12, №16]. O zaman qutilərin hökmdarı olan İnduşşenin (və ya Endaşşe) elçisi Varad-Şarrum[10] digər lövhələrdə də xatırlanır. Məktubların birində Mutuşu adlı elçi digər bir elçinin xəstələndiyi xəbərini verir. Maraqlıdır ki, ona *hullum* adlı üzük verilməsi qeyd olunur; görünür belə üzüklər səfirlərin səlahiyyətli şəxs olduğunu göstərirdi [12, №11]. Bəzi hallarda turukku şəhər başçıları öz aralarında and içib saziş bağlamaq hüququna malik idilər [12, №1]. Daha bir məktubda elçi Sin-işme[11] quti hərbi dəstələrinin Kunşum şəhərini yağmaladığı xəbərini verir və lullubilərə arxalanaraq necə hərəkət edəcəklərinə dair təlimat alır [12, №36]. Digər bir məktubda turukkuların Şikşambim şəhərinə göndərdiyi elçilər şəhərin onlara təslim edilməsini tələb edirlər [12, №13]. Başqa bir məktubda yerli 3 elçi – Nipram, Kubiya və Ulam-taşni xatırlanır; onlar Aşşur hökmdarı I Şamşi-Adadla danışıqlarda iştirak etmişlər [14, №827; 12, №64].

E.ə. IX əsrin əvvəllərində Urmiya gölü hövzəsinə edilən hərbi yürüşlərlə əlaqədar Aşşur hərb xronikalarında paytaxtı İzirtu olan Manna dövləti barədə məlumatlar yer almağa başlayır. Bu Azərbaycan dövləti quti və lullubi tayfa ittifaqlarının Aşşur və Urartu işğallarına qarşı birgə mübarizə ehtiyacından meydana gəlmişdir. Dövlətin ərazi bütövlüyünün hərbi yolla müdafiəsi yetərli olmadığından diplomatik danışıqlara üstünlük verilirdi. Mənbələrdə Manna mərkəzi hakimiyyətinin qonşu dövlətlərlə birbaşa diplomatik münasibətlərinə dair məlumat yoxdur. Manna dövləti federativ quruluşlu olduğundan ehtimal ki, bu əlaqələr ayrı-

ayrı subyektlər (vilayət, şəhər və digər inzibati vahidliklər) tərəfindən fərdi qaydada qurulurdu. Bu tendensiya daha çox aşşurmeyilli İranzunun e.ə. 719-cu ildə ölümündən sonra vilayət başçılarının mərkəzi hakimiyyətə itaətsizliyi ilə kəskin hal alır. III Tiqlatpalasarın (e.ə. 745-727) və II Sarqonun (e.ə. 727-705) mütəmadi hərbi yürüşlərindən sonra Manna vilayətlərində Aşşur dövlətinin rəsmi nümayəndələri fəaliyyət göstərməyə başlayır. Vilayət başçıları elçilər vasitəsi ilə onları ərazilərində baş verən hadisələrlə məlumatlandırırdılar. Məsələn, naməlum bir şəxsin II Sarqona ünvanladığı bir məktubunda Zigirtu vilayətinin elçisi Sabduşupa[12] və onu müşayiət edən Qikii adlı tərcüməçi[13] xatırlanır. Mətn fraqmentar olduğundan danışıqların məzmunu qaranlıq qalır [13, №865].

Şahzadə Sinaxxeribin atası II Sarqona göndərdiyi məktubda «mannalıların elçisi» xatırlanır. O, Sinaxxeribə at gətirmiş, əvəzində isə qırmızı rəngli libas və gümüş qolbaqla mükafatlandırılmışdır [1, №60].

Rəsmi məktublarda qeydə alınan mannalı elçilərin bəziləri akkad mənşəli adlar daşıyırdılar. Məsələn, Aşşur-bel-usur[14] II Sarqona ünvanladığı məktubunda Bit-Kapsi vilayətində yaranan narazılığı aradan qaldırmaq üçün danışıqlara üç nümayəndə göndərilməsinin vacibliyinə toxunur [1, №51].

Mannanın şimal-şərq vilayətlərinin urartumeyilli başçıları Aşşur cəbhəsindən gözlənilən təhlükənin qarşısını almaq üçün elçilər vasitəsi ilə tədbirlər görürdülər. Məsələn, Allabriya vilayətinin canişini Bel-iddinanın məktubunda Andiya və Zigirtu elçilərinin Uayais şəhərinə gələrək urartululara Aşşur qoşunlarının hücumu ilə bağlı məlumat yaymaları bildirilir [1, №59].

E.ə. VII əsrin I rübündə Ön Asiyanın siyasi xəritəsində yeni qüvvələrin fəallaşması nəticəsində Azərbaycan tarixi üçün də əhəmiyyətli olan hadisələr baş verir. Qafqazdan kimmer və skif tayfalarının axını Manna və Madada Aşşur dövlətinə qarşı üsyanların baş qaldırmasına rəvac verir. Aşşur hökmdarı Aşşurahaiddin (e.ə. 681-669) Mannanın şimalında çarlıqlarını yaratmış skiflərin loyallığını əldə etmək üçün diplomatik danışıqlar vasitəsi ilə qızını skif hökmdarı Partatuaya ərə verir. Skiflərin İşpakanın başçılıq etdiyi digər qrupu isə Mannada möhkəmlənərək orada və qonşu Hubuşkiyada Aşşur əleyhinə mövqe tutan qüvvələrə yardım edirdi. Qüvvələr nisbətinin Aşşur dövləti əleyhinə olduğunu nəzərə alan bəzi Manna və Mada şəhər başçıları Aşşurahaiddinə vergi ödəməkdən imtina edərək geniş cəbhə boyu üsyan qaldırırlar. Bu üsyanlar haqqında Aşşur dövlətinin rəsmi sənədlərində heç bir məlumat yoxdur. Üsyanın gedişi və aparıcı qüvvələri haqqında yeganə mənbə Babil falabaxanlarının Günəş tanrısı Şamaşa ünvanlanmış sorğularıdır. İlk vaxtlar vergi toplamağa gələn Aşşur hərbi dəstələrinə hücum edən üsyançılar sonralar Harhar, Kişesu kimi aşşurmeyilli əyalətləri ələ keçirməyə çalışırlar [17, №№ 64-73]. Aşşurahaiddin üsyanı hərbi

yolla deyil, diplomatik vasitələrlə həll etməyə çalışırdı. İlkin mərhələdə o, Karzitali, Nahşimarta, Zamua və Siqris şəhər başçılarını Neynəvaya dəvət edərək onlarla vassal şərtlər altında müqavilə bağlayır [18, 2-28, Plates IX-XII]. Lakin Mada üsyanının rəhbəri Kaştariti ilə diplomatik səviyyədə əlaqə qurmaq cəhdləri uğursuzluqla nəticələnir [17, №№ 56, 57]. Kaştariti məktubla müraciət edərək «Maday şəhər başçısı» Mamitiarşunu və Saparda şəhərinin rəhbəri Dusannini Aşşur əleyhinə üsyana qatılmağa razı sala bilir [17, №№ 41, 45, 50, 51, 64].

Sorğu fraqmentlərinin birində Quti ölkəsinin səfirinin xatırlandığı ehtimal edilir [11, 105]. Mannuki-Ninua adlı bir rəsminin Neynəvaya yolladığı məktubda bildirilir ki, madaylı elçilər Zabqaqa şəhərinin əsirlikdə olan keçmiş başçısının yenidən əvvəlki vəzifəsinə qaytarılması ilə əlaqədar onunla müqavilə bağlamışlar [1, № 53].

E.ə. 550-ci ildə Mada dövlətinin süqutundan sonra Azərbaycanın cənub torpaqları Əhəmənilər imperiyasının inzibati-ərazi bölgüsünə daxil edilir. Yalnız e.ə. 330-cu ildə Makedoniyalı İskəndərin qalibiyyətli yürüşündən sonra bu torpaqlar Əhəmənilərin işğalından azad olur və burada məskunlaşan tayfaların yeni dövlət qurması üçün əlverişli imkan yaranır. Madanın sabiq vilayət başçısı Atropat uğurlu siyasət və qohumluq əlaqələri yaratmaq istiqamətindəki taktiki gedişlər sayəsində makedoniyalıların rəğbətini qazanaraq müstəqil dövlətini qurmağa nail olur. Strabon tarixi zərurətdən yaranan bu dövlətin hörmət əlaməti olaraq onun banisinin şərəfinə «Atropatena» adlandığını qeyd edir [Strabo. XI, 13, 1]. Sonralar bu Azərbaycan dövləti dəfələrlə hərbi münaqişələrə cəlb olunsa da Roma imperiyasının və Parfiya çarlığının hakim dairələri ilə aparılan danışıqlarda Atropatın varisləri uzun müddət ölkənin ərazi bütövlüyünü qoruya bilmişlər. Antik müəlliflərdən Polibinin məlumatlarına görə Selevk hökmdarı III Antioxun e.ə. 220-ci ildə Atropatenaya hücumu zamanı çar Artabaz onunla sülh müqaviləsi bağlamaqla ölkəsini dağıntıdan qoruya bilmişdir [Polybi. IX. 27, 34].

E.ə. 65-ci ildə Roma sərkərdəsi Qney Pompey Pont çarlığının hökmdarı VI Mitridatı təqib edərək Azərbaycanın Arazdan şimaldakı tarixi torpaqlarına –Albaniya çarlığının ərazisinə daxil olur. Alban qoşunları Oroys və Kosis qardaşlarının rəhbərliyi ilə Pompeyin orduları ilə döyüşə atılır. Lakin hərbi əməliyyatların uğursuzluğu albanların çarı Oroysu danışıqlar aparmağa vadar edir. Pompey alban elçisi ilə sülh bağlayaraq hərbi yürüşün istiqamətini iberlərə qarşı yönəldir [5, 132].

Atropatena çarları diplomatik nikahlara üstünlük verir və Parfiya, Suriya, Ermənistan çarları ilə qohumluq əlaqələri qururdular [Strabo. XI, 13]. Plutarxın məlumatlarından aydın olur ki, Artavazdın göndərdiyi elçilər sayəsində Atropatena dövləti Mark Antoninin timsalında Roma kimi güclü müttəfiq qazana bil-

mişdir [Plut., Antony, 50]. Artavazd – Antoni ittifaqı Parfiya çarı Fraata qarşı yönəlmişdir. Artavazd qızını Mark Antoninin oğlu Aleksandra verməklə bu ittifaqı qohumluq əlaqələri ilə daha sıx bağlamışdır. Hər iki müttəfiq Ermənistana qalib gəldikdən sonra e.ə. 32-ci ildə dostluq müqaviləsini təzələmişdir.

Digər antik yazarların da əsərlərində Atropatena-Roma diplomatik əlaqələrinə dair maraqlı məlumatlara təsadüf olunur. Belə ki, «İmperator Avqustun əməlləri» əsərində oxuyuruq: «Bizim dostluğumuza səfirləri vasitəsi ilə skiflər, sarmatlar, alban və Midiya çarları nail olmağa çalışırdılar». Yenə orada deyilir: «Midiyalı Ariobarzan səfirləri vasitəsi ilə məndən hökmdarlıq qazanıb» [5, 119]. Başqa bir qaynaqda bildirilir ki, «Midiya hökmdarının səfirlərinə Pompey dostluq mesajı göndərmişdir» [5, 133]. Şübhə yoxdur ki, bu əsərlərdə «Midiya» deyərkən antik yazarlar bəzən «Kiçik Midiya» adlandırdıqları Azərbaycan Atropatena dövlətini (və ya Midiya Atropatenası) nəzərdə tuturdular.

Göründüyü kimi, gil kitabələrin və antik yazarların məlumatları birmənalı şəkildə dövlətçilik ənənələrimizin qədim və zəngin tarixini göstərməklə yanaşı, siyasi liderlərin fəaliyyətində diplomatik münasibətlərin qurulmasına və münaqişələrin dinc yolla həllinə üstünlük verildiyinə işarə edir.

**QEYDLƏR**

1. Arattanın lokalizasiyası barədə Dünya tarixşünaslığında mövcud fikirlərə dair ətraflı məlumat üçün bax: [3;4]. Bədəxşandan Mesopotamiyaya gedən ticarət yolu üstündə yerləşdiyindən Aratta şəhər-dövləti bu marşrut üzrə daşınan qiymətli metallar və mineralların idxalına nəzarətə sahib idi. Şumer ədəbi ənənəsinə görə Cənubi Mesopotamiya şəhərlərini Aratta ilə birləşdirən yollardan biri şimal-şərq istiqamətində Elamdan, digəri isə şimal istiqamətində müasir Süleymaniyyədən şimal-şərqdəki Lullubi ölkəsindən keçirdi [2, 24, 42, 156].
2. Adın yazıldığı mixi işarələr En-suh-kuš-sir-an-na, En-muš-keš-da-an-na kimi də oxuna bilər.
3. Çəki ölçü vahidi MİNA 505 qrama bərabər idi. Bu hesabla cadugər 2 kq 525 qr qızıl və bir o qədər də gümüş almışdır.
4. Burada biz tarixdə ilk dəfə olaraq diplomatik nümayəndəyə edilən sui-qəsdlə qarşılaşırıq.
5. Ur-Ninazu şumermənşəli isimdir, hərfən: «Tanrı Ninazunun köpəyi».
6. Nabi-Enlil akkadmənşəlli (şərqi sami) isimdir, hərfən: «Enlil tanrımdır».
7. «Utuheqalın hekayəsi» adlı eposda Tirikanın elçiləri «canişin» (şumercə *gır-nita*) adlandırılıblar [1, №6; 16]. İ.M.Dyakonov hesab edir ki, onlar Tirikanın qoşunlarına komandanlıq edirdilər [8, 246]. Lakin hekayənin bizə çatan variantlarında onların hər hansı qoşunla əlaqəsi göstərilməyib. Digər tərəfdən, qutilər üçün belə bir məsuliyyətli məqamda Tirikanın ordunu yerli canişinlərə həvalə etməsi çox riskli bir qərar ola bilərdi. Zənnimizcə onlar şumer və akkadmənşəli isimlər daşıyan qutimənşəli elçilər olmuşlar.
8. Məktublarda «elçi» akkad termini *šipru* ilə ifadə olunub. Akkadca *šipru* (və ya *šaparu*) «göndəriş», «məlumat yollamaq» sözü müasir azərbaycan dilində «səfir» formasında işlənir.
9. Mətndə: *dumu ši-ip-ri ša qu-ti-i* «quti səfirinin oğlu».

10. Varad-Şarrum akkadmənşəli isimdir, hərfən: «Hökmdarın qulu».
11. Sin-işme akkadmənşəli isimdir, hərfən: «Tanrı Sin eşitdi».
12. Şa-ab-du-šu-pa ismi yerli mənşəlidir. Adın yazıldığı mixi işarələri Adakupa kimi də oxuyurlar [1, № 49].
13. Mətndə Gi-ki-i LÚ. tar-gu-ma-nu ša KUR man-nu-a-a: «Qikii – dilmanc, hansı ki, mannalıdır». Dilimizdə işlənən «tərcüman» sözü akkadmənşəlidir.
14. Aşşur-bel-usur akkadmənşəli isimdir, hərfən: «Tanrı Aşşur ağamı qorusun».
15. Zamua Mannada, digər şəhərlər isə Madada yerləşirdi. Bu şəhərlərin başçıları – Bur-Dadi, Humbareş, Larkutla, Hatarna lullubi-quti mənşəli isimlər daşıyırdılar.
16. Kar-Kaşşi şəhərinin başçısı Kaştariti Herodotun «Tarix» əsərindəki Midiya (=Mada) çarı Fraortla eyniləşdirilir [10, 35, 50, 157-162].

## MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT


1. Qədim Azərbaycan tarixi mixi yazılı mənbələrdə (Tərtib və tərcümə edəni, ön sözün və şərhlərin müəllifi S.Qaşqay). Bakı, 2006.
2. Əlimirzəyev A. Elam cəmiyyəti: siyasi-iqtisadi münasibətlər və yazı tarixi (e.ə. IV- III minilliklər). Bakı, 2011.
3. Yusifov Y. Qədim Azərbaycan tarixinin tarixşünaslığı. I // Tarix və onun problemləri, 1996, № 1, 236-245.
4. Yusifov Y.Qədim Azərbaycan tarixinin tarixşünaslığı. II // Tarix və onun problemləri, 1997, №2, 118-131.
5. Алиев К. Древнегреческие и латинские первоисточники по истории древнего Азербайджана (С примерами нового толкования), Баку, 2010.
6. Алимирзоев А. Борьба царей Кутиума за власть (К новой интерпретации старых источников)// Азербайджан и азербайджанцы, 2011, №1-2, 119-128.
7. Афанасьева В.К. От начала начал. Антология шумерской поэзии. Санкт-Петербург, 1997.
8. Дьяконов И.М. Общественный и государственный строй древнего Двуречья. Шумер. Москва, 1959.
9. Медведская И.Н. Древний Иран накануне империй (IX-VI вв. до н.э.). История Мидийского царства. Санкт-Петербург, 2010.
10. Канева И.Т. Шумерский героический эпос. Энмеркар и верховный жрец Аратты // Вестник Древней Истории, 1964, №4, с.191-225.
11. Diakonoff I.M. Media/ The Cambridge History of Iran. Vol.2 London-New York, 1985, 36-148.
12. Eidem J., Lossoe J. The Shemshara Archives.1. The Letters. Kobenhavn, 2001.
13. Johns C.H.W. Assyrian Deeds and Documents, Vol. II. Cambridge, 1901.
14. Lossoe J. The Shemshàra Tablets. A preliminary report. Kobenhavn, 1959.
15. Pinches T.G. The Amherst tablets. I.Texts of the period extending and including the reign of Bursin. London, 1908.
16. Sauren H. Der Feldzug Utuhengals von Uruk gegen Tirigan und das Siedlungsgebiet der Gutäer // Révue d'Assyriologie, T.56, 1967, №1, 75-79.
17. Starr I. Queries to the Sungod. State Archives of Assyria. Helsinki, 1990.
18. Wiseman D.J. The Vassal-Treaties of Esarhaddon // Iraq, vol.XX, 1958, 2-91.

**А.Н. Алимирзоев**

**ИЗ ИСТОРИИ АЗЕРБАЙДЖАНСКОЙ ДИПЛОМАТИИ ДО НАЧАЛА НАШЕЙ ЭРЫ**

**РЕЗЮМЕ**

История азербайджанской дипломатии столь же древняя как и история самой государственности. В период расцвета племенных союзов и ранних государственных образований в политической жизни насельников южной части исторического Азербайджана дипломатические сношения с соседями имели важное значение. По сообщению шумерских эпосов, в конце XXVIII в. до н.э. на южных землях исторического Азербайджана, между современными городами Сенендедж и Зенджан, функционировала созданная шумерийцами торговая колония (или перевалочный пункт) по поставке ценных металлов и минералов Аратта. Правитель Аратты через своих гонцов вёл переговоры с главой шумерского города-государства Урук Энмеркаром.

Судя по поздним текстам кутии и туруккийцы – обитатели Приурмии для решения конфликтных ситуаций часто отправляли своих гонцов к правителям Двуречья, а Маннейские уполномоченные письменными посланиями информировали ассирийцев и урартийцев о происходившихся важных событиях. Дипломаты в большинстве носили аккадские имена. По сведениям античных писателей, цари Атропатены через своих послов вели переговоры с правителями Римской империи и Парфии.

**A.N. Alimirzayev**

**FROM HISTORY OF THE AZERBAIJAN DIPLOMACY PRIOR TO THE BEGINNING OUR ERA**

**SUMMARY**

History of the Azerbaijan diplomacy so ancient as history of the statehood. In blossoming of the breeding unions and early state formations in a political life a southern part of historical Azerbaijan diplomatic the intercourse with neighbours had great value. According to Sumer eposes in the end of XXVIII century BC on the southern earths of historical Azerbaijan, between the modern cities of Senendedzh and Zenjan, the trading colony (or a reloading point) on delivery of valuable metals and minerals Аратта functioned created shumers. Governor Aratty through the messengers carried on negotiations with Anmerkars, the head of the Sumer city-state of Uruk.

Diplomats in the majority carried names. According to antique writers tsars Atropateny through the ambassadors carried on negotiations with governors of Roman empire and Parfes.

**t.ü.f.d. R.Məlikovun və t.ü.f.d. Ə.Əliyevanın müsbət rəyləri əsasında çap olunur.**

# ДРЕВНЕЙШИЕ МИГРАЦИИ И ЭТНОНИМЫ АРМЯН

**Рауф МЕЛИКОВ***

В исторической науке доподлинно известно, что протоармяне переселились в Малую Азию с Балканского полуострова. Это подтверждается лингвистическими данными, в первую очередь, большим количеством греко-армянских лексических соответствий [23, 85-100; 24, 60-93; 18, 87-99; 7, 205; 12, 7-10]. С другой стороны, отсутствие чётких генетических связей между протоармянским и хетто-лувийскими языками сигнализирует, что греко-армянское диалектное единство не могло сложиться вблизи области обитания носителей хетто-лувийских языков, в частности на Анатолийском нагорье [9, 151; иного мнения придерживается Г.Б. Джаукян, см.: 7, 205]. Следует также отметить близость протоармянской фонетики к урартской [11, 43-44]. Из этого можно сделать вывод, что носители протоармянского языка расселились в приграничных с Урарту областях или на собственно урартской территории, где произошла их языковая ассимиляция с урартами. Причём восточнокавказский языковый субстрат оказал сильнейшее влияние на протоармянский язык, который утратил индоевропейские архаизмы. Следует также отметить, что ни один из топонимов и этнонимов Анатолийского нагорья, известных по источникам с конца III до начала I тыс. до н.э., не может быть отождествлён как протоармянский. Самые первые надписи с Анатолийского нагорья относятся к XIX в. до н.э. и написаны не на протоармянском, а на аккадском, несколько позже также на урартском, лувийском и хеттском языках.

Несмотря на эти бесспорные факты, некоторые армянские историки упорно пытаются доказать автохтонность армян на территории Малой Азии и Южного Кавказа. Отождествление языка древней страны Хайаса (на северо-востоке Малой Азии, в районе нынешнего Трабзона) с древнейшим армянским восходит к Г.А. Капанцяну, который выдвинул ныне уже устаревшую концепцию о “двуприродном” – смешанном характере армянского языка [17]. Вместе с гипотезой о смешанном характере армянского языка автоматически отпала и гипотеза возникновения армянского языка в Хайасе, так как вторая гипотеза базировалась на первой [5, 21; 9, 157, прим. 34]. По определению Г.Б. Джаукяна, хайасский язык – индоевропейский, но по своей фонологии вовсе не армянский и не близкий к нему [8].[1] Остаётся

---

Rauf Seyfulla oğlu Məlikov – t.ü.f.d., AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun böyük elmi işçisi

возможность заимствования армянского самоназвания hayk’ из топонима Ḫaiasa, хотя оно связано с лингвистическими трудностями. Однако, даже если это предположение верно, оно вовсе не доказывает, что протоармяне родственны хайасам [9, 158; см. также: 16, 146, прим. 1].

За время существования Хеттского царства (XVIII – начало XII вв. до н.э.) в многочисленных источниках не обнаруживается признаков этнических передвижений в сторону Анатолийского нагорья. Это означает, что протоармяне могли попасть туда лишь после падения Хеттской державы, т.е. не ранее XII в. до н.э. Верхним же рубежом появления протоармян в западной части бассейна озера Ван должен считаться VI в. до н.э., когда область Армина и арминии упоминаются в Бехистунской надписи.

52. Nagrodzka-Majchrzyk T. Czarni Kłoubucy. Warszawa: Wydawnictwa Geologiczne, 1985. – 177 s.
53. Spinei V. The Great Migrations in the East and South East of Europe from the Ninth to the Thirteenth Century –Cluj-Napoca: Romanian Cultural Institute – Istros Publishing House, 2003. — 546 p.
54. Spinei V. The Romanians and the Turkic nomads North of Danube Deltafrom tenth to the Mid-Thirteenth Century.— Leiden-Boston: Brill, 2009. — XVII, 545 p.
55. Stoyanow V. Kumans in Bulgarian history // The Turks. — Ankara: Yeni Türkiye Yayynlary , 2002. — Vol. I. — p. 680-692.

**Я. В.Пилипчук**

## ОГУЗО-КЫПЧАКСКИЕ ОТНОШЕНИЯ В XI-XIII В.

## РЕЗЮМЕ

В данной статье проанализованы отношения кыпчаков с огузскими племенами в XI-XIII вв. Отношения огузов с кыпчаками не имели характер постоянной конфронтации. Многое зависело от личных симпатий, родственных связей и отношений между кочевыми вождями огузского и кыпчакского происхождения. Отношения кыпчаков с огузами не были такими идиллическими, как это себе представляли поздние тюркские хронисты. Кыпчакско-огузские противоречия были урегулированы с прекращением активной конфронтации кыпчаков с Русью. ''Черные Клобуки'' были в первую очередь вспомагательными войсками на службе у Рюриковичей. Похожие функции исполняли огузы в Византийской Империи и Волжской Булгарии. Противоречия ''Черных Клобуков'' с кыпчаками имели не этническую, а политическую и экономическую подоплеку. Огузские вожди, которые перешли на службу к Руси, хотели сберечь свою политическую власть, чего было невозможно достичь в Дешт-и Кыпчак, где доминировала кыпчакская аристократия. Кыпчаки во время набегов на Русь, первым делом угоняли стада именно ''Черных Клобуков'', опустошали их города и брали в плен их людей. Походы ''Черных Клобуков'' или служили ответом на такие действия кыпчаков или сами преследовали цель обагатиться за счет кыпчаков.

**Y.V.Pylypchuk**

**OGHUZ-KIPCHAK RELATIONSHIPS IN XI-XIII CENTURY**

**SUMMARY**

This paper is dedicated to the relations of Qipchaqs with Oghuzian tribes in XI-XIII centuries. Relations of Oghuzs with Kipchaks were not a constant confrontation, much depended on personal sympathies, family ties and relationships between leaders of the nomadic Oghuzs and Qipchaqs. Relations of Qipchaqs with Oghuzs were not as idyllic as it is described in lete Turkic chroniclers. Oghuz-Qipchaq conflicts have been resolved by minimizing active confrontation of Qipchaqs with Russia. ''Czorni Klobuky'' were primarily auxiliary troops on the service of Rurikids. Similar functions were performed by Oghuzs in the Byzantine Empire and Volga Bulgaria. Confilcts of ''Czorni Klobuky'' and qipchaqs were not ethnic, but political and economic. Oghuzian leaders who went into the service of Rus, wanted to preserve their political power which it was impossible to achieve in the Dasht-i Qipchaq, which was dominated by the Qipchaqian aristocracy. During raids on Rus Qipchaqs in the first place took herds that belonged to ''Czorni Klobuky'', devastated their cities, and captured their people. Quests of ''Czorni Klobuky'' were a response to such actions or had a purpose to enrich themselves at the expense of Qipchaqs.

**Açar sözlər**: şəhər, qıpçaq, türk, oğuz, tayfa
**Ключевые слова**: город, кыпчак, тюрок, огуз, племя
**Key words**: a city, qipchaq, turк, oghuz, a tribe

# XV ƏSRDƏ AVROPA-ASİYA TİCARƏT ƏLAQƏLƏRİ

**Yeganə GÖZƏLOVA*** 
ygezalova@gmail.com

XIV əsrin ikinci yarısından başlayaraq Avrasiya məkanında çox sabit, inkişaf üçün ciddi təkanverici xassəsi olan hadisələr bir-birini əvəz edir: bunlar ilk növbədə demoqrafik, ekoloji, texnoloji-təsərrüfat, ictimai və beynəlxalq siyasi dəyişikliklər idi. Bu dəyişiklikləri və onların başlıca yekunlarını izləməyə çalışaq.

Hər bir cəmiyyətin aparıcı məhsuldar qüvvəsi – insandır, ona görə də hər yüzillik üçün demoqrafik göstəricilər vacib meyardır. Amma konkret olaraq XIV-XV əsrlərin hüdudu üçün demoqrafik göstəriciləri nə səbəbdən izləyirik? Məsələnin mahiyyəti ondadır ki, bu dövrdə Avrasiya kardinal dəyişikliyin ortasında durmuşdu: feodalizm rus (sovet) tarixçilərinin dediyi "yüksəliş/pik həddində idi", Qərb tarixçilərinə görə isə, "ölümqabağı aqoniya" yaşayırdı. Birincilər feodalizmin bundan sonra daha iki əsr də davam edəcəyini, ikincilər isə bitdiyini təkid edir. Biz bu fikirdəyik ki, XIV-XV əsrlər istənilən halda böyük bir dövrün ərəfəsi idi: tarixçilər bunu nə cür adlandırırlarsa, adlandırsınlar.

Odur ki, bu keçid dövrünün hər məqamı, o cümlədən demoqrafik və ekoloji xüsusiyyətləri bizim təhlillərimiz üçün gərəklidir.

XIV-XV əsrlərin hüdudunda Avrasiyanın demoqrafik durumunun aşağıdakı səciyyəvi əlamətləri nəzərə çarpır:

1) demoqrafik proseslər nisbətən düz xətli olmuşdur, çünki müharibə amilinin aparıcı olmasına baxmayaraq, yoluxucu xəstəliklər və aclıq kimi ölüm amilləri artıq nəhəng, ümumqitə miqyası daşımırdı;

2) bütün orta əsrlər boyu Avrasiyada ən aşağı əhali artımı məhz bu iki əsrə təsadüf edir (1, s.81; 4, s.64, cədvəl III.i). Əsas səbəb ondadır ki, xaç yürüşləri, monqol istilaları, «qara ölüm» və kütləvi aclıq illəri XIII-XIV əsrlərlə hüdudlansa da, təsirini uzun müddətə saxlamışdı – çünki XIV-XV əsrlərin hüdudunda demoqrafik proseslər, o cümlədən əhali artımı heç də sıçrayışlı olmamışdır;

3) Avrasiyada urbanizasiya sürətləndiyindən, kənd əhalisinin sayı kəskin azalmağa başlamışdı. Nəticədə kəndlərdə işçi qüvvəsinə böyük ehtiyac yaranırdı, şəhərlər isə əhali sıxlığından əziyyət çəkirdilər.

Bu sonuncu ilə bağlı Qərb tarixçiləri XIV-XV əsrlərin hüdudlarında Avropada "aqrar böhran"ın baş verdiyini (V.Abel), ümumi "təsərrüfat depressiyası"nın getdiyini (M.Postan) hesab edirlər (bax: 18, 270). Birinci fikir həqiqətə uyğundur, amma ümumi "təsərrüfat depressiyası" fikri ilə heç cür razılaşmaq

---

* Yeganə Hafiz qızı Gözəlova – t.ü.f.d. Bakı Dövlət Universiteti Tarix fakültəsinin dosenti

olmur, çünki urbanizasiya ən azından şəhər təsərrüfatının yüksəlişi, ticarət, sənətkarlıq və iaşə xidməti sahələrində rəqabətin artması sayəsində təsərrüfatın inkişafı ilə müşayiət olunmuşdur. "Depressiya"ya uğrayan feodalizm idi, ümumilikdə təsərrüfat yox.

Orta əsrlərdə demoqrafik duruma və demək ki, məhsuldar qüvvələrə təsir edən təbii-coğrafi mühit də XIV-XV əsrlərdə vacib amil olaraq qalırdı. Əgər orta əsrlərin başlanğıcında ekologiya böyük bir dəyişikliyə uğramış, flora və fauna öz müxtəlifliyi və zənginliyi ilə əsasən saxlanmışdısa, bunu XIV-XV əsrlər üçün demək çətindir. Əvvəla, orta əsrlərin ilk dövrlərində ekstensiv təsərrüfat sayəsində insan fəaliyyəti Avrasiyanın təbii-coğrafi balansına ciddi təsir etməmişdi. İkincisi, V-XIII əsrlər boyu materikdə iqlim şəraiti əsasən dəyizməz qalmışdı (22; 18, s.513). Amma XIV əsrdə iqlimin soyuması müşayiət edilir, üstəlik, zaman keçdikcə, insan təbii ehtiyatları mənimsəmək üçün yeni yollar tapır, hətta süni landşaft yaradırdı. Təbii ehtiyatların vəhşicəsinə istismarı, dağ-mədən sənayesinin təkmilləşmiş formalarının ortaya çıxması (elə götürək, "gümüş böhranı"ndan sonra Avrasiyanın ucsuz-bucaqsız çöllərində qızıl və gümüş hasilatının intensivləşməsi) torpağın eroziyasına səbəb olur və onun məhsuldarlığını azaldır, təbii ehtiyatları tükədirdi. Odur ki, XIV-XV əsrlərin hüdudunda Avrasiyanın ekoloji durumu ağırlaşmışdı: meşələr ixtisar olmuş, münbit torpaqlar kəskin şəkildə azalmış, bir çox çaylar qurumuş, flora və fauna kasadlaşmışdı. Orta əsr ticarətinin və istehsalının bağlı olduğu mədənlər artıq bir neçə əsr müddətində istismar edildiyindən, hasilat çox aşağı düşmüşdü. Ən acınacaqlısı isə o idi ki, cəmiyyət vəziyyətdən çıxış yolunu əkinçilik, maldarlıq və dağ-mədən sənayesini intensivləşdirməkdə görürdü, bu da öz növbəsində "qapalı dairə" effekti yaradırdı.

Məlumdur ki, orta əsrlərdə istehsal texnologiyasının təkmilləşməsi prosesi xeyli zəif getmişdir. Nəzərdən keçirdiyimiz əvvəlki iki göstərici ilə müqayisədə XIV-XV əsrlərin texnoloji göstəriciləri elə də fərqli deyil. Daha doğrusu, xaç yürüşləri və monqol hakimiyyəti dövründə Şərqlə yaxından tanışlıqları sayəsində, Qərbi Avropa ölkələrində texnoloji-təsərrüfat yenilikləri oldu, amma Asiya bunları xeyli əvvəl yaşamışdı və indi ətalətli durumda idi. Ona görə də müxəlif mexanizmlərin istehsala tətbiqi, əmək alətlərinin təkmilləşməsi, bir çox sahədə ixtiralar ümumi Avrasiya məkanı üçün böyük bir tərəqi sayıla bilməz: bunları Avrasiyanın bir hissəsi daha tez – VII-XII əsrlərdə yaşamışdı və indi böhranda idi, digəri isə hələ indi yaşayırdı.

Texnoloji-təsərrüfat sahəsində təkamül nə qədər zəif getsə də, cəmiyyətin ictimai əsaslarına ən cüzi dəyişiklik də təsir edirdi. Məsələn, mexanizmlərin tətbiq olunduğu sənətkarlıq sahələrində əməyin təşkilinin yeni formaları yaranma-

ğa başlamışdı: Misirdə, Suriyada, daha sonra İtaliyada, İngiltərədə erkən manufakuralar (toxuculuq sahəsində), payçılıq əsasında təşkil olunan qardaşlıqlar (kitab çapı), artellər (tikinti) buna nümunə ola bilər. İndi bu müəssisələrdə muzdlu əməkdən geniş istifadə olunurdu.

Baş verən dəyişikliklərdən biri də əhalinin peşəkar differensiasiyası idi, hansı ki, orta əsrlər üçün elə də səciyyəvi olmamışdır.

Ən böyük ictimai dəyişiklik isə Avrasiya miqyasında texnologiyanın və istehsalın universallaşmağa başlaması idi.

Danışdığımız dövrdə beynəlxalq durum da artıq orta əsr səciyyəsini itirməyə başlamışdı. Bu, ilk növbədə Qərbi Avropada mərkəzləşmiş dövlətlərin yaranması (hansılar ki, növbəti yüzilliklərdə milli dövlətlərə çevriləcək), Avropa-Asiya əlaqələrinin artıq pərakəndə deyil, nizamlı şəkil alması ilə bağıl idi. XIII əsrin sonu – XIV əsrdə beynəlxalq münasibətlərə ciddi təsir edən bir neçə amil və səciyyəvi cəhətləri saymaq olar:

1) Avropanın iqtisadi yüksəlişinin başlanması ilə əlaqədar beynəlxalq ticarət münaqişələrinin ortaya çıxması;

2) Monqol yürüşlərindən və istilalarından sonra Avrasiyanın ucqarları arasında ticarət, mədəni, siyasi əlaqələrin bərpası və genişlənməsi;

3) Osmanlı fəthlərinin başlanması ilə Avropada koalisiyalar yaratmaq cəhdlərinin artması, xaç yürüşlərinin bərpası;

4) Universalçı xarici siyasət cəhdlərinin saxlanması (papalar, alman imperatorları, Bizans vasilevsləri, monqol xanları, məmlük, bir qədər sonra Osmanlı sultanları tərəfindən);

5) Beynəlxalq hüququn bəzi elementlərinin (müharibə hüququ, dəniz hüququ) yaranması;

6) Konsulluq xidmətinin inkişafı və onunla sıx bağlı olan «protokapitulyasiyalar»ın verilməsi;

7) Nəhayət, Atlantik uğrunda mübarizənin başlaması – ilk müstəmləkələrin yaranması (İstanbulun osmanlılar tərəfindən fəthinədək).

Diqqət yetirsək, bu hadisələrin əksəriyyətinin beynəlxalq ticarətlə bağlı olduğunu görərik. Beynəlxalq vəziyyəti xarakterizə etməzdən əvvəl demoqrafik, ekoloji, texnoloji və ictimai durumu izləməyimiz təsadüfi deyil. Avrasiyanın XIV-XV əsrlərin hüdudunda yaşadığı demokrafik sabitlik (onun da ardınca əhali artımı), ekoloji balansının pozulması və təbiətin intensiv istismarı (onun da ardınca yeni təbii ehtiyat axtarışı və mübarizəsi), texnoloji yenilikləri mənimsəmələr (onun da ardınca Avropanın texnoloji baxımdan Asiyanı üstələməsi), ictimai və professional təbəqələşmə (onun da ardınca kapitalist münasibətlərinin rüşeymlərinin qoyulması) hökmən nəhəng bir "püskürmə" ilə nəticələnməli idi.

Bəşəriyyətin əbədi mübarizə obyekti – təbii ehtiyatlarin ələ keçirilib bölüşdürülməsi qanunauyğun olaraq beynəlxalq ticarətdə hegemonluq uğrunda mübarizəsini doğururdu. XIV-XV əsrlərin beynəlxalq siyasi münasibətlərini müəyyən edən aparıcı də elə bu idi!

İndi isə beynəlxalq ticarət məntəqələrindəki vəziyyətə nəzər yetirək.

*Aralıq dənizi ticarəti.* XV əsrin əvvəllərində Atlantika uğrunda mübarizə artıq başlamış olsa da, italyanların ticarət inhisarının davam etdiyi Aralıq dənizi beynəlxalq ticarətin başlıca mərkəzi olaraq qalırdı. Hərçənd ki, bəzi tarixçilər bu dövrdə Aralıq dənizi ticarətin hegemonunun Venesiya olduğu fikri ilə razılaşmırlar. Məsələn, Avstraliya tarixçisi Con H.Prayor italyanların XII-XIII əsrlərdən etibarən bu su hövzəsindəki ticarət fəaliyyəti haqqında mənbələrin məlumatlarına ehtiyatla yanaşmağı tövsiyə edir (11, s.139-163). Onun hesabınca, Aralıq dənizi ticarətdə Məğrib əmirlikləri və Misir məmlük sultanlığının, hətta Bizansın üstün mövqeyi XV əsrdə belə saxlanmışdı. Amma Con H.Prayor bu fikrini isbatlamaq üçün dolayı faktlar gətirir: Avropa korsarlarının Aralıq dənizində tez-tez müsəlman gəmilərini ələ keçirməsi, Məğrib sultanlarının Qərbi Aralıq dənizi adalarına hərbi ekspedisiyalar göndərməsi, avropalıların müsəlman gəmilərində üzməsi və s. (11, s.146, 147, 149). Amma Venesiyanın Aralıq dənizi ticarətdə üstünlüyü ələ keçirməsi ilə bağlı R.S.Lopes, A.R.Lyuis, E.Astor, K.Kaen kimi araşdırıcıların qətiyyətli fikirləri orta əsr mənbələrinin birbaşa məlumatlarına əsaslanır, üstəlik, bu mənbələrin içərisində müsəlman müəllifləri də az deyil. Məsələn, İbn Xəldun Aralıq dənizində müsəlman dənizçiliyinin artıq XIV əsrdə çökdüyünü açıq-aydın yazır: "... Sonra hakimiyyətdə olan sülalənin zəifliyi səbəbindən, müsəlmanların [Aralıq] dənızındəki gücü bir daha çökdü. Məğribdə hakim olan güclü bədəvi davranışının təsirilə və Əndəlus təcrübəsi davam etdirilmədiyindən, dənizlə bağlı təcrübə unuduldu. Xristianlar əvvəlki, dənizçi bacarıqlarını [yenidən] qazandılar, [Aralıq dənizindəki] fəaliyyətlərini və oradakı qaydalara uyğun bacarıqları yenilədilər. Digərilərindən fərqli olaraq gəmiçilikdəki üstünlüklərini yenə göstərdilər. Müsəlmanlar Aralıq dənizinə yad olmağa başladıla " (10, s.46).

Con H.Prayorun arqumentlərinə gəlincə, əslində bu tarixçinin mənbələrdən gətirdiyi məlumatların doğruluğuna heç bir şübhə yoxdur, problem sadəcə bu məlumatların interpretasiyasındakı fərqdədir. Əgər biz XIV-XV əsrlərdə Aralıq dənızı ticarətdə avropalıların üstün olduqlarını deyiriksə, bu o demək deyil ki, İslam dünyası və ya Bizans Aralıq dənizi ticarətdən tamamilə uzaqlaşmışdı. Əlbəttə ki, bu dövrdə avropalı korsarların ən çox hücum çəkib ələ keçirdikləri gəmilər müsəlman gəmiləri idi (11, s. 147). Amma bu fakt özü artıq müsəlman gəmiçiliyinin zəifliyindən xəbər verir. Yaxud Con H.Prayonun arqument olaraq

Fes sultanı I Əbu-l-Həsən Əli Merikinin hələ 1338-ci ildə Balear adalarına donanma göndərməsi faktı: VIII əsrin əvvəllərində müsəlmanlar tərəfindən alınmış bu adalar sonrakı yüzilliklərdə əldən-ələ keçmişdi və nəhayət, XIII əsrdə Araqonun hakimiyyəti altına düşmüşdü. Merikilər nəinki köhnə mülklərini geri qaytarmaq iqtidarında deyildilər, üstəlik, o qədər zəifləmişdilər ki, XV əsrin əvvəllərində Kastiliyanın, Araqonun və Portuqaliyanın müstəmləkə ekspansiyasına məruz qalmışdılar (bax: aşağı).

Nəhayət, Con H. Prayerin digər arqumenti, yəni avropalıların müsəlman gəmilərində üzməsi faktı (11, s.151-152) da sübut edir ki, italyanlar, ələlxüsus venesiyalılar XIV-XV əsrlərın hüdudunda Aralıq dənizi ticarətində elə bir durum yaratmışdılar ki, kastiliyalı, flamand və ya ingilis taciri yunan və müsəlman gəmisindən istifadə etməyi daha əlverişli hesab etmişdi. Beləliklə, XIV-XV əsrlərin hüdudunda Venesiya Aralıq dənizi ticarətin aparıcı təşkilatçısı idi: Hellespontdan Kritə qədər dəniz suları onun əlində olmaqla yanaşı, iqtisadi əlaqələrin əsas obyektləri də respublikaya məxsus idi.

Venesiyanın başlıca bazarları Misir, Kipr, Suriyanın sahilboyu şəhərləri, Qara və Azov dənizlərinin limanları idi. Respublikanın İsgəndəriyyədə, Tirdə, Akkada, Konstantinopolda, Tanada, Nikopolda, Adrianopolda ticarət kontorları fəaliyyət göstərirdi. Bundan əlavə, Venesiya Avropanın idxalat bazarlarını da ələ keçirə bilmişdi: hər il respublika təkcə Lombardiyaya 250.000 dukatlıq pambıq, 240.000 dukatlıq yun, 250.000 dukatlıq ipək parça, 100.000 dukatlıq xaş-xaş, 300.000 dukatlıq istiot, 64.000 dukatlıq darçın, 95.000 dukatlıq şəkər ixrac edirdi (16, s.151). Bu dövrdə Venesiya bütün İtaliyanı və qonşu ölkələri duzla təmin edirdi. Venesiyalı tacirin illik gəliri orta hesabla 600.000 - 2 mln. dukat arası idi (16, s. 152).

Cəbəllütariqdən keçib şimala istiqamət götürən Venesiya eskadraları Antverpen, Brügge və Londonadək mal aparırdılar, geri dönərkən isə Lissabona, Kadisə, Barselonaya və Fransa limanlarına yan alırdılar.

Venesiyanın bu ticari qüdrəti onun diplomatik və hərbi gücü ilə qorunurdu. XV əsrin ortalarına doğru Venesiya Respublikası sözün əsl mənasında, müstəmləkə imperiyasına çevrilmişdi: Balkan yarımadasının Adriatik sahilləri, İoniya adaları, Moreya və Korinf körfəzi sahilləri, Krit və Evbeya kimi strateji əhəmiyyətli vacib adalar, Qara və Azov dənizlərindəki ticarət koloniyaları onun əlində idi (14, s.117-118; 12, s.68). XV əsrin birinci yarısı boyu apardığı müharibələr nəticəsində Paduya, Ravenna, Verona, Trevizo, Viçenso, Breşiya, Berqamo, Feltre, Belluno, Krema və Fruli Venesiyanın hakimiyyəti altına keçmişdi (12, s.68). Ümumilikdə, respublikanın mülklərinin sahəsi 9 mln. ha təşkil edirdi (23, s.11).

Venesiya bu mülklərini və ticarət maraqlarını qorumaq üçün 350 hərbi, 600-dən çox ticarət gəmisindən iabarət donanmaya sahib idi (20, s.346, 23, s.20 və s.). Venesiya diplomatiyası isə antikliyin və Şərqin ən yaxşı siyasi ənənələrini çulğaşdırıb özünəməxsus nəhəng bir məktəb qurmuşdu. Senat başda olmaqla Venesiya diplomatları respublikanın xarici siyasətini böyük ustalıqla nizamlayırdılar və məqsəd naminə hər cür vasitəni məqbul sayırlar.

*Qara dəniz ticarəti.* Aralıq dənizində Venesiyanın qüdrətini xeyli endirməyi bacarmayan Genuya Qara dənizdə ona rəqib çıxa bilmişdi. Kaffa (Feodosiya) bu ticarətin cəmləndiyi başlıca mərkəz idi. Genuyanın əsas müştəriləri isə İspaniya, Cənubi Fransa və Cənubi Almaniya idi. Korsika və Sardiniya Genuyanın əlinə keçəndən sonra İspaniya ilə münasibətlər xeyli genişlənmişdi: Barselona, Sevilya, Valensiya genuyalı tacirlərə böyük imtiyazlar vermişdi. Maraqlıdır ki, Cənubi Fransa limanları, o cümlədən Marsel də Şərqlə birbaşa deyil, Genuyanın vasitəçiliyi ilə ticarət saxlayırdı, çünki onun qədər nizamlı və möhkəm əlaqələri yox idi. Nəhayət, Almaniya üçün Genuya bir neçə baxımdan vacib idi: liman kimi – alman tacirlərinə dənizlərə ən əlverişli çıxış olaraq; Şərq mallarının ixracatçısı kimi – Venesiya ilə əlaqə saxlaya bilməyən cənub - qərb torpaqları üçün vasitəçi olaraq və sənaye mərkəzi kimi – vacib fabrikatların istehsalçısı olaraq (16, s.156).

Başqa sözlə desək, Venesiya, Genuya, Milan, Piza və Florensiya başda olmaqla İtaliya şəhərləri Avropanın Şərqlə ticarətində vasitəçiliyi əllərinə almışdılar. Amma bu, digər ölkələrin beynəlxalq ticarətdən tam məhrum edilməsi anlamına gətirməməlidir. Məsələn, Cənubi Fransa şəhərləri – Marsel, Narbonna, Monpelye, Bordo xaç yürüşlərindən bu yana beynəlxalq ticarətdə fəal rol oynayırdılar və ən azından Fransadaxili ticarətdə Venesiyanın və Genuyanın inhisarçılığına imkan vermirdilər. Pireney şəhərlərinin XV əsrin əvvəllərinə doğru Avropada – Venesiyada, Genuyada, Pizada, Bolonyada, Parisdə, Londonda ticarət kontorları fəaliyyət göstərirdi. Barselona, Valensiya, Sevilya, Burqos, Bilbao, San-Sebastyan beynəlxalq ticarət mərkəzləri olaraq məşhur idilər.

*Şimal ticarəti.* Əgər əvvəlki iki ticarət məntəqəsi Şərq ticarəti və Şərq istehsalı ilə bağlıdırsa, Şimal ticarətini tam mənada bu sıraya qoymaq doğru olmaz. Burada ticarətin geniş miqyas alması, beynəlxalq əhəmiyyət kəsb etməsi daha çox yerli sənayeyə bağlı olmuşdur. Dəqiqləşdirsək, Şimal ticarətinin XV əsrdə (əslində XVIII əsrədək) əsas faktının yun istehsalı olduğunu deməliyik. Bu ticarətin də aparıcı rollarını İngiltərə, Frandriya, Hanza və Novqorod paylaşırdı. İngilislər bu ticarətə qatılanda "Şimal Venesiyası" şöhrətini qazanmış Brügge əlverişli mövqeyi sayəsində artıq yun ticarətinin mərkəzi idi, Hanza isə Baltik bölgəsinin əsl sahibəsi idi və Brügge – Novqorod xətti onun ticarətinin əsas arteriyası idi. Amma İngiltərə bu rəqabətdə özünü itirmədi. XIV əsrin ikinci yarısın-

dan etibarən İngiltərənin mahud istehsalı elə bir səviyyəyə gəlib çıxır ki, artıq xarici ixracat üçün işləməyə başlayır. Flamandlar Hanza tacirlərinin indi ingilis mahudunu aldıqlarını çox böyük narahatlıq və bəzi əks tədbirlərlə qarşılaşa da, XV əsrin əvvəllərinə doğru mahudçuluğun mərkəzləri olan İpern, Brügge, Gent arxa plana keçir. İngilislər bütün maneələrə, əvvəlki mahud inhisarçılarının düşmənçiliyinə baxmayaraq, hər yerə nüfuz etməyə başlamışdılar. İngilis ticarətinin yüksəlişi və rəqabətə dözümlülüyü həm sənayenin, həm ticarətin yeni tələblərə tez uyğunlaşması ilə izah oluna bilər.

Hanzanın İngiltərə qarşısında mövqe itirməsinə gəlincə (doğrudur, bu, XV əsrin əvvəlləri başa çatacaq), şübhəsiz, kapitalistcəsinə qurulmağa başlayan ingilis sənayesi və ticarəti ilə o, uzun müddət rəqabət apara bilməyəcəkdi. Üstəlik, Fransadan və İngiltərədən fərqli olaraq, Almaniyada sənayenin və ticarətin milliliyi yox idi: Hanza əksəriyyət etibarilə Almaniya şəhərlərini birləşdirsə də, milli alman təşkilatı deyildi və bəzən hətta Almaniyaya ziyanlı siyasət yeridirdi. Bu amil də Şimal ticarətində İngiltərəni ondan irəli apara bilmişdi.

Nəhayət, Moskva dövlətinə gəlincə, İngiltərə ilə onun Şimalda ticarət rəqabəti xeyli sonrakı dövrə - XVI əsrin ikinci yarısına aiddir. XIV-XV əsrlərin hüdüdunda isə Novqorod Hanzanın əsas şərq kontoru rolunu oynamaqla kifayətlənirdi və ingilislərlə rəqabətdən söhbət belə gedə bilməzdi.

*Xəzər dənizi ticarət.* 1395-ci ildə Həştərxanın Teymur tərəfindən ələ keçirib dağıdılması Xəzər dənizi ticarət üçün kifayət qədər böyük zərbə olmuşdu. Üstəlik, Teymurilərin Qızıl Orda ilə düşmənçilik münasibətləri Volqa – Xəzər magistralı vasitəsilə aparılan Avropa – Asiya ticarətini çətinləşdirmişdi. Amma Teymurun vəfatından sonra Həştərxan – Bakı əlaqələri yenidən dirçəlmiş, XV əsrin birinci yarısı Xəzər dənizi ticarət yenə tacirlərin fəaliyyət meydanına çevrilmişdi. Bu ticarət Avropa səyyahlarının və tacirlərinin (Klavixo, Zeno, Barbaro, Kontarini) nəzər-diqqətində qalmaqla yanaşı, monqol hakimiyyəti ilə mübarizədə yaranıb möhkəmlənən Moskva knyazlığının xarici siyasət orbitinə cəlb olunmağa başlamışdı. XV əsrin ortalarına doğru Moskva dövləti ilə Azərbaycan Şirvanşahlar dövləti arasında qurulan diplomatik və ticari ünsiyyət də bu ticarət bölgəsinin beynəlxalq əhəmiyyətinin artması ilə bağlı idi.

Moskvanı bura cəlb edən nə idi? Əvvəla, Moskva knyazlığının xeyli sərbəst hərəkət edə biləcəyi, ingilis rəqabətinin hələ ortaya çıxmadığı yeganə su hövzəsi Xəzər dənizi idi. İtalyanların hələ XIII – XIV əsrlərdə burada ticarət gəmilərinin üzməsi faktı yenicə dirçəlməyə başlayan Moskva dövləti üçün maneə deyildi: venesiyalılar və genuyalılar bu bölgəyə hələ ki, ticarət məntəqəsi olaraq yanaşırdılar, Xəzərin strateji hərbi-siyasi əhəmiyyəti məsələləri italyan diplomatiyasının fəaliyyət çərçivəsinə girməmişdi. İkincisi, Xilafət dövründə olduğu

kimi, XV əsrdə də Xəzəryanı yerli dövlətlərin, o cümlədən Şirvanşahların hərbi donanması yox idi. Bu, Xəzər dənizi hövzəsinə coğrafi baxımdan ən yaxın Rusiya üçün əlavə divident sayıla bilər. Nəhayət, Dərbənd və Bakı kimi limanlar rus dövləti üçün (XV əsrdə hələ ki, rus tacirləri üçün) yaxın perspektivdə həm də İran körfəzinə və Hind okeanına çıxış idi.

*İran körfəzi və Hind okeanı ticarəti.* İran körfəzi ticarətdə Təbrizin rolunun artmasının 1400-cü ildə Bağdadın Teymur tərəfindən alınması ilə bağlı olduğu fikri tarixşünaslıqda hakimdir (bax: 12, s.56). Amma Təbriz hələ XIII-XIV əsrlərdə İran körfəzi ticarətdə fəal rol oynamışdır. Təbriz Ərzurumdan, Ərdəbildən, Urfadan, Mosuldan, Marağadan və Qəzvindən gələn yolların tranzit qovşağı idi. Hülakilərin uzun müddət paytaxtı olmuş Təbriz 1250-ci illərdən artıq Bağdada rəqib kimi çıxış edirdi. Ona görə də Teymur Bağdadı ələ keçirəndə, Təbriz üçün İran körfəzi ticarətdə aparıcı mövqe tutmaq çətin olmadı!

Təbriz – Trapezund/Trabzon və Təbriz – Bursa ticarət xəttləri Konstantinopolun osmanlılar tərəfindən fəthindən əvvəl də strateji əhəmiyyət kəsb etmişdi. Hörmüz – Şiraz – Rey xətti məhz Təbrizin vasitəsilə İran körfəzini Qara dənizlə əlaqələndirirdi. Avropa malları da çox zaman Trapezund/Trabzon – Təbriz xətti ilə Şərq ölkələrinə ixrac olunurdu. Həştərxanın və Bağdadın süqutundan sonra Təbriz – Trapezund/Trabzon marşrutunun əhəmiyyəti bir az da artmış oldu (12, s.59).

Təbrizdən Bursaya iki istiqamətdə getmək olurdu: Təbriz – Diyarbəkr – Mərdin – Məraş – Qeysəriyyə – Ankara – Eskişəhir – Bursa və ya Təbriz – Ərzurum – Ərzincan – Toqqat – Amasya – Ankara – Bursa (6, s.128-129). 1326-cı ildən etibarən osmanlıların əlində (1326-1362-ci illərdə paytaxt) olan Bursa Aralıq dənizi hövzəsinin ən əhəmiyyətli ipək ticarəti mərkəzi idi (9, s.51). Başqa sözlə desək, Təbriz – Trapezund/Trabzon İran körfəzini Qara dənizlə, Təbriz – Bursa isə İran körfəzini Aralıq dənizi ilə əlaqələndirən vacib arteriyalar idi.

İran körfəzi ticarətini Hind okeanı olmadan təsvir etmək mümkün deyil. XV əsrin birinci yarısında hər iki su hövzəsini əlaqələndirən başlıca məntəqə - Hörmüz idi. Hörmüzdən Daybula, oradan Kalikuta (indiki Kojikoda) dəniz yolları istiqamət götürürdü. Hörmüzün yüksəlişinin başlaması XIII-XIV əsrlərin hadisəsi idi. XV əsrin birinci yarısında avropalıların Atlantikaya marağı artsa da, Hind okeanı bölgələrə gedən ənənəvi yollar təhlükəsiz və yoxlanılmış idi. Afrikanı üzüb keçmək, ya da Atlantikanı dövr etmək, hələ ki, gerçək görünmürdü. Ona görə də iddialı siyasətçilərdən və avantürist səyyahlardan fərqli olaraq, tacir öz pulunun, malının və canının dəyərini bilib İran körfəzi – Hind okeanı limanları ilə səyahət etməkdə idi.

*Atlantikada erkən müstəmləkə işğalları.* XIII əsrdə Rekonkistanı başa çatdıran Portuqaliya həm insan ehtiyatları, həm maddi ehtiyatlar baxımından kasıb

ölkə idi. Nə qədər ki, Əndəlus müsəlmanları ilə müharibələr davam edirdi, portuqal hökuməti (eləcə də yarımadanın digər xristian dövlətləri) iqtisadi və sosial problemləri ört-basdır edə bilirdi. Amma indi talan və qarət mənbəyi tükənmişdi. Üstəlik, Kastiliyanın və Araqonun hegemonluq iddiaları bir tək yarımada ilə kifayatlənmirdi. Portuqaliya üçün iki yol qalırdı: ya şərqə – Aralıq dənizi bölgəsinə istiqamət götürmək, hansı ki, italyanların inhisarı altında olduğundan, mümkünsüz idi, ya da cənub-qərbə – Atlantikaya, oradan da Hind okeanı bölgələrinə üz tutmaq.

Atlantikanın fəthi ilk baxışdan çox qorxunc və gerçəkləşməsi mümkün olmayacaq gələ bilərdi, amma 800 ilə yaxın müharibənin bitmək nə olduğunu bilməyən Pireney xristianları üçün bu avantüra xeyli cəlbedici və hətta əyləncəli görünürdü. Bu yolda ilk addım isə – Şimali Afrika idi. Hələ 1291-ci ildə Kastiliya və Araqon arasında Şimali Afrika ərazisinin bölüşdürülməsi haqqında razılaşma olmuşdu (24, s.9) və Portuqaliya bu bölgüdən kənarda qalmasından çox narazı idi. Kastiliyanın 1393-cü ildə Kanar adalarına hərbi ekspedisiya təşkil etməsi, 1400-cü ildə Mərakeşə yürüşü Lissabonu əməlli-başlı qayğılandırmışdı. Kastiliyanın bu fəallığı Portuqaliyanın Şimali Afrikadakı əlaqələrini və gələcək işğallarını sual altında qoyurdu. Ona görə də rəqibinin Qranada ilə mübarizəyə başının qarışmasından istifadə edib iri miqyaslı fəaliyyətə keçmək lazım idi.

Lissabonda işlənib hazırlanmış plan belə idi ki, Kastiliya Kanar adalarında möhkəmlənməmiş, Portuqaliya Şimali Afrikada platsdarm yaratmalı və bunun ardınca Atlantikada işğallara keçməlidir. Nəzərdə tutulmuş ekspansiya üçün ən uğurlu obyekt Mərakeş idi. Əvvəla, Mərakeş coğrafi baxımdan Portuqaliyaya yaxın idi. İkincisi, bu torpaqlar portuqallar üçün "yad" deyildi: bir neçə əsr boyu portuqal tacirləri Seutada, Tanjerdə, Sale və Sofidə gedən qızğın ticarətdə fəal iştirak etmişdilər. Portuqalların Mərakeşdə hərbi əməliyyat "təcrübələri" də var idi: XIV əsr boyu müsəlman gəmiləri Portuqaliyanın kral donanmasının dəniz yürüşlərindən (əslində bunlar korsar yürüşləri idi) əziyyət çəkmişdilər (24, s.8 ; 11, s. 147 və s.).

Portuqal kralı I Joanın geosiyasi hesablamaları diqqətləri gətirib Seuta (Səbtə) şəhərinin üzərində saxladı: coğrafi yerləşməsinə və ticarət əhəmiyyətinə görə birinci dərəcəli strateji əhəmiyyəti olan bu şəhərin təbii limanı var idi (Bakı kimi) və dar boğazda yerləşməsi onu yaxşı müdafiə olunan qalaya çevirmişdi.* Seutanı almaqla Portuqaliya Cəbəllüttariqi keçib Atlantik okeanına istiqamət götürən və ya əksinə, Atlantik okeanından Aralıq dənizinə girən gəmilərə tam

* Yada salmaq yerinə düşər ki, ərəb sərkərdəsi ət-Tariq 709-cu ildə onun adı ilə adlandırılacaq dağı məhz Seutadan çıxaraq fəth etmişdi.

nəzarət edə bilərdi, üstəlik, bundan sonra müsəlmanların naviqasiyası da çox ağır duruma düşərdi.

Seutanın ticarət əhəmiyyəti də böyük idi: bu şəhərdə nəinki müsəlman ölkələrinin tacirləri, həm də Kastiliya, Cenevrə, İngiltərə, flamand, eləcə də portuqal tacirləri toplaşırdı. Başqa sözlə desək, Seuta "Portuqaliyanın Atlantika və Hind okeanı sahillərində cidd-cəhdlə yaratdığı nəhəng iqtisadi imperiyanın tərkib hissəsi" idi (17, s.239).

Seutanın işğalı planı dəqiqliklə işlənmişdi və buna 6 il sərf olunmuşdu. 1415-ci il iyulun 25-də portuqal armadası* yürüşə başladı. Avqustun 12-də Seutaya edilən ilk hücum uğursuz oldu və portuqallar geri çəkildi. Avqustun 20-də ikinci hücum baş tutdu və portuqallar qələbə qazandılar. Hadisələrin şahidlərinin xəbərlərinə istinadən O.Martinş yazır: "Şəhərin talanı dəhşətli bir görüntü idi. Hindistanla ticarətin mərkəzi olan Seuta Venesiyadan və Lissabondan üstün idi. Seutanın küçələri yarmarkanı xatırladırdı. Arbaletli əsgərlər, Traj-uş Montiş və Beyra dağlarından gəlmiş kənd uşaqları məhv etdikləri şeylərin heç dəyərini belə anlamırdılar ... öz barbarlıqlarında boğulan bu adamlar yalnız qızıl və gümüş axtarırdılar ... Bütün gecəni Seuta küçələrində anaların və uşaqların ahu-zarı və naləsi eşidilirdi" (13, s.133).

İşğalın səhəri günü kral I Joan əshabəsi Pedru de Menezişi Seutanın kapitanı və qubernatoru təyin etdi və 2500 nəfərlik qarnizonu onun ixtiyarına verdi (24, s. 14). Beləliklə, avropalıların qitədən kənarda ilk müstəmləkəsi yarandı, *Avropa dövlətlərinin müstəmləkə ekspansiyası başladı.*

Qərb tarixşünaslığı 1453-cü ildə Konstantinopolun osmanlılar tərəfindən fəthinin Avropa ticarətinə böyük zərbə vurduğunu, bu səbəbdən də, avropalıların "məcbur" olub Hindistana qərb yolu axtarışına çıxdığını cidd-cəhdlə sübut etməyə çalışır və bu cəhdlərində kifayət qədər uğur da qazanmışdır: əksər tarix dərsliklərində durum elə bu yöndə də izah olunur. Amma faktlar bunun doğru olmadığını göstərir. Konstantinopolun fəthindən 162 il əvvəl – 1291-ci ildə iki Avropa dövləti – Kastiliya və Araqon Şimali Afrikanı bölüşdürmək haqqında razılaşma bağlamışdılar (bax: yuxarı), fəthdən 38 il əvvəl isə bu formallıq gerçəkləşmişdi: bir Avropa dövlətinin Afrikada müstəmləkəsi yaranmışdı.** Bu iki faktın sadəcə təsadüf olduğunu düşünmək olardı, əgər bunun ardınca yeni ekspansiya yürüşləri olmasaydı.

1434-cü ildə portuqallar Madeyra, Kanar və Azor adalarını keçərək Afrikanın qərb sahili boyu ilə cənuba istiqamət götürdülər və Qvineyanı, Yaşıl Burun adalarını ələ keçirdilər. 1435-ci ildə isə Portuqaliya hökuməti Kanar adalarına

* Mənbələrin məlumatlarına görə, armada 200-dən çox gəmidən ibarət idi (bax: 24, s.12).

** Faciəli haldır ki, Seuta – Avropanın bu ilk müstəmləkəsi indi də bu statusda qalmaqdadır.

mülkiyyət hüququnun Roma papası IV Yevgeniy tərəfindən təsdiqlənməsinə nail oldu (24, s.17). Vəziyyətdən bərk narahat olan Kastiliya buna dərhal etirazını bildirdi və Bazileyada keçirilən yığıncaqda Cəbəllütariqin hər iki sahilinə iddiasını elan etdi. Papa 1435-ci il bullasını ləğv etməyə məcbur oldu.

Portuqaliya Kastiliyanı qabaqlamaq və Afrikadakı "mülklər"ini qorumaq üçün yeni ekspansiyaya başlamaq qərarına gəldi. Bu dəfə hədəf Tanjer (Tanca) idi. Tanjerin tutulması portuqalların Afrikadakı işğallarını möhkəmləndirəcəkdi. 1437-ci ilin avqustunda ekspedisiya başladı, sentyabrda şəhərə hücum edildi. Lakin Seuta kampaniyasından fərqli olaraq, bu ekspedisiya portuqallar üçün uğursuz oldu: Mərakeş hakimi Əbu Zəkəriyyə Yəhya əl-Həttasi şəhərin müdafiəsini yaxşı təşkil etmişdi və müsəlman ordusu portuqallardan qat-qat üstün idi (13, s.175).

Bu məğlubiyyət Portuqaliyanın müstəmləkə iddialarına heç bir xələl gətirmədi, üstəlik, Portuqaliya öz rəqibinin – Kastiliyanın fəallığından ehtiyatlanıb digər işğallarını "legitimləşdirmək" qərarına gəldi. 1454-cü ildə Roma papası V Nikolay Portuqaliyanın Bahador burnundan Hindistana qədər (cənub və şərq istiqamətlərində) torpaqlara sahib olma hüququnu tanıdı. Buununla da müstəmləkəçilik tarixinin yeni mərhələsi – "rəsmiləşmə" mərhələsi başladı.

*Konstantinopolun osmanlılar tərəfindən fəthi və Aralıq dənizi ticarəti.* Pireneyin xristian dövlətlərinin cidd-cəhdlə dünyanı "bölüşdürdüyü", Avropanın digər dövlətlərinin isə Şərqlə vasitəçisiz (oxu: italyanların vasitəçiliyi olmadan) əlaqələr arzuladığı bir zamanda – həm Avropanın, həm Asiyanın təkcə ilk yüzilliklər üçün deyil, Yeni Dövr üçün də təsiri keçərli sayılan, Şərqi Aralıq dənizi ticarəti üçün isə kardinal dəyişiklik yaradan bir hadisə baş verdi: 29 May 1453-cü ildə Kostantinopol Osmanlı türkləri tərəfindən fəth edildi.

Dünya tarixi üçün böyük bir əhəmiyyəti olan bu hadisənin bütün yekunlarını izləmək niyyətimiz yoxdur, yalnız Aralıq dənizi ticarəti üçün təhlil edəcəyik. Niyə ümumilikdə beynəlxalq ticarət üçün yox, məhz Aralıq dənizi ticarət üçün? Ona görə ki, Avropa – Asiya ticarət əlaqələrində XV əsrin ortalarına doğru baş verən dəyişikliklər və ya yeniliklər Osmanlı fəthləri ilə birbaşa bağlı deyildi, onların kökü daha dərin proseslərə bağlı idi, hansılara ki, məqalənin əvvəlində nəzər yetirdik. Buna bənzər fikirləri biz Xilafət dövrü, Səlcuq və xaç yürüşləri, monqol istilaları barədə də deyə bilərik: xarici amil zahirdə olduğu üçün tez nəzərə çarpır və daxili səbəbləri gizlədir.

Osmanlı dövlətinin məhz Aralıq dənizi ticarətə təsiri isə şəkksizdir, çünki bu fəthlərin həmin bölgə ilə birbaşa əlaqəsi var idi. 1453-cü ildən sonra Aralıq dənizi ticarətdə baş verənlərin gedişinə nəzər salaq.

Osmanlı fəthi ərəfəsi Konstantinopolun vəziyyəti çox acınacaqlı idi. İmperator nəhəng maliyyə çətinlikləri ilə üzləşmişdi, qarşısını almaq üçün isə əvvəllər

ləğv edilmiş vergiləri bərpa etmişdi. Vəziyyət o yerə gəlib çatmışdı ki, nəinki qoşunu və donanmanı saxlamaq, imperatorun sarayını belə təchiz etmək imkansızlaşmışdı. Venesiyanın və Genuyanın ticarət hegemonluğu haldan düşmüş ölkəni dirçəltməyə ümid yeri belə qoymamışdı. Avropa Bizansı "iqtisadi baxımdan işğal etmişdi" (19, s. 100).

Tarixin bütün mərhələlərində olduğu kimi, Osmanlı fəthi ərəfəsində də Konstantinopol dini-siyasi təlatümlərlə çabalayırdı. Təsadüfi deyil ki, ruhani və siyasi elitanın əksər nümayəndələri fəth ərəfəsi həddən ziyadə təhlükədə olan paytaxtdan Pelopennesə köç etmişdi (19, s.94). Paytaxtda isə latınofillərlə osmanofillərin mənasız çəkişməsi davam edirdi. Hələ 1439-cu ildə Florensiya kilsə yığıncağında imperator VIII İohann və papa IV Yevgeniy pravoslav və katolik kilsələrinin uniyası haqqında saziş bağlasalar da, Konstantinopol bu sazişi tanımamışdı (18, s. 507, 542). Hər iki dünya – istər pravoslavlar, istər katoliklər üçün bu birləşmə gerçək bir şey sayılmırdı. Petrarkanın nümunəsində katoliklər düşünürdü ki, «türklər düşməndir, amma bidətçi yunanlar düşməndən də pisdir», yunanlara görə isə, «Konstantinopolda türklərin çalmalarını görmək latınların tiarasından daha yaxşıdır» (bax: 19, s. 101).

Nəhayət, Konstantinopolun beynəlxalq durumuna gələk: bir tərəfdən, italyanların, o cümlədən, papanın durmadan artan təzyiqləri, digər tərəfdən, onu əhatə edən serb təhlükəsi Avropanın digər iri dövlətlərinin – Fransanın, İngiltərənin, alman imperiyasının, Kastiliyanın, Araqonun və Portuqaliyanın tam laqeydliyi ilə çulğaşmışdı. Yeganə yardım cəhdi 1444-cü ildə Varna yaxınlığında macar kralı Vladislavın başçılığı ilə təşkil olunmuşdu ki, o da böyük uğursuzluqla başa çatmışdı (18, s. 507).

Beləliklə, Konstantinopolun Bizans imperiyasının paytaxtı kimi mövcudluğunun artıq heç bir anlamı, o cümlədən, Aralıq dənizi ticarətində italyanların hegemonluğunu dəyişdirəcək gücü qalmamışdı. Əhəmiyyəti olan osmanlı türkləri idi, hansılar ki, bütün XIV əsr boyu fəthləri sayəsində Venesiyanın əlindəki bütün yunan mülklərini alıb Aralıq dənizində yunanlar üçün bəla olan "latın ağalı"nı laxlatmışdılar.

Roma imperiyasından bu yana heç bir dövlət Aralıq dənizi hövzəsini tamamilə ələ keçirməyə nail ola bilməmişdi. Amma indi ortaya çıxmış Osmanlı dövləti tam bu iddiada idi: bir neçə onillik sonra belə perspektivin gerçəkləşməsinə maneə olacağına heç bir təminat yox idi* və Avropa yalnız 1453-cü ildən sonra bu gerçəyi başa düşmüşdü.

---

* Həqiqətən, cəmi 6 onillik sonra Osmanlı sultanı I Səlim Yavuzun (1512-1520-ci illər) fəthləri sayəsində bütün Şərqi Anadolu dənizi hövzəsi (həmçinin Qırmızı dəniz) Osmanlı imperiyasının hegemonluğu altına keçdi.

Konstantinopolun çökməsindən xəbər tutar-tutmaz Venesiya Senatı sultan II Mehmedin sarayına elçilik göndərdi, danışıqlar bir ilə yaxın çəkdi və 1454-cü il aprelin 18-də Venesiya Respublikası ilə Osmanlı dövləti arasında müqavilə bağlandı (7, s.164; 12, s. 99). Müqaviləyə görə, venesiyalılar Osmanlı bazarlarında sərbəst ticarət etmək hüququ qazanırdı və onlar üçün 2 %-lik gömrük müəyyən olunurdu. Beləliklə, vaxtilə (1082-ci ildən) Bizans hökümətindən alınan imtiyaz və güzəştlərin eynisini Osmanlı sultanı verirdi.

Yunan tarixçisi Dimitris Kitsikis imperator I Aleksey Komninin məşhur 1082-ci il Xrisovulu ilə Osmanlı sultanı II Mehmedin 1454-cü il imtiyazatı (kapitulyasiyası) arasında prinspial fərq olduğunu, birincinin Bizans tərəfindən məcburi, ikincinin isə Osmanlılar tərəfindən qüvvə mövqeyindən bağlandığını yazır (19, s.188). Buna bənzər fikirlərə bir çox tarixçinin əsərlərində rast gəlmək olar (bax: 9, s.52; 12, s.99-100 və b.). Amma vəziyyət göründüyü kimi bəsit deyil. Nə 1082-ci il xrisovulu, nə də 1454-cü il imtiyazatı fenomen hadisə olmamışdır: ikisi də (həmçinin onları yeniləyən növbəti müqavilələr) Konstinopolun/İstanbulun Venesiyaya vermiş olduğu ticarət güzəştidir və ardınca siyasi güzəştlərə bağlanır. I Alekseyi bu güzəştə məcbur edən amilin normann təhlükəsi olması ilə II Mehmedin antiosman blokunun potensial üzvü ola biləcək Venesiyanı neytrallaşdırması səbəbi arasında *prinsipial* fərq yoxdur. Osmanlılar da Komninlər kimi, italyan dövlətləri arasındakı ziddiyyətlərdən istifadə edib ya Venesiyaya, ya Pizaya, ya Florensiyaya ticarət imtiyazları verirdilər: bu yolla italyanların antiosman koalisiyasının qarşısı alınırdı.

Qeyd edək ki, bu cür taktikanın osmanlılar üçün təhlukəli məqamları da Bizans dönəmində olduğu qədər idi: hər dəfə imtiyazat alan dövlət əvvəlki dövlətdən daha artıq güzəştlərə nail olurdu. Yəni Osmanlı sultanları da Bizans imperatorlarının səhvlərini təkrarlayırdılar. Məsələn, Venesiyaya 1454-cü ildə kapitulyasiya hüququ verən Sultan II Mehmed bu respublika ilə müharibə (1463-1479-cu illər) ərəfəsində onun Aralıq dənizindəki güclü rəqibi Florensiya ilə yaxınlaşma xətti götürdü, 1460-cı ildə Florensiyaya (və Pizaya) daha geniş kapitulyasiya verildi (12, s.112), Florensiya isə Mehmeddən təkcə kapitulyasiyalar qoparmaqla kifayətlənmədi, eyni zamanda İstanbul limanında əlverişli mövqe əldə etmək uğrunda mübarizəyə başladı. Venesiya ilə münasibətləri kəskin həddə çatan Osmanlı imperiyası 1462-ci ildə Qalatadan venesiyalıları qovaraq oradakı italyan məhəllərində florensiyalıları yerləşdirdi (7, s.209; 12, s.112). Çox keçmədən, Osmanlı –Venesiya ticarət əlaqələrinin yerini Florensiya ilə əlaqələr tutdu.

Amma Venesiyanın Aralıq dənizi ticarəti üçün Florensiya göründüyü qədər təhlükə törətmirdi, çünki osmanlılarla müharibə bitər-bitməz (1479-cu il) Vene-

siya tacirləri yenə imtiyazlarını (bu dəfə daha artıq) bərpa etməyi bacardılar. Venesiya üçün daha qorxulu rəqib Osmanlı imperiyasının daxilində idi: burada tədricən ortaya çıxan yəhudi icması, xüsusilə İspaniyadan köç edən Sefardilər osmanlılar üçün daha sərfəli tacirlər idi. Yüzilliklər boyunca yəhudilər pərakəndə halda olsa belə, Aralıq dənizi hövzəsində ticarətdə iştirak edirdilər; məmlük, Bizans, Pireney hakimiyyətlərində qalan yəhudi icmaları indi tolerant türk idarəçiliyndə geniş imkanlar qazanaraq Selanikdə (Salonikdə), İstanbulda, Hələbdə, İsgəndəriyyədə yerləşməklə Venesiyanın Şərqi Aralıq dənizindəki üstünlüyü üçün həqiqətən böyük rəqabət yaratmağa başlamışdılar (ətraflı bax: 2, s.126; 3). Venesiyanın Aralıq dənizi ticarəti üçün yaranmış bu yəhudi rəqabəti həm də ona görə qorxulu idi ki, Osmanlı imperiyasına kütləvi şəkildə köç edən yəhudilər bu imperiyanın siyasi idarəçiliyinə də nüfuz etməyə başlamışdılar və deməli, Venesiya üçün Florensiyadan daha artıq təhlükəli idilər.*

Beləliklə, İstanbulun Osmanlı hakimiyyəti altına keçməsilə Aralıq dənizi ticarətdə aşağıdakı dəyişikliklər baş verdi:

– Şərqi Aralıq dənizi hövzəsi Osmanlı imperiyasının daxili gölünə çevrildiyindən, Venesiyanın bölgədəki inhisarçılığı bitdi;

– Şərqi Aralıq dənizindəki (həmçinin Egeydəki) adaların nəhayət ki, təhlükəsizliyi və sabitliyi bərqərar oldu və ticarət üçün daha əlverişli şərait yarandı;

– İstanbul yenidən Avropa – Asiya ünsiyyətinin mərkəzi rolunu geri qaytara bildi, şəhərin ticarət həyatına yunanlar, yəhudilər, ermənilər, slavyanlar təkrar qatıldı;

– Eyni zamanda Aralıq dənizi ticarəti uğrunda Venesiya – Piza, Venesiya – Florensiya, Venesiya – Genuya rəqabəti gücləndi. Bu mübarizəyə yeni qüvvələr, o cümlədən Osmanlı imperiyası daxilindəki diasporalar – yəhudi, yunan, erməni icmaları da qoşuldu;

– Aralıq dənizi ticarəti uğrunda mübarizənin kəskinləşdiyi şəraitdə İspaniya və Portuqaliya Hind okeanı ticarətinə meyl etməyə başladı; İngiltərə və Fransa kimi dövlətlər isə yaşadıqları daxili siyasi problemlər səbəbindən, müvəqqəti olaraq Aralıq dənizi ticarətdən uzaqlaşdılar.

*Beynəlxalq ticarətdə hegemonluq uğrunda müstəmləkə rəqabəti: Atlantikanın və Hind okeanının «bölüşdürülməsi».* 1453-cü ildən sonra Venesiya üçün ümid yeri, az da olsa, hələ saxlanmışdı. Florensiya tacirləri və İstanbuldakı yəhudi icması ilə mübarizə çətin olsa da, ara-sıra qələbələr mümkün idi. Amma Portuqaliyanın və İspaniyanın müstəmləkə işğalları ilə "Müqəddəs Mark Respublikası" nın Şərqlə ticarətdə inhisarına son qoyulması qətiləşdi.

* Eyni hal Genuya tacirləri üçün təhlükə yaradan erməni diasporunun cəmləndiyi Qara dəniz ticarətinə də xas idi. 1475-ci ildə Kafanın osmanlıların əlinə keçməsi ilə burada ermənilərin ticarəti üstünlük qazanır (7, s.215-216).

Üstəlik, baş verənlər təkcə bir Venesiyanın problemi olmadı: Aralıq dənizi ticarətlə bağlı olan bütün ölkələrin iqtisadi və siyasi həyatı dəyişdi, beynəlxalq ticarət və dünya iqtisadiyyatı öz inkişafının keyfiyyətcə yeni mərhələsinə girdi, müstəmləkələr uğrunda mübarizə başladı.

Beynəlxalq ticarətdə hegemonluq uğrunda mübarizənin müstəmləkə mərhələsinin ilk əvvəl Böyük Coğrafi Kəşflərin pionerləri olan Portuqaliya və İspaniya arasında başlaması təəccüblü deyil. Biz Atlantikada erkən müstəmləkə işğalları hesabına Portuqaliyanın öz qonşularını xeyli qabaqladığının şahidi olduq: 1454-cü ildə Roma papası bu ölkənin müstəmləkə işğallarını təsdiqləmişdi, 1479-cu ildə isə Kastiliya papa bullasını tanımağa məcbur olmuşdu (məşhur Alkasavas müqaviləsi ilə - 21, s.132). 1486-cı ildə isə Bartolomeo Diasın başçılığı ilə portuqal ekspedisiyasının Ümüd Burnunu kəşfi Portuqaliyanın müstəmləkə planlarını tam yerbəyer etdi: indi Hindistana dəniz marşrutu ilə getmək üçün sadəcə maliyyə lazım idi.

Beynəlxalq ticarətdə məstəmləkə rəqabətinin ikinci ciddi addımı 1492-ci ildə Xristofor Kolumbun başçılığı ilə ispan ekspedisiyasının Amerikanı (müasirləri üçün Hindistana qərb yolunu) kəşfi oldu. Bundan sonra Portuqaliya və İspaniya bir-birilərinin qatı düşmənlərinə çevrildilər. Belə çıxırdı ki, hər iki dövlətin Hindistana "hüququ" çatır: İspaniyanın ilkin kəşf hüququ var idi, Portuqaliya isə papa bullasına arxalanırdı. Orta əsr Avropası üçün təəccüblü olmayan cıxış yolu – bu məsələdə papanın arbitr seçilməsi oldu.

Xristofor Kolumbun Avropaya geri dönməsindən cəmi 2 ay sonra, 1493-cü il mayın 3-də papa VI Aleksandr Borcia Atlantikanın bölüşdürülməsi ilə bağlı "İnter cetera" (Yeri gəlmişkən)* adlı bullasını verdi. Bullaya görə, hər hansı bir xristian hökmdarına məxsus olmayan (!) "qərb torpaqlarının qarşısındakı və okeandakı bütün torpaqlar" ispan hökumətinə verilirdi (21, 132).

Növbəti gün, mayın 4-də papa, naməlum səbəblərdən, yeni bullasını imzaladı və ikinci "İnter cetera"da bəzi dəqiqləşdirmələr apardı: ispanlara "Azor və ya Yaşıl Burun adalarından 100 mil (liqa) qərbdən keçən xəttdən qərbə və cənuba" torpaqlar verilirdi.

Aydındır ki, bullalarda müəyyən olunmuş sərhədləri nə xəritədə, nə qlobusda cızmaq mümkün deyildi. Kosmoqraflar artıq o zaman yaxşı bilirdilər kı, Azor adaları Yaşıl Burun adalarından xeyli qərbdədir və onları eyni paraleldə yerləşdirmək olmaz. Amma buna baxmayaraq, məhz papa bullaları İspaniya – Portuqaliya diplomatik danışıqları üçün əsas oldu və danışıqlar 7 iyul 1494-cü ildə Tordesilyas müqaviləsinin imzalanması ilə başa çatdı.

---

* Bullanın ilk sözü ilə şərti olaraq belə adlandırılmışdır.

Şübhəsiz, Portuqaliyada artıq o zaman başa düşmüşdülər ki, Kolumb əsl Hindistanı kəşf etməyib; belə olmasaydı, portuqallar bütün Hindistanın ispanlara verilməsinə razı olmazdılar. Lissabon hökuməti tələb edirdi ki, demarkasiya xətti 270 liqa qərbə çəkilsin: görünür, Portuqaliya Afrikadakı dəniz yollarını (Bartolomeo Diaş bu zaman Umid Burnunu kəşf etmişdi) qorumağa çalışırdı. Məsələ burasındadır ki, Cənubi Afrikaya üzərkən yolda təklükəli cənub-şərq passat küləkləri ilə qarşılaşmamaq üçün hökmən qərbə istiqamət götürmək lazım idi və bu yolda portuqallar ispanlarla qarşılaşmaq istəmirdilər (21, s. 132-133). Ona görə də, Tordesilyas müqaviləsinə görə, Portuqaliya nüfuz dairəsi ilə İspaniya nüfuz dairəsi arasında ayırıcı sərhəd meridianı Yaşıl Burun adalarından 100 deyil, 370 liqa qərbə müəyyən edilirdi.*

Tordesilyas müqaviləsi tərtib olunarkən yenə də əvvəlki səhvə yol verilmişdi: 370 liqanın qərbə məhz hansı məntəqədən götürülməsi müəyyən olunmamışdı. Üstəlik, məsafə dəqiq göstərilsə də, indiyədək müqavilədə hansı liqanın nəzərdə tutulduğu da məlum deyil.** Nəhayət, başqa bir problem də onda idi ki, həmin dövrün kosmoqrafları üçün 370 liqanı dərəcələrə çevirib xəritəyə köçürmək mümkün deyildi, çünki Yer kürəsinin dəqiq ölçüləri məlum deyildi.

Əlbəttə, bu söylədiklərimiz coğrafiyaçılar üçün əhəmiyyətlidir, tarixi nöqteyi-nəzərdən isə məsələnin əsas məğzi dünyanın nüfuz dairələrinə bölünməsi idi. Elə bu bölgünü də əsas götürən portuqal hökuməti Hindistana Afrikanı üzüb keçməklə dəniz yollarını ələ keçirmək üçün siyasətini davam etdirdi. Vasko da Qamanın 1497-1498-ci illərdə həyata keçirdiyi hərbi ekspedisiya Hind okeanı bölgəsundə portuqalların 100 il davam etmiş müstəmləkəçiliyinin özülünü qoydu.

Portuqaliyanın ekspansiyası ərəfəsində Hind okeanı ticarətin səviyyəsinin yüksək olması heç bir şübhə doğurmur. Siyasi vəhdəti olmasa da, təsərrüfatı xarici ticarətin tələblərinə uyğun olan Hindistanın Malabar sahilləri çox məşhur idi: burada avropalı tacirin diqqətini cəlb edəcək ədviyyat və qiymətli daşlar (xüsusilə yaqut) yetərincə idi (15, s. 201; 24, s. 36-37). Malabarın ən çox ticarət etdiyi bölgələr isə İran körfəzi, Qırmızı dəniz sahili məntəqələr idi. Malabarda Kananor, Koulan, Kalikut, Koçin ən məşhur ticarət mərkəzləri olub bir-birilərilə rəqabət aparırdılar. Kananor darçın və zəncəfil, pambıq parça ixracatı üzrə ixtisaslaşmışdı, Kalikut isə əsasən istiot və ipək parça ixrac edirdi (5, s.18). Kalikut həm də Çinlə ticarəti inhisarlaşdırmağa çalışırdı, amma bu cəhdində ona rəqabət çıxaran Koulan da əhəmiyyətli şəhər idi. Koçin isə Kalikutun istiot

---

* Portuqaliya bu tələbi irəli sürərkən, hələ bilmirdi ki, bu müqavilə hesabına Amerika qitəsinin vacib bölgəsi olan Braziliya da onun olacaq (!).

** Ola bilsin, papa bullasına arxalanan bu müqavilədə söhbət Roma liqasından gedir (1 Roma liqası=5920 m).

ticarətindəki inhisarına imkan vermirdi: əvvəla, Koçinin əlverişli limanı Afrikanın şərq sahillərindən (əsasən ərəblərin faktoriyalarının çox olduğu Mozambikdən) və Maldiv adalarından gələn gəmilər üçün sərfəli idi. İkincisi, Koçində istiot plantasiyaları kifayət qədər olub Kalikutun inhisarçılığının qarşısını alırdı (24, s. 37-38). İstiotun daha bir ixracatçısı Koulan idi.

Amma bu sadaladığımız şəhərlər içərisində yenə də ən qüdrətlisi Kalikut idi. A.M.Xazanov Kalikutu Malabarın digər şəhərlərindən üstün edən bir neçə amili qeyd edir: gəmiçilik üçün əlverişli olan çayların sahilindəki Eli və Kranhanor kimi limanlarla qonşu olması; rəqibi Koulanın XV əsrin sonu darmadağın edilməsi; XIV əsrdən başlayaraq Misir məmlüklərinin şəhərdə mövqeyinin güclənməsi (24, s.38). Bu sonuncusu ən əhəmiyyətlisi idi: Kalikutda müsəlman ticarəti XV əsrdə o qədər güclənmişdi ki, Misir sultanları digər gəmilərin Qırmızı dənizə daxil olmasını qadağan etmişdilər (24, s.38, qeyd 1).

Kalikutda müsəlman ticarəti güclü olsa da, inhisarçı deyildi: burada yəhudilərin, indusların, çinlilərin də icmaları var idi. Yəhudilər və induslar (başlıca olaraq Koromandeldən olanlar) əsasən sələmçiliklə məşğul olurdular, çinlilərin koloniyası isə balıqçılıq təsərrüfatına üstünlük verirdi. Portuqalların Malabarda ilk uğurlarında elə bu icmalararası rəqabət də az rol oynamamışdı.

Beləliklə, bu nəhəng miqyaslı ticarətin getdiyi Hindistan portuqalların bir neçə ardıcıl ekspedisiyası (1498-1515-ci illər ərzində) sayəsində müstəmləkə hakimiyyəti altına keçdi; bundan əlavə, Şərqi Afrika və Cənubi-Şərqi Asiyanın da əksər sahil məntəqəsi,[*] həmçinin Ədən körfəzinin bəzi limanları işğal edildi. Bununla da Portuqaliya Hind okeanı bölgələrini Qırmızı dəniz və Aralıq dənizi ilə əlaqələndirən yolları bağlamış oldu (12, s. 197). 1515-ci ildə Hörmüzün qəti olaraq portuqalların əlinə keçməsi ilə İran körfəzi – Hind okeanı ticarət magistralları da inhisar altına düşdü.

Sonrakı hadisələrin orta əsrlərə aidiyyatı olması da, Portuqaliyanın və İspaniyanın XIV əsrdən başlayan müstəmləkə siyasətinin kulminasiyasını qeyd etməyimiz çox vacibdir. Atlantika uğrunda bu iki dövlətin rəqabəti 1494-cü il Tordesilyas müqaviləsi ilə nəticələndi: Atlantika iki nüfuz dairəsinə bölündü. Vaska da Qamanın və Fernando Magellanın ekspedisiyaları isə Hind okeanının bölüşdürülməsinə gətirib çıxardı. Belə ki, 1521-ci ildə Magellanın başçılığı altında ispan ekspedisiyası (1519-1522-ci illər) Molukka adalarına gəlib çıxanda, bu adaların kimə məxsusluğu məsələsi də ortaya çıxdı. 1524-cü ildə Badaxosda başlayan İspaniya – Portuqaliya danışıqları 1529-cu ildə Lerida (bəzi

[*] Portuqaliyanın əhalisi az olduğundan, müstəmləkəyə çevirdiyi əraziləri məskunlaşdırmaq kimi böyük bir problemi də var idi. Bu səbəbdən, portuqallar adətən sahilboyu torpaqları işğal edir, daxili rayonlara girmirdilər (bu, Hindistanda da, Braziliyada da belə olmuşdu).

mənbələrə görə, Saraqosa) müqaviləsinin imzalanması ilə başa çatdı. Müqaviləyə görə, İspaniya Molukka (portuqallar ona "Ədviyyat adaları" deyirdilər) adalarından Portuqaliyanın xeyrinə əl çəkdi, Sakit okeanda isə demarkasiya xətti Molukkadan 17° şərqə müəyyən edildi (8, s.13). Dünyanın ilk "bölüşdürülməsi" tamamlandı.

Tordesilyas və Lerida müqavilələri böyük nəticələri olan hadisə idi. Bu müqavilələr:

– dünyanın bölüşdürülməsi siyasətinin əsasını qoydu;

– beynəlxalq hüquqda "qapalı dəniz" doktrinasını yaratdı;

– müstəmləkəçiliyi rəsmiləşdirdi və *faktiki işğal* prinsipini müstəmləkəçiliyin əsas prinsipi kimi müəyyən etdi.

Tordesilyas və Lerida müqavilələrinin beynəlxalq ticarət üçün nəticələri daha tez hiss olunmağa başladı: Atlantikanın, Sakit və Hind okeanlarının nüfuz dairələrinə bölüşdürülməsi indiyədək ticarət tarixində görünməmiş bir inhisarçılıq yaratdı; Amerika qitəsi dünya ticarət əlaqələrinə qatıldı; Sevilya Amerika qitəsilə ticarətin aparıcı mərkəzi və bütün XVI əsr boyu Atlantikada İspaniyanın üstünlüyünün ifadəsi oldu; Portuqaliya Qoa iqamətgah olmaqla, böyük bir Hindistan müstəmləkə imperiyasını yaratdı və Hind okeanı vilayətlərilə ticarəti 100 il əlində saxladı; Aralıq dənizi ticarəti kəskin ixtisar oldu; dünya ticarətinin mərkəzi Aaralıq dənizindən Atlantik okeanına keçdi; "Adriatika şahzadəsi" Venesiya üçüncü dərəcəli ticarət dövləti səviyyəsinə endi; beynəlxalq ticarətdə hegemonliq uğrunda mübarizədə yeni rəqiblər ortaya çıxdı və yeni ticarət münaqişələri: Osmanlı – Portuqaliya, İngiltərə – İspaniya, İspaniya – Hollandiya, İngiltərə – Hollandiya münaqişələrinin özülü qoyuldu; dəniz ticarəti karvan ticarətini qəti şəkildə üstələyib hakim oldu.

Beləliklə, XV əsrdə Avropa – Asiya ticarət balansının vəziyyəti aşağıdakı kimi idi:

– XV əsr boyu Avropa-Asiya ticarət balansı Asiyanın xeyrinə fəal idi, amma Avropanın balansındakı mənfi saldosu indiyədək (Roma imperiyasının mövcudluğundan bu yana) görünməmiş hədd çərçivəsində – 30-40 % ixtisar olmuşdu;

– Avropa – Asiya ticarət balansı indi təkcə iki qitənin deyil, kəşf olunmuş Amerika qitəsinin də ticarət əlaqələrindən asılı idi;

– Dünya bazarının təşəkkülü ənənəvi ticarət əlaqələrini dağıtmağa başlamışdı, Asiyaya qızıl və gümüş axını hələ davam etsə də, Avropanın özünə qiymətli metalın kütləvi axını və "qiymətlər inqilabı" hadisəsi baş vermişdi;

– Hindistana dəniz yolunun axtarışında avropalıların ticarəti əvvəlcə "buradan sadəcə ixracat məqsədi daşıyırdı, idxalat haqqında düşünən yox idi".

Amma Böyük Coğrafi Kəşflər və Şərq ölkələrinə münasibətdə müstəmləkəçilik siyasəti tamam əks siyasət üçün şərait yaratdı: "yalnız bu ölkələrə idxalat hesabına" Avropa özünün sənayesini qurmağı başardı (25, s.415).

– İki minillik fasilədən sonra *Avropa beynəlxalq ticarət balansına nəzarəti yenidən bərpa edə bildi.*

**MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT**


1. Bennet M.K. The World's Food. New York, Harper & Co, 1954 – 433 p.
2. Bernard Lewis. The Jews of Islam. Princeton, NY, 1984 / İslam dünyasında Yahudiler. Çev. Bahadır Sina Şener. İstanbul, İmge Kitabevi, 1996 – 230 p.
3. Bernard Lewis. The Sephardim in the Ottoman Empire. Princeton, 1992 – 401 p.
4. Colin Clark. Population Grown and Land Use. New York, Macmillan, 1977 – 654 p.
5. Correia Jose Manuel. Os. Portugueses no Malabar (1498-1580). Lisboa, Difel, 1997 – 308 p.
6. Dalsar Fahri. Türk sanayi və ticaret tarihinde Bursada ipekçilik, İstanbul, 1960 – 228 s.
7. Daniel Goffman. Osmanlı dünyası ve Avrupa. 1300-1700 /Çeviren Ü.Tansel. İstanbul, Kitap Yayınevi ltd., 2008 – 320 s.
8. Gözəlova Y.H. Beynəlxalq münasibətlər tarixi (XVI-XVII əsrin birinci yarısı). Bakı, "Elm", 2006 – 47 s.
9. Halil İnalcık. Bursa: XV asrda sanayi ve ticaret tarihine dair vesikalar // Türk Tarih Kurumu bel.,Cilt 24, 1960 – s.44-58
10. İbn Khaldun. The Muqaddimah: an introduction to history. Princeton, 1958 – 270 p.
11. John H. Pryor. Akdeniz`de Coğrafiya, Teknoloji ve Savaş. Araplar, Bizanslılar, Batılılar ve Türkler /Çeviren F.Tayanç, T.Tayanç. İstanbul, Kitap Yayınevi ltd., 2004 – 262 s.
12. Mahmudov Y.M. Azərbaycan diplomatiyası. Bakı, "Təhsil", 2006 – 416 s.
13. Martins O. Los hijos de Don Juan I. Buenos Aires, 1946 – 420 p.
14. Uzunçarşılı İ.H. Osmanlı tarihi, c.2. Ankara, 1988
15. Антонова К.А., Бонгард –Левин Г.М., Котовский Г.Г. История Индии. Москва, 1979
16. Дживелегов А.К. Торговля на Западе в средние века. СПб., Изд-во АО «Брокгауз-Ефрон», 1904 – 223 с.
17. Жюльен Ш.А. Ист. Сев. Африки. Тунис, Алжир, Марокко от арабских завоеваний до 1830 г. Т.2. Москва, 1960
18. История средних веков /Под ред. С.П.Карпова. Т.1. Москва, Изд-во МГУ, 2001 – 640 с.
19. На перекрестке цивилизаций. Сборник. П.Лемерль. История Византии / Д.Кицикис. Османская империя. Москва, «Весь мир», 2006 – 240 с.
20. Луццатто Дж. Экономика Италии // Античность и средние века. Москва, 1954
21. Магидович И.П. Очерки по истории географических открытий. Т.1. Москва, Изд-во Мин-ва Просвещения РСФСР, 1949 – 288 с.
22. Розенберг Н. Как Запад стад богатым. Экономическое преобразование индустриального мира. Перевод с английского языка под редакцией Б.Пинскора. Новосибирск, «Экор», 1995 – 352 с.
23. Фрейганг А.В. Взгляд на Венецию в морском отношении. СПб., 1881 – 470 с.
24. Хазанов А.М. Португалия и мусульманский мир (XV-XVI вв.). Москва, РАУ-Университет,2003 – 320 с.
25. Энгельс Ф. Конраду Шмидту, 27 Октября 1890 г. // К. Маркс и Ф. Энгельс. Сочинения, т.37

**Y.H.Gezalova**

**EUROPEAN-ASIAN TRADE RELATIONS IN XV CENTURY**

**SUMMARY**

In XV century international trade experienced cardinal changes. These changes have been connected, first of all, by social and economic development of the European countries, and also, Great Geographical Opening. From coast of Mediterranean trade centers have been transferred on coast of Atlantic Ocean. The sea messages which have started already to develop from the middle of XIV century now have become dominating type of the trading relations. Domestic trade began to recede more and more before oceanic. Distribution in breadth the trading relations were promoted by one more factor - inflow of gold and silver from America, so-called «revolution of the prices».

Medieval principles of medieval trade have remained behind.

**Е.Х.Гезалова**

**ЕВРОПЕЙСКО-АЗИАТСКИЕ ТОРГОВЫЕ ОТНОШЕНИЯ В XV ВЕКЕ**

**РЕЗЮМЕ**

В XV веке международная торговля переживала кардинальные изменения, которые были связаны, в первую очередь, с социально-экономическим развитием европейских стран, а также с Великими Географическими Открытиями. С берегов Средиземного моря торговые центры были перенесены на берега Атлантического океана. Морские сообщения, начавшие уже развиваться с середины XIV века, теперь сделались господствующим типом торговых сношений. Внутренняя торговля стала все больше отступать перед торговлей через океаны. Распространению вширь торговых сношений способствовал еще один фактор – прилив золота и серебра из Америки, так называемая «революция цен».

Средневековые принципы и ход средневековой торговли остались позади.

**Açar sözlər:** ticarət, istehsal, sosial-iqtisadi inkişaf, kardinal dəyişikliklər, müstəmləkəçilik

**Ключевые слова:** торговля, производство, социально-экономическое развитие, кардинальные изменения, колониализм

**Key words:** trade, production, socio-economic development, major changes, colonialism

**Məqalə t.ü.f.d., dos. R.A.Muganlinskinin və t.ü.f.d. dos.E.M.Lətifovanın müsbət rəyləri əsasında çap olunur.**

# AZƏRBAYCAN SƏFƏVİ DÖVLƏTİNİN MALİYYƏ İDARƏLƏRİNİN QURULUŞU VƏ STATUSU

**Nizami SÜLEYMANOV***

Səfəvi imperiyasında bir-birindən fərqli torpaq institutlarının mövcud olması, torpaqların böyük bir hissəsinin dövlətə, şah və onun ailə üzvlərinə məxsus divan və xassə mülkiyyətində cəmləşməsi dövlətin maliyyə idarələrinin və büdcə sisteminin formalaşmasına həlledici təsir göstərirdi. Gürcü alimi N.İ.Surquladzenin fikrinə görə, mülkiyyət formalarına uyğun olaraq Səfəvi dövlətinin maliyyə sistemi üç əsas maliyyə idarəsinə bölünürdü. «Divani əl-məmalik» adlanan birinci idarə dövlətə məxsus olan əmlakın maliyyə məsələləri ilə; «Divani xassə» adlanan ikinci idarə şaha və onun ailə üzvlərinə məxsus torpaqların maliyyə işləri ilə məşğul olurdu. Şaha məxsus sənətkarlıq və digər təsərrüfat sahələrinin fəaliyyətinə isə ayrıca bir maliyyə idarəsi nəzarət edirdi. «Divani əl-məmalik» dövlətin baş maliyyə idarəsi olub, diğər maliyyə idarələri də ona tabe idi [1, s.7].

Görkəmli şərqşünas alim V.V.Bartold «Turküstan monqol basqınları dövründə» əsərində qeyd edirdi ki, «Şərqin bütün islami qaydaları sanki qırmızı xətt kimi bütün idarəçilik işlərini iki böyük kateqoriyaya: dərgah (saray) və divana (dəftərxana) bölür» [2, s.286]. Ölkənin maliyyə sistemi həmin dövlət qurumları tərəfindən idarə olunurdu. Dövlət və xassə əmlaklarının mövcudluğu şəraitində iki divan: divani-məmalik (dövlət) və divani-xassə adlanan iki orqan verği və mükəlləfiyyətlərin toplanmasına nəzarət edən baş idarə funksiyasını daşıyırdı. «Divani əl- məmalik» idarəsinə baş vəzir rəhbərlik edirdi. Baş vəzir bu idarənin təsərrüfat-maliyyə fəaliyyətinə bilavasitə başçılıq etməklə yanaşı dövlətin digər maliyyə idarələrinin fəaliyyətinə də nəzarət edirdi [1, s.8].

Qeyd etmək lazımdır ki, mərkəzi dövlət aparatı sistemində xüsusi nəzarətedici funksiya daşıyan «Divani-əl-məmalik» idarəsinə başçılıq edən baş vəzirin dövlətin maliyyə orqanlarının idarə olunmasında olduqca geniş hüquqları var idi. «Təzkirət əl-müluk»da qeyd olunduğu kimi, bütün divan (dövlət) vergilərinin yığılması, xəzinənin mədaxili, «Məmaliki-məhrusə»dən (şah tərəfindən qorunan ölkələrdən) xəzinə üçün alınan vəsaitlərin haqq-hesabı ilə bağlı bütün məsələlər baş vəzirin əmr və təliqəsi (şərhnaməsi) olmadan icra edilə bilməzdi. O, məmaliki-məhrusədən daha çox vergi yığılmasına çalışmalı, yığıb qorumalı, məxarici nəzarət altında saxlamalı idi [3, s.5].

Amillərin (vergi işlərinə baxan məmur) mühasibat hesablarının nüsxələri və bütün vilayətlərin divan hesabını aparanların, yəni bəylərbəyilərin, hakimlərin,

---

Nizami Məmməd oğlu Süleymanov – t.ü.f.d. Azərbaycan Dövlət İqtisad Universitetinin dosenti

sultanların, vəzirlərin (əyalət vəzirləri) kiçik və böyük vergi təhvildarlarının, xırda iş sahiblərinin, zabitlərin və başqalarının haqq-hesab nüsxələri baş vəzirin yazılı təliqəsindən sonra baş mustoufilər tərəfindən hesablanılıb mərkəzi maliyyə dəftərlərinə köçürülürdü. Bundan sonra haqq-hesabı çürütmə sənədləri tərtib olunurdu. Dövlət vergilərinin hesablanmasında kəsir müəyyən olunardısa, dərhal baş vəzirin hüzurunda hesablayıcıların işi yenidən yoxlanılır və rəiyyətin rifahı, ölkənin abadlığı naminə qərar çıxarılaraq kəsir fərqləri barədə yazılı göstərişlər verilirdi. «Divani-xassə» və «Divani-əl-məmalik» dəftərxanalarının münşiləri baş vəzirin göstərişlərinə əsasən kəsirlə bağlı vergilərin azaldılması barədə izahatı dəftərlərinə yenidən köçürürdülər. Divan dəftərinin xərclərinə aid vəsiqələri, maliyyə məmurlarının haqq-hesabın çürüdülməsinə dair yekun sənədlərini baş vəzir möhürləyib təsdiq edirdi [3, s.5-7].

Baş vəzir şahdan sonra əsas vəzifə sahibi olub, hüquq və səlahiyyətinə görə şahın naibi (müavini) hesab edilirdi. Mərkəzi dövlət aparatı strukturuna daxil olan bütün idarələrin və əyalət orqanlarının fəaliyyətinə tutdığı vəzifəyə görə başçılıq və nəzarət edən baş vəzir həm də xarici ölkələrlə diplomatik danışırlar aparıb müqavilə bağlamaq səlahiyyətinə də malik idi. Dövlətin idarəçilik sistemində çox geniş hüquqlara malik olan baş vəzirin maliyyə təminatı haqqında məlumat verən Sanson yazırdı ki, xüsusi xərcləri üçün ona hər ay xəzinədən 1000 tümən pul verilirdi [4, s.44]. Ancaq V.Minorskiyə görə, baş vəzir şah tərəfindən təyin olunmuş məvaciblə deyil, müxtəlif qaynaqlardan yığılan və rəsm ül-nüzarə adlanan verği hesabına maliyyələşdirilirdi [5. S.84].

Sanson «Səyahətnamə»sində dövlətin mərkəzi maliyyə idarəsinin strukturu barədə ətraflı məlumat verərək baş vəzirin tabeçiliyi altında altı vəzirdən ibarət vəzarət divanının olduğunu göstərmişdir. Onun yazdığına görə, vəzarət divanında birinci vəziri-mustoufi əl-məmalik idi. O, ölkənin bütün maliyyə idarələrinin rəisi hesab olunurdu. İkinci vəzir — mustofiye xassə olub, saray təşkilatının maliyyə müfəttişi idi. O eyni zamanda İsfahan darüs-səltənəsinin müfəttişlərinə də başçılıq edirdi. Üçüncü vəzir vəzarət divanındakı maliyyə dəftərxanalarına başçılıq edən dəftərxana darğası idi. Dördüncüsü vəziri — əl-mülük olub, şahın xüsusi dəftərxanasına başçılıq edirdi. Baş vəzirin xassə əmlakının maliyyə məsələləri üzrə müavini olan beşinci vəzir sarayın gəlir və xərclərinə baxır və vəzire-xassə (xassə vəziri) adlanırdı. Altıncısı da xassə vəziri adlanmaqla, İsfahanın ticarət işlərinə nəzarət edirdi. O, şəhərin və ətraf bölgələrin maliyyə məsələlərinə də baxırdı. Sanson həmin bu altı vəzirin Fransadakı baş maliyyə idarəsi rəislərinə oxşadığını, onların hər birinin mərkəzdəki vəzifə xidmətlərindən başqa bir neçə əyalətin də maliyyə məsələlərinə nazarət etdiyini yazmışdır [4, s.45-46].

«Təzkirət əl-müluk»da İsfahan dar üs-səltənəsinin vəziri ilə yanaşı, ayrıca mustoufisinin də olduğu göstərilmişdir. Qaynaqda qeyd olunur ki, İsfahan dar üs-səltənə vəziri şahın əmlakının maliyyə məsələlərinə baxmaqla yanaşı, əkinlərin becərilməsi qayğısına qalması, onları əlverişli şərtlərlə icarəyə verməli idi. Mustoufi verğiləri onun başçılığı altında yığmalı idi. Maliyyə məsələləri üzrə sənədləri vəzir tərtib edir, mustoufi isə onları saxlayırdı. İsfahan bölgəsinin rəiyyətindən taxıl vergilərini vəzirin göstərişi ilə yerölçənlər, mirzələr, təhvildarlar toplayıb xüsusi anbarlarda yerləşdirirdilər. Hər ilin sonunda İsfahan vəziri haqq-hesab vəsiqələrini təsdiq üçün baş vəzirə təqdim edirdi. Mustoufı həmin vəsiqələri yoxladıqdan sonra gəlir və çıxarın yekununu baş vəzir imzalayıb təsdiq edirdi. Baş vəzirin təsdiqindən sonra balans sənədi xassə mustoufisinə verilirdi. Baş vəzirin gözdən keçirmədiyi maliyyə sənədi etibarsız sayılmaqla, dəftərə daxil edilmirdi. Onu da qeyd etmək lazımdır ki, İsfahanın mustoufisi baş vəzir tərəfindən təsdiq olunmuş hesab sənədləri üzrə İsfahan vəzirinin ixtiyarında olan mahalın məhsul və pullarının mədaxil-məxaric sənədlərini hər il yazaraq şah idarəsinə çatdırırdı. Onun sənədlərini isə xassə mustoufisi yoxlayıb qəbul edirdi [3, s.40,50-51].

Vəzarət divanındakı altı vəzirdən başqa baş vəzirin xidmətində iki münşi (katib) də var idi ki, onlar «sahibi-rəqəm» adlanırdılar. Onların hər ikisi baş vəzirin təliqələrini yazır və onların yerlərə göndərilməsini təmin edirdi. Mənbələrdə bəzən baş vəzir «etimad əd-dövlə» (dövlətin dayağı) də adlandırılmışdır. Baş vəzir ali divana rəhbərlik etdiyinə görə «sahibi-divan» da adlanırdı [6, s.53]. Onu da qeyd etmək lazımdır ki, baş vəzirlə «sahibi-divan» qaynaqlarda sinonim kimi ifadə olunmuşdur. Belə ki, Məhəmməd Yusif Qəzvini I Şah İsmayılın dövründən bəhs edərək yazırdı: «Vəzarət və sahibi-divan»lıq əmir Zəkəriyyə Keçəçiyə verilmişdi [7, s.123]. Burada hər iki istilah eyni mənanı verir.

Baş vəzirin yuxarıda qeyd olunan münşiləri şah tərəfindən təyin olunmaqla, katib, bəzən nazir də adlandırılırdı. Əslində baş vəzirə tabe olan nazir həm də müfəttiş funksiyasına malik idi. Vəziri-əzəm icra etdiyi bütün əməliyyatları təsdiq üçün baş katibə təqdim edirdi. Buradan aydın olur ki, baş vəzirin fəaliyyəti də şahın təyin etdiyi müfəttiş tərəfindən nəzarət altında saxlanılırdı [5, s.82-83].

Baş vəzir və ona tabe olan vəzarət divanı mərkəzi dövlət aparatının tərkibində əsas idarə orqanları kimi fəaliyyət göstərməklə, əyalətlərə və əyalətlərdəki şəhərlərə nəzarət və başçılıq edirdilər. Mərkəzi dövlət aparatındakı vəzarət divanı ilə yanaşı, əyalətlərə bəzən şah tərəfindən vəzirlər təyin edilirdi. Əyalətlərə təyinat alan vəzirlər buranın maliyyə məsələlərinə, xüsusilə vergilərinin vaxtında toplanması və aidiyyatı üzrə sərf olunmasına nəzarət edirdilər. Sahibcəm

(maliyyə məsələlərinə maddi məsul məmur, xəzinadar) adlanan məmurun da çox geniş hüquqları vardı. Bütün məmaliki-məhrusədən dövlət xəzinəsi üçün toplanılan pulları o təhvil alırdı. Amillər, hakimlər yerlərdə yığılan vergiləri gecikdirdikdə, sahibcəm dərhal həmin bölgəyə mühəssillərini yollayaraq, bu işi bilavasitə nəzarət altınna alırdı. «Təzkirət əl-müluk»da qeyd edilir ki, sahibcəm Ağa Kamal şahın razılığını alaraq (Şah Süleyman), inandığı adamlardan Hacı Mehdi xanı xəzinə mühəssili – vergi toplayan məmur təyin etmişdi. O da hər il vergiləri qayda-qanunla toplayıb, şah xəzinəsinə çatdırırdı [3, s.29]. Faktiki olaraq sahibcəmlərə tabe olan mühəssillər dövlət vergilərinin toplanmasına nəzarət üçün yerlərə göndərilir və bu sahədə nəzarət funksiyasını yerinə yetirirdilər. Belə bir faktı da qeyd etmək lazımdır ki, XVI—XVII əsrlərdə şah tərəfindən təyin olunan və baş vəzirə tabe olan əyalət vəzirləri ilə sahibcəmlər arasında mövcud qanunlarla tənzimlənən işgüzar əlaqələr və işbirliyi olmuşdur. Maraqlıdır ki, sahibcəmlər vergi məsələləri üzrə əyalət vəzirlərinin fəaliyyətlərini yoxlaya bilərdilər. Əyalət vəzirlərinin funksiyası barədə Ə. Ə. Rəhmani yazırdı: «Xəzinə idarəsinin başçısı vəzir bəylərbəyiliyin maliyyə məsələlərinə birbaşa cavabdeh idi. O, bəylərdəyinin başçılığı altında işləyir, lakin dövlətin mərkəzi maliyyə idarəsinə hesabat verirdi» [8, s.91]. Mustoufi və mühəssillər (vergi toplayan məmurlar) əyalət vəzirinə, əyalət vəziri isə maliyyə məsələləri ilə məşğul olmaqla, baş vəzirə tabe idi [9, s.119].

İlkin mənbələrin araşdırılması belə bir faktı da üzə çıxarır ki, bəzən bir neçə əyalətə bir vəzir təyin olunurdu. Məsələn, hicri 931 (1525)-ci ildə Mirzə Ətalla İsfahani Azərbaycan, Şirvan bəylərbəylikləri ilə yanaşı Şəkiyə də vəzir təyin edilmişdi. Lakin üç ildən sonra – hicri 934 (1527-28)-cü ildə Mirzə Ətalla ölkənin dörddə bir hissəsini təşkil edən Azərbaycan bəylərbəyliyinə vəzir təyin olunmuşdu. Musa Sultan Türkman Azərbaycana bəylərbəyi gönədərildikdə (1531) isə Şahqulu adlı əyan burada vəzir vəzifəsinin icrasına başlamışdı. Lakin çox keçmir ki, Azərbaycan və Şirvan bəylərbəyliklərinin hər ikisinə birlikdə yenə də yuxarıda adı çəkilən Mirzə Ətalla adlı əyan vəzir təyin olunur. Budaq Qəzvini bu barədə yazırdı ki, Mirzə Əttala Xurani Azərbaycan, Şirvan, Şəki və Gürcüstanın vəziri idi. Hicri 967 (1559/60)-cı ildə Mirzə Ətalla vəfat etdikdən sonra adları çəkilən əyalətlərin hər birinə ayrıca vəzir göndərilmişdi. Belə ki, Mirzə Ətallanın oğlu Xacə Qasım İsfahani Azərbaycana, Xacə Ziyaəddin Salman İsfahani isə Şirvan və Şəkiyə vəzir təyin olunmuşdu. Şah Təhmasib onların hər ikisinə xələt verib, təyinatları üzrə vilayətlərə yola salmışdı. İsgəndər bəy Münşi Təbrizli Xasə Qasıməlinin bir neçə il Azərbaycanda vəzir olduğunu yazmışdı [10, v.327 [a]].

Qaynaqların təhlili əsasında belə bir fikir söyləmək mümkündür ki, dövlətin maliyyə məmurlarının fəaliyyəti qanunlarla tənzim edilsə də, əyalət vəzirləri

onlara verilən hüquqlardan istifadə edərək, yerlərdə maliyyə sistemini yeni qaydalarla təkmilləşdirməyə cəhd göstərirdilər. İsgəndər bəy Münşinin yazdığına görə, Mirzə Ətalla Azərbaycanda vəzir işlədiyi dövrdə elə bir qayda qoymuşdu ki, onun xeyirxah işləri indiyədək dillərdə deyillir. Onun əməli o vilayətdə qüvvədə olan qanundur [11, s.165].

Göstərildiyi kimi, əyalət vəzirləri şah tərəfindən təyin olunsa da, bəylərbəyilərə tabe idilər. Bəzi hallarda bəylərbəyinin xahişi ilə əyalətə vəzir onun yaxın qohumlarından təyin olunurdu. Məsələn, 1693-94-cü illərin hadisələrindən danışarkən Cemelli Karreri yazır ki, Azərbaycan əyalətinin hakimi Mirzə Tahir, maliyyə idarəsinin baş rəisi isə onun atası Mirzə İbrahim idi. Ata və oğulun Təbrizdə sarayları, bazar, karvansara və zərbxanaları vardı [12, s.26.34-35]. Tavernye yazır ki, Azərbaycanın (bəylərbəylik) vəziri Mirzə İbrahim xanın sarayda etibarı, hörməti, Səfəvilərin ən nüfuzlu bəylərbəyi hesab olunan Təbriz bəylərinin etibar və hörmətinə bərabər idi [13, s.69]. Maraqlıdır ki, Mirzə İbrahim Azərbaycanla bərabər İrəvanın da maliyyə işlərinə nəzarət edirdi. Hər iki vilayətin maliyyə məsələlərində şah bəylərbəyilərlə deyil, onunla hesablaşırdı. Zəkəriyyə Kanakertsi yazırdı ki, şah Mirzə İbrahim xandan Rəvanın növbəti vergilərini tələb edərkən Çuxur-Səd bəylərbəyi Məhəmməd xan vergini gecikdirdiyinə görə vəzirlə arasında ziddiyyət yaranmışdı. Xan vəziri cəzalandırmaq istədikdə Mirzə İbrahim İsfahana gedib, bu barədə şaha şikayət edir. Və Mirzə İbrahimin şikayəti əsasında Çuxur-Səd bəylərbəyi Məhəmməd xan həbs cəzasına məhkum olunur [14, s.146].

Saray dəftərxanasının darğası da maliyyə məsələləri üzrə maddi məsul dövlət məmuru olub, nazirlə birlikdə maliyyə məmurlarının haqq-hesablarına nəzarət etmək funksiyasına malik idi. Ancaq vergilərin toplanması, mədaxilə aid bütün sənədlər mustoufi-əl-məmalik tərəfindən möhürlənib təsdiq edilməli idi. Bütün mülazimlərin hərbi xidmətə götürülməsi haqqındakı fərmanlar, onların maaşları barədə sərəncamlar divan-əl-məmalik, yaxud divani-xassədə qeydiyyata alınıb-alınmamasından asılı olmadan mustoufi-əl-məmalik tərəfindən möhürlənib təsdiq olunmalı idi. Onun xidmətində dəftər və sənədləri tənzim edib təkmilləşdirir, sipahilərin vəzifəsində və sair barədə dəyişiklik baş verdikdə Divana məlumat verirdilər [3, s.17,36; 5,s.133-146; 15, s.239-240]. Divan dəftərxanasındakı qulluqçılardan müəyyən xətalara yol verənlərini də məsuliyyətə mustoufi-əl-məmalik cəlb edirdi. Məmaliki, məhrusənin bütün bölgələrinə kiçik mustoufilər də onun razılığı ilə təyin olunurdu. Mustoufi-əl-məmalik xidmətdə beş nəfər sahibrəqəm adlanan məmur da işləyirdi. Onlar qulluq müqabilində verilən tiyul, soyurqal, həmesale, maaş, maaflığa aid hökm və fərmanları yazır, dəftərxanaya daxil olan və çıxan sənədləri yoxlayır, səhvləri düzəldərək mükəm-

məllərini mustoufi-əl-məmalikin təsdiqinə təqdim edir, qanunauyğun olmayanları isə yenidən baxılması üçün geriyə-sahibinə qaytarırdılar.

Mərkəzi aparatda mülki, hərbi, dini və saray dəftərxanası və məmurları olduğu kimi, mustoufi-əl-məmalikin də xüsusi idarə dəftərxanası var idi. Bu dəftərxana ancaq onun özünə tabe idi. Başqa idarələrin maliyyə sahəsindəki fəaliyyətindən, mədaxil-məxaricdən daha ətraflı xəbərdar olmaq üçün vəzifə, qulluq fərmanları, tiyul, həmesale, maaş bəratı, mükafat, soyurqal, maaflıq bu dəftərxanada da qeydiyyatdan keçirdi. Dəftərxananın işçilərinin sayı 4 nəfər idi [3, s.17-18]. Mustoufi-əl-məmalikin başçılığı altında mustoufiye-mal dəftərxanası fəaliyyət göstərirdi. Bu dəftərxanada avarcanəvis, zabitənəvis, sahibi-tocih, mustoufiye-ərbab-əl-təhavil (təhvil verilən malları qeydiyyata alan, sikkə zərbi, istehsal və əmtəəyə nəzarət edən maliyyə işçisi) fəaliyyət göstərirdi.

Sarayın ərzaq və sənətkarlıq mallarına tələbatının xeyli hissəsini dövlət karxanaları ödəyirdi. Dövlət karxanalarını yarım ildən bir müşriflər, ildə bir dəfə isə mustoufi yoxlayır və bu barədə naziri-biyutata məlumat verirdi [3, s.9-12].

«Təzkirət əl-müluk»da dövlətin hərbi strukturunun yüksək rütbəli məmurları və alay rəisləri olan qorçubaşı, qullarağası, eşikağasıbaşı, tüfəngçiağası, topçubaşının tabeliyində olan əsgəri qüvvənin maliyyələşdirilməsi sahəsində maddi məsuliyyət daşıdıqları, çox geniş hüquqlara malik olduqları, mərkəzi maliyyə idarələri ilə həmkarlıq etdikləri göstərilmişdir. Qaynaqda qeyd olunur ki, divan mülazimi olan qorçuların tiyulu (həmesalesi) və bütün qoruqçuların məvacibləri qorçubaşı tərəfindən təsdiq olunur, yuxarı idarələrə bildirildikdən sonra baş vəzirin sərəncam və təliqəsi əsasında verilirdi. Qulamların tiyul, həmesale, mükafat və bəratlarını isə qulamlarağası təsdiq etdikdən sonra onların məvacibləri baş vəzirin təliqəsi əsasında ödənirdi. Eyni qayda əsasında dövlətin yasovulları, eşikağaları, qapıçıları və carçılarının tiyul, həmesale, mükafat bəratlarını eşikağasıbaşı, tüfəngçiağası və topçubaşı təsdiqləyib baş vəzirə təqdim etdikdən sonra onlar məvaciblə təmin olunurdular [3, s.40-41].

«Təzkirət əl-müluk»da qorçu, qulam, tüfəngçi, topçu vəzirləri və mustoufiləri, onların maliyyə sahəsindəki hüquqları haqqında da ətraflı məlumatlar vardır. Hər bir alayın vəziri öz sahəsində hərbiçilərin xibmət vəsiqələrini tərtib edir, məvaciblərinin ünvanlarını müəyyənləşdirirdi. Vəzirlərin tərtib etdikləri vəsiqələrdə hərbiçilərin tiyul, həmesale, ənam, maaş bəratı da öz əksini tapırdı. Mustoufilər isə onlara tabe olan mirzələrlə birlikdə yuxarı idarələrin hökmləri əsasında tarixi göstərilməklə hər bir hərbi xidmətçi üçün qulluğa çağırış barədə vəsiqə hazırlayırdılar. Bu vəsiqələr əsasında hərbi qulluqdan yayınanlar, istefaya çıxanlar, vəfat edənlər barədə yuxarı idarələrə məlumat verilirdi. Bu məlumat

əsasında həmin hərbiçilərin tiyul, həmesale və maaşları barədə yuxarı orqanlar yeni hökmlər verirdilər [3, s.7,8,14,38-40].

Yuxarıda sadalanan məsələlərin araşdırılması belə bir nəticəyə gəlməyə imkan verir ki, çox da sadə struktura malik olmayan maliyyə orqanları Azərbaycan Səfəvilər dövlətinin aparatında mühüm yer tuturdu. Ölkə iqtisadiyyatının normal idarə olunması, dövlət və xassə əmlaklarından gəlirlərin vaxtlı-vaxtında toplanıb təhvil verilməsi, ümumiyyətlə, dövlət büdcəsinin düzgün yerinə yetirilməsi özünəməxsus statusa malik olan maliyyə idarələrinin normal fəaliyyətindən birbaşa asılı idi.

## MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT

1. Сургуладзе Н.И. Из истории государственного строя Сефевидского Ирана (чиновники финансового ведомства). Автореферат кан. Дисс. Тбилиси, 1979.
2. Бартольд В.В. Сочинения т.1., Москва: Издательство Восточной Литературы, 1963, 759 с.
3. Mirzə Səmia. Təzkirət əl-müluk. Be küşeşe doktor Seyid Məhəmməd Dəbirsiyaği. Tehran: Enteşarate Əmir Kəbir, h. 1368, 140 s.
4. Səfəname-ye Sanson. Veze keşvəre şahənşahi-ye İran dər zəmane şah Süleyman Səfəvi. Be ehtemam və Tərcome-ye doktor Tağı Təfəzzüli. Tehran, h. 1346, 237 s.
5. Minorski V. Sazmane edare-yi hökuməte Səfəvi-ya təeğate Minorski bər тəзkirət əl-müluk. Tərcome-ye Məsud Rəcəbniya. Tehran: Enteşarate Əmir Kəbir, h. 1368, 340 s.
6. Fərzəliyev Şahin. Azərbaycan XV—XVI əsrlərdə. Bakı: "Elm" nəşriyyatı. 1983, 150 s.
7. Məhəmməd Yusif Qəzvini. Xolde bərin. Tehran: Çapxane-ye Şirin, h. 1372, 900 s.
8. Рахмани А.А. Азербайджан в конце XVI и XVII веке. Баку: Изд. «Элм», 1981, 237 с.
9. Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI — начале XIX вв. Ленинград: Изд. ЛГУ, 1949, 379 с.
10. Budaq Qəzvini. Cavahir ül-əxbar. Saltıkov-Şedrin adına Sankt-Peterburq kitabxanası, B.Dornun kataloqu, əlyazma №288.
11. İsgəndər bəy Türkman Münşi. Tarixi-aləm aray-i Abbasi, celd əvvəl və devvom. 1 c., Tehran: Çape Qolşən, h. 1350, 1-607 s.
12. Səfərname-yi Cemelli Karreri. Tərcome-ye doktor Abbas Naxçıvani və Əbdüləli Karəngi. Təbriz: Çapxane-ye Şəfəq, h. 1348, 206 s.
13. Səfərname-ye Tavernye. Tərcome-ye Əbuturab Nuri. İsfahan: Çapxane-ye Pərvin, h. 1336, 719 s.
14. Закарий Канакерци. Хроника. Перевод с армянского М.О. Дарбинян-Меликян. Москва: Изд. «Наука», 1968, 320 с.
15. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı. 1993, 300 s.
16. Qazi Əhməd Qumi. Xülasət ət təvarix I-II cildlər. Tehran: Çape daneşqah, 1359, II cild, 1-614; 614-1200 s.

**N.M.Suleymanov**

**STRUCTURE AND STATUS OF THE FINANCIAL INSTITUTIONS OF THE STATE SEFEVID**

**SUMMERY**

Articles during the Safavid state was devoted to the status of a key structure of financial institutions. The normal management of the national economy, the state and the transfer of property includes property income in a timely manner, the formation of the state budget, the proper implementation of the budget, income and expenditure identified in the registration and control of the financial authorities investigated on the basis of existing sources and travel agendas.

**Н.М Сулейманов**

**СТРУКТУРА И СТАТУС ФИНАНСОВЫХ УЧРЕЖДЕНИЙ АЗЕРБАЙДЖАНСКОГО ГОСУДАРСТВА СЕФЕВИДОВ**

**РЕЗЮМЕ**

Данная статья посвящена статусу и структуре финансовых институтов Азербайджанского государства Сефевидов. Нормальное управление экономической жизни государства польностью зависело от формирования государственного бюджета, своевременного перечисления собранных доходов в казну.

Здесь на основе существующих источников и дневников путешественников раскрываются роль финансовых органов в определение размеров доходов и расходов казны, их регистрации и контроле.

**t.ü.e.d. V.Həsənovun və t.ü.e.d. H. Cəfərovun müsbət rəyləri əsasında çap olunur.**

# ASAFİ DAL MEHMED ÇƏLƏBİNİN «ŞÜCAƏTNAMƏ» ƏSƏRİ – 1578-1590-CI İLLƏR OSMANLI-SƏFƏVİ MÜHARİBƏSİNƏ DAİR MÜHÜM MƏNBƏ

**Tofiq NƏCƏFLİ***

XVI əsrin son rübündə Səfəvi – Osmanlı münasibələrini öyrənmək üçün mühüm mənbələrdən biri də Osmanlı müəllifi Asafi Dal Mehmed Çələbinin "Şücaətnamə" əsəridir [1]. 1578-1590-cı illər Osmanlı – Səfəvi müharibəsinin iştirakçısı olan Asafi öz əsərini məsnəvi şəklində yazmışdır. 12 ilə yaxın davam edən Osmanlı – Səfəvi müharibəsinin gedişində Osmanlı ordusu Cənubi Qafqazı, o cümlədən Azərbaycanın əksər torpaqlarını işğal etdi. Tarixçi Asafi Osmanlı ordusunun Azərbaycana yürüşü zamanı gördüyü və yaşadığı hadisələri nəzm şəklində qələmə almışdır. O, "Şücaətnamə" adlandırdığı bu əsərini Sultan III Murada təqdim etmişdi. Azərbaycan tarixi üçün əhəmiyyətli bir mənbə olan "Şücaətnamə"də Osmanlı ordusu ilə Qızılbaşlar arasında baş verən döyüşlər, XVI əsrin sonunda Şirvan diyarının vəziyyəti, şəhərləri, insanları, coğrafi, ictimai, iqtisadi və təbii xüsusiyyətləri haqqında geniş məlumatlar vardır. Müəllifin şahidi olduğu hadisələr, o cümlədən 1578-1585-ci illərdə Osmanlı və Səfəvi orduları arasında baş verən döyüşlərlə bağlı verdiyi məlumatlar xüsusi maraq doğurur.

Asafi Mehmed Çələbinin doğum tarixi barədə ətraflı məlumat olmasa da, Süleyman Eroğlu Mustafa Alinin "Künhül-əxbar"na əsaslanaraq onun Siroz şəhərində anadan olduğunu yazır [Bax: 4,255-256]. Mehmed Çələbi "Şücaətnamə" əsərində əsasən "Asafi" ləqəbindən istifadə etmişdir. 1577-ci ilin sonlarında Osmanlı sultanı III Murad Səfəvi dövlətinə qarşı müharibə elan etdi. Asafi Mehmed Çələbi Azərbaycana hərbi yürüşə komandan təyin olunan Mustafa Lələ paşanın ordusuna səfər katibi, 1578-ci ildə isə Şirvan bəylərbəyi təyin edilən Özdəmiroğlu Osman paşanın təzkirəçisi təyin olundu. Bir müddət sonra isə o, sancaqbəyi rütbəsi ilə yeni yaradılan Şirvan əyalətinin təhrir işlərinə rəhbərlik edən Şirvan dəftərdarı Göyüşzadə Mustafa Çələbinin yanında maliyyə məmuru vəzifəsini həyata keçirməyə başladı [1,XXIV; 4,257; 18,35].

1579-cu ilin sonunda Səfəvi ordusu Şirvanda osmanlılara qarşı təzyiqini artıraraq Osman paşanın qoşunlarını Dərbəndə çəkilməyə məcbur etdiyi zaman o, əhəmiyyətli vəzifələr yerinə yetirmişdi. Bundan sonrakı üç il ərzində Osman paşanın ordusunda əsgər kimi çalışan Mehmed Çələbi hətta, Şirvanı təkrar ələ keçərmək üçün Şamaxı mühasirəsində də iştirak etmişdi. 1580-ci ildə o, Krım

---

* Tofiq Hümbət oğlu Nəcəfli – t.ü.f.d. AMEA A.A.Bakıxanov adına Tarix institutunun elmi işlər üzrə direktor müavini

xanının qüvvələriylə birlikdə Gəncə səfərinə qatıldı. 1581-1582-ci ilin qışında isə o, yenə Osman paşa tərəfindən müəyyən əsgərlə Qəbələ qalasını təmir etmək üçün oraya göndərildi. Lakin, Səfəvi sərkərdəsi Partal oğlu Əhməd bəy tərəfindən qala Qızılbaşların əlinə keçdi və Asafi əsir alındı [1,XXV-XXVII; 4,258; 18,35].

Qarabağ bəyləribəyi İmamqulu xan Qacar Gəncəyə gətirilən Asafiyə qarşı yaxşı davrandı. Bir müddət sonra Ərzani adlı qorçi ilə Qəzvinə gətirilən Asafi şahın əmri ilə qatıra mindirələrək şəhərdə gəzdirildi. Növbəti gün Şah Məhəmməd Xudabəndə tərəfindən qəbul edilən Asafi divana toplanan Qızılbaş əmirlərin onun haqqında ölüm qərarı çıxarmağı tələb etməsinə baxmayaraq, Osman paşanın vaxtı ilə azad etdiyi Qızılbaş Yusif bəyin təkidi ilə ölümdən xilas oldu və Ələmut qalasında zindana salındı [1,XL]. Asafi üç ilə yaxın zindanda qaldı [17,35]. O, daha əvvəllər Şirvan səfərinə qatılan əski dostu Qazi Gərayla Ələmut qalasında görüşdü.

1585-ci ildə Səfəvi sarayına Dağıstan Şamxalının adamı gəldi və tatar əsgərlərinin Osmanlı sultanından narazı olduğu xəbərini çatdırdı. Buna görə, şah hökuməti Qazi Gərayı həbsdən azad edərək müəyyən siyasi və diplomatik missiyanı həyata keçirməyə səy göstərdi. Onu ələ almaq məqsədilə məktublar göndərildi. Şahzadə Həmzə Mirzənin göndərdiyi məktublara cavab yazmaq üçün Qazi Gəraya katib lazım oldu. Buna görə qalabəyi Şahverdi bəy Qazi Gərayın cavab məktubunu yazması üçün Mehmed Çələbini qaladan çıxardı. Qazi Gərayın səyi nəticəsində zindandan azad edilən Asafi az sonra İsfahana göndərildi. O, burada Səfəvi dövlətində baş verən daxili ixtişaşlardan istifadə edərək qaça bildi. O, öncə Şiraza, sonra dəniz yolu ilə Bəsrəyə, oradan isə Bağdad və Diyarbəkr yolu ilə Ərzuruma, Təbrizə yürüşə hazırlaşan Osman paşanın qərargahına gəldi [Bax: 1,XLIII-XLIV; 18,35].

Asafi Osman paşanın Təbriz yürüşü zamanı səfər tarixçisi vəzifəsini yerinə yetirdi. Təbriz şəhəri ələ keçirilən zaman Asafi şəhərin baş mühafizi təyin olundu. Bir müddət sonra Kəfə bəylərbəyi təyin edilsə də, 1585-ci il oktyabrın 29-da Osman paşanın ölümü və Fərhad paşanın təkrar Şərq səfərinə sərdar təyin edilməsi ilə bu vəzifədən azad edildi. Görünür, Fərhad Paşa əvvəllər Şərq səfərinin sərdarı vəzifəsindən uzuqlaşdırılmasının başlıca səbəbkarının Osman paşa olduğunu bildiyi üçün ona bəslədiyi kinin acısını Asafidən çıxdı [4,259]. Mehmed Rıhtım yazır ki, Asafi Osman paşanın qayğısı ilə Kəfə bəylərbəyiliyinə təyin olunsa da, bu vəzifəyə başlamadan Hələb bəylərbəyi seçildi. Bu vəzifədən azad edildikdən bir müddət sonra 1587-ci ildə öldü [18,36].

Lakin Asafinin «Şücaətnaməsi»ni çapa hazırlayan Mustafa Eravçının qənaətinə görə, 1587-ci ildə İstanbula dönən Asafi öz əsərini yazmağa başladı.

O, 1590-cı ilin sentyabrında baş təzkirəçilikdən rəisül-küttablığa keçirilsə də, 1593-cü ildə yenidən baş təzkirəçi vəzifəsinə qaytarıldı. Türkiyə tarixçisi Mehmed Sürəyyanın verdiyi məlumata əsaslanan Mustafa Eravçı Asafinin h.1006-cı (1597-1598) ildə öldüyünü qeyd edir [Bax: 1,XLIV]. Lakin, Süleyman Eroğlunun fikrincə, Asafi 1604-cü ildə vəfat etmişdir [4,259].

Osmanlı sultanı III Muradın məsləhəti ilə əsərini yazmağa başlayan Asafi «Şücaətnamə»nin girişini nəsrlə, qalan hissəsini isə məsnəvi tərzində yazmışdır. Əli bin Yusif tərəfindən gözəl nəsx xətti ilə köçürülmüş İstanbul Universiteti kitabxanasında saxlanan nüsxədə 79 ədəd miniatür də vardır. Bunların arasında Bakı, Dərbənd, Şamaxı və Qəbələ şəhərlərinin miniatürü də yer almışdır [17,36]. Əsər Osman paşanın 1578-1585-ci illərdəki həyat və fəaliyyətini əhatə edir. Otuz cüzdən ibarət olan əsərin hər bir cüzü fərqli hadisələrdən bəhs edir [18,36].

Asafi «Şücaətnamə»də 1578-ci ildə Mustafa Lələ paşanın rəhbərliyi altında Osmanlı ordusunun Azərbaycana yürüşü ilə bağlı ətraflı məlumat verir. Onun fikrincə, Osmanlı ordusunun Gürcüstana yolunu kəsməyə çalışan Qızılbaş ordusuna qarşı Mustafa Lələ paşa Diyarbəkr bəylərbəyi Dərviş paşanı göndərdi. Əvvəlcə Osmanlı ordusunun öndə gələn hissələri ilə toqquşan Qızılbaşlar qələbə qazandılar. Onlar 2-3 min nəfərə yaxın adamı məhv etdilər. Bu qələbədən ruhlanan Səfəvi döyüşçüləri qaçan düşməni təqib etməyə başladılar. Ön dəstənin məğlub olmasından xəbər tutan Mustafa paşa qızılbaşlara qarşı təcili olaraq öncə Özdəmiroğlu Osman paşanı, sonra isə Bəhram paşa və Mutabzadə Əhməd paşanı 20-30 min nəfərlik əlavə qoşunla yardıma göndərdi. Osmanlıları təqib edən Qızılbaş dəstəsi öz əsas qüvvələrindən aralı düşdüyü üçün darmadağın edildi [Bax: 1,16-17; 5,145].

Oruc bəy Bayat bu hadisə ilə bağlı yazır ki, öz kəşfiyatçılarının səhv məlumatlarına inanan Məhəmməd xan Toxmaq yanılaraq Dərviş paşa və Bəhram paşanın 40 minlik qoşununu osmanlıların əsas qüvvəsi sanmiş, Mustafa paşanın döyüş meydanından bir qədər uzaqda gizli saxladığı 70 min Osmanlı döyüşçüsü qəflətən Qızılbaşların sağ cinahına zərbə endirəndə Məhəmməd xan öz səhvini başa düşdü. Ancaq artıq gec idi. Toxmaq xanın göstərdiyi sərkərdəlik məharəti və qaranlığın düşməsi nəticəsində Qızılbaş ordusu tamamilə məhv olmaqdan xilas oldu. Qızılbaşlardan 7 min nəfər öldürüldü, 3 min nəfər əsir düşdü. Məhəmməd xan qaranlıqdan istifadə edərək, öz qoşunlarının bir hissəsini dağ cığırlarından və keçidlərindən keçirib xilas edə bildi. Osmanlı ordusu da döyüşdə xeyli qüvvə itirdi. Dərviş paşanın 30 ağası və 7 sançaqbəyi öldürüldü [11,85; 5,146; 7,174; 13,56 qeyd 111]. Beləliklə, Çıldır döyüşü Özdəmiroğlu Osman paşanın əlavə qüvvələrlə özünü yetirməsi sayəsində Osmanlı ordusunun

qələbəsi ilə başa çatdı. Bu qələbə Osmanlı ordusunun Gürcüstana daxil olmasına şərait yaratdı. Asafinin "Şücaətnamə"sinin 17a vərəqində Çıldır döyüşü ilə bağlı miniatür verilmişdir.

Çıldır döyüşündə Osmanlı ordusunun əldə etdiyi qələbə onların Gürcüstana irəliləməsinə imkan yaratdı. Osman paşa Tiflis üzərinə göndərildi. Osmanlı təhlükəsinin artdığı bir zamanda gürcü feodal hakimləri arasında didişmə və nifaq hökm sürürdü. Qızılbaş ordusunun məğlubiyyəti bəzi gürcü hakimlərini öz mülklərini saxlamaq üçün Osmanlı tabeliyinə keçməyə razı olmağa məcbur etdi. Bu zaman Kaxetiya çarı Aleksandr yaranmış vəziyyətdə Mustafa paşaya itaətini bildirməyi özü üçün sərfəli hesab etdi [1,19]. Buna görə də, ciddi müqavimətə rast gəlməyən Osmanlı ordusu avqustun 24-də "keçilməzliyinə və əzəmətinə görə göylə bəhsə girən" Tiflis qalasını ələ keçirdi. Osmanlı ordusu Şirvana irəlilədi. Sentyabrın 8-də Osmanlı ordusu Qanıq çayı sahilinə çatdı. Aclıq və üzücü yürüş işğalçı ordunun əsgərlərinin mənəvi ruhunu əsaslı surətdə sarsıtdı. Sipahilər və yeniçərilər yürüşdən imtina edərək geri qayıtmağı tələb etdilər. B.Kütükoğlu Osmanlı salnamələrinə əsaslanaraq yazır ki, bir qrup döyüşçü Mustafa paşaya yaxınlaşaraq dönməyə qərarlı olduqlarını bildirdilər. "Nə vaxtadək bu boş və yaşayış olmayan çöllərlə gedəcəksən. Sən qayıtmalısan. Biz qayıtmağa etiraz edən yoldaşlarımızı öldürərik. Bizim üçün əvvəlcə həyat, sonra isə dünya vacibdir. Biz nə Qanıqdan keçmək, nə də Şirvan ölkəsini ələ keçirmək arzusunda deyilik". Mustafa paşa böyük çətinliklə onları dilə tutaraq sakitləşdirə bildi [13,59; 5,148].

Asafi Osmanlı ordusunun böyük əziyyətdən sonra Qanıq çayını keçdiyini qeyd edir.

*Geçdi cüretle çeriler ol sudan,*
*Yorulub kef kef solurdu korkudan.*
*Bir felaketle geçildi ol Kınık,*
*Geçmedi kesk olmaya gönlü sınık.*
*Çok kişi gark oldu çıkdı başdan,*
*Kimi oğlundan kimi kardaşından.*

*Cümlesinün didesi pür-hun idi,*
*Gözleri yaşı heman ceyhun idi.*
*Her biri uryan devan zarı-künan,*
*Olmuş idi aglamakdan na tuvan.*
*Hasılı ol-dem cihan-giryan idi,*
*Kardaşım oğlum diyü nalan idi*
*[1,22-23].*

Asafi Osmanlı ordusunun Qanıq çayı sahilində Təbriz bəylərbəyi Əmir xan tərəfindən qarşılandığı və tərəflər arasında baş verən döyüşü osmanlıların qazandığını göstərir. 1578-ci il sentyabrın 9-da Qoyun ölümü keçidi döyüşündə qələbə çalan Osmanlı ordusunu ərzaq çatışmamazlığı və Kür çayının azğın sularını keçmək çətin vəziyyətə saldı. Əsgərlərinin müəyyən hissəsini itirməsinə baxmayaraq, Mustafa Lələ paşa böyük çətinliklərdən sonra sentyabrın 16-da Ərəş şəhərinə gəldi [1,2-23; 13,60-63; 5,148-149; 14,44-46].

XVI əsrin sonları Azərbaycan tarixinə dair bir çox həqiqətlərin şəxsən hadisələrin şahidindən öyrənilməsinə imkan verdiyi üçün «Şücaətnamə» əsəri çox dəyərli bir mənbədir. Əsərdə Osmanlı – Səfəvi münasibətləri ilə yanaşı Azərbaycan şəhərlərindən Ərəş, Şamaxı, Qəbələ və Bakı haqqında müşahidəyə əsaslanan ətraflı məlumatlar verilmişdir. Əsərin İstanbul Universiteti Kitabxanası nüsxəsinin 264-cü səhifəsində Bakıya aid bir miniatür də vardır [18,36]. Mustafa Eravçının çapa hazırladığı həmin nüsxədə Bakı ilə bağlı məlumatlar 122a-124a, 131b-134a səhifələri arasında yer almışdır [Bax: 1,114-115, 122-124].

Asafinin məlumatına görə, Mustafa Lələ paşa fəth olunan torpaqların mühafizəsini təşkil etmək və Qızılbaş ordusunun qış hücumlarının ciddi təhlükə yaratmaması üçün bəylərbəyilərdən birini Şirvanın mühafizəsinə təyin etmək məqsədilə divan topladı. Şirvanda Osmanlı ordusuna komandanlıq etmək təklifi almış Diyarbəkr bəylərbəyiliyi Dərviş paşa və Hələb bəylərbəyi Məhəmməd paşa dərhal bundan imtina etdilər. Mustafa paşa bu vəzifəni Özdəmiroğlu Osman paşaya həvalə etməyə nail oldu. 1578-ci il oktyabrın 8-də Mustafa Lələ paşa Ərzurum qışlağına çəkilmək üçün Şirvanı tərk etdi. Öz ordusu ilə Şirvanda qalan Osman paşa əsgərlərinin ruhunu qaldırmaq və qənimət əldə etmək üçün İbrahim bəy və Əbdürrəhman bəyin müşaiyət etdiyi Qaytas paşanın rəhbərliyi altında ordunu Gəncə bəylərindən biri olan Partal oğlu Əhməd bəyə qarşı göndərdi. Partal oğlu Əhməd məğlub olaraq geri çəkildiyi üçün osmanlılar ətraf əraziləri qarət edərək xeyli qənimətlə geri döndülər [bax: 1,24-26; 4,267; 5,151].

Asafinin verdiyi məlumata görə, bu hadisənin ardınca Salyanda qüvvələrini toplayan və Osmanlı ordusuna qarşı hücuma hazırlaşan Şirvan bəylərbəyi Aras xan Rumluya qarşı yürüş təşkil edildi. Lakin Qızılbaşlar osmanlıların bu hücumunu dəf edə bildilər. Osmanlı ordusu üçün olduqca çətin keçən bu döyüşün sonunda onlar kifayət qədər qüvvə itirərək geri çəkilmək məcburiyyətində qaldılar [1,41-42; 4,267-268].

Aras xanın ordusunun gücünə və Osmanlı ordusunun böyük itki verməsinə əhəmiyyət verməyən Osman paşa Qızılbaş ordusunu məhv etməyə qərarlı idi. O, Şamaxıda möhkəmlənməyi və Krım tatarlarının gəlişini gözləməyi qərara aldı. Asafi yazır ki, belə bir vaxtda Gəncə hakimi İmamqulu xan Qacar və Partal oğlu Əhməd 15 minlik qoşunla Ərəşə hücum etdi. Qızılbaşlar osmanlıları məğlub edərək Ərəşi ələ keçirdilər. Ərəş hakimi Qaytas paşa öldürüldü. Osmanlı sərkərdələrindən Əbdürrəhman bəy əsir alındı [bax: 1,49-51; 4,267; 5,151; 13,84-85; 14,56-57]. Asafinin qeyd etdiyinə görə, noyabrın 9-da Aras xan Rumlunun rəhbərliyi altında 30 minlik Qızılbaş ordusu* Şamaxıya yaxınlaşaraq onun qərbində osmanlıların ön qüvvələri ilə döyüşə girdi və sonra onlar öz mövqelərinə döndülər. İkinci gün tərəflər arasında daha şiddətli döyüş baş verdi.

Asafi qeyd edir ki, bu zaman Abdi Çavuş özünü yetirərək Adil Gərayın rəhbərliyi altında Qazi Gəray, Mübarək Gəray, Səadət Gərayın da qatıldığı 15 minlik Krım ordusunun və Əbubəkr Mirzənin qüvvələrinin köməyə gəldiyini bildirdi. Beləliklə, noyabrın 11-də döyüşün üçüncü günü Adil Gərayın 5-6 minlik ön qüvvələrinin yetişməsi ilə üstünlüyü ələ keçirən Osmanlı ordusu Qızılbaş ordusunu məğlubiyyətə uğratdı. Aras xan Rumlu və oğlu Dədə xan əsir alındı. Qızılbaş əmirlərindən, yalnız Ərdoğdu xan xilas ola bildi [Bax: 1,48-60; 4,268; 13,85-88; 15,250-251; 10331].*

Asafi yazır ki, Şamaxı döyüşündə qələbə qazanan Osman paşa Krım ordusuna minnətdarlıq ifadəsi kimi Salyan bölgəsində – Kürün cənubunda yerləşən Aras xanın mal və mülkünün  tatarlar tərəfindən qarət olunmasına razılıq verdi. Ərəş bəylərbəyi Piyalə paşanın qüvvələri də onlara qatıldı. Adil Gəray tərəfindən Aras xanın qərargahı ələ keçirilərək qarət olundu. Kür çayını gəmilərlə keçməyə çalışan qızılbaşların xeyli hissəsi suya qərq oldu. Hər cür sərvətlərlə yüklənmiş dəvə karvanları tatarların əlinə keçdi. Asafi ramazanda tatarların həyata keçirdiyi bu böyük günahdan,  onların çoxlu qadın və qızı əsir almasından şikayətlənir [1,48-60; 4,268; 13,88; 10,331-332 ].

Bu vaxt Həmzə Mirzənin və Mirzə Salmanın rəhbərliyi altında Qızılbaş ordusu Qarabağdan təcili hərəkətə başlayaraq Şirvana daxil oldu. Noyabrın 24-də onlar Osman paşanın qüvvələrini Şamaxı şəhərində mühasrəyə aldı. Asafi qızılbaş ordusunun sayının 100 minə çatdığını, qala müdafiyəçilərin isə 5-6 min nəfər olduğunu qeyd edir* [1,65-67]. Qızılbaşların Şamaxını tamamilə mühasirəyə aldığını görən Osman paşa Adil Gəraya təcili Şamaxıya dönməsi üçün xəbər göndərdi. Qızılbaş qoşunu şəhərə daxil olaraq Qalabazarı məhəlləsini ələ keçirdi. Ertəsi gün tərəflərin ciddi tələfat verməsinə baxmayaraq, küçə döyüşündə üstünlük qazanan səfəvilər şəhərin yarıdan şoxunu ələ keçirdi. Şamaxıya gələn suyu Qızılbaşların kəsməsi şəhərdə böyük çətinliklər yaratdı. Osman paşa qalada məhbus saxlanilan Aras xanı və digər Səfəvi əmirlərini edam etdirdi. Hətta əsgərləri ilə birlikdə Dağıstana qayitmağa çalışan Şamxal həbsə alındı. Adil Gərayın ertəsi gün özünü çatdıracağı barədə Osman paşaya göndərdiyi məktub qızılbaşlar tərəfindən ələ keçirildi [1,64-66; 13,89-90]. O.Ə.Əfəndiyev qeyd edir ki, Səfəvi qoşunu Şamaxı ətrafında qalmağı çox təhlükəli hesab etdi. Çünki aydın idi ki, tatarlar gələnə qədər onlar Osman paşanın uğurla müdafiə

---

* B.Kütükoğlu Aras xanın qoşununun sayı ilə bağlı Osmanlı mənbələrinin verdiyi fərqli rəqəmləri təhlil edərək onların 20 mindən artıq olduğunu qeyd edir. [Bax: 13,85].

* Asafi Şamaxının qızılbaşlar tərəfindən mühasirəyə alınmasini 27 ramazanda (27 noyabrda) başlandığını göstərir. Osmanlı mənbələri Səfəvi ordusunun sayının 50-100 min arasında olduğunu qeyd edir. [Bax: 13,89].

olunduğu qalanı ala bilməyəcəklər. Qızılbaş əmirləri şübhə edirdilər ki, tatarlar cənubdan gələcəyi təqdirdə, onlar bir neçə cəbhədə vuruşmaqla döyüşü uda biləcəklər. Buna görə də, Mirzə Salman Şamaxı ətrafında Vəli Xəlifə Şamlının başçılığı altında 3 minlik dəstə qoyaraq qorçibaşı Qulu bəy Əfşar, Şahrux xan möhrdar, Məhəmməd xan Türkman, Pirə Məhəmməd xan Ustaclı, Sultan Hüseyn xan, İmamqulu xan Qacar və digər "adlı-sanlı" əmirlərlə cənuba, tatarlara qarşı yeridi [5,155].

Asafi yazır ki, Adil Gərayın rəhbərliyi altında Krım ordusu Salyandan Mollahəsənə gəldi və burada eyş-işrətlə məşğul olduğu üçün qızılbaşların hücumu qarşısında öz qüvvələrini toplamağa çətinlik çəkdi. Şiddətli yağış yağdığı üçün oxdan istifadə münasib olmadı. Tatarlar Salyanda qarət etdikləri qəniməti qorumaq üçün təşvişə düşdülər. 1578-ci il noyabrın 28-də baş verən Mollahəsən döyüşü Qızılbaş ordusunun qələbəsi ilə başa çatdı. Krım xanının qardaşı Adil Gəray və Ərəş hakimi Piyalə paşa əsir alındı. Asafi bu hadisəni belə təsvir edir:

*Yakdılar ol demde atından anı,* *Çeşme çeşme akdı cisminden kanı,*
*Üşdüler anı giriftar etdiler.* *Bağlu şah-oğluna karşı yetdiler.*
*Cümle asker kaçdı hep bi-ihtiyar,* *Payidar olmadı durmadı Tatar,*
*Bırakdılar emval u erzakı tamam.* *Sim ü zer kaldı kalanda ves-selam*
*[1,70].*

Tatarlar 30-dan çox tanınmış bəy, 2 min süvari itirdilər. Tatar xanının əsir alınmasından xəbər tutan tatarlar, ləzgilər və noqaylar mal və qəniməti ataraq qaçdılar [1,68-71; 13,91; 10,332].

Asafinin fikrincə, Osman paşa tatarların darmadağın edilməsi və Adil Gərayin əsir düşməsi xəbərini eşidərək pərişan oldu. O, lazımi köməkdən məhrum olduğunu, Şamaxıda qalmağın daha təhlükəli olacağını düşünərək şəhəri tərk etdi. Osman paşa daha etibarlı olan Dərbəndə getmək və orada pərən-pərən salınmış qoşunlarının qalıqlarının yolunu gözləmək qərarına gəldi. Mollahəsəndə qızılbaşlara məğlub olaraq qaçmağa məcbur qalan tatarlar özlərini Dərbəndə çatdırdılar. Onların osmanlı və tatar ordusunun tamamilə qırıldığını söyləməsi qala mühafizəçilərinin şəhəri tərk edərək qaçmasına səbəb oldu. Bu zaman Dərbənd sakinləri osmanlılara qarşı üsyan qaldıraraq qalanı ələ keçirdi. Onlar qala qapılarını möhkəmləndirərək heç kimi şəhərə buraxmadı. Bununla bağlı məlumat əldə edən Osman paşa həmin xəbəri qoşundan gizlədərək şimala getməyə tələsdi [Bax: 1,70-75; 4,268; 5,156].

Asafi yazır ki, qışın sərt keçməsinə baxmayaraq, Osmanlı ordusu Dərbəndə çatmağa çalışırdı. Yollarda don vurmadan tələf olan əsgər saya gəlməzdi. Xəzinənin təhlükəsiz Dərbəndə yetişməsinə nəzarət Asafiyə həvalə olunmuşdu. Dərbəndə çatan Osman paşa burada qışlamağa qərar verdi [1,70-75; 4,268].

Asafinin fikrincə, Osman paşa Dərbəndə yaxınlaşan zaman şəhər əhalisi vaxtı ilə ona etimad göstərib əsgərlərini qəbul etdiklərini, lakin onların əhalini müdafiəsiz buraxaraq qaçdığını bildirdi. Əgər yenə qəbul edərlərsə və bu hərəkət təkrar edilərsə, qızılbaşların intiqamına hədəf olacaqlar. Osmanlı sərdarının təminat verməsindən sonra onlar qalaya buraxıldı [1,73-75].

Asafinin fikrincə, Osman paşa ordusunun Dərbəndə çəkilməsindən xəbər tutan Məhəmməd xan Qacar Səfəvi şahından Şamaxını geri almaq üçün yürüşə çıxmağa razılıq ala bildi. Osman paşa qızılbaşların hücumunun qarşısını almaq üçün Bürhanoğlu Əbubəkr Mirzəni göndərdi. O, baş verəcək döyüşdən çəkindiyi üçün geri çəkildi. Osmanlı ordusu xeyli qüvvə itirdi. Yalnız Osman paşanın özünü yetirməsi Qızılbaşların geri çəkilməsinə səbəb oldu [1,82-86].

1579-cu il oktyabrın 10-da Məhəmməd Gəray Mollahəsənli döyüşündə məğlub edilərək əsir alınan qardaşını xilas etmək üçün 100 minlik bir ordu ilə Dərbəndə gəldi [2,209; 19,60]. Birləşmiş Osmanlı – tatar qüvvələri Şamaxıya və Bakıya yürüş etdilər. Onlar Kürü keçərək Gəncə, Qarabağ və Muğana hücum etdilər. Bu zaman Bakını azad edən Əli xan və Maqsud bəyə qarşı lazımi qüvvə göndərən Osman paşa şəhəri ələ keçirdi. Bu qələbə Osmanlı ordusunun Şirvanın içərilərinə doğru yenidən irəliləməsinə şərait yaratdı [1,90-92,94].

Asafi yazır ki, Osman Paşa ələ keçirilən Azərbaycan torpaqlarının işğalını başa çatdırmaq və ələ keçirilmiş ərazilərin mühafizəsini təşkil etmək üçün Mustafa Lələ paşa ilə əlaqə saxladı. Əldə olunan razılığa görə, Osman paşa, Mustafa Lələ paşa və Məhəmməd Gərayin birləşmiş qüvvələri öncə Qəzvinin işğalını həyata keçirməli idi. Bu məqsədlə yürüşə başlayan Mustafa Lələ paşa verdiyi sözə əməl etməyərək Qarsdan Ərzuruma getdi. Onun bu addımı Məhəmməd Gərayin Krıma geri dönməyə qərar verməsinə səbəb oldu. Osman paşa ona Şirvanda qışlamaq təklifini etsə də, o, oğlanları Səadət Gəraylə Qazi Gərayin rəhbərliyi altında 2 minlik qüvvəni Şirvanda qoyaraq Krıma döndü. Bu zaman Pirə Məhəmməd xanın Şirvan üzərinə yürüşündən qorxan Səadət Gəray də atasının tələbi ilə Şirvanı tərk etdi [Bax: 1,102-103; 4,269].

Asafinin fikrincə, Məhəmməd Gərayin və Səadət Gərayin Krıma qayıtmasından istifadə edən Səfəvi ordusu Şirvan və Dərbəndi yenidən ələ keçirmək üçün yürüşə başladı. Qızılbaş ordusunun Şirvana yürüşünün qarşısını almaq üçün Kayqı Mustafa bəyin rəhbərliyi altında qoşun göndərildi. Asafinin də qatıldığı Osmanlı ordusu Qızılbaşları məğlubiyyətə uğratdı. Səfəvi ordusunun geri çəkilməsindən istifadə edən Osman paşa Bakı qalasının dərhal təmirinə başladı [1,107-113; 4,269].

Asafi "Şücaətnamə"də Bakı şəhəri ilə bağlı ətraflı məlumat vermişdir (v.122a-128a). Müəllif şəhərin coğrafi mövqeyindən, insanların xarakterindən,

neftdən və Xəzər dənizi barədə müfəssəl məlumat çatdırır. Bakı qala divarları dağıdıldığı üçün Osmanlı ordusu onu ələ keçirdikdən sonra təmir işlərinə başladığını və Qızılbaş hücumlarından qorunmaq üçün görülən tədbirlər barədə ətraflı məlumat verir. M.Rıhtımın qeyd etdiyi kimi, müəllif *«Şehr-i Badkuye tarifidir»* adlı bölümdə;

"*Dinle, tarif edeyim ol şehri ben,*
*Bülbül dil mehdine açsun dehan."*
*Var bağı içre bülbüller hezar,*
*Fasl - I gülde kalmaz âdemde karar.*
*Şöyle vermiş Bahr - I Kulzum*[*] *şehre fer,*
*Görmedi mislin gezenler bahr ü ber.*

*Nev cevan gibi meyanına meğer,*
*Bağlamışlar surdan simin kemer.*
*Payine emvac - I Kulzum bendevar,*
*Yüz рмiя bin aczile leyl ü nehar.*
*Aşiyanı şahbaz imiş ezel,*
*Ana benzer şehir az imiş ezel*

deyərək Bakının Xəzər dənizinin kənarında ətrafı qala divarları ilə əhatə olunan çox gözəl bir yer olduğunu oxucuya çatdırır. Bakı şəhəri və əhalisi haqqında danışan müəllif, şəhərdə çox gözəl, təmtəraqlı evlərin olduğunu, güllər, lalələr və çəmənlərlə bəzəndiyini, yayda insanlırın şəhəri tərk edərək bağlara getdiyini qeyd edir [1,114; 18,37]. Asafi Bakı əhalisinin zövqlü olduğu, əyləncəyə meylli əhli-kef insanlar olub musiqi məclislərində ney və müxtəlif musiqi alətləri çalıb, qəzəl oxuduğunu belə anladır:

*Ehli işretdür o şehrin ademi*
*Neydir meclislerinde hemdemi.*
*Çengler bezme gelüb baş eğdiler,*
*Kalbine sazendeler çok değdiler.*

*Kari hep sazendeden efgan idi,*
*Ellerinden muttasıl nalan idi.*
*Derdin uşşaka şikayet etmede,*
*Meclis ehlinden hikayet etmede*
*[1,114; 18,39].*

Asafi Bakı əhalisinin ticarət və sənətkarlıqla məşğul olduğunu, yüksək zövqə sahib olduqlarını, evlərini naxışlarla bəzədiklərini və quyularının neftlə dolu olduğunu qeyd edir. Müəllif Bakı şəhərində müşahidə etdiyi məsələlərin ərtaflı təsvirini verməyə çalışır. O, Bakı nefti barədə daha ətraflı məlumat verir. Asafi burada neft quyuları ilə yanaşı, neft anbarların olduğunu, neftdən istifadə olunan sahələr və eləcə də onun ticarəti barədə məlumat verir. O, neftin hasilatının gün ərzində min yük həcmində olduğunu və bundan da on yük axça gəlir əldə edildiyini göstərir. O, eyni zamanda bulaq kimi yerdən qaynayan ağ neftin olduğunu da qeyd edir:

*Neçə min yük olur neft hasilləri*
*Ağ neftin mədəni var orda həm*
*Var daha yanında bir duz mədəni*
*Balıq bəndi var, adı "Şil" adıdır*

*Nəqd on yük aqcadır gəlirləri.*
*Su kimi çah içrə qaynar dəmbədəm.*
*Doldurur hər il otuz yüz məxzəni.*
*Qızıl simli balıqların damıdır.*

[*] Osmanlı qaynaqlarında Xəzər dənizi Bahr-i Kulzum adı altında təqdim olunur.

*Gündə on min aqcadır bil xəracı* — *Belə ayrılmış ilk zamandan bacı.*
*Gəmilər ilə gəlir hər dəm qumaş* — *Neftlə əvəz edib alırlar maaş.*
*Gilan gəmisinin kəsilməz ardı* — *Xocalar sevdadan ilmazlar ayrı.*
*Satdığı malları tam alacadır* — *Sanki Misir malıdır, əlacadır*
*Hər malından iyirmi beşdə bir* — *Alınır, tamqa deyə, ey binəzir*
*[1,114; 18,39].*

Bu dövrdə şəhərdə Asafinin diqqətini yəqin ki, davam etməkdə olan Səfəvi–Osmanlı müharibəsilə bağlı əksəriyyəti bağlanmış olan neft quyuları cəlb etmişdi. Bakı şəhəri Osmanlı ordusunun nəzarətinə keçdiyi üçün Osman paşa şəhərin bərpasına başladı. Bu, əksəriyyəti bağlanmış olan və ayrı-ayrı şəxslərin nəzarətində olan neft quyularının yenidən açılararaq əhalinin istifadəsinə verilməsinə kömək etdi. Asafinin məlumatına görə, neft quyularında qaynayan neft qatranından Bakı hamamlarında geniş istifadə olunurdu. Hamamların suyunu və hamamın qızdırılması üçün neft qətranından istifadə edilirdi [1,114; 18,39].

Asafi Mehmed Çələbi Bakı neftinin satılmaq üçün daha çox Gilan limanına aparıldığını qeyd edir. O, gəmilərlə daşınan neftin başlıca olaraq ipək parçalara dəyişdirildiyini yazır. Müəllif bu idxal prosesində hər maldan iyirmi beşdə bir tamğa (gömrük) vergi alındığını xüsusi olaraq vurğulayır [1,114; 18,39].

Asafinin Bakı ilə bağlı məlumatları arasında şəhər ətrafındakı *Yanar dağla* bağlı verdiyi məlumat xüsusi maraq doğurur. O, yağış və qar altında sönmədən yanan bu odun onu heyrətləndirdiyini qeyd edir.

*Hem o sahralarda çok müddet ile,* — *Üstüne рміями yağmurlar yağar,*
*Sönmeyip odlar yanar kudret ile.* — *Yine dinlenmez o sahralar yanar*
*[1,114; 18,39].*

Asafi Bakı ətrafında duz mədənlərinin olduğunu və onun qonşu ölkələrə ixrac olunduğunu göstərir. O, duzun illik istehsalının üç min anbar həcmində olduğunu və ondan gün ərzində on min axça həcmində vergi alındığını qeyd edir [1,114-115; 18,39]. Bununla yanaşı müəllif, Bakı şəhərinin günbatan hissəsində yerləşən İmam Rzanın qızı Ukeyma Xanımın və xidmətçisi *Bibi Heybətin* məzarı haqqında da ətraflı məlumat vermişdir [1,114-115; 18,39].

Asafi Bakı haqqında mühüm məlumatını bitirərək Qızılbaşların Bakı üzərinə növbəti yürüşdən bəhs edir. Onun verdiyi məlumata görə, Səfəvi şahı məğlubiyyətin əvəzini çıxmaq məqsədilə Salman xanın və Pirə Məhəmməd xanın rəhbərliyi altında 50-60 minlik qüvvəni Bakı üzərinə göndərir. Bundan xəbər tutan Osman paşa Fərhad bəy, Kaykı bəy, Heydar paşa, Əli bəy və Asafinin də qatıldığı Osmanlı ordusunu onları qarşılamaq üçün Şamaxı istiqamətinə göndərdi. Şamaxı ətrafında qarşılaşan tərəflər arasında baş verən döyüşdə məğlub olan Osmanlı qoşunu geri çəkilmək məcburiyyətində qaldı.

Qızılbaşlar tərəfindən Əli bəy əsir alındı. Bu zaman Səfəvi qüvvələri Bakını mühasirəyə aldı. Əhməd bəy tərəfindən ciddi müqavimət göstərən Bakı şəhəri 40 gün mühasirədə qalsa da, şəhər müdafiəçilərinin yardımına əlavə Osmanlı qüvvələrinin gəlməsi ilə mühasirə dayandırıldı [1,118-120; 4,269].

Səfəvi – Osmanlı müharibəsinin iştirakçısı olan Asafinin osmanlılarla qızılbaşlar arasında baş verən ayrı-ayrı döyüşlər barədə verdiyi məlumatlar xüsusi maraq doğurur. O, hətta Osmanlı ordusunun məğlub olduğu döyüşləri belə dolğun işıqlandırmaqdan çəkinmir. Asafi yazır ki, çox keçmədən Şirvana vali təyin edilən Peykər xanın rəhbərliyi altında 15 minlik Səfəvi ordusu Şirvana göndərildi. Osman paşa da Qazi Gərayın başçılığı altında Osmanlı ordusunu ona qarşı yolladı. Bu zaman yerli Şirvan dəstəsi Bürhan oğlu Əbubəkr Mirzənin rəhbərliyi altında osmanlılara qatılmışdı. Döyüş Şamaxı ilə Şabran arasında baş рмія. Asafi yazır ki, iki ordu arasında baş verən döyüşdə Əbubəkr Mirzə Qızılbaşlarla bacara bilməyəcəyini görərək, Şirvan qüvvələri ilə döyüş mövqeyindən qaçdı [1,126-128; 4,269-270]. O.Ə.Əfəndiyevin qeyd etdiyi kimi, tatarların əvvəlki uğurlarının təsiri altında özünə güvənən Qazi Gəray at belində döyüşün ən qızğın yerinə yeridi və qacarlar tərəfindən əsir alındı. Tatarların və osmanlıların birləşmiş qoşunu yenidən ağır məğlubiyyətə uğradı. Səadət Gəray də əsir düşmək təhlükəsi ilə üzləşdi. Sağ qalan tatarlar və osmanlılar döyüş mövqeyindən qaçdılar [5,175]. Peykər xan tərəfindən əsir alınan Qazi Gəray qorçilər tərəfindən Həmzə Mirzənin yanına göndərildi və Əlamut qalasında zindana salındı. Qızılbaşların əldə etdiyi bu qələbə Ağsuya kimi ərazilərin Səfəvilərin nəzarətinə keçməsini təmin etdi. Asafinin "Şücaətnamə"sinin 138a-139b vərəqləri arasında Peykər xanla Qazi Gəray arasında baş verən döyüşü əks etdirən рміями o də verilmişdir.

Asafi yazır ki, Şirvan bölgəsinin Səfəvilər tərəfindən azad edilməsi, Osman paşa və Osmanlı əsgərləri üçün irəlidə yaşanacaq qara günlərin bir müjdəçisi oldu. Bu dövrdə Osman paşa Qızılbaşların əldə etdiyi qələbənin yaratdığı böyük çətinlikləri hiss etməklə yanaşı, hökumətin lazımi vəsait göndərməməsi və əsgərlərə paylanacaq bəxşişləri təmin etməkdə çətinliklərlə üzləşməsi onun çəkdiyi iztirabları daha da artırdı. Çünki bu dövrdə onun Qızılbaşlara qarşı çıxara biləcək qüvvəsi və lazımi vəsaiti qalmamışdı. 1582-ci ilin payızında Səfəvi ordusunun hücum təhlükəsini və qışın yaxınlaşmasını nəzərə alan Osman paşa əsgərlərinə daha etibarlı sığınacaq yeri təmin etmək məqsədilə Asafi və Qayğı bəyi dərhal Qəbələ qalasını möhkəmləndirməyə göndərdi. Asafi Qəbələ şəhəri və qalasının müfəssəl təsvirini vermişdir. Qala o zaman xarab vəziyyətdə olduğundan təmir edilərək medafiəyə layiq şəklə salınmışdır. Asafinin təsvirinə görə, qala indi olduğu yerdə, iki çayın birləşdiyi yerdə olub, qədimdən bir

xəndəklə əhatələnmişdir. Bunun sahilində bir top atımı yerdə boğaz vardır ki, onun ağzı bağlandığı təqdirdə xəndəklərə su dolur və şəhərə ancaq qayıqlarla gəlirmişlər. Asafi Qəbələ qalasını belə təsvir edir:

*Adlı qaladır, amma ki, divarı yox, Gərki, yox divarı, amma evləri çox.*
*Köhnəlib, yerdə yatır, bir qaladır, Görməyən onu sanır bir qaladır.*
*Çox müvərrixlər tarixdə demiş, Əvvələr o qala su içrə imiş.*
*İki yandan iki arx axsa əgər, Bir-birini qala önündə kəsər.*
*Bir olur ikisi o suyun o dəm, Bir boğaza girər o su dəmbədəm.*
*Əvvəllər bir sədd imiş həm o boğaz, Qaladan varır ona top-draz.*
*Hirslənirmiş su dayanıb səddinə, Gerisinə dönürmüş su yenə.*
*Alırmış qalanın su çevrəsinə, Qala ortada, alır su dövrəsini.*
*Belə yazmışlar bilənlər o dəmi, Şəhrə qayıqla varırmış adamı.*

Bu zaman Partal oğlu Mustafa bəyin rəhbəriyi altında 4-5 minlik Səfəvi qoşunu Ərəşdən yürüş edərək Qəbələni mühasirəyə aldı. Mühasirənin 18-ci günü aclıq qala müdafiəçilərini çıxılmaz vəziyyətə saldı. Qızılbaşların əsir aldığı Qassani sancaqbəyi tərəfindən qala müdafiəçilərinə ünvanlanan məktubda III Muradın Səfəvi şahının sülh təklifini qəbul etdiyi və tərəflər arasında artıq müharibənin dayandırıldığı xəbərinin çatdırılması osmanlılar arasında qarşıdurmaya səbəb oldu. Hətta, onların bir hissəsi Qızılbaşların tərəfinə keçdi. Çıxılmaz vəziyyətdə qalan Asafi qalanı Partal oğlu Mustafa bəyə təslim etdi [1,131-139; 4,269-270]. Qızılbaşlar tərəfindən sorğu-suala çəkilən Asafi Ələmut qalasına Qazi Gərayın yanına göndərildi və Zülfüqar Abdal adlı bir məhkumla üç ilə yaxın bir quyuda saxlanıldı.

Qəbələdə Osmanlı ordusuna qalib gələn Qızılbaşların növbəti hücumunun qarşısını almağın çətin olacağını nəzərə alan Osman paşa Dərbəndə çəkilərək vəziyyəti İstanbula çatdırdı. Şirvan bölgəsinin tamamilə itirildiyini nəhayət dərk edən Osmanlı hökuməti Dərbəndə təcili yardım göndərməyə qərar verir. Osmanlı sultanı Krım xanlığından və Şimali Qafqazdan hərbi dəstələr, habelə hərbi sursat və pul göndərməklə Osman paşaya yardım göstərdi [5,176].

Osmanlı tarixçisi Mustafa Alinin verdiyi məlumata əsaslanan B.Kütükoğlu yazır ki, bu dövrdə Osmanlıların Dağıstan və Şirvanda mövqeyinin güclənməsini ayrı-ayrı yerli hakimlər öz nüfuzları və hakimiyyətləri üçün təhlükə hesab edirdi. Buna görə də Şamxal və Əbubəkr Mirzə Gəncənin Qızılbaş hakiminə müraciət edərək Osman paşaya qarşı birgə çıxış etməyi təklif etdi [13,129; 5,176]. Əbubəkr Mirzənin belə bir addım atması üçün ciddi əsası vardı. Belə ki, o, diyarın osmanlılar tərəfindən istila edilməsində sultana xeyli kömək etdiyi üçün Şirvanda hakimiyyətin ona veriləcəyinə ümid bəsləyirdi. Lakin gözlənildiyi kimi, Əbubəkrin Şirvan hakimiyyətinə olan iddialarını müdafiə edən Şirvan

feodallarının ümidləri özünü doğrultmadı. Mustafa paşa Əbubəkrə ölkənin qəti olaraq tabe edilməsində Osman paşaya kömək etməyi tapşırdı. Vətənə qayıdan zaman sultandan onun Şirvan hakimi təyin edilməsinə nail olacağı kimi yalançı vədlərlə onu sakitləşdirdi [5,151].

Asafinin yazdığı kimi, İmamqulu xan Qacar Osmanlı ordusunun Dərbəndə çəkilməsindən xəbər tutaraq, 1583-cü ilin yazına kimi lazımi qüvvə toplamağa tələsdi. O, gürcü hakimi Aleksandrdan aldığı yardım nəticəsində 40-50 min nəfərə çatdırdığı ordusu ilə Kür çayını keçərək Şirvana daxil oldu.[*] Asafi Qızılbaşlarla Osmanlı ordusu arasında baş verən Niyazabad döyüşü barədə müfəssəl məlumat verir. İmamqulu xan Şamaxıda olarkən Niyazabadda Silistriya sancaqbəyi Yaqub bəyin rəhbərliyi altında Osmanlı qoşununun cəmləşdiyindən xəbər tutaraq Rüstəm xanı 6 minlik Qızılbaş dəstəsi ilə onlara qarşı göndərdi. Qızılbaşlar bu döyüşdə mühüm qələbə qazandı. Osmanlılar döyüşdə Mustafa bəy, Abdaloğlu, Divanə Malkoç və Yaqub bəyi itirərək, silah və sursatı ataraq Müskür meşələrinə, рмiя da Dərbəndə qaçmaq məcburiyyətində qaldılar [1,151-155; 4,271].

Niyazabad döyüşündə məğlub olub qaçan Osmanlı əsgərləri Dərbəndə çatan zaman silahdarbaşı Əli Ağanin təklifi ilə Osman paşa əsaslı ordu ilə İmamqulu xana qarşı hərəkətə başladı. Asafinin «Şücaətnamə»sində haqqında bəhs olunan ən mühüm döyüşlərdən biri də, 1583-cü il mayın 8-11-də tərəflər arasında baş verən "Məşəl savaşı"dır.[*] Müəllif yazır ki, Osman paşanın Niyazabad döyüşündə Osmanlı ordusunun məğlubiyyətini gizlətməsi mümkün deyildi. O, əsgərlərindəki intiqam hissinin yüksək olduğunu görərək onların təchizatını yaxşılaşdırdı və Səfəvilər üzərinə yürüşə qərar рмiя. Bu zaman əldə etdiyi qələbə nəticəsində öyünən və qürurlanan İmamqulu xan Osman paşaya meydan oxuyaraq ona Dərbənddən çıxaraq döyüş meydanına gəlməsi üçün xəbər göndərdi. Osman paşa ordusunu döyüşə hazırlayaraq Samur çayını keçdi, Vilayət Harkı və ya Palasa adıyla tanınan düzün ortasındakı Baştəpə adlı yerdə öz qərargahını qurdu. [**]

---

[*] B.Kütükoğlu Osman paşanın Sərdar Fərhad paşaya yazdığı məktubdan bəhs olunan "Mühimmə dəftəri"ndəki hökmə əsasən göstərir ki, Osmanlı ordusu ilə döyuşdə İmamqulu xanın rəhbərliyi altında qızılbaşların sayı 20 min nəfər olmuşdu. [Bax: 13,129, qeyd 214].

[*] Asafi dövrün digər qaynaqlarından fərqli olaraq, döyüşün rəbbül-axırın 16-19-da deyil, rəbbül-əvvəlin 11-14-də olduğunu göstərərək səhvə yol verir. B.Kütükoğlunun qeyd etdiyi kimi, o, bu dövrdə görünür Əlamutda zindanda olduğu üçün döyüşün dəqiq tarixini müəyyən etməkdə çətinlik çəkmişdir. [Bax: 13,130, qeyd 218].

[**] B.Kütükoğlunun fikrincə, dövrün digər mənbələri, o cümlədən Osman paşanın məktubunda və Mustafa Ali də döyüşün Vilayət Harkı və ya Palasa adlı yerdə olduğu göstərilir. [Bax: 18,130, qeyd 218].

Müəllif bu ərazidə vaxtı ilə Toxtamış xanla Teymur arasında döyüşün baş verdiyini xatırladır.

*Geldi askerle o şir-I san- sitan,* *Hem Palasa diyü kalmışdı alem.*
*Eyledi bir cay-I merğubı mekan.* *Tohtamış xan ile anda cenk,*
*Ol yire dirler Vilayet Harkı hem,* *Eylemişler nitekim Giv u Peşeng*
*[1,161].*

Tərəflərin qatı duman altında dörd gün ərzində, nəinki gecə hətta, gündüz belə məşəl yandıraraq vuruşduğu bu döyüş tarixə "Məşəl savaşı" adı ilə daxil olmuşdur. Asafi yazır ki, Osman paşa Samur çayı sahilinə çatanda düşmən ordusunun yaxınlaşdığını nəzərə alaraq döyüş mövqeyi tutdu. Cəfər paşa Rumeli və Kəfə əsgərləri ilə ordunun sol cinahında, Çərkəz Heydər paşa Sivas və Kastamonu sancaqbəyləri ilə sağ cinahda, Osman paşa isə mərkəzdə yer aldı. Osmanlı ordusunun önündə yeniçəri tüfəngçiləri və topçular yerləşdirildi. Səfəvi ordusunda isə İmamqulu xan Qacar mərkəzdə, sağ cinahda Rüstəm xanın, Mehdiqulu xan Şamlının və Əbubəkr Mirzənin, sol cinahda isə Heydər xan, Xəlifə Ənsarın iki oğlu – Mürşidqulu Sultanla Şahverdi Sultanın və aznaur Yoramın rəhbərliyi altında Kaxeti gürcüləri yer almışdı [1,161-166; 9,112].

Mayın 8-də  рміям günü sübhdən başlayan döyüşün ilk günü ön qüvvələrin qarşılaşması ilə başa çatdı. Tərəflər öz mövqelərinə çəkilərək sabaha kimi gözlədilər. Növbəti gün top atəşilə başlayan döyüş gecə yarıya kimi davam etdi. Hətta tərəflər məşəllər yandıraraq gecə yarıya kimi vuruşdular. Döyüş Qızılbaşların üstünlüyü şəraitində keçdi. Döyüşün üçüncü günü tərəflər bir-birinə qarşı hücum etməyərək dincəldilər. Bu zaman Osman paşa özünü geriyə çəkilməyə hazırlaşırmış kimi göstərərək əsas ehtiyatları arxaya daşıtdırdı. Asafi yazır ki, Qızılbaşlar osmanlıların əsas qüvvələrinin geri çəkildiyini zənn edərək, onların yolunu kəsmək üçün Osmanlı ordusunun arxasına keçərək Samur çayının üç fərsəxliyində mövqe tutdular [1,161-166; 8,195; 13,130-131]. Buna görə də, mayın 11-də çərşənbə günü döyüşün dördüncü günü Qızılbaş ordusu geri çəkilən Osmanlı ordusuna mane olmaq üçün onu mühasirəyə almağa çalışsa da, güclü top atəşi ilə qarşılaşdı. Osmanlı ordusunun sol cinahına Qızılbaşlar ciddi zərbə vursa da, Köstəndil sancaqbəyi və Rumeli əsgərlərinin yardımı sayəsində Qızılbaşlar məğlubiyyətə uğradıldı. İmamqulu xan məğlubiyyətdən xilas olmaq üçün çox çalışsa da buna nail ola bilmədi. Gürcü aznaurları Dağıstan dağlarına qaçdı. İmamqulu xan Qacar ciddi təlafat verərək geri çəkilməyə başladı. Osman paşa Qızılbaşları təqib etməyə icazə vermədi. Osmanlılar xeyli qənimət ələ keçirdilər [Bax: 1,159-170; 4,271]. «Məşəl savaşı» Osmanlı ordusunu Şirvandan çıxarmaq üçün Qızılbaşların həyata keçirdikləri sonuncu ən böyük hərbi əməliyyatlardan biri oldu. Lakin bu döyüşdəki uğursuzluq Osman paşanın işğal

edilmiş ərazilərdə öz mövqeyini möhkəmləndirməsinə, Şamaxını yenidən ələ keçirərək orada yeni qala tikməsinə şərait yaratdı [12,126-127; 13,132; 14,72].

Asafinin "Şücaətnamə"sində diqqəti cəlb edən məsələlərdən biri də 1583-cü ildə Krımda Məhəmməd Gərayın öldürülməsindən рмiя hakimiyyətə gətirilən İslam Gəraya qarşı vəliəhd Səadət Gərayin üsyanından Qızılbaşların yararlanmaq cəhdi barədə məlumatıdır. Asafi yazır ki, Krım taxtının varisi Səadət Gərayin əmisi İslam Gəraya qarşı üsyan qaldırdığı barədə xəbəri Qızılbaşlar bir zəfər müjdəsi kimi qəbul etdilər. Onlar üsyançı tatarlarla əlaqəyə girərək osmanlıları sıxışdırmaq arzusuna düşdülər. Qazi Gəray həbsdən azad edildi və ona Krım taxtı vəd edildi. Qazi Gəray ilk öncə özünü sanki Qızılbaşların vədini qəbul etmiş kimi göstərdi. Onun niyyəti həbsdən azad olmaq və Osmanlı torpağına keçmək idi. Buna görə də, hərəkətlərində səmimi olduğunu göstərməyə çalışdı. O, həbsdən azad edilərək Qəzvin sarayına gətirildi. Məhz bu zaman lazım olan məktubları yazmaq üçün onun tələbi ilə Asafi də zindandan azad edildi [1,218-229; 4,273].

Maraqlıdır ki, vaxtı ilə Səfəvi sarayında əsir olan Adil Gəraya da hər cür diqqət və iltifat göstərən Səfəvi hökuməti ümid edirdi ki, xoşrəftarlı münasibət göstərməklə, onu öz tərəflərinə çəkib, sultanla ittifaqdan əl çəkməyə razı salar və bununla da Şirvanı Krım tatarlarının viranedici hücumlarından qurtara bilərlər [Bax: 5,163]. Lakin, Adil Gəray öldürüldükdən рмiя bu cəhdlər uğursuzluqla nəticələndi. Asafinin verdiyi məlumatdan aydın olur ki, Qızılbaşlar yaranmış vəziyyətdə Qazi Gərayla bağlı yenidən belə bir təşəbbüs göstərmişdilər. 1585-ci ildə Qazi Gərayin yaranmış vəziyyətdən istifadə edərək Vana qaçması və Osman paşanın Təbriz yürüşünə qatılması Səfəvi şahının bu cəhdinin də uğursuz olduğunu göstərdi.

Asafinin "Şücaətnamə"sində Osman paşanın 1585-ci il Təbriz səfəri barədə maraqlı məlumat verilmişdir. Bütün Azərbaycanı ələ keçirmək arzusunda olan Osmanlı sultanı böyük ordunu Osman paşanın sərəncamına verərək onu Təbriz üzərinə göndərdi. 1585-ci il avqustun 12-də Osman paşa Ərzurumu tərk etdi və Pasinabad – Çaldıran – Xoy – Mərənd – Sufiyan –Təbriz istiqamətində hərəkətə başladı [5,182].

1585-ci ilin yayında Səfəvi şahı və oğlu Həmzə Mirzə Qarabağ yaylaqlarında idilər və günlərini eyş-işrətdə keçirirdilər. Onlar yaylaqda ikən Osman paşanın Təbriz üzərinə yürüş xəbərini aldılar. Həmzə Mirzə 20 minlik qüvvə ilə ona qarşı göndərildi. Sentyabrın 18-də Sufiyan ərazisində Məhəmməd xan Toxmağın başçılığı ilə Qızılbaşların öndə gedən dəstəsi düşmən hissələri ilə üz – üzə gəldi. Asafinin qeyd etdiyi kimi, axşama kimi davam edən döyüşdə əvvəlcə Qızılbaşlar osmanlıları böyük itkiyə məruz qoysa da, рмiя onların böyük üs-

tünlüyü qarşısında geri çəkilməyə məcbur oldular [1,245; 5,183-184; 13,156]. Növbəti gün Osman paşa yürüşü davam etdirərək Təbrizin şimalından keçən Acısu çayının keçidinə yaxınlaşdı. Sentyabrın 20-də Osman paşa Təbriz şəhərinə hücuma başladı. Əsasən müdafiəsiz qalmış Təbriz çoxsaylı nizami Osmanlı ordusunun hücumunu dəf edə bilmədi. Osman paşa şəhərə daxil olsa da, şəhər əhalisinin ciddi müqaviməti ilə qarşılaşdı. Asafi Pirqeyb xan və Hüseynqulu Sultanın gecə basqınları təşkil edərək osmanlılara xeyli itki verdiyini qeyd edir. Düşmənin Sahibabad meydanına kimi irəlilədiyini nəzərə alan Təbriz hakimi Hüseynqulu Sultan və Pirqeyb xan müqavimət göstərməyin mənasız olduğunu görüb şəhəri tərk etdilər [1,245; 5,183-184; 13,156]. Səfəvi hakimləri tərəfindən taleyin ümidinə buraxılmış təbrizlilər daha bir müddət inadlı müqavimət göstərdilər. Şəhər əyanları özlərini və əmlaklarını talandan qorumaq üçün Qazi Kamran bəy Əvhədinin, şeyxülislam Mövlana Məhəmməd Əlinin və digər adlı-sanlı şəxslərin daxil olduğu nümayəndə heyətini Osman paşanın yanına göndərdilər. Lakin bu, əhalini amansız kütləvi qarət və talandan xilas edə bilmədi [4,184; 13,156].

B.Kütükoğlu Mustafa Alinin verdiyi məlumata əsaslanaraq yazır ki, Təbriz hamamlarından birində Osmanlı zabitinin öldürüldüyü xəbəri Osman paşaya çatdırıldıqda o, əhalini qılıncdan keçirməyi əmr etdi [13,156, qeyd 38]. Osmanlı əsgərləri Təbrizin küçələrini ələk-vələk edir, qarşılarına çıxanları qətlə yetirirdilər. Asafi bu barədə yazırdı:

*Oldu birgün yine bir kar-I ehak,*
*Sureta zulm idi manen müstehak.*
*Kala her koldan olur iken bina,*
*İrdi asker içre hatıfden sada.*
*Dediler Tebriz ehline kıtal,*
*Emr olupdur katl edin virmen mecal.*
*Asker içre eyleyen bu kavli guş*
*Durmadılar etdiler cuşi-I huruş.*
*Oldular şehre şitab-ile devam,*
*Mevç urup derya gibi oldu revan.*
*Ehl-I sukun bazı hem der-kar idi,*
*Açılup dükkanlar bazaar idi.*
*Girdi şehr içre bu asker pür-yarak,*
*Doldu bir saatde leşle her sokak.*
*Katl edüp virmediler asla aman,*
*Etdiler ehlin esir-I na-tuvan.*
*İtdi serdar anda çün bu karı guş,*
*Eyledi bir kase zehri sanki nuş.*
*Bi-huzur olup heman oldu suvar,*
*Pir-gam oldu gitdi elden ihtiyar*
*[1,250-251].*

Asafinin verdiyi məlumata görə, bir gün ərzində şəhərdə 5-6 mindən artıq adam qırğının qurbanı olmuşdu [1,250-251]. Lakin dövrün farsdilli və Osmanlı mənbələrinin təhlili qırğın qurbanlarının daha çox olduğunu – 20 minə çatdığını göstərir [13,159, qeyd 39; 5,185]. O.Ə.Əfəndiyevin qeyd etdiyi kimi, Təbriz Osmanlı istilası zamanı "İslam şəhərləri arasında" tayı-bərabəri olmayan, əhalisi sıx və abad bir şəhərdən əhalinin tərk etdiyi, yarımdağıdılmış, ölü şəhərə çevrildi [5,185].

Asafi Təbriz yaxınlığında Osmanlı qoşunu ilə Qızılbaş ordusu arasında baş verən iki mühüm döyüş haqqında da məlumat verir. Osmanlı ordusunun Təbrizdə ərzaq qıtlığı ilə üzləşməsindən xəbər tutan Həmzə Mirzə düşmənin şəhər ətrafında yerləşən canlı qüvvəsinə zərbə vurmaq üçün qorçibaşı Qulu bəy Əfşar göndərdi. O, Fəxusfənc çayını keçərək Təbrizə yaxınlaşdı. Osman paşa Cığal oğlu Sinan paşanı ona qarşı göndərdi. Bu zaman Asafi və Qazi Gəray da Sinan paşanı müşayiət edirdi. Qulu bəyin göndərdiyi ön dəstə Saidabadda Sinan paşanın ön qüvvələrinə çataraq geri çəkilmə manevri ilə onları öz arxasınca Qızılbaşların pusquda duran əsas qüvvələrinə tərəf gətirdi. Öz ordusunu artilleriyanın köməyindən məhrum edən Sinan paşa Qızılbaş süvarisinin sarsıdıcı hücumuna məruz qaldı. Osmanlı müəlliflərinin təsdiq etdiyi kimi, bu döyüşdə Osmanlı ordusu böyük itki рмія. Mahmudi Həsən bəy, Sipahi-oğlanları katibi Mehmed Çələbi, ali divan katiblərindən Əbdürrəhman Əfəndi, Yəhya Sübaşı öldürüldü, Urmiya hakimi Boxti Xalid bəy və Harran bəyi Yusif əsir alındı [1,253-354; 13,157-158; 5,185].

Qızılbaşların bu qələbəsi Həmzə Mirzənin Sinan paşa üzərinə yeni yürüşə başlamasına şərait yaratdı. Oktyabrın 25-də Fəxusfənc çayı kənarında növbəti döyüş baş рмія. Bu döyüşdə Həmzə Mirzə şəxsən iştirak etdi. Asafi bu döyüşü ətraflı təsvir edir. O, yazır ki, şahın ox-yay qorçisi Allahqulu bəy Qazi Gəraya məktub göndərərək Qızılbaşların Şənbi-Qazan tərəfə 200-300 adam göndərib əsas qüvvələri də oraya yönəldərək ordu qərargahını qarət edəcəyini bildirdi. Sinan paşa Qaraman hakimi Murad paşa və Diyarbəkr hakimi Mehmed paşanın başçılığı ilə ona qarşı qoşun göndərdi. Qızılbaşların sağ cinahına Toxmaq xan rəhbərlik edirdi və Sinan paşanın qüvvələrinə qarşı dayanmışdı. Sol cinaha İmamqulu xan başçılıq edirdi, ona qarşı Diyarbəkr hakimi Mehmed paşanın qüvvələri dururdu. Günortaya kimi tərəflər bir-birinə ox atmaqla kifayətləndilər. Bu zaman İmamqulu xanın dəstəsi çayı keçərək hücuma keçdi. Döyüş gecə qaranlığına kimi davam etdi. Həmzə Mirzənin əmri ilə Şahrux xan düşmən mərkəzinin arxasına keçdikdən рмія, döyüş Qızılbaşların qələbəsi ilə başa çatdı. Osmanlı qüvvələri sayca üstün olmasına baxmayaraq pərən-pərən salındı və geri çəkilməyə başladı. Osmanlı sərkərdələri Mehmed paşa öldürüldü, Murad paşa isə əsir alındı. Qızılbaşlar düşmənin əsas qüvvələrinin yerləşdiyi qərarqaha kimi təqib etdilər [1,253-256; 13,159; 9,115; 5,186; 14,83].

Asafinin fikrincə, Həmzə Mirzənin rəhbərliyi altında qızılbaşların aramsız hücumları, təbrizlilərin müqaviməti, ərzağın çatışmaması və Osman paşanın ağır xəstələnməsi osmanlıların vəziyyətini xeyli çətinləşdirdi. Osman paşa orduya rəhbərliyi Sinan paşaya tapşırsa da, baş verən son hadisələr ona pis təsir etmişdi. Sinan paşa oktyabrın 28-də Təbrizdə Cəfər paşanın 7 minlik hərbi hissəsini

qoyaraq şəhəri tərk etdi. Asafinin qeyd etdiyi kimi, Sinan paşanın rəhbərliyi altında Osmanlı ordusu Şənbi-Qazanda dincəlməyə dayandığı zaman Həmzə Mirzə onlara hücum etdi. Qızılbaşların gözlənilməz hücumu nəticəsində düşmənin qəfil yaxalanması Osmanlı ordusunda çaşqınlığa səbəb oldu. Axşama kimi davam edən döyüş zamanı Çaldıran sancaqbəyi Xosrov bəy öldürüldü. Yalnız silahdarbaşı Xürrəm ağanın rəhbərliyi altında osmanlıların əks hücumu qızılbaşları geriyə çəkilməyə vadar etdi. Bu zaman onlar düşmənin 85 qatar yüklü dəvəsini qənimət kimi özləri ilə apardılar [1,258-260; 13,161; 5,186; 14,83-84]. Asafinin "Şücaətnaməsi"nin 282b vərəqində Şənbi-Qazan döyüşünə aid рміями o öz əksini tapmışdır. Asafi yazır ki, Şənbi Qazan döyüşü başa çatdığı gecə Osman paşa vəfat etdi. Orduda çaxnaşma yaranmaması üçün bu xəbər əsgərlərdən gizlədildi [1,260-261; 13,161; 14,84].

Osman paşanın ölümündən xəbər tutan Həmzə Mirzə Osmanlı ordusunu təqib edərək ona növbəti zərbə vurmağa səy göstərdi. Həmzə Mirzə İsmailqulu xan Şamlı və Toxmaq xan Ustaclı ilə birlikdə geri çəkilməkdə olan Osmanlı ordusuna Mayan adlı yerdə növbəti dəfə hücum etdi. Düşmən xeyli itki verərək yoluna davam etdi. Həmzə Mirzə Tasuca qədər düşmənin ardınca gedərək ona tez-tez gözlənilməz zərbələr vurdu.

Osmanlı müəllifi Asafinin "Şücaətnamə"sində ətraflı bəhs olunan Osmanlı – Səfəvi müharibəsi son nəticədə Qızılbaşların məğlubiyyəti ilə başa çatdı. 1590-cı il İstanbul sülhü ilə başa çatan müharibədə Səfəvi dövləti əksər Azərbaycan torpaqlarından məhrum oldu.

M.Rıhtımın düzgün olaraq qeyd etdiyi kimi, dövrümüzdə yazılan tarixi tədqiqatlarda bu kimi əsərlər qaynaq olaraq istifadə edilərkən, onun yalnız döyüşlər haqqındakı məlumatlarından istifadə edimişdir. Osmanlı və Səfəvi dövlətləri arasında baş verən hadisələr hər iki dövlətin öz maraqları və dövrün gerçəklikləri göz önünə alınaraq qiymətləndirilməlidir [18,41].

Türkiyə tarixçiləri Səfəvi – Osmanlı münasibətlərinin tədqiqi zamanı Asafinin əsərindən geniş istifadə etdikləri halda, uzun müddət tarixşünaslığımızda bu dəyərli mənbə tədqiqata cəlb olunmamışdır. 1578-1585-ci illər Səfəvi – Osmanlı münasibətlərini öyrənmək üçün Asafinin "Şücaətnamə" əsərinin mühüm əhəmiyyəti vardır. Bu mühüm mənbədə Səfəvi və Osmanlı ordusu arasında baş verən döyüşlərin səbəb və nəticələri barədə ətraflı məlumat verilmişdir. Burada həmçinin, Azərbaycanın ayrı-ayrı şəhərləri ilə bağlı mühüm məlumat da öz əksini tapmışdır.

**MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT**

1. Asafi Dal Mehmed Çelebi ve Şeca`atname. Hazırlayan Doç.dr. H.Mustafa Eravçı. İstanbul, 2009.
2. Azərbaycan tarixi. Yeddi cilddə, Üçüncü cild. Bakı, 1999.
3. Bilge Sadık M. Osmanlı devleti ve Kafkasya. Eren Yayınları. İstanbul, 2005.
4. Eroğlu S. Asafinin Şeca`at-name mesnevisi. //Turkish Studies. Vol. 4/7, 2009.
5. Əfəndiyev O.Ə. Azərbaycan Səfəvilər dövləti. Bakı, 2007.
6. Hərimi İ.R. Osmanlı qoşunlarının Azərbaycana yürüşləri (XVI əsrin sonu). Bakı, 2007.
7. Fərzəlibəyli Ş.F. Azərbaycan və Osmanlı imperiyası (XV-XVI əsrlər). Bakı, 1999.
8. Gelibolulu M.A. Künhul-Ahbar. (Çeviren F.Çerçi). Kayseri, 2000.
9. Kılıç R. XVI. Ve XVII. Yüzyıllarda Osmanlı – İran siyasi antlaşmaları. Tez yayınları, istanbul, 2001.
10. Kırzıoğlu F. Osmanlıların Kafkas ellerini fethi (1450-1590). Ankara, 1998.
11. Книга Орудж-бека Баята Дон – Жуана Персидского. Перевод с английского, введение и коментарии д.и.н. Октая Эфендиева, к.и.н. Акифа Фарзалиева. Баку, 1987.
12. Kütükoğlu B. Osmanlı-İran siyasi münasibetleri 1578-1590. İstanbul, 1962.
13. Kütükoğlu B. Osmanlı-İran siyasi münasibetleri (1578-1612). Istanbul, 1993.
14. Гусейн Ф. Османо – Сефевидская война 1578-1590. Баку, 2005.
15. Öztuna Y. Başlangıcından zamanımıza kadar Türkiye tarihi. C.7, Ankara, 1965.
16. Рахмани А.А. Азербайджан в конце XVI и в XVII века. Баку, 1981.
17. Rehimizade İ. Tarih-i Osman Paşa. (Tercüme Y.Zeyrek). Kültür Bakanlığı, Ankara, 2001.
18. Rıhtım M. Azerbaycan tarihi için kaynak bir eser: Şecaatname ve XVI. Asrda Bakü. // Journal of Qafqaz University, Number 20, 2007.
19. Uzunçarşılı İ.H. Osmanlı tarihi. III cilt, I. Kısım. Ankara, 1988.

**T.H.Najafli**

**THE “SHUCAETNAMEH” BY ASAFI DAL MEHMET CHELEBI – AN IMPORTANT SOURCE ON THE 1578-1590 YEARS OTTOMAN-SAFAVI WAR**

**SUMMARY**

One of the important sources for studying the Safavi – Ottoman wars in the last quarter of the sixteenth century is the “Shucaetnameh” by Asafi Dal Mehmet Chelebi.

Asafi who was the participant of the 1578-1590 years Ottoman- Safavi war wrote his works in the form of distich. In the course of Ottoman- Safavi war that lasted for about twelve years the Ottoman troops had occupied South Caucasus, including most of the Azerbaijani areas. The historian Asafi wrote all the events seen and experienced by him during the march of the Ottoman army in verses. In “Shucaetnameh” which is an important source for the history of Azerbaijan there is wide information about the battles that took place between the Ottoman army and Qizilbashes, about the state of the Shirvan region at the end of the sixteenth century, its cities, people, geographical, social, economic and natural features.

The information provided by the author in relation to the events witnessed by him including the clashes that took place between the Ottoman and Safavi armies in the 1578-1585 years is of special interest.

**Т.Г.НАДЖАФЛИ**

## ТРУД АСАФИ ДАЛ МЕХМЕТА ЧЕЛЕБИ «ШУДЖААТНАМЕ» («КНИГА ХРАБРОСТИ») – КАК ЦЕННЫЙ ИСТОЧНИК ПО ИСТОРИИ СЕФЕВИДО-ОСМАНСКОЙ ВОЙНЫ 1578-1590 ГГ.

### РЕЗЮМЕ

Одним из ценных источников по изучению сефевидско-османских отношений в последней четверти XVI века является труд автора Асафи Дал Мехмета Челеби «Шуджаатнаме» («Книга храбрости»).

Участвовавший в сефевидо-османской войне 1578-1590 годов Асафи написал свой труд в стиле и основие стихов. В ходе этой войны османская армия оккупировала Южный Кавказ, в том числе и большую часть земель Азербайджана. Историк Асафи в стихотворной форме описал  события, увиденные им во время похода османской армии в Азербайджан.

В произведение «Шуджаатнаме», являющемся ценным источником по истории Азербайджана, содержатся подробные сведения о сражениях, имевших место между и гызылбашской армиями, о положении городов, населении, географических, социально, экономических и природных особенностях Ширванского края. Особый интерес вызывают сведения о сражениях между армиями османской и Сефевидской армиями в 1578-1585 гг., очевидцем которых был автор.

**t.ü.f.d. F.Əliyevanın və t.ü.f.d. Ə.Ələkbərovun**
**müsbət rəyləri əsasında çap olunur.**

# НЕСКОЛЬКО РЕЛЯЦИЙ РУССКОГО РЕЗИДЕНТА И.И.НЕПЛЮЕВА В СТАМБУЛЕ КАК ЦЕННЫЙ ИСТОЧНИК ПО ИСТОРИИ МЕЖДУНАРОДНЫХ ОТНОШЕНИЙ 1722 ГОДА

**Тофиг МУСТАФАЗАДЕ***

Как известно, в начале XVIII в. начиная с 1721 по 1734 гг. в столице Османской империи Стамбуле находился в ранге резидента один из талантливых дипломатов Петра I, постоянный представитель России Иван Иванович Неплюев [1]. Он сыграл неоценимую роль в урегулировании русско-османских противоречий в связи с разделом территорий распадавшейся Сефевидской державы и заключением Стамбульского договора 1724 г.

И.И.Неплюев не только занимался активной дипломатической деятельностью, но и регулярно отправлял дипломатические сообщения и рапорты о состоянии Османской империи, взаимоотношениях его с другими государствами. Сведения И.И.Неплюева имели важное значение в формировании политической линии русского правительства в отношении Османского государства и по некоторым другим вопросам. Хранящиеся в Архиве Внешней Политики Российской Империи донесения и рапорты И.И.Неплюева сегодня являются ценными источниками для изучения истории Турции, соседних с нею стран, в том числе Азербайджана, и истории внешней политики Русского государства. Одним из таковых источников можно считать две реляции И.И.Неплюева от 8 февраля, 8 марта и 4 декабря 1722 г.

В секретной реляции И.И.Неплюева из Стамбула от 8 февраля 1722 г. говорится о том, что османский двор внимательно следит за тем, как Сефевидское государство распадается, и многие провинции вышли из-под повиновения центральной власти. Ширванские повстанцы, захватив г. Шамаху тайно послали представителей с письмами к османскому двору, требуя протекции и обещая принятия турецкого подданства. Повстанцы даже начали чеканить монеты от имени султана Ахмеда III; а в мечетях в пятницах читают хутбу на имя султана [2, л. 30 и об.].

По словам И.И.Неплюева, османский двор, не разглашая эту тайну, хочет принять повстанцев под свою протекцию, но ждёт отъезда шахского посла из страны.

---

* Tofiq Teyyub oğlu Mustafazadə - t.ü.e.d. AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun şöbə müdiri

Османское правительство скрывало свои связи с ширванскими повстанцами не только из-за опасения вызвать негативную реакцию сефевидского двора, но и, не желая портить отношений с Россией, тем более, что когда в августе 1721 г. ширванские повстанцы, руководимые Хаджи Даудом, вместе с войсками Сурхай-хана Казикумыкского и Кайтагского усмия Ахмед хана взяли г. Шамаху, пострадали находившиеся там российские купцы. Последнее же случилось потому, что русские купцы, обнадёжившись в неприкосновенности своих товаров, воспользовались этим и приняли на хранение ценности шамахинских богачей. Узнав, что ценности спрятали русские купцы, разгневанная 2-х тысячная толпа повстанцев к вечеру того же дня, когда была взята Шамаха, напала на их лавки и разграбила [3, с. 172]. Это видно и из беседы русского резидента в Иране С.Аврамова с Хафиз беем, который был назначен посланником Сефевидского государства. Из их беседы становится ясно, что в Шамахе было убито 5 русских купцов и разграблено имущество на 100 тыс. тюменов (т.е. примерно около полмиллиона русских рублей) [4, лл. 34-35]. А.П.Волынский сообщает точную сумму ограбленных товаров: 472.840 рублей [5, л. 6 об.]. Надо сказать, что современники отмечают о терпимом отношении ширванских повстанцев с иностранными купцами. Русские купцы пострадали не только потому, что спрятали местных и иранских купцов и их товары, но и по причине того, что они стреляли по повстанцам из пушек, расставленных в караван-сарае [6, с. 51]. Вышеупоминаемый Хафиз бей тоже считал, что повстанцы сперва благожелательно относились к русским купцам. Он сам видел, как во время штурма города русский посланник Флори стоял на калахано, и повстанцы его не трогали [4, лл. 34-35].

Секретная реляция И.Неплюева от 8 февраля 1722 г. так же подтверждает вышесказанную мысль.

Одновременно османский двор требовал объяснения по поводу убийства и грабежа русских купцов в г. Шамахе в августе 1721 г. Представители повстанцев объяснили, что причиной тому было следующее: всем купцам в Шамахе было повелено собраться в определённом месте вместе со своими товарами, за что им была обещана неприкосновенность. Но русские купцы из-за своей алчности взяли и все ценные вещи жителей города. Увидев это, повстанцы, разгневались и убили их. Было убито 20-25 человек, и было ограблено имущество в сумме 115-119 левков [2, лл. 30-31].

В той же реляции И.И.Неплюев сообщал, что 8 февраля был у него голландский посол Колиер, который услышал, о тайном прибытии к османскому двору некоторых представителей. Они «договорились, чтоб

Порта их взяла в свою протекцию и всю б Персиею овладела, а они де будут жить с удитами (т.е. адатами – порядками – Т.М.) турскими на таких де привилижнах, как татары крымские» [2, лл. 30-31]. По словам голландского посла, османский двор намеревался отправить войско в Сефевидское государство, чтобы объединившись с повстанцами занять всю его территорию; шахского посла обманывали в том, что якобы войска посылаются против бунтовщиков, чтобы привели их к послушанию шаху. Того же числа состоялся диван, где муфти объявил, что в Кызылбашское государство должна отправиться армия во главе с самим везиром или одним главным пашой. Скорее всего ясно, что везирь в поход не пойдёт [2, лл. 32 об.-33].

Данная реляция была прочитана сперва в доме Петра I, а потом в Тайном Совете и в Коллегии иностранных дел и в Сенате в присутствии самого императора [2, л. 33].

Надо отметить, что Петр I был обеспокоен перспективой принятия Хаджи Давуда и ширванских повстанцев в султанское покровительство, и неслучайно ещё 22 февраля он дал указание Г.Головкину воспрепятствовать тому: «Сего времяни получили мы писмо от Волынского из Гребней, что он подлинно получил ведомость с Шемахи, что бунтовщик Даудбек послал к салтану турскому, чтоб его принял в свою протекцию. Чего для надлежить вам отправить курьера в Царьград к резиденту, дабы оной там предложил, чтоб ево не принимали под протекцию; объявляя сколько он убытку нам зделал» [2, л. 1].

Вопрос о принятии Хаджи Давуда и ширванских повстанцев под османскую протекцию нашёл своё отражение и в реляции И.И.Неплюева от 8 марта 1722 г. В реляции говорится, что секретарь переводчика османского правительства известил об отправке руководителями ширванских повстанцев представителей с письмами: «… чрез оныя письма требовали они у Порты протекции и поддавались в подданство и просили, дабы им дан был паша для управления, как обычай в провинциях» [2, л. 1]. И потому 8 февраля был диван, где участвовал и муфти. В письменном ответе говорилось: «чтоб они с Персиею в своих делах исправлялись без опасения, понеже перскому королю от Порты споможения не будет» [2, л. 1]. Из реляции выясняется, что османский двор ещё осторожничал с принятием в подданство ширванских повстанцев, опасаясь протеста со стороны российского царя и шаха, из-за чего представителей повстанцев в Стамбуле приняли тайно. Секретарь ещё сказал: «… посол перской говорил везирю: ежели король перской своими силами с ребелями не управится, дабы тогда дали

споможение, на что ему ответствовало, что оные ребели магометаны и того ради по закону их мусульманов никаким образом поступать невозможно, вы де управляйтесь как можете сами, а Порта ни вам ниже ребелям споможения не даёт и в дела ваши мешатся не будут» [2, л. 18 об.].

Из реляции от 8 декабря 1722 г. становится ясно, что накануне в Стамбул прибыл ещё один представитель Хаджи Давуда (по словам И.И.Неплюева кахья Хаджи Давуда) с письмами. Хаджи Давуд снова выпрашивал султана Ахмеда III о протекции, так как ходили слухи об этом. Ширванским повстанцам было послано через Эрзерум воинское снаряжение и войско, приказав всем войскам из азиатской части империи идти в Восточную Грузию, находившуюся в составе Сефевидской державы. Планировалось, овладев Восточной Грузией, османская армия продвинется в Ширван и вытеснит русские войска, которые прибудут для захвата Ширвана [2, лл. 19].

И муфти издал фетву, согласно которой османский двор не должен был оставить без защиты ширванцев и других единоверцев, помешать России взять под свою протекцию Восточную Грузию [2, л. 440]. В Стамбуле ходили слухи о том, что якобы русский царь, заключив союз с шахом, намерен взять в свою протекцию Грузию, Мингрелию, Черкесию и Чёрное море, а так же разорить Османскую империю, якобы Петр I поставил 50 тысячное войско около Азова, а 100 тысячную регулярную армию введет в Восточное Закавказье и после главного сражения с османскими турками пойдёт в Трапезунд. Нерегулярные российские войска будут отправлены на Кубань, чтобы они разгромили татар, проживающих между Кубанью и Грузией [2, л. 440 об.]. И.И.Неплюев писал о намерении Турции начать войну с Россией: «… яко они турки взбираются и предбудущей кампании против вашего величества на войну всею силою и множеством своего бесчеловечного нерегулярного народа елико возмогут которых в том да погибель: вечная и рассуждают, как знатные персоны, так и простой народ, чтоб им подвигнутся всею силою… И ныне они беспрестанно посылают в Арзерум и в Азов амуницию и артиллерию и намерены они, чтоб сей зимы жоржианского князя город его Тифлис со всеми протчими и желают Мирвейса кандагарского и хивинцов к себе в алианц склонить и англичан призывать» [2, лл. 440 об. – 441].

И.И.Неплюев писал, что «чрез всевозможные способы» старается «удержать их от явного разрыву мира» [2, л. 441]. Он же предложил османскому правительству отправить в Россию своего представителя. И.И.Неплюев даже обещал везирскому кахьи и реис-эфенди каждому по

тысячу червонцев, чтобы они содействовали сохранению мира между Османской империей и Россией [2, л. 441 и об.].

Из реляции видно, что 26 октября 1722 г. везирский кахья призвал к себе переводчика Неплюева Мальцова и объявил, что османский двор хочет сохранить дружбу с Россией, но «в великом удивление пришла, что де его величество всероссийской монарх Перское государство привёл в великую контузию движением своих войск…» [2, л. 442 об.]. Кахья предложил Мальцову, передать И.Неплюеву, чтобы он написал своему государю, чтобы тот из «тех стран персидского государства ретировался» и тогда причин к разрыву мира не будет. А без этого народа успокоить, будет трудно [2, л. 42 об.]. Мальцову было сказано и то, что при Османском дворе есть достоверное известие о том, что русский царь грузинского правителя принял под свою протекцию, что османскому двору неприятно.

И.Неплюев ради предосторожности не говорил о делах Дели султана и об Орлике. И.Неплюев так опасался и считал разрыв мира реальным, что сжёг все нужные письма, а остальные перевёл в шифрованное состояние. Некоторые свои личные вещи передал голландскому послу на сохранение, а своего сына при помощи французского посла отправил в Голландию [2, л. 441 об.].

Далее из реляции выясняется, что русский царь повелел И.Неплюеву передать османскому двору, что часть русских войск будет двигаться побережьем к Шамахе, для наказания повстанцев и чтобы получить компенсации: «тот его величества поход не для разорения Персии и другова чего, но только для получения от оных ребелев сатификации и войско его величества не только к границам турецким в Жоржию и Армению не приближаетца, но ниже от моря Каспийского в горы не и отдалялось» [2, л. 442]. Переводчик османского правительства заметил, что желал бы слышать, что русский царь уже возвратился со своей армией. Но в ответ И.Неплюев сказал, что царь ещё не только компенсацию не получил, но даже до того места где его купцов убили и ограбили ещё не дошёл. Что касается до требования, предъявляемых османским двором, на них можно ответить, лишь после возвращения Нишли Мехмед аги из России. И.Неплюев уверял переводчика, что Петр I предпринял поход лишь для получения компенсации от повстанцев [2, л. 444, и об.]. При этом И.Неплюев констатировал в своей реляции, что дипломаты некоторых европейских стран всеми средствами внушали османскому правительству, что Петр I сам лично хочет войти в г. Тифлис и установить свою власть над грузинами [2, лл. 444 об. – 445]. Послы уже не хотели общаться с И.Неплюевым. Лишь французский посол благоприятно относился к нему,

но с большой осторожностью; И.Неплюев не мог через него вести корреспонденцию с Россией. При встрече 1 ноября с И.Неплюевым де Бонак советовал информировать царя, чтобы тот на границах остерегался от татар. Потому, что они, если количеством в 50 тысяч и больше нападут на российские границы, если даже крепости не могут взять, но территорию могут разорить [2, л. 445 об.].

И.Неплюев писал, что османский двор держит в ссылке в одном из остров прежнего правителя Крыма Бахты Гирея – отца нынешнего правителя Дели Султана. Султан намерен в случае войны с Россией восстановить Бахты Гирея в крымском престоле, поскольку считает Дели Султана в военном отношении не квалифицированным [2, л. 446].

И.Неплюев доносил о том, что 3 ноября везирский кахья от имени правительства приказал Мальцову, советовать И.Неплюеву написать царю, чтобы он возвратился из прикаспийских провинций: «… дабы я писал к вашему величеству, что конечно соизволили и тамошних персидских стран ретироваться с войском в своей империи, потому что де вашего величества пребывание в тех странах всем окрестным потентатом великое сомнение ведало, а особливо де Оттоманская империя народу пограничному к татарам, которые де великой опасности ныне себе изобретают» [2, л. 446 об.].

И.Неплюев считал, что если Пётр I с армией вернется из прикаспийских областей в Россию, Османский двор не воспримет какого-нибудь вражеского шага в отношении России. Упомянутый везирский кахья сообщил Мальцову о том, что на сих днях от Эрзурумского паши получено сообщение о том, что русский царь имеет связь с шахом и заключил с ним союз против ширванских повстанцев [2, л. 446-447].

Таким образом, ознакомление с реляциями русского резидента И.И.Неплюева от 8 февраля, 8 марта и 4 декабря 1722 гг. показывает их значение для изучения сложившихся отношений в 1722 г. между Россией и Турцией и об их планах в отношении Кавказского региона, в частности в отношении Азербайджана. Анализ документов показывает, что когда представители ширванских повстанцев попросили о принятии их в протекцию, османский двор сперва, не желая обострять отношений с Россией колебался удовлетворить их просьбу. Но потом, увидев неизбежность российской агрессии против Кавказа, в частности этнически и религиозно близкого Азербайджана, принял Ширван в свою протекцию, в результате чего стали обостряться отношения между двумя империями.

**ИСТОЧНИКИ И ЛИТЕРАТУРА**

1. Советская Историческая Энциклопедия. Т. 10. Изд-во «Советская Энциклопедия». М., 1967, с. 131-132.
2. Архив Внешней Политики Российской Империи (АВПРИ), фонд 89 (Сношения России с Турцией), опись 1, 1722, дело 6, часть II.
3. Соловьёв С. Пётр Великий на Каспийском море // Русский Вестник, 1868, т. II.
4. АВПРИ, ф. 77 (Сношения России с Персией), оп. 1, 1721, д. 1.
5. Там же, д. 2.
6. Мамедова Г.Н. Некоторые вопросы истории Азербайджана в журнале консула С.Аврамова // Известия АН Азерб. ССР. Сер. Общ. Наук, 1977, №2.


**T.T.Mustafazadə**

**İSTANBULDAKI RUSİYA REZİDENTİ İ.İ.NEPLYUYEVİN BİR NEÇƏ RELYASİYASI 1722-Cİ İLİN BEYNƏLXALQ MÜNASİBƏTLƏR TARİXİ ÜZRƏ DƏYƏRLİ MƏNBƏLƏR KİMİ**

**XÜLASƏ**

Məqalədə Rusiyanın İstanbuldakı rezidenti İ.İ.Neplyuyevin 1722-ci il 8 fevral, 8 mart və 4 dekabr tarixli relyasiyaları təhvil olunur. Birinci və ikinci relyasiyalarda Şirvan üsyançılarının nümayəndələrinin himayə xahişi ilə İstanbula gəlmələri və Rusiya nümayəndəsinin buna reaksiyası haqqında məlumat verilir. 4 dekabr 1722-ci il tarixli relyasiyada isə Osmanlı hökumətinin Şirvanı himayə altına alması, buna müharibə hazırlıqlarından, Rusiyanın adekvat davranışından bəhs edilir.

**T.T.Mustafazade**

**RUSSIA IN ISTANBUL RESIDENT OF THE 1722TH YEAR I.I. NEPLYUYEV'S A FEW DOCUMENTS HISTORY OF INTERNATIONAL RELATIONS ON VALUABLE SOURCES AS**

**SUMMARY**

Resident in Istanbul of the Russia is been I.I.Neplyuye's on the February 8, 1722, March 8 and 4 of December dated documents surrender in the article. Come to Istanbul by patronage request of the representatives of the Shirvan rebelliouses of the first and the second documents and information is given about the reaction of the Russia representative to this. But on December 4, 1722 get to the patronage under the Shirvan of the Ottoman government dated relyasiyada, with is dealt from the war preparation to this, ehavior of the Russia.

# СТУДЕНТЫ-АЗЕРБАЙДЖАНЦЫ Г. КИЕВА И РЕВОЛЮЦИОННОЕ ДВИЖЕНИЕ В УКРАИНЕ (1900 – 1917 ГГ.)

**Олег КУПЧИК[*]**
**Али-Иса ДАМИРОВ[†]**

Kəndlilərin üzərinə bir sıra xırda və son dərəcə müxtəlif xüsusi vergilər də düşürdü. Kəndlilər bəy üçün toyuq, yumurta, ot və ya saman, zoğal qurusu, soğan və s. Gətirməli idilər. Rəiyyətlər evlənən zaman bunun üçün bəyə 5 manat pul və bir kəllə qənd verməli idi [7. v. 98]. Bundan başqa hər muğal və ingiloy ailəsi tərəfindən tüstü başına illik 50 qəpik miqdarında olan dağ keşikçilərinin saxlanılması üçün ödənilən xüsusi vergi də var idi [6. 383].

Şimal-Qərbi Azərbaycanın əhalisindən bəhs edərkən qeyd etmək lazımdır ki, Rusiya tərəfindən işğal ərəfəsində Azərbaycanın şimal-qərb bölgəsinin əhalisi S.M.Bronevskiyə görə bəzi yazılı və şifahi məlumatlara əsasən 8 min evdən ibarət olmuşdur [2. 382]. M.A.Kotsebu da, təxminən buna yaxın rəqəm göstərərək qeyd edir ki, Car vilayətinin 5 icmasında 8181 ev var idi [10. 59]. Car vilayətinin hərbi qüvvələrinin sayı barədə məlumat verən digər bir müəllifin gətirdiyi rəqəm də bu bölgənin bəhs olunan dövrdə əhalisinin sayı barədə təxmini də olsa təsəvvür yaratmağa imkan verir. Həmin mənbələrdə qeyd olunduğuna görə carlılar dağıstanlıların və digər qonşularının iştirakı olmadan təkbaşına 5-6 minə qədər əsgər çıxarmaq imkanına malik idi [11. 257]. Nəzərə alsaq ki, hər tüstü təxminən bir əsgər çıxarırdı və bu məlumat təkcə Car-Balakən camaatlığına aid idi. İlisu sultanlığını da bura əlavə etsək yuxarıda gətirilən məlumata yaxın bir rəqəm alınacaq.

Cənubi Qafqazda gedən feodal ara müharibələrində iştirak edən Car bundan kifayət qədər böyük gəlir əldə edirdi. Xüsusilə gürcülərin üzərinə olan yürüş zamanı ələ keçirilən gürcü əsirlərinin satılmasından xeyli gəlir götürən Car XVIII əsrin sonuna doğru Qafqazda məşhur iki qul bazarından birinə çevrilmişdi. Əsirlər əsasən İran və Türkiyəyə satılırdı [12. 133]. Tanınmış qafqazşünas S.M.Bronevski bu barədə yazır ki, XVIII əsrdə Qafqazda iki məşhur qul bazarı vardı. Bunlardan biri Dağıstanın Aksayev vilayətindəki Enderi, digəri isə Car idi. Dağıstanlılar, çeçenlər qulları – əsirləri satmaq, yaxud da almaq üçün Cara gəlirdilər. Carlılar qulları gizli yollarla Ahalsıxa, oradan da Batum və Poti limanlarna aparırdılar. Geri dönərkən onlar yenidən gürcü əsirləri ələ keçirərək Cara qayıdırdılar. Bəzən isə carlılar paşanın onların gürcüləri qarət etmələrinə mane olmaması şərtilə Ahalsıx paşalığında pullu xidmətə girirdilər. Gürcüstan, İmeretiya və Mingreliya carlıların əsas yürüş yerləri idi. J.Şardenin məlumatlarına görə bu iki qul bazarında hər il 12 min qul satılırdı. [4. 44.]. S.M.Bronevskiyə görə bu bazarlarda ildə ən azı 3-4 min qul satılırdı [10. 314-315]. O.İ. Konstantinov isə qeyd edir ki, onların yürüşlərindən təkcə Gürcüstan hər il 300 ailəni əsir kimi itirirdi [2. 395].

Bəhs olunan dövrdə Azərbaycanın şimal-qərb bölgəsinin Cənubi Qafqazın siyasi həyatında fəal rolu olan bir siyasi qurum olduğunu mənbələrin məlumatları da təsdiq edir. M.A.Kotsebu yazır ki, Car vilayətinin 5 icmasında 8181 ev var idi ki, hər evin 3 əsgər çıxardığını nəzərə alsaq vilayətin çıxara biləcəyi hərbi qüvvənin

sayının 24543-ə bərabər olduğu görünür. Carlılar dağıstanlılardan muzdla 6 minə qədər döyüşçü də tuta bilirdilər. Adi vaxtlarda isə onlar çətinlik çəkmədən 10 minə qədər döyüşçü toplaya bilirdilər [11. 257]. Təbii ki, biz bu rəqəmi gerçəkliyi əks etdirməyən, bir qədər də şişirdilmiş məlumat kimi qəbul edirik. Lakin digər bir mənbənin verdiyi məlumatla tutuşdurduqda ortaq bir rəqəm almaq mümkün olur. Həmin mənbənin verdiyi məlumata görə carlılar təkbaşına 5-6 min əsgər çıxara bilirdilər ki, bu da XVIII əsrin sonu üçün kifayət qədər böyük rəqəm idi [12. 133].

Georgiyevsk sülhündən sonra Şərqi Gürcüstanda möhkəmlənən Rusiya İmperiyası Şimali Azərbaycana girmək üçün hər hansı bir bəhanə axtarırdı. Kartli-Kaxetiya çarı II İraklinin (1762—1798) ölümündən sonra taxt-tac uğrunda onun varisləri arasında mübarizənin başlanmasıyla yaranan qarışıqlıq-dan istifadə etmək istəyən carlıların Gürcüstan ərazisinə qarətçi yürüşlər etməsi imperiya generallarına öz planlarını reallaşmağa şərait yaratdı. İraklidən sonra hakimiyyətə gəlmiş oğlu XII Georgi (1798—1800) də atası kimi özünün zəif hakimiyyətini qorumaq üçün carlılardan ibarət muzdlu hərbi qüvvə saxlamaq məcburiyyətində qalmışdı. Onun hakimiyyətdə olduğu dövrü çar Rusiyasının Cənubi Qafqaza müdaxiləsinin başlanğıcı hesab etmək olar. Georgiyevsk müqaviləsi ilə çarizmin Cənubi Qafqazda siyasi mövcudluğunun əsası qoyulmuşdusa, XVIII əsrin sonlarından etibarən Rusiyanın hərbi müdaxiləsi və regionun məqsədyönlü şəkildə işğalı başlanır.

Başda gürcü mənşəli Sisianov olmaqla çar generalları Azərbaycan torpaqlarının istilasına Şimal-Qərbi Azərbaycan torpaqlarından başlamaq və Böyük Qafqaz dağlarının cənub ətəkləri boyunca hərəkət edərək Xəzər dənizinə çıxmaq niyyətində idilər. İlk hədəf olaraq bu marşrutun, xüsusilə də Şimal-Qərbi Azərbaycan torpaqlarının seçilməsi təsadüfi deyildi. Çar generalları Azərbaycan torpaqlarının işğalı ilə bağlı bu hərbi strategiyanı hazırlayarkən müəyyən amilləri- tarixi, siyasi, iqtisadi, dini və ən əsası hərbi və psixoloji amilləri nəzərə almağa çalışmışdılar.

## MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT


1. Гаджиев В.Г. Джаро – Белоканский союз сельских общин в освешении французского консула Гамбы. В Н. Общественный строй союзов сельских общин Дагестана в XVIII – нач. XIX вв. Махач., Н . Тво. Филиала АН ССР, 1981, 168 с.
2. Константинов О.И. Джаро – Белоканцы до XIX столетия. Сб. газеты «Кавказ» на I и II полугодие 1846 г. Тифлис, Типография канцелярии Наместника Кавказского, 1847г. 461 с
3. Mustafazadə T. T. Son orta əsrlərdə Azərbaycanın Şəki – Zaqatala bölgəsində sosial – iqtisadi və siyasi münasibətlərinin səciyyəvi xüsusiyyətləri. AMEA Tarix İnstitutunun Elmi əsərləri 20-ci cild, 2007 178 s.
4. Петрушевский И.П. Джаро – Белоканские вольные общества в первой полавине XIX в. Махач. Типография ДНЦ РАН, 1993, 166 с

5. Косвен М.О. Этнография и история Кавказа. Москва, Вост. Лит.,1961., 260 с
6. Писаревски Г.Г. Zaqatala mahalında təhlükəsizliyin ləğv edilməsi, A.A. Bakıxanov adına Tarix İnstitutunun "Elmi əsərləri" I c. 1947, (s-94-106), s-105-106; Алескеров Ю.Ю.К истории Закатальского округа в первой пол. XIX в, и восстание 1863г. Дисс. На соиск. Канд. Ист. Наук. Баку, Институт Истории Аз.ССР1950
7. ARDTA, f.15, s.1, iş32
8. Алескеров Ю.Ю. К истории Закатальского округа в первой половине XIX века и восстание 1863 г. Диссерт. На соиск. Канд. Ист. Наук, Баку, Институт Истории АН Азерб. ССР, 1950.
9. Дубровин Н.Ф. История войны и владычества русских на Кавказе, т. I.кн. I, Спб., 1871.
10. Броневский С. Новейшие географические и исторические известия о Кавказе. Ч II, Москва , типография С. Селивановского, 1823 г. 645 с
11. Коцебу М.А. Сведения о джарских владениях 1826 г.13 кн. История география и этнография Дагестана в XVIII – XIX вв., Москва, изд Вост.лит.,1958 г.,(с.252-264) Под ред М.О.Косвена и Х. М. Кашаева
12. Меликсет – Беков А.М. Описания сопредельных с Грузиею стран второй пол. XVIII в. Тб. 1941
13. АКАК. Ф.15. оп 1. дел. 32

**I.H.Alieva**

**INVASION POLICY OF THE XIX CENTURY TSARIST RUSSIA ON THE SOUTH CAUCASUS RELIGIOUS FACTORS AND INGILOYS**

**SUMMARY**

In article the author considers plans which were born by imperial Russia on capture of northwest territories of Northern Azerbaijan. It is noticed, that the basic object of military expansion of Russian in this region were Dzharo-Balakans jamaatstva. The imperial government considered various ways on submission of the given region: enmity kindling between separate societies, Christianity distribution, resettlement of Russian, application of military force.

**И.Г.Алиева**

**РЕЛИГИОЗНЫЙ ФАКТОР В ЗАВОЕВАТЕЛЬНОЙ ПОЛИТИКЕ ЦАРСКОЙ РОССИ НА ЮЖНОМ КАВКАЗЕ И ИНГИЛОЙЦЫ**

**РЕЗЮМЕ**

В статье рассматриваются планы, вынашиваемые царской Россией по захвату северо-западных территорий Северного Азербайджана, отмечается, что основным объектом военной экспансии русских войскх в этом регионе были Джаро-Балаканские джамаатства. Царское правительство добивалось различныии путями подчиненить данный регион: разжечь вражду между отдельными обществами, распространить христианство, переселеть сюда русское насиление, применить военную силу.

**t.ü.f.d. Ə.Məmmədovun və t.ü.f.d. S. Əliyevanın müsbət rəyləri əsasında çap olunur**

# 1917-ci il FEVRAL İNQİLABINDAN SONRA GÜRCÜSTANIN SİYASİ PARTİYALARININ MİLLİ ƏRAZİ PROQRAMLARI VƏ ZAQATALA DAİRƏSİNƏ İDDİALAR

**Şamil RƏHMANZADƏ***
shamil-rahman@mail.ru

Təqdim olunmuş məqalədə 1917-ci ildə fevral inqilabından sonra açıq fəaliyyətə keçmiş gürcü siyasi qüvvələrinin ərazi ideologiyasının və orada Zaqatala mahalına iddiaların təhlilinə cəhd edilmişdir. Həmçinin sözügedən ideoloji yönəlişliklərin tarixi və ruhi kökləri nəzərdən keçirilmişdir.

1918-1920-ci illərdə Cənubi Qafqazda «millət-dövlətlərin» təşəkkülü prosesi baş verməkdə idi. XVIII əsrin sonları – XIX əsrin əvvəllərində bu tip dövlətçiliyin meydana çıxdığı Avropada siyasi coğrafiyanın klassik «millət-ərazi-dövlət» triadası formulə edilmişdi: o, milli-siyasi identikliyi ərazi identikliyi ilə sıx əlaqədə nəzərdən keçirirdi. Bu isə öz növbəsində sərhəd və ərazilərin təsbitini yaranmaqda olan hər bir «millət-dövlət» üçün son dərəcə aktual məsələyə çevirirdi.

Qeyd etməliyik ki, hələ Qafqaz cümhuriyyətlərinin meydana gəlmələrindən əvvəl onların hüdudları və əhatə edəcəkləri ərazilər haqqında sosial təsəvvürlər siyasi-ideoloji şüurlarda artıq bu və ya digər dərəcədə formalaşmışdı. Burada limologiya (sərhədşünaslıq) elminin aşağıdakı tərifi yada düşür: sərhədlər - yaxın dövrlərin sosial konstruktları olub, əvvəlcə sosial təsəvvürlərdə yaranır və yalnız sonra xəritə üzərinə delimitasiya olunur [1, 318].

Yuxarıdakı tezisdən çıxış edərək, bəzi qənaətlərə gəlmək mümükündür. 1917-1918-ci illərdə Gürcüstanda vüsət alan milli (etnosiyasi) hərəkat gedişində bu ölkənin arzu olunan məkanı və siyasi sərhədləri haqqında gürcü siyasi dairələrində müəyyən konvensional (uzlaşma) səciyyəli təsəvvürlər formalaşmışdı. Bu təsəvvürlər mənşəcə əvvəlki onilliklərə gedib çıxırdı: məhz o zaman gürcü intellektual dairələri öz ölkələrinin tarixinə və tarixi coğrafiyasına dair yetərincə bitkin konsepsiya yaratmışdılar. Bu konsepsiya tarixi-coğrafi səpkidə olsa da, artıq öncədən qeyri-aşkar siyasi intensionallıq (məqsədyönlülük) kəsb edirdi.

Ona görə də 1917-1918-ci illərdə gürcü siyasi qüvvələrinin məramnamələrində Zaqatala mahalının yeri və mənasının şərhinə keçməzdən öncə, həmin məramnamələrdə bu bölgəyə dair siyasi iddiaları əsaslandırmalı olan və formalaşması XIX-XX əsrin əvvəllərinə təsadüf edən konsepsiya nəzərdən keçirilməlidir.

Gürcüstanın tarixi və tarixi coğrafiyası haqqında bu konsepsiya və orada Zaqatala mahalının qədim gürcü vilayəti olmasına dair qərar tutmuş təsəvvürlər

* Şamil Fazil oğlu Rəhmanzadə – AMEA A.Bakıxanov adına Tarix İnstitutunun böyük elmi işçisi.

öz kökləri ilə XVIII əsrin görkəmli gürcü tarixçisi və coğrafiyaçısı Vaxuşti Baqrationinin (1696-1757) əsərlərinə gedib çıxırdı.

Kartli hökmdarı VI Vaxtanqın oğlu olan Vaxuştinin 1745-ci ildə, Moskvada mühacirətdə olarkən başa çatdırdığı «Sakartvelos tsxovreba» («Gürcüstanın yaşamı») adlı əsəri digər analoji gürcü mənbələri ilə yanaşı, qeyd etdiyimiz kimi, XIX əsrin II yarısı-XX əsrin başlanğıcında gürcü intellektual qüvvələri, ilk növbədə D.M.Bakradze (1827-1890) və M.Q.Canaşvili kimi tarixçilər tərəfindən Gürcüstanın tarixinə və coğrafiyasına dair zamanın ruhuna müvafiq konsepsiyanın yaradılmasında qiymətli tikinti materialı rolunda çıxış etdi. Yeni gürcü tarixşünaslığının Gürcüstanın əzəmətli keçmişi və tarixi-coğrafi məkanına dair təqdim etdiyi narrativlər qəsdən ənənələr ilə manipulyasiya etmə mexanizminə istinad edirdi: məşhur fransız sosioloqu P.Burdyenin təbirincə, hal hazırkı məqamın tələblərinə uyğun olaraq keçmişə müraciət indinin açıq mənasını determinə etmək, fərqləndirmək, müəyyənləşdirmək məqsədi güdür [2, 64]. Yəni başqa sözlə desək, insanlar keçmişi ona görə yenidən tərtib edirlər ki, bu müvafiq şəkildə təfsir olunmuş keçmişə istinadən gələcəyə dair layihələr irəli sürsünlər. XIX-XX əsrlərin qovşağında gürcü milli şüuru keyfiyyətcə yeni mərhələyə qədəm basmış, etnomədəni hərəkat kifayət qədər canlanmışdı. Belə bir şəraitdə Gürcüstanın bir çox hallarda mifolojiləşdirilmiş tarixi keçmişinin retrospektiv rekonstruksiyası məhz gürcü milli oyanışının cari tələblərini legitimləşdirməyə çağırılmışdı. Eyni zamanda bununla, qeyri-aşkar surətdə olsa da perspektiv etnosiyası hədəf və oriyentirlər müəyyənləşdirilirdi.

Gürcüstanın tarixi coğrafiyası haqqında konsepsiyada Zaqatala mahalının gürcü tarixi, geosiyasi və sosiomədəni arealının ayrılmaz hissəsi olmasına dair təsəvvürlər pərvəriş tapmışdı. Bölgənin tarixi keçmişi ilə bağlı analoji mövqeyi inqilaba qədərki rus tarixşünaslığı da sərgiləyirdi [Bu barədə bax: 3, 252-253; 4, 377; 5, 3-19; 6, 5-8]. Rus tarixçiləri ali hakimiyyətin təsbit etdiyi farvater üzrə hərəkət edərək, Cənubi Qafqazın xristian oykumenasına əzəli mənsubluğunu və müsəlmanların vəhşiliyini isbatlamağa çalışırdılar: bununla onlar regionda rus ekspansiyasına və xristian etnosların hökumət tərəfindən himayə edilməsinə, həmçinin o dövrdə intensiv şəkildə gerçəkləşdirilən ingiloyların xristianlaşması siyasətinə mənəvi-əxlaqi planda haqq qazandırmaq məqsədi güdürdülər. Öz rus həmkarlarından fərqli olaraq, gürcü tarixçiləri, qeyd etdiyimiz kimi, məhz öz – gürcü milli və mədəni (perspektivdə isə – etnosiyasi) dirçəlişləri məcrasında hərəkət edirdilər.

Bəhs olunan dövrdə Zaqatala mahalının tarixi mənsubiyyəti haqqında formalaşmış gürcü görümünün bədii və yığcam ifadəsini D.Bakradzenin «Zaqatala haqqında qeydlər» adlı məqaləsində tapırıq: «… Füsunkar təbiətə malik, qədim əyyamlarda müstəsna olaraq gürcü elementi ilə məskunlaşmış [Zaqatala dairəsi] Ka-

xetiyanın şimal-şərq ucqarı və Dağıstan xalqlarına qarşı daimi dayaq rolunda çıxış edirdi, lakin Gürcüstanın siyasi cəhətdən güclü nizamsızlığı dövründə, XVII və XVIII əsrlər ərzində ləzgilər (avarlar nəzərdə tutulur-Ş.R.), İran şahlarının və Azərbaycan tatarlarının yardımı ilə bir sıra basqınlardan sonra onu Kaxetiyadan tamamən qopardılar, onun köklü sakinlərinin əksəriyyətini məhv etdilər və ya dağıtdılar və onların küllüklərində bərqərar olaraq, özləri ilə bərabər öz qaydalarını gətirdilər. Gürcü əhalisinin salamat qalmış az bir qismini iqtisadi baxımdan kölə halına saldılar, ona müsəlman dinini, əxlaqını və s. sırıdılar» [7, 248].

D.Bakradze gürcü salnamələrini ixtiyari təfsir edərək, Heretinin əvvəlcədən gürcülər tərəfindən məskunlaşdığını söyləməklə nəinki Zaqatala dairəsinə, habelə Şəki qəzasının da böyük bir qisminə iddiada bulunurdu [7, 255].

Kembric «anlayışlar tarixi» məktəbinin görkəmli nümayəndəsi K.Skinnerin fikincə, hər bir söyləmə intensionaldır, yəni müəyyən məqsəd daşıyır. Başqa sözlə, sözlər – hansısa bir məqsədə çatmağa yönəlmiş siqnallar və ya alətlərdir [8, 151]. Yuxarıda gətirilən iqtibasa bu tezisi tətbiq etməklə, söyləyə bilərik: gürcü intellektual zümrəsinin ruhi-simvolik sferasını reprezentasiya (təmsil) edən Bakradze oxuyan kütləyə gürcü tarixinin müəyyən, ideallaşmaya meylli obrazını təlqin etmək məqsədi güdürdü. Məqalənin ana xəttini, ideal qəlibini (matrisasını) məhz böyük, əzəmətli, tarixi-coğrafi planda o zamankı (XIX əsrin sonundakı) gürcü etnik məskunlaşma arealından qat-qat nəhəng ərazini əhatə edən Gürcüstan məkanı haqqında ideya təşkil edirdi. Bakradzenin Gürcüstan ideyası millətçi diskursa (nitq praktikasına) xas bir sıra səciyyəvi cəhətləri ehtiva edirdi. Millətçiliyin iri nəzəriyyəçilərindən olan E.Smit həmin ideoloji şüura xas olan mifologemalar sırasında bu və digər xalq üçün nə vaxtsa «qızıl əsrin» mövcud olması, bu əsri ərazi itkisi, miqrasiya və başqa bənzər bəlaların baş verdiyi tənəzzül çağının əvəz etməsi haqqında inamın, həmçinin labüd gələcək dirçəlişə əminliyin olmasını qeyd edirdi [9, 102]. Bütün bunlara Bakradzenin məqaləsində və ümumiyyətlə gürcü romantik millətçiliyinin tarixi təsəvvürlərində də rast gəlirik: orada gürcü tarixinin «qızıl əsri» – Qurucu David və Tamaranın hökmranlığı dövrünə, tənəzzül çağı – monqolların yürüşündən sonra, ələlxüsus da XV əsrin sonlarına doğru Gürcüstanın siyasi cəhətdən üç hissəyə parçalanması ilə başlanmış dövrə, ərazi itkiləri və miqrasiya – Şah Abbasın 1616-cı ildə yürüşü nəticəsində, müəllifin təbirincə «Alazan arxası Kaxetiyanın», yəni Şimal-Qərbi Azərbaycanın bir qisminin müvəqqəti daxil olduğu gürcü siyasi və mədəni sferasından çıxmasına uyğun gəlirdi.

Mənşəcə ingiloy olan M.Canaşvili 1910-cu ildə gürcü dilində nəşr etdirdiyi «Saingilo» kitabında bölgənin ən qədim dövrlərdən XIX əsrin sonlarınadək tarixini yuxarıda qeyd etdiyimiz konsepsiya çərçivəsində nəzərdən keçirmişdi [10, 12].

Gətirilən faktlar gürcü intellektual-tarixi yaddaşında «Saingilo» deyə işarələnmiş bölgənin önəmini yetərincə manifestasiya edirdi. Məşhur fransız filosofu P.Rikör yaddaşın (bizim nümunəmizdə tarixi yaddaşın) ifadə vasitələrinə, təhkiyəyə ehtiyacı olduğunu vurğulayaraq, yazırdı ki, «yaddaş zamanda baş vermiş hadisələr haqqında şahidliklər funksiyasını yerinə yetirir, təhkiyə isə yaddaşı strukturlaşdırmağa imkan verir» [11, 8]. Bu tezisin işığında güman edə bilərik ki, adıçəkilən gürcü narrativlərində etnotarixi yaddaş strukturlaşaraq, müəyyən ideya ölçülməsi kəsb edirdi. Yəni başqa sözlə, narrativlər tarixi keçmiş haqqında xatirələrdə bulunan rəvayətləri biçimli konsepsiya halına gətirirdi.

Cənubi Qafqaz xalqları üçün taleyüklü 1917-ci il ərəfəsində Zaqatala mahalı haqqında tarixi, coğrafi, siyasi və sosiomədəni aspektləri ehtiva edən kifayət qədər bitkin gürcü konsepsiyası yaradılmışdı. O, zəngin gürcü tarixşünaslıq irsi zəminində, fəqət Avropadan gələn millətçi ideyaların, ələlxüsus da alman romantik konsepsiyasının təsiri altında formalaşmışdı və üzvü surətdə gürcü milli ideologiyasına və onun ərazi proqramına daxil olmuşdu.

1917-ci ilin fevralında Petroqradda baş vermiş uğurlu hərbi çıxış Rusiya siyasi məkanında fundamental proseslərə rəvac verdi. Analoji proseslərin cərəyan etdiyi və siyasi tranzit (keçid) dövrü kimi səciyyələndirə biləcəyimiz zamanələrdə etniklik resursu kifayət qədər aktuallaşır: o sosial-siyasi münasibətlərdə, kütlələrin təşkilatlanması və səfərbərliyində önəmli rol oynamağa iddia edir [12, 6].

1917-ci ilin fevral inqilabının ilk günlərindən etibarən Cənubi Qafqazda da etniklik resursunun fəallaşmasının şahidi oluruq: o çağadək bu və ya digər dərəcədə həyat əlaməti göstərən mədəni-etnik hərəkatlar sürətlə etnosiyasi hərəkatlara transformasiya olunur. Etnosiyasi hərəkatın meydana çıxması etnosun (etnik qrupun) siyasi aktora konversiyası (çevrilməsi) deməkdir; belə bir siyasi aktor (fəal subyekt) öz etnik rəqiblərinə əks təsir göstərməyə, və ya öz etnik maraqlarını dövlət siyasətinin gündəliyinə daxil etməyə çalışır [13, 140-141]. Hər hansı etnosiyasi hərəkatın yaranması üçün tələb olunan əsas amillərdən biri kimi etnikliyin siyasiləşməsi və səfərbər olunması çıxış edir. Siyasiləşmə prosesində etnomədəni markerlər və simvollar (dil, din, mənşə, və tarix ümumilyi, habelə ərazi haqqında təsəvvürlər və s.) intensiv etnofərqləndirici dəyər kəsb edir və etnik ideologiya dərəcəsinə yüksəldilir.

Etnosiyasi hərəkatların ideoloji özülü olan millətçiliyi, fin coğrafiyaşünası A.Paasi məhz ərazi ideologiyasının başlıca formalarından biri və dövlət quruculuğunun əsası kimi xarakterizə edir [1, 312]. Bu cür ideologiya çərçivəsində müəyyən ərazilər yüksək simvolik əhəmiyyət kəsb edərək, ərazi-simvollara çevrilir [14].

Yuxarıda gətirilən nəzəri qeydlər sözügedən dövrdə Cənubi Qafqazda, o cümlədən Gürcüstanda təşəkkül tapmış etnosiyasi situasiyaya da tam ölçüdə interpolyasiya oluna bilər. 1917-ci ilin fevral-oktyabr zaman kəsiyində digər Qafqaz xalqlarında olduğu kimi, gürcü etnik özşüurunun, özünüdərkinin siyasi komponentinin son dərəcə artması şəraitində milli-siyasi dilək və tələblərin konseptuallaşması baş verirdi. Gələcək Gürcüstan Respublikasının partiya sisteminin əsas subyektləri – menşeviklər, sosial-federalistlər, milli-demokratlar kəskin ideya-siyasi mübarizə və mübahisələr şəraitində strateji milli məqsəd və vəzifələr barədə konsensus əldə etməyə çalışırdılar ki, onun da əsas təzahürlərindən biri konvensional anlayışların, yəni siyasi camiə (rusca «политическое сообщество») tərəfindən barələrində razılığa gəlinmiş məfhumların işlənib hazırlanması idi. Belə məfhumlar sırasında, aşağıda görəcəyimiz kimi, «Gürcüstanın arzu olunan məkanı» haqqında anlayış da yer almışdı.

Qeyd etdiyimiz kimi, fevral inqilabından sonra Gürcüstanda milli hərəkat geniş vüsət alır. Çox maraqlıdır ki, gələcək gürcü respublikasının əsas memarı, ona özünəməxsus ideya-siyasi ölçülmə verən menşeviklər ilk vaxtlar ümumiyyətlə milli hərəkatın genişlənməsinə qarşı kəskin surətdə çıxış edirdilər. Rusiya sosial-demokratlarının liderlərindən biri, gələcək Gürcüstan Demokratik Respublikasının rəhbəri Noy Jordaniya 1917-ci ilin iyunun 1-də Qafqaz vilayət sovetlər qurultayında milli məsələyə dair məruzəsində muxtariyyətdən deyil, milli özünüidarədən danışmağa üstünlük verirdi; özünüidarə isə onun diskursunda proletariatın mədəni inkişafı anlamında işlədilirdi. O, "mədəni-milli muxtariyyəti" nəzərdə tutaraq, söyləyirdi: "Əgər biz hər bir millət üçün imkanlar yaratsaq ki, millət öz milli məktəbinə, milli məhkəməsinə, zəruri təsisatlarına malik olsun, öz dilində təhsil ala və öz hüquqlarını müdafiə edə bilsin, əgər biz elə şərtlər yarada bilsək ki, onun vasitəsi ilə millət öz doğma dilində həyatın bütün sahələrində sinfi mübarizə apara bilsin, o zaman fəhlə sinfi üçün ən mühüm məsələ həllini tapmış olardı" [15, 29]. "Mədəni-milli muxtariyyət" konseptual yönəlişliyi Jordaniya və onun timsalında gürcü menşeviklərinin Rusiyanın gələcək ərazi quruluşuna dair görüşləri ilə çulğalaşırdı: "Rusiyada milli quruluşun bir tipi mümkündür: vahid respublika hüdudları daxilində bir sıra özünü idarə edən milli vilayətlər. Bu vilayətlərdə yerli səciyyəli bütün məsələlərə dair yerindəcə qanunlar dərc olunacaq, ümumi səciyyəli işlərlə əlaqədar isə ümumi mərkəzə tabe olacaq". Lakin menşeviklər milli məsələnin, o cümlədən ərazi quruluşunun həllini Ümumrusiya Müəssislər Məclisinin çağırılmasınadək təxirə salınmasını zəruri sayırdılar: "Biz indi milli məsələni elə də xüsusi irəli sürmürük, zira güman edirik ki, yalnız ümumi tələblərin həyata keçirilməsi milli məsələnin də çözümünü mümkün edəcək... Müəssislər Məclisinə biz hazır rəy təqdim etməliyik" [15, 31].

Fikrimizcə, bu ondan irəli gəlirdi ki, gürcü menşevikləri 1917-ci ilin payızınadək özlərini ümumimperiya sosial-siyasi məkanının subyektləri, Rusiya fevral inqilabının aparıcı və fəal qüvvəsi kimi təsəvvür edirdilər. Məhz bu – daha universal siyasi özünüdentikləşdirmənin məntiqi onları lokal-etnik oyunçu səviyyəsinə enməkdən çəkindirirdi. Bəhs olunan dövrdə gürcü menşevikləri milli məsələnin həllini mədəni-milli muxtariyyət prinsipinin tətbiqində görür, amma məhdud səlahiyyətli milli ərazi-özünüidarə orqanlarının yaradılmasını da məqbul hesab edirdilər. Zaqafqaziya sosial demokratlarının (menşeviklərinin) 1917-ci ilin iyununda olmuş VI qurultayında sözügedən məsələyə dair qəbul etdiyi qətnamədə deyilirdi: «Ərazi özünüidarəsinin sərhədləri bu və ya digər milliyyətin real məskunlaşması prinsipi üzrə təsbit edilir, bu zaman təsərrüfat və məişət şərtləri nəzərə alınır. Milli sərhədlərin dəyişdiriləcəyi təqdirdə, sərhədlər müəyyənləşərkən mübahisəli olan yerlərdə referendum tətbiq edilməlidir» [16]. Söyləyə bilərik ki, 1917-ci ilin payızınadək dəyişməz qalan menşeviklərin etnoərazi məsələlərə dair bu yönəlişliyinin (ustanovkasının) «açar istilahı» «əhalinin real məskunlaşması» prinsipi idi: bu prinsip Cənubi Qafqazın perspektiv ərazi bölgüsünün kifayət qədər demokratik həllini təqdim edirdi.

1917-ci ilin oktyabrınadək menşeviklər gələcək gürcü muxtariyyəti və ya özünüidarəsinə daxil ediləcək ərazilərin konkretləşməsindən yayınırdılar ki, bu da yuxarıda vurğuladığımız səbəbdən irəli gəlirdi.

Menşeviklərdən fərqli olaraq gürcü sosial-federalistləri və milli-demokratları ən başlanğıcdan öz ölkələri üçün milli-ərazi muxtariyyəti tələb edirdilər. Məsələn, gürcü sosial-federalistləri hələ 1904-cü ildə Gürcüstanın muxtariyyəti tələbini irəli sürmüşdülər və Birinci rus inqilabı dövründə də bu şüara uyğun fəaliyyət göstərirdilər [17, 164-165; 18, 129].

Sosial-federalistlər 1917-ci ildə Gürcüstan muxtariyyətinin ərazi və sərhədlərinin müəyyənləşdirilməsində menşeviklərə yaxın mövqe tuturdular; onların mayda olmuş konfransı qərara almışdı: «Gürcüstan ərazisinin sərhədlərinin müəyyən edilməsi üçün ərazi bütövlüyünün saxlanılması ilə real məskunlaşma prinsipinin əsas götürülməsini yenidən təsdiqləmək» [19]. Göründüyü kimi, sosial-federalistlər də real məskunlaşma prinsipinə üstünlük verirdilər, lakin onların irəli sürdükləri «ərazi bütövlüyünün saxlanılması» şərti əslində implisit (yığcam) formada «Gürcüstanın tarixi-coğrafi məkanı» ideyasını qismən ehtiva edirdi. Təsadüfi deyildi ki, konfrans gürcü muxtariyyətinin arzu edilən məkanını müəyyənləşdirərkən, ora Zaqatala dairəsini də daxil etmişdi [20]. Bu isə qətnamənin həm yuxarıda ərz olunan «real məskunlaşma prinsipi», həm də Zaqatala və Borçalının siyasi taleyi ilə bağlı ikinci hissəsi ilə ziddiyyət təşkil edirdi: «Borçalı və Zaqatala dairəsinə gəldikdə isə onlar yalnız köklü

əhalinin əksəriyyətinin referendum yolu ilə buna münasibətini bildirdiyi halda Gürcüstan ərazisinə daxil ola bilər».

Gürcüstan muxtariyyətinin ehtimali ərazisi ilə bağlı 1917-ci ildə (hər halda, payızadək) gürcü menşeviklərinin və qismən də sosial federalistlərinin belə mötədil mövqe tutmaları, fikrimizcə, onların Rusiya postfevral siyasi məkanının perspektivləri ilə bağlı ümidlərindən (menşeviklərdə) və gözləmələrindən (sosial-federalistlərdə) doğurdu: Rusiyanın planlaşdırılan federativ, fəqət siyasi bütövlüyü saxlanılacaq dövlət quruluşu sistemində gürcü etnik elementinin seyrək olduğu ərazilərin Gürcüstana qatılması aşkar konfliktogenlik üzündən problematik görünürdü.

Bəhs etdiyimiz dövrdə Gürcüstanda cərəyan edən etnosiyasi proseslərin bir başqa mühüm subyekti gürcü millətçiləri – milli-demokratlar partiyası idi [Gürcüstanın milli-demokrat partiyası və onun proqramı haqqında bax: 21, 47-48; 18, 134]. Bu partiyanın təşkilinə hələ 1913-cü ildə başlanılmışdı: Tiflis, Kutais, Bakı şəhərlərində partiyanın qeyri-leqal surətdə yerli özəkləri fəaliyyət göstərirdi. Onun hüquqi cəhətdən təşəkkülü isə artıq 1917-ci ilin yayına təsadüf edirdi.

Milli demokratlar «bütün siniflərin gürcüləri, birləşin!» şüarını irəli sürmüşdülər və xalqı partiya, yaxud da sinfi maraqlar naminə deyil, ümumgürcü milli vəzifələrinin həyata keçirilməsi üçün birləşməyə çağırırdılar [18, 134]. Gürcü xalqının etnik lideri statusuna iddialı milli-demokratların bu şüarı onların öz siyasi talelərini fərdi və ya sosial-sinfi yox, etnik kateqoriyalarda qəbul etmələrindən xəbər verirdi.

Gürcü sosial-demokratları və sosial-federalistlərindən fərqli olaraq, milli-demokratlar Gürcüstanın siyasi perspektivi və ərazi ideologiyası məsələlərində daha radikal xəttin tərəfdarları idilər. Sözügedən partiyanın mətbu orqanı – «Çveni kvali» («Bizim şırım») qəzeti özünün 1917-ci il 26 iyun sayında yazırdı: «Sosial-demokratların və sosial-federalistlərin tələb etdikləri formada gerçəkləşdirməkdənsə, Gürcüstanın muxtariyyətindən tamamilə imtina etmək daha yaxşıdır» [21, 49].

Partiyanın 1917-ci ilin iyununda olmuş təsis qurultayı demokratik respublika əsası üzərində Gürcüstanın siyasi muxtariyyəti tələbini irəli sürdü; əslində gürcü millətçiləri üstüörtülü formada da olsa, müstəqil dövlət qurulmasını ehtimal edirdilər. Məhz həmin qurultayda milli-demokratlar faktiki olaraq gələcək gürcü respublikasının ərazi identikliyinin ideoloji əsaslarını təsbit etdilər: onların hazırladıqları doktrinal səciyyəli «Gürcüstanın milli hüquqları» adlanan məramnamədə Gürcüstanın bir qədər öncə söz açdığımız tarixi-coğrafi hüdudlarına dair konsepsiya ideya-siyasi və funksional məna və əhəmiyyət kəsb etdi. O ənənəvi gürcü milli-tarixi narrativləri silsiləsinin məntiqi inkişaf mərhə-

ləsi sayılmalıdır. Qeyd etmək yerinə düşərdi ki, milli və tarixi narrativlər bir qayda olaraq etnik və ərazi yanaşmalarını çulğalayır. Yəni millətin tarixi haqqında təhkiyə bu və ya digər ərazinin nədən məhz ona hüquq üzrə məxsus olması haqqında hekayə ilə çulğalaşır [22, 17]. Milli-demokratların ərazi proqramı ümumgürcü millətçi diskursunun radikal versiyası kimi Gürcüstanın arzu olunan, ideal məkan obrazını cızırdı. Gürcü intellektual zümrəsinin romantik təsəvvürlərinə söykənən və o dövrün siyasi dairələrində tez-tez səslənən «Çariça Tamaranın səltənətinin bərpası» şüarında [23, 94] öz tutumlu ifadəsini tapan bu ideal məkan nəinki gürcülərin o zaman etnodemoqrafik planda əksəriyyət təşkil etdikləri əraziləri, həmçinin tarixi keçmişdə nə vaxtsa Gürcüstan çarlığına daxil olan vilayətləri də əhatə etməli idi. Gürcü millətçiliyinin simvolik coğrafiyasını təqdim edən milli-demokratların proqramında deyilirdi: «Gürcüstan ərazisi əyalətlərdən ibarətdir: Kartli, Kaxeti, Samsxe-Saatabaqo, İmereti, Quriya, Minqreliya, Svaneti, Acara və Abxaziya, özü də Gürcüstan tərkibinə, tarixən ona mənsub torpaqlar da daxil olmalıdır: Zaqatala, Artaani (Ərdahan – Ş.R.) və Oltu dairələri (sonuncu iki dairə Qars vilayətinə daxil idi - Ş.R.)» [21, 48]. Qeyd etməliyik ki, gürcü siyasi partiyalarından məhz milli-demokratlar ilk dəfə olaraq Zaqatala dairəsinin Gürcüstana ilhaqı məsələsini birmənalı və qəti şəkildə öz proqramlarına salmışdılar.

Beləliklə, milli-demokratların bu proqramı doktrinal səviyyədə Gürcüstanın tarixi coğrafiyasını, təbiri caizsə, siyasi coğrafiyaya konversiya etmək cəhdini təqdim edirdi. Bu zaman, qeyd etdiyimiz kimi, tarixi keçmişə müraciət praqmatik səciyyə daşıyırdı. Bir qədər öncə isnad etdiyimiz ingilis alimi K.Skinner XVII əsr İngiltərə inqilabı dövründə parlament və kralın hüquqları ətrafında gedən debatların timsalında göstərmişdir ki, insanlar tarixə, tarixi anlayışlara və maksimalara apellyasiya edərkən, onları keçmişin səhih mənzərəsini bərpa etməkdən daha çox siyasi mübarizədə əlavə arqumentlər əldə etmək istəyi hərəkətə gətirir [8, 151]. Bizim nümunədə bu o deməkdir ki, gürcü millətçiləri istər daxili siyasi (gürcü siyasi meydanında rəqibləri ilə qarşılıqlı təsir), istərsə də xarici-siyasi (başqa etnik mühitdən olan və eyni ərazilərə iddiada bulunan siyasi aktorlarla qarşılıqlı təsir) müstəvidə fəaliyyət göstərərkən mifolojiləşdirilmiş keçmişə istinadla öz niyyət və əməllərini legitimləşdirməyə çalışırdılar.

Milli-demokratların proqramında diqqəti cəlb edən digər məqam, orada öncə qeyd etdiyimiz kimi, ərazi-simvolların dəqiq işarələnməsi idi: bu qəbil ərazilər sırasında Zaqatala dairəsi də xatırlanırdı. Moskva Dövlət Universitetinin professoru A.İ.Solovyovun tərifinə görə, simvollar insanın siyasi məkanda ruhi əsasını və identikləşməsini təşkil edir, eyni zamanda sosial obyektlərə aktorların ictimai ünsiyyəti üçün zəruri mənaları verən ideal formaları təmsil edir [24, 6].

Yəni, Zaqatala rəmzi anlam kəsb etməklə gürcü milli-siyasi identikliyinin tərkib hissəsinə çevrilirdi və ictimai kommunikasiya üçün zəruri məna əldə edirdi.

Gürcü siyasi spektrinin yuxarıda qeyd etdiyimiz üç qüvvəsi arasında milli məsələyə dair uzlaşma əldə etmək məqsədi ilə hələ 1917-ci ilin aprelin əvvəllərində və 16-da partiyalararası müşavirə çağırılmışdı [21, 49-50]. Müşavirənin Gürcüstanın ərazisi ilə bağlı coşqun mübahisə şəraitində çıxardığı qərar kompromiss xarakter daşıyırdı: mübahisəsiz ərazi kimi gürcülərin əksəriyyət təşkil etdiyi ərazilər, mübahisəli kimi isə gürcülərin əksəriyyət təşkil etmədiyi ucqar rayonlar hesab olundu.

Əsas müzakirə predmetlərindən olan gürcü milli ərazi vahidinin səlahiyyətləri, onun qonşuları və Ümumrusiya mərkəzi ilə münasibətləri məsələsi milli-demokratlarla sosial-demokratlar arasında o zaman hələ də dərin fikir ayrılıqları mövcud olduğunu göstərdi: əgər birincilər Gürcüstana 1783-cü il müqaviləsinə müvafiq qaydada geniş hüquqlar verilməsinə, yəni de-fakto müstəqilliyə çağırırdılarsa, sosial-demokratlar N.Ramişvilinin dili ilə belə bir perspektivi rədd edirdilər. Ramişvili iddia edirdi: «Burada (Qafqazda-Ş.R.) biz digər xalqlarla razılaşma olmadan hərəkət edə bilmərik və qonşularla bu qarşılıqlı münasibətlərə müvafiq forma vermək lazımdır. Ona görə də ümumi məsələlərin həlli üçün… Zaqafqaziya seymi lazımdır… Mədəniyyət məsələlərinə gəldikdə isə, onlar tamamilə milli vahidlərin səlahiyyətinə keçir» [21, 50-51]. Bu, menşeviklərin bir qədər bəhs etdiyimiz mədəni-milli muxtariyyət konsepsiyasından nəşət edən nöqteyi-nəzər idi.

Fəqət Ümumrusiya miqyasında siyasi böhran gücləndikcə və mərkəzlə əyalətlər arasında əlaqə zəiflədikcə gürcü menşeviklərinin muxtariyyətə münasibəti dəyişikliyə uğrayırdı. Ümumrusiya demokratik müşavirəsinin 18 sentyabr (1 oktyabr) iclasında A.Çxenkeli - gürcü sosial-demokratlarının millətçi ovqatlı qanadının təmsilçisi bəyan etmişdi: «Gürcü xalqının siyasi partiyalarında milli məsələyə dair artıq ümumi rəy mövcuddur. Onlar Gürcüstan üçün siyasi muxtariyyət tələb edərək, bu məsələdə tarixi hüquqa və ali ədalətə istinad edirlər» [18, 136]. Fəqət iclas iştirakçıları arasında özlərinin separatçı reputasiyasını yaratmaqdan çəkinən natiq bu sözlərin dərhal ardından gürcü xalqının bütün qüvvələrinin böyük Rusiya Respublikasının sərəncamında olduğunu təntənə ilə vurğulamışdı. Çıxışının sonunda Çxenkeli postfevral konfiqurasiyasının mövcud olduğu müddətdə gürcü menşeviklərinin ümumdövlət siyasi meydanında fəal iştiraklarını davam etdirəcəklərinə işarə ilə söyləyirdi: "Rusiya beynəlmiləl dövlətdir və Rusiya qarşısında duran məsələlərin çözümü Rusiyanın bütün millətlərinin təmsilçilərinin uzlaşdırılmış hərəkətləri olmadan ağlağasığmazdır" [25, 161-162].

Beləliklə, 1917-ci ilin fevral-oktyabr kəsiyində gürcü siyasi partiyalarının milli-ərazi proqramlarının ötəri nəzərdən keçirilməsi bizə söyləməyə əsas verir ki, o dövrdə yalnız milli-demokratlar əvvəlki gürcü tarixi-intellektual ənənəsinə söykənərək, daha dolğun ərazi doktrinası hazırlamışdılar: həmin proqram, qeyd etdiyimiz kimi, Zaqatala mahalına gürcülərin iddialarını təsbit edən ilk siyasi sənəd idi. Fəqət, artıq 1917-ci ilin mayında Zaqatala dairəsinin Tiflis quberniyasına birləşdiriləcəyi barədə güclü şayiələr meydana çıxmışdı: bu şayiələr o qədər ciddi idi ki, Zaqatala dairə komissarlığı Xüsusi Zaqafqaziya Komitəsinə müraciət edərək, belə bir birləşmənin yolverilməz olduğunu bəyan etmişdi. Bu arada isə dairə ilə Sığnaq qəzası arasında müsəlman-gürcü ədavəti güclənməkdə idi. Gərginliyi azaltmaq üçün 1917-ci ilin avqustun 15-də Alazan vadisində Zaqatala dairəsi, Sığnaq qəzası və Dağıstan vilayəti nümayəndələrinin toplantısı keçirildi. Bu barədə «Açıq söz» qəzeti yazırdı: «İctima (toplantı –Ş.R.) müttəhid and ilə iki millət arasında olan mehribançılığın xələldar edilməməsini, ittifaq və qardaşlıq saxlamağa, hər cür müfəttinanə (fitnəkar-Ş.R.) çıxışları, hər hansı tərəfdən olursa olsun, təqib etməyi qərara almışdır» [26, 24 avqust, №549].

1917-ci ilin oktyabr silahlı üsyanı Rusiya imperiyasında dezinteqrasiya proseslərini gücləndirdi. Bolşeviklərin hakimiyyəti ələ keçirməsi faktiki olaraq Petroqradda legitim mərkəzi məhv etdi; bu, həmin mərkəz idi ki, onunla ucqarlardakı milli hərəkatlar öz federativ və ya muxtar haqları ilə əlaqədar sazişə gəlmək niyyətində idilər.

Oktyabr çevrilişi və onun bilavasitə doğurduğu siyasi və sosial nəticələr eyni zamanda gürcü sosial-demokratiyası üçün mötəbər fevral inqilabının iflasa uğraması və vahid Rusiya siyasi-hüquqi məkanının destruksiyası (dağılması) anlamına gəlirdi. Dolayı şəkildə bunun etirafını gürcü menşeviklərinin lideri N.Jordaniyanın noyabrın 11-də Cənubi Qafqazda yerli hakimiyyətin təşkili məqsədi ilə çağırılmış Tiflis müşavirəsindəki nitqi də təsdiqləyir: «Artıq 100 ildir ki, Zaqafqaziya Rusiya ilə əlbir işləyərək, özünü onunla qırılmaz əlaqədə hesab edirdi. İndi bizə bədbəxtçilik üz verib: Rusiya ilə əlaqə qırılmışdır və Zaqafqaziya tək qalmışdır. Biz öz ayaqlarımız üzərinə qalxmalı və öz-özümüzə kömək etməli, yaxud da anarxiyada məhv olmalıyıq» [15, 51]. Yəni yeni, bolşevik Rusiyası gürcü menşevikləri üçün ölüm və hərcmərclik rəmzi, hər hansı bir dövləti nizamın antitezisi kimi təsəvvür olunurdu.

Məhz Oktyabr inqilabı gürcü sosial-demokratiyasını etnosiyasi hərəkatda daha fəal iştirak etməyə və həmin hərəkatın rəhbərliyini öz üzərinə götürməyə sövq etdi.

Gürcüstanda milli hərəkat tezliklə müəyyən institusionallıq kəsb etdi: 1917-ci ilin noyabrın 20-də gürcü partiyalararası şurasının təşəbbüsü ilə Gürcüstanın

ilk Milli qurultayı çağırıldı [Qurultayla əlaqədar ətraflı məlumat üçün bax: 27, 126-136]. Bolşeviklərdən başqa bütün siyasi partiyaların qatıldığı bu qurultaya gürcü menşevikləri rəhbərlik edirdilər.

Bu forumun işində Zaqatala dairəsinin gürcü əhalisinin nümayəndəsi də iştirak edirdi; o, qurultayın seçdiyi və H.Jordaniyanın sədri olduğu 67 nəfərlik gürcü milli şurasının tərkibinə də daxil edilmişdi [27, 126].

Vahid dövlətçilik sisteminin dağılması, unifikasiyaedici siyasi strukturun tədricən aradan qalxması, Qafqazın sürətlə əlahiddələşməsi şəraitində sözügedən Şura faktiki olaraq gürcü əhalisi üçün milli hakimiyyət orqanı nüfuzu kəsb etmiş olurdu. Ona görə də onun tərkibinə Zaqatala gürcülərinin təmsilçisinin daxil edilməsi bu qurumun dairəni gələcək gürcü muxtariyyətinin (o zaman söhbət yalnız muxtariyyət haqqında gedirdi) hüdudları daxilinə qatmaq niyyətindən xəbər verirdi. Fəqət gürcü muxtariyyəti və onun dəqiq müəyyənləşdirilmiş ərazisi məsələsi 1917-ci ilin sonları - 1918-ci ilin əvvəllərində cərəyan edən proseslər fonunda hələ yetərincə aktual deyildi: qeyd olunan dövrdə Cənubi Qafqazda vahid dövlətçilik strukturlarını qoruyub saxlamaq hələ kifayət qədər zəruri idi. Bu isə azərbaycanlıların, gürcülərin və ermənilərin siyasi fəaliyyətinin koordinasiyasını şərtləndirirdi.

Belə bir şəraitdə Cənubi Qafqazın etnosiyasi hərəkatları ərazicə ayrılma məsələsini ilk vaxtlar qabartmırdılar: məsələn, 1917-ci ilin dekabrında gürcü milli şurası Zaqatala bölgəsinin müsəlman əhalisinin narazılığına yol verməmək üçün qərarlarının dairə üçün məcburi olmadığı barədə dərhal bəyanat vermişdi [26, 4 dekabr, №621 («Qafqaz xəbərləri»)].

Zaqafqaziya seyminin mövcudluğu dövründə Cənubi Qafqaz xalqlarının etnik özünüidarə vahidlərinin təşkili və sərhədlərinin çəkilməsi məsələsi müzakirə edilmiş, fəqət həllini tapmamışdı. Seymin 1918-ci il 15 fevralda olmuş iclasında gələcəkdə milli muxtariyyətlərin hüdudlarının müəyyənləşdirilməsi zamanı etnik məskunlaşma prinsipinin əsas götürülməsi haqqında fikirlər səslənsə də, konkret qərar qəbul edilməmişdi [28].

Cənubi Qafqaz xalqlarının tarixində ilk ümumi dövlət təcrübəsi - federativ Cənubi Qafqaz (Transqafqaz) Respublikası (o formal olaraq 1918-ci ilin aprelin 22-də elan edilmiş, amma faktiki olaraq fevralın 23-dən, yəni Zaqafqaziya Seyminin açılışından etibarən fəaliyyət göstərirdi) daxili etnik və siyasi çəkişmələr, habelə mürəkkəb beynəlxalq situasiya üzündən 1918-ci ilin mayın 25-də öz mövcudluğuna son verdi. Əvvəlki siyasi və sosial proseslərin məntiqi yekunu kimi gənc Qafqaz respublikaları – özünəməxsus millət-dövlətlər meydana çıxdı.

Milli dövlətlər yaranmalarına görə millətçi baxışların inkişafına borclu idilər: mütləqiyyətçi hakimiyyət prinsipinə söykənən ənənəvi dövlətlərin – imperiyaların

xalq suverenliyi və milli yekcins dövlət ideyasına istinad edən «millət-dövlətlərlə» sürətlə əvəzləndiyi XIX-XX əsrin əvvəlləri ümumiyyətlə «millətçilik əsri» kimi qavranılırdı. Burada millətçiliyin görkəmli tədqiqatçılarından olan E.Hobsbaumun aşağıdakı tərifini gətirmək istərdik: «millətçilik – siyasi proqramdır və tarixin nöqteyi-nəzərinə görə, nisbətən yeni hadisədir. Bu konsepsiyaya uyğun olaraq, özünü «Millət» kimi anlayan qruplar, fransız inqilabından sonra formalaşmış ərazi dövlətləri tipində dövlət yaratmaq hüququna malikdirlər» [9, 102].

«Millət-dövlət» haqqında gətirilmiş bu xarakteristika 1918-ci ildə meydana çıxmış Qafqaz respublikalarına da şamil oluna bilər. Siyasi planda bu respublikalar imperiyanın çöküşünün məhsulları idi. Onlar mövcudiyyətləri dövründə öz soydaşlarının məskun olduqları ərazilərlə yanaşı, tarixi, təsərrüfat və s. mülahizələrə istinadən, özgə etnik və sosiomədəni arealdan olan torpaqları əhatə etməyə çalışırdı (sonuncu qeyd ilk növbədə Ermənistan və Gürcüstan respublikalarına şamil olunmalıdır). Bu dövlətlərin ərazi identikliklərinin təsbitinə yönəlmiş səyləri çoxsaylı ixtilaf və hətta qanlı münaqişələrlə müşayiət olunurdu. Ümumiyyətlə, ərazi çəkişmələri müstəqil varolmalarının bütün dövründə Cənubi Qafqaz respublikalarının siyasi həyatının ayrılmaz atributuna çevrilmişdi, çünki millətçilik, məşhur ingilis antropoloqu B.Andersenin fikrincə «milləti birləşdirmək üçün daxilə, millət və onun ərazisini qonşu xalqlardan ayırmaq üçün isə xaricə hədəflənir» [1, 323].

Azərbaycan və Gürcüstan respublikaları arasında öz təcili həllini tələb edən bir sıra etnoərazi ixtilafları, bu dövlətlər siyasət meydanına çıxar-çıxmaz, yaranmışdı. Artıq ilk diplomatik yazışmalarda ərazi mübahisələrinin həllinə dair Azərbaycan və gürcü yanaşmalarında fərq ortaya çıxırdı: əgər Azərbaycan tərəfi münaqişələrin həllinin prinsipial əsası kimi etno-demoqrafik, yəni gürcü menşeviklərinin hələ 1917-ci ildə irəli sürdükləri «real məskunlaşma» prinsipini dəstəkləyirdisə, gürcü tərəfi «tarixilik» adlanan prinsipi əldə rəhbər tuturdu. Faktiki olaraq bununla menşeviklər – Gürcüstan siyasi sisteminin və dövləti mexanizminin dayaq elementi, milli-demokratların bir qədər əvvəl söhbət açdığımız ərazi ideologiyasını və onun «açar» anlayışını («Gürcüstanın tarixi məkanı») əxz etdiklərini nümayiş etdirmiş olurdular.

## MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT


1. Колосов В.А., Мироненко Н.С. Геополитика и политическая география: Учебник для студ. вузов. 2-ое изд., испр. и доп. М.: Аспект-Пресс, 2005, 479 с.
2. Бурдье П. Социология политики. М.: SOCIO-LOGOS, 1993, 330 с.
3. Коцебу М.А. Сведения о джарских владениях 1826 г. // История, география и этнография Дагестана. XVIII-XIX вв. Архивные материалы. / Под ред. М.О. Косвена и Х-М. Хамшаева. М.: Изд. вост. лит., 1958, с. 252-263

4. Константинов О.И. Джаро-белоканцы до XIX столетия // Сборник газеты «Кавказ» на I полугодие 1846 г. Тифлис: Типография канцелярии наместника на Кавказе, 1847, с. 376-401
5. Посербский А. Очерк Закатальского округа // Кавказский календарь на 1866 г. Литературный отдел. Тифлис: Типография глав. управ. наместника Кавказского, 1865, с.3-60
6. Фон Плотто А.И. Природа и люди Закатальского округа // ССКГ, вып. IV. Тифлис, Типография глав.управ.наместника Кавказского, 1870, с. 1-62
7. Бакрадзе Д.З. Заметки о Закатальском округе // Записки Кавказского Отдела Императорского Русского Географического Общества (КОИРГО), книжка XIV, вып. I. Тифлис: Типография канцелярии главноначальствующего на Кавказе, 1890, с.248-281
8. Рощин Е.Н. История понятий Квентина Скиннера // Политические исследование (Полис), 2006, №3 (93), с.150-157
9. Лурье С. Национализм, этничность, культура. Категории науки и историческая практика // Общественные науки и современность, 1999, №4, с.101-111
10. Əliyev (Hacıəli) Ş. İngiloylar (tarixi-etnoqrafik tədqiqat) - T.e.n. dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya – Bakı, 2001, 184 s.
11. Рикёр П. Память, история, забвение // Перевод с французского. М: Издательство гуманитарной литературы, 2004, 728 с.
12. Язык и этнический конфликт (Под ред. М.Б.Олкотт и И.Семенова). М.: Гендальф, 2001, 150 с.
13. Аклаев А.Р. Этнополитическая конфликтология: Анализ и менеджмент. М.: Дело, 2005, 471 с.
14. Колосов В.А. Теоретическая лимология: Новые подходы // http://www.intertrends.ru/three/004.htm
15. Жордания Н.Н. За два года. Доклады и речи (с 1-го марта 1917 г. по 1 марта 1919г.). Тифлис: Типография грузинского правительства, 1919, 224 с.
16. Борьба», 1917, 21 iyun, №39
17. Багирова И.С. Политические партии и организации Азербайджана в начале XX века. Баку: Элм, 1997, 336 с.
18. Вахтангишвили Т.Б. Социально-экономическая структура Грузии и основные задачи общественно-политического движения в стране на рубеже XIX-XX вв. Автореф. дис. ... д.и.н., на грузин. и на рус. языках. Тбилиси, 2002, 140 с.
19. «Новое время», 1919, 17 yanvar, №13
20. «Каспий», 1917, 17 (30) may, №107
21. Ментешашвили А.М. Октябрская революция и национально-освободительное движение в Грузии (1917-1921). Тбилиси: Ганатлеба, 1987, 208 с.
22. Миллер А. Империя Романовых и национализм: эссе по методологии исторического исследования. М.: Новое литературное обозрение, 2006, 248 с.
23. Драбкина Ел. Грузинская контр-революция. Л.:Прибой, 1928, 179 с.
24. Соловьев А.И. Политическая идеология: логика исторической эволюции // Политические исследование (Полис), 2001, №2, с. 5-22.
25. Руднева С.Е. Демократическое совещание (сентябрь 1917 г.): История форума. М.; Наука, 2000, 256 с.
26. «Açıq söz», 1917
27. Махарадзе Ф. Советы и борьба за Советскую власть в Грузии. Тифлис: Госиздат, 1928, 164 с.

28. Закавказский сейм. Стенографический отчет. Сессия первая. Заседание третье. Тифлис, 15 февраля 1918г. [Б.д. и м.], с. 2-49

**Sh.F.Rahmanzadeh**

## THE NATIONAL-TERRITORIAL PROGRAMS OF GEORGIAN POLITICAL PARTIES AFTER THE FEBRUARY REVOLUTION OF 1917 AND THEIR CLAIMS TO THE ZAGATALA DISTRICT

**SUMMARY**

The aim of this article is the analysis of Georgian political parties' territorial ideologies and their claims to the Zagatala district contained in them. Within this goal are examined the historical and spiritual roots of the mentioned claims. It was noted that the emergence of nation-states, as inherent to the political processes in the South Caucasus in 1917-1920, linked the issue of national identity with the need to establish a territorial identity. We concluded that during the deployment of the national (ethno-political) movement in Georgia among the Georgian political forces gradually evolved conventional ideas about the desired area and borders. Meanwhile, the Mensheviks - the basic element of the political system in Georgia slowly assimilated the key concepts of territorial nationalist ideology.

**Ш.Ф.Рахманзаде**

## НАЦИОНАЛЬНО-ТЕРРИТОРИАЛЬНЫЕ ПРОГРАММЫ ГРУЗИНСКИХ ПОЛИТИЧЕСКИХ ПАРТИЙ ПОСЛЕ ФЕВРАЛЬСКОЙ РЕВОЛЮЦИИ 1917 Г. И ИХ ПРИТЯЗАНИЯ НА ЗАКАТАЛЬСКИЙ ОКРУГ

**РЕЗЮМЕ**

Целью данной статьи является разбор территориальных идеологий грузинских политических партий и содержавшихся в них притязаний к Закатальскому округу. В рамках поставленной цели рассмотрены исторические и духовные корни упомянутых притязаний. Было отмечено, что становление наций государств, столь присущее к политическим процессам на Южном Кавказе в 1917-1920 гг., увязывало проблему национальной идентичности с необходимостью установления территориальной идентичности. Нами сделан вывод, что в ходе развертывания национального (этнополитического) движения в Грузии среди грузинских политических сил постепенно складывались конвенциональные представления о желаемом пространстве и границ страны. При этом меньшевики – базовый элемент политической системы Грузии постепенно усваивали ключевые концепты националистической территориальной идеологии.

**Açar sözlər:** Cənubi Qafqaz, Zaqatala dairəsi, tarixi konsepsiya, 1917-ci ildə Rusiyada inqilab, gürcü siyasi partiyaları, ərazi ideologiyası, millət-dövlət.

**Ключевые слова:** Южный Кавказ, Закатальский округ, историческая концепция, революция в России в 1917 г., грузинские политические партии, территориальная идеология, нация-государство.

**Key words:** South Caucasus, Zagatala district, historical concept, Russian revolution of 1917, the Georgian political parties, territorial ideology, nation-state.

**Məqalə t.ü.f.d. S.Əliyevanın və t.ü.f.d. Ə.Məmmədovun müsbət rəyləri əsasında çap olunur.**

# АРМЯНО- АЗЕРБАЙДЖАНСКИЙ НАГОРНО-ГАРАБАХСКИЙ КОНФЛИКТ И АЗЕРБАЙДЖАНСКАЯ ДИАСПОРА

**Фарид ГУЛИЕВ***

Идея азербайджанства, провозглашенная как часть государственной политики в области работы с азербайджанцами, проживающими за рубежом, стала политическим фактором в процессе консолидации соотечественников и координации деятельности азербайджанских общественных организаций.

Работа государственных и неправительственных организаций в решении общенациональных проблем - проблемы освобождения оккупированных Арменией территорий в рамках территориальной целостности Азербайджанской Республики, признания мировой общественностью Ходжалинского геноцида, также является неотъемлемой частью деятельности азербайджанской диаспоры.

На I (10.XI.2001), II ( 16.03.2006) и III () съездах азербайджанцев мира были приняты обращения к мировой общественности, международным организациям, к парламентам и руководителям государств и правительств о поддержке Азербайджана в справедливом урегулировании Армяно-Азербайджанского Нагорно-Гарабахского конфликта с соблюдением общепризнанных международных норм и признания территориальной целостности Азербайджана (1).

На I съезде Азербайджанцев мира была создана Комиссия по вопросам предотвращения агрессии Армении против Азербайджанской Республики. В состав комиссии вошли представители Канады, Австрии Литвы, Эстонии, Германии, России, Украины и Грузии. Члены комиссии, в целях продуктивной работы по пропаганде и распространению правды об армянской оккупации азербайджанских земель, выступили с инициативой создания атласа, утерянных за 200 лет территорий и архитектурных памятников, реестра памятников материальной культуры, справочников по хронологии армянского терроризма и др. Также были высказаны предложения об усилении работы над публикациями по истории развития Армяно-Азербайджанкого Нагорно-Гарабахского конфликта, объединении усилий азербайджанской, турецкой и еврейской диаспор по совместному противодействию вымышленной проблеме «армянского геноцида», регулярном размещении на страницах журналов и газет стран проживания информации по пропаганде Азербайджанской Республики объединении разрозненных

---

* Fərid Yusif oğlu Quliyev – AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun aspirantı

диаспорных организаций в единый федеральный центр, создании координационного органа по работе с зарубежной диаспорой ( 2).

9 марта 2007 года в Баку прошел Первый форум азербайджанских и турецких диаспорных организаций мира, на котором присутствовали Президент Азербайджанской Республики И.Г.Алиев, Премьер-министр Турции Р.Т.Эрдоган и лидер турецкой общины Северного Кипра Мехмет Али Талят.

На форуме была принята Бакинская Декларация. Одним из пунктов Декларации был пункт об объединении усилий азербайджанской и турецкой диаспор о проведении пропагандистских мероприятий по информированию международной общественности и распространению правдивой информации об армянской оккупации территорий Азербайджанской Республики.

Донесение до мировой общественности правды о событиях в Нагорном Гарабахе, путях решения территориальной целостности исторической Родины – Азербайджанской Республики является основной частью работы азербайджанской диаспоры.

Созданный в 1997 году в Лос-Анджелесе Конгресс Азербайджанцев Мира (КАМ) на съездах Конгресса постоянно поднимает и обсуждает вопросы донесения до мировой общественности исторической правды об Армяно-Азербайджанском Нагорно-Гарабахском конфликте, о захвате 20% территории и нарушении территориальной целостности Азербайджанской Республики армянскими оккупантами, разрушении памятников материальной культуры и т.д.

Азербайджанская диаспора в Российской Федерации является инициатором организации в Москве постоянно действующего общественного форума за восстановление территориальной целостности Азербайджанской Республики справедливое урегулирование Армяно-Азербайджанского, Нагорно-Гарабахского конфликта.

Последовательность работы ФНКА АЗЕРРОС в вопросах поиска путей решения Армяно-Азербайджанского Нагорно-Гарабахской проблемы проявила себя в проведении совместно с Институтом этнологии и антропологии Российской Академии Наук круглого стола «Карабахский узел: поиски путей урегулирования конфликта. Этнический и этнографический аспект Карабахского конфликта» (3).

Проблема Армяно-Азербайджанского Нагорно-Гарабахского конфликта нашла свое отражение на страницах газет и интернет-сайтов азербайджанской диаспоры России.

На страницах электронной версии газеты Всероссийского Азербайджанского Конгресса «Азербайджанский Конгресс» осуществляется проект

«Спасти и сохранить». Цель данного проекта – привлечение внимания передовой российской общественности к проблеме вандализма, проводимого армянскими оккупационными силами на территории Нагорного Гарабаха и других оккупированных территориях Азербайджанской Республики (4).

Самой богатой по содержанию интернет-страницей, посвященной Нагорному Гарабаху, является интернет-страница информационно-справочного портала «Азербайджанцы России» – www.azeri.ru ( 5) .

В рамках проекта «Карабах» bbcrussian.com опубликована книга Тома де Ваала «Черный сад. Между миром и войной» («Black Garden.Armeniya and Azerbaijan through Peace and War. Thomas de Waal» (6).

Азербайджанская научная интеллигенция Российской Федерации совместно с московским национально-культурным обществом «Оджаг» ежегодно проводят круглые столы, дискуссии, приуроченные к трагическим событиям- 20 января 1990 г. в Баку и геноциду в Ходжалах, депортации азербайджанцев из Армянской ССР в 1988-1991 гг. и оккупации азербайджанских земель.

Проводимые диаспорой мероприятия находят свое отражение в электронных информационных ресурсах Всероссийского Азербайджанкого Конгресса (ВАК), АЗЕРРОС, региональных организациях азербайджанской диаспоры, на сайте «Азербайджанцы России».

Возглавляемая Лейлой Алиевой Азербайджанская Молодежная Организация России - АМОР, стала инициатором движения «Справедливость к Ходжалы». Выступая на второй конференции АМОР 22 мая 2010 года Л.Алиева отметила: «Одной из самых важных составляющих нашей деятельности является проведение совместно с Фондом Гейдара Алиева международной кампании «Справедливость к Ходжалы». В рамках данной кампании было проведено 70 акций в разных странах мира. Цель кампании – донесение информации о февральских событиях 1992 года до жителей всех континентов мира. Ходжалы – это наша боль, и очень важно, чтобы об этой трагедии, в целом об армяно-азербайджанском конфликте, было услышано мировым сообществом. И в будущем, до справедливого разрешения этого конфликта, восстановления территориальной целостности Азербайджанской Республики мы будем продолжать идти дальше в этом направлении (7).

Роль и значение азербайджанской диаспоры в решении общенациональной проблемы, какой является армяно-азербайджанский, Нагорно - Гарабахский конфликт, будь это на постсоветском или европейском пространстве, на Ближнем Востоке или Американском континенте, неоценимы.

Руководитель Азербайджанского Дома в Бельгии Б.Гурджам издал книгу «Карабах: плененная земля». Книга издана на французском языке и распространена среди депутатов Европейского парламента, общественности, в диаспорных организациях, входящих в Конгресс БеНиЛюкс. В книге идет речь об истории армяно-азербайджанских взаимоотношений, о насилии армян против азербайджанцев в отдельные исторические периоды ( 8).

Конгресс БеНиЛюкс предотвратил показ и прокат проармянского фильма голландского режиссера Сузан Крюгера «Надежда умирает последней». Показ и прокат фильма был запрещен на официальном уровне.

Своевременное вмешательство и настойчивость Конгресса БеНиЛюкс, предоставление неопровержимых фактов о фальсификации исторических событий позволило изъять фильм армянского режиссера В.Оганесяна «Судьба людей Войны и Мира» с показа и участия на Международном кинофестивале. Фильм был официально запрещен к показу и прокату в кинотеатрах Королевства Нидерландов.

3 октября 2007 года телеканалу международных новостей «France -24» была направлена нота за фиальсификацию событий в Гарабахе.

8 января 2008 года на выставке мирового туризма в городе Утрехт со стенда Армении были убраны рекламные буклеты и книги, посвященные туризму в Гарабаге.

Членами азербайджанской общины Лондона братьями Тале и Ниджатом Гейдаровыми создан Интернет сайт www.karabakh.co.uk. На сайте размещена общая информация об Азербайджане, исторические документы о Гарабагском ханстве до присоединения к Российской империи, Кюрекчайский (1805г. ), Туркменчайский (1828г. ) и Гюлистанский (1823г.) договора и т.д.

Азербайджанское Общество Европы организовало фотовыставку в здании парламента Великобритании, посвященной реалиям Гарабаха.

Демонстрируемые на фотовыставке работы отражают Ходжалинский геноцид, трагедию людей, оказавшихся в результате оккупации армянами азербайджанских земель в положении беженцев и вынужденных переселенцев, разрушенные памятники и гуманитарную катастрофу в Нагорном Карабахе.

Увеличение количества сайтов азербайджанской диаспоры в мировой сети Интернета, и, соответственно, единственной правдивой информации об Армяно-Азербайджанском Нагорно-Гарабахском конфликте вызывает обес-покоенность у армянских оппонентов. Научный сотрудник армянского фонда «Нораванк» А.Наапетян в своей статье «К вопросу об увеличении азербайджанских сайтов в Интернете» пишет: « Из года в год в интернете увеличивается количество антиармянских сайтов по карабахской тематике,

которые создаются в основном в Азербайджане, а также азербайджанскими общинами, существующими в других государствах. Сайты антиармянского содержания, нацеленные на отрицание Геноцида армян, искажение истории Армении, деятельности организации АСАЛА, создаются также по инициативе Турции, однако на сегодня своей активностью Баку превосходит своего «старшего брата… . Таким образом, в пропагандистском плане Азербайджан и Турция проделали намного больше работы, достигли успехов, которые в определенной мере изменили положение дел в ходе информационной войны, и, по сути, не всегда сталкиваются с противодействием армянской стороны» (9).

Но у армянских оппонентов вызывает недовольство и книга американского ученого Мичиганского университета армянского происхождения Рональда Суни «Армянский народ: от древности до наших дней». Р.Суни пишет: «Нагорный Карабах был исторической землей древних албанцев, которые, являются предками азербайджанцев и турков… . На территорию, называемую «исторической Арменией», армяне пришли 2600 лет назад. «Пришлые» колонисты уничтожили существовавшее здесь в тот период государство Урарту. Появившиеся в V веке армянские историки Павстос Бузанд, Мовсес Хоренатси и Егише – фальшивые историки». Признание автором Нагорного Карабаха исторической родиной азербайджанцев вызвало недовольство у радикально настроенных армян США (10).

При взаимодействии общины азербайджанцев Литвы и ее председателя, члена Совета национальных общин при правительстве Литвы М.Гамзаева литовский журналист И. Мелянас написал очерк о геноциде азербайджанского народа. И.Мелянас является координатором Совета национальных общин при Генеральном департаменте по делам Национальностей и эмиграции правительства Литовской Республики. Презентация очерка в литовском Музее геноцида вызвало неадекватную реакцию и негодование у армянской общины, которые направили анонимное письмо протеста в Совет. И.Мелянас в своем интервью сообщает следующее: « 31 марта, в День геноцида азербайджанского народа я выступил с лекцией на мероприятии в Музее геноцида в Вильнюсе. Это мероприятие организовал наш Совет национальных общин совместно с государственным учреждением – Центром исследования геноцида и сопротивления жителей Литвы. А затем, на основе собранных для лекции материалов, я подготовил тот очерк, который и был опубликован. И все это армянская община расценила как чисто антиармянский выпад» (11). Событие в Музее геноцида Литвы вызвало перелом в сознании многих литовцев. Так, литовский журналист,

редактор и владелец литовского Интернет-портала www.slaptai.lt Гинтарас Висоцкас отмечает: «Должен признаться, что долгое время я держался как бы на стороне армян. Не потому что был враждебно настроен против азербайджанцев. Просто, благодаря мощной пропаганде, немалое число литовцев убеждены, что мусульмане – люди жестокие, фанатичные, коварные, склонные к преступлениям…. 31 марта 2009 года в моем сознании произошел перелом. В день памяти трагедии азербайджанского народа кто-то из чиновников-перестраховщиков запретил показ так называемой «жестокой» версии документального фильма о геноциде азербайджанцев. Вы только представьте себе: историкам, журналистам, политикам, собравшимся в помещении Музея геноцида, не разрешен показ «жестокого» варианта фильма об азербайджанской трагедии. Это обстоятельство меня взбесило. Я спрашивал себя: почему в демократической Литве, в довольно узкой, специфичной аудитории в Музее геноцида не разрешается посмотреть якобы «жестокую» версию фильма. Никак не мог понять, почему кто-то за меня решает, что мне можно, а чего нельзя видеть. Я тут же вспомнил напыщенное мероприятие в память о геноциде армянского народа в Сейме Литвы, и разглядел очевидную дискриминацию. Кому-то разрешается больше, кому-то – меньше. В этом случае я могу только порадоваться, что мой портал www.slaptai.lt был первым в Литве, показавшим «жестокую» версию фильма о вашей трагедии. Этот фильм и поныне можно посмотреть на нем. О странном проявлении цензуры в Вильнюсе 31 марта я написал и в газете католического направления «XXI amžius» («XXI век») (12).

Азербайджанская диаспора параллельно с участием в решении проблемы Армяно-Азербайджанского Нагорно-Гарабахского конфликта направляет свои силы и в дело признания мировым сообществом Ходжалинского геноцида.

Каждый год в день Ходжалинской трагедии азербайджанская диаспора проводит мероприятия для привлечения внимания мировой общественности к трагедии азербайджанского народа.

Организация Бельгия-Азербайджан в память жертв Ходжалинской трагедии установила палатку на центральной площади Брюсселя Place du Schuman, в которой была устроена фотовыставка и вывешены картины, посвященные Ходжалинской трагедии. На одном из местных телеканалов был продемонстрирован фильм о Ходжалы. Азербайджанская диаспора при поддержке соотечественников из ФРГ, членов турецкой диаспоры в Бельгии провела пикет перед зданием Европейского Парламента с призывом признать геноцид азербайджанцев в Ходжалы. Также состоялась акция на брюссельской площади Square de Meeuse.

Мероприятия диаспоральных организаций были проведены в Европе, на американском континенте,Австралии, арабских странах, в странах СНГ.

26 февраля организация азербайджанцев Эстонии «Айдан» и Центр культуры «Эстония-Азербайджан» провели в Таллинне вечер памяти жертв Ходжалы. В Латвии организация «Оджаг» организовала по этому случаю «круглый стол» в библиотеке Латвийской Академии Наук. В связи с годовщиной трагедии Ходжалы прошли мероприятия в Казахстане и Грузии. На церемонии памяти, организованных проживающими в Казахстане азербайджанцами в 14 областях страны, участвовали представители и других национальностей. На мероприятии, проведенном Союзом центров культуры азербайджанцев Казахстана и каспийским обществом города Астана, участвовали представители посольств Азербайджана и Турции, украинской, германской, корейской, киргизской, туркменской диаспор, интеллигенции, члены Ассоциации дружбы Казахстан-Азербайджан. Участникам мероприятия были представлены фильмы и книги, буклеты о геноциде Ходжалы, подготовленные Фондом Гейдара Алиева.

В столице Швеции Стокгольме активисты азербайджанской диаспоры встретились со спикером парламента этой страны Пером Вестербергом. Председатель Общества «Во имя Азербайджана» Швеции Надир Холлендранд сообщил, что на встрече было подробно рассказано о геноциде, учиненном в городе Ходжалы армянскими военными подразделениями 26 февраля 1992 года. Спикеру сообщили, что в результате геноцида были убиты 613 человек, среди них 106 женщин, 63 малолетних детей, 70 стариков, 8 семей были полностью уничтожены, 1000 мирных жителей различного возраста стали инвалидами, 1275 были взяты в заложники. На встрече руководителю парламента Швеции была вручена книга «Армянский террор», рассказывающая о кровавых трагедиях, которые совершались со стороны армян против азербайджанцев.

В Сиднее также был отмечен день Ходжалинской трагедии. На церемонии памяти, организованной совместно Обществом азербайджано-турецкой дружбы Австралии, Сиднейского турецкого общества, Азербайджанского общества и Радио «Голос Азербайджана», участвовали проживающие в Сиднее азербайджанцы, а также турки, туркманы, руководители диаспорских организаций других народов, депутаты и представители СМИ, а также обучающиеся в этой стране азербайджанские студенты.

Действующее в Дубае (ОАЭ) Азербайджанское общество провело мероприятие связи с годовщиной трагедии в Ходжалы. Здесь, наряду с нашими соотечественниками, участвовали представители турецкой, французской и

русской общин, а также иракские туркманы и арабы. На мероприятии было рассказано о геноциде, учиненного армянами против мирного населения г.Ходжалы, были продемонстрированы фото, рассказывающие о Ходжалинском геноциде, презентованы книги, повествующие об этой кровавой трагедии, некоторые из этих книг были вручены гостям. Кроме того, был представлен фильм, подготовленный Фондом Гейдара Алиева (13).

Параллельно с работой по признанию Ходжалинского геноцида азербайджанская диаспора ведет активую деятельность, направленную против признания так называемого «армянского геноцида 1915 года».

Впервые в мире отмены решения о признании геноцида армян добилась Крымская община азербайджанцев Украины. Прокуратура Изюмского района дала юридическую оценку решению горсовета и своим постановлением, признало его недействительным и противозаконным. Решение Изюмского горсовета о признании геноцида армян было принято « вне рамок действующего украинского законодательства и вне компетенции органа местного самоуправления» (14).

Таким образом, можно отметить, что азербайджанцы мира не отделяют себя от решения общеазербайджанской проблемы, какой является проблема армяно-азербайджанского, Нагорно-Гарабахского конфликта, проблемы признания мировой общественностью Ходжалинского геноцида, проблемы по отмене признания надуманного «геноцида» армян, стоящей перед всем тюркским миром.

## ИСТОЧНИКИ И ЛИТЕРАТУРА


1. Dünya azərbaycanlılarının I qurultayı nümayəndələrinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemi ilə əlaqədar Dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara,xarici ölkələrin rəhbərlərinə və parlamentlərinə müraciəti. s.224-229. Dünya azərbaycanlılarının I qurultayı. Bakı.(9-10 noyabr 2001).Bakı: Azərnəşr, 2001, 351s.; Dünya azərbaycanlılarının II qurultayının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar Dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara,xarici ölkələrin parlamentlərinə,Dövlət və hökümət başçılarına müraciəti. s.162-166. Dünya azərbaycanlılarının II qurultayı. Bakı: Çaşıoğlu, 2006,191 s.
2. Ermənistanın Azərbaycana qarşı təcavüzünün aradan qaldırılması məsələləri komissiyasıyasının sədri,Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavini Ziyafət Əsgərovun cıxışı.ss.88-91.Dünya azərbaycanlılarının I qurultayı.Bakı.(9-10 noyabr 2001). Bakı: Azərnəşr, 2001, 351s.
3. Карабахский узел: поиски путей урегулирования конфликта». Круглый стол редакции «АР», 17 марта 2001 г. Газета «АЗЕРРОС-Азербайджанцы России», № 9,май 2001г.
4. «Спасти и сохранить». Газета. Всероссийский Азербайджанский Конгресс. www.azcongress.ru.
5. Карабах. Азербайджан. Азербайджанцы России. www.azeri.ru).
6. там же
7. В Москве прошла вторая конференция Азербайджанской молодежной организации России. www.amor.az.

8. Дом Азербайджана в Бельгии издал книгу «Карабах – плененная земля» www.1news.az
9. А.Наапетян «К вопросу об увеличении азербайджанских сайтов в Интернете» www.noravank.am/ru.
10. Армянский ученый подтверждает, что Нагорный Карабах является азербайджанской землей. АзерТадж. 20 февраля 2009.
11. Р.Мехтиев Литовский журналист Имантас Мелянас: «Армяне написали по сути анонимку на мое место работы, надеясь, что меня уволят» 18.07.2009 www.day.az.
12. О.Ивашина. Литовский журналист: мне понятна боль азербайджанцев. Азербайджанцы в РФ. www.nigma ru.
13. Жизнь диаспоры.www.press-d.az.
14. Крымская азербайджанская община добилась отмены признания «геноцида» армян. 01 Апреля 2010. www.day.az.

**F.Y. Quliyev**

**ERMƏNİ-AZƏRBAYCAN DAĞLIQ QARABAĞ KONFLİKTİ VƏ AZƏRBAYCAN DİASPORASI**

**XÜLASƏ**

Azərbaycan diasporasının fəaliyyətinin ayrılmaz hissəsini erməni-azərbaycan, Dağlıq Qara-bağ münaqişəsi təşkil edir. Bu məqalədə azərbaycan diaspoarasının dünya ictimaiyyətinə Dağlıq Qarabağ problemi haqqında həqiqətləri çatdırmaq, tarixi vətəninin – Azərbaycanın ərazi bütövlüyünün bərpası istiqamətindəki fəaliyyəti analiz olunur. Azərbaycan diasporasının bu problem ətrafındakı fəaliyyəti analiz olunaraq belə qənaətə gəlinir ki, dünya azərbaycanlıları özlərini erməni-azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və Xocalı genosidinin dünya ictimaiyyəti tərəfindən tanınması, bütün türk dünyasının qarşısında duran uydurulmuş erməni "genosidi" probleminin aradan qaldırılması kimi ümümazərbaycan problemlərinin həllində kənarda hiss etmirlər.

**F.Y.Guliyev**

**ARMENIA-AZERBAIJAN GARABAGH CONFLICT AND THE AZERBAIJAN DIASPORA**

**SUMMARY**

The Armenia-Azerbaijan Garabagh conflict is an integral part of activities of Azerbaijan diaspora. The present article is devoted to the activity of the Azerbaijani diaspora in bringing the truth to the world community about the Garabagh, to the ways of solution of the territorial integrity of historical motherland Azerbaijan. After analyzing this activity the author comes to the conclusion that the Azerbaijanis of the world don't separate themselves from the solution of Azerbaijan's problem which is Garabagh problem and the problem of ofrecognitionbythe world community of Hodzhalygenocide, the problem oncancellation of recognition of so-called "genocide" of the Armenians, facingall Turkishworld.

**Açar sözlər**: münaqişə, diaspora, ölkə, respublika, fəaliyyət
**Ключевые слова**: конфликт, диаспора, страна, республика, деятельность
**Key words**: the conflict, diaspora, the country, republic, activity

**Məqalə t.ü.f.d. M.Seyidbəylinin və t.ü.f.d. V.Abışovun müsbət rəyləri əsasında çap olunur.**

# HEYDƏR ƏLİYEV İRSİNDƏ AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ TARİXİNƏ MÜNASİBƏT MƏSƏLƏLƏRİ

**Leyla HÜSEYNOVA**
Leyla Huseyinova@hotmail.com*

Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi ilk dövr xalqın milli özünüdərk, özünəqayıdış proseslərinin başlanğıcı kimi qəbul edilir. Bu dövrdən etibarən başlanan Heydər Əliyevin idarəetmə fəlsəfəsinin başlıca ideya-siyasi istiqamətlərini məhz xalqın milli özünüifadəsinin bütün forma və vasitələrinin geniş vüsət alması, milli qürur hissinin güclənməsi və milli şüurun yüksəlməsinə təkan verən sürətli inkişaf strategiyasının gerçəkləşdirilməsi təşkil etmişdir. Azərbaycan xalqının görkəmli şəxsiyyətlərinin gənc nəslə tanıdılması, tarixi günlərin qeyd olunması, muzeylərin açılması, xatirə heykəllərinin qoyulması və s. bu kimi məsələlər bir  ənənə halını almış, bu isə Azərbaycan xalqının problemləri ilə sıx bağlı olub milli ruhun, milli özünüdərkin yüksəlişi, xalqın tarixi yaddaşının özünə qaytarılması, müstəqil dövlətçilik ideyalarının gerçəkləşdirilməsi üçün zəmin yaratmışdır.

Heydər Əliyev ikinci dəfə hakimiyyətə gələn zaman ölkənin siyasi-ictimai vəziyyəti ağır idi.  Azərbaycan Respublikasının bu ağır məqamında belə, Heydər Əliyev tarixi keçmişimizə, soy kökümüzə, milli-mənəvi dəyərlərimizə layiqli qiymət verməyi, onları təbliğ etməklə özünəqayıdış siyasətini ən vacib vəzifə hesab edirdi. Onun Azərbaycan tarixi konsepsiyasında tariximizin dövrləşdirilməsi, tarixi hadisələrə, tarixi şəxsiyyətlərin həyat və fəaliyyətlərinə qiymət verilməsi, ən vacib tarixi məqamların elmi-təhlil edilməsi və sairə bu kimi məsələlər əsas götürülür.

Heydər Əliyevin Azərbaycan tarixi konsepsiyasında əsas yerlərdən biri Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə həsr edilmişdir. 1991-ci ilin oktyabrında yaranmış olan müstəqil Azərbaycan Respublikasını Azərbaycan Xalq Cümhuriyyətinin varisi hesab edən Heydər Əliyev bu  ictimai-siyasi hadisəni yüksək  qiymətləndirirdi : "Azərbaycanda 1918-ci ildə ilk demokratik respublika yaradıldı. Bu, şübhəsiz ki, tarixi bir hadisədir. Azərbaycanın müstəqilliyi uğrunda son dövrlərdə gedən proseslərdə - həm mətbuatda, həm də ictimai-siyasi proseslərdə ilk Azərbaycan Demokratik Respublikası böyük bir nailiyyət kimi qeyd olunub və onun gördüyü işlər yüksək qiymətləndirilibdir. Bu, təbii bir haldır, tariximizin böyük və parlaq bir mərhələsidir. Bu mərhələni biz layiqincə qiymətləndirməliyik və mən də bu gün sizin qarşınızda bunu bildirmək istə-

---

Leyla Əhliman qızı Hüseynova – AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun dissertantı

yirəm. Bəli, 1918-ci il may ayının 28-də Azərbaycan Demokratik Respublikasının yaranması Azərbaycan tarixində böyük siyasi-ictimai hadisədir. Belə bir demokratik dövlətin mövcud olması və müəyyən qədər fəaliyyət göstərməsi Azərbaycanın sonrakı dövrlərinə təsir edibdir.” [1, s. 155]

1993-cü il iyunun 15-də xalqın tələbi ilə yenidən hakimiyyətə gələn böyük dövlət xadimi Heydər Əliyev ictimaiyyətin müxtəlif təbəqələri ilə görüşlər keçirmişdi. Ziyalılarla, gənclərlə, müxtəlif peşə sahibləri ilə, sadə xalqın nümayəndələri ilə görüşlərdə Ulu Öndər müstəqil Azərbaycan Respublikasının sağlam köklər üzərində qurulduğunu və AXC-ni dövlətçilik tariximizin ən parlaq mərhələsi olduğunu əsaslandırırdı.

1997-ci il 31 yanvar tarixində Azərbaycan Elmlər Akademiyasında ziyalılarla Heydər Əliyevin tarixi görüşü olmuşdur. Dövlətin ictimai-siyasi, elmi-mədəni həyatında Milli Elmlər Akademiyasının rolunu xüsusi qiymətləndirən Ulu öndər ayrı-ayrı elmi institutların işinə tövsiyələr vermiş, istiqamət göstərmişdi. 90-cı illərin ən çətin günlərində ölkənin ziyalıları, elm xadimləri ilə görüşün keçirilməsi təsadüfi deyildi. Tarixin ən çətin anlarında ziyalıların mövqeyi bir çox məsələlərə təsir etmişdir. Bunu əsas götürərək Heydər Əliyev ayrı-ayrı elm sahələrinin dövlət quruculuğu yolunda rolunu qeyd edərək tənqidi fikirlərini də bildirməyi vacib hesab etmişdi. Beləki, tarix elminin sovet ideologiyasının təsirlərinə məruz qaldığını, lakin bunun səbəblərini özümüzdə axtarmağı tövsiyə edən Ulu öndər tarixşünaslıqda qədim və orta əsrlər tarixi ilə ötən əsrlərin tarixinin də öyrənilməsini aktual olduğunu vurğulamışdır: “Tarixçilərimizin xatirində olmalıdır ki, mən Azərbaycanda işləyən dövrdə - 70-ci illərdə və 80-ci illərin əvvəllərində dəfələrlə onlara müraciət etmişdim ki, bizim tariximiz – həm qədim tariximiz, həm orta əsrlər tariximiz, həm də son dövrlərin, yəni XVIII, XIX, XX əsrlərin tarixi istənilən səviyyədə yazılmayıb.” [1, s. 155]

XX əsrin 90-cı illərində demokratik hərəkatın genişlənməsi ilə Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə və dövlət xadimlərinə münasibət məsələlərində kəskin dönüş yaranmışdı. Dövlətçilik tarixinin ən parlaq səhifəsi xalq hərəkatının ideoloji məfkurəsinin formalaşmasında özək rolunu oynayırdı. Lakin tarixin gedişində bəzi hadisələr göstərdi ki, xalq hərəkatında liderlik edənlər pafoslu çıxışlarla bəzi şişirtmələrə və ideallaşdırmalara yol verərək tarixi şəxsiyyətlərə qarşı haqqsız mövqe tutmuşdular. Heydər Əliyev tariximizin qiymətləndirilməsini, düzgün araşdırılmasını əsas meyar hesab etmiş, daim bu işi öz nəzərindən kənara qoymamışdır. Tariximizin subyektiv fikirlərdən, təhriflərdən, ideallaşdırmadan kənar yazılması problemi Heydər Əliyevi daima narahat etmişdi. Bu narahatlığı Heydər Əliyev sovet dövründə də yaşamış və hər məqamda tariximizin dürüst yazılmasına çalışmışdır.

Azərbaycan Xalq Cümhuriyyəti tarixinə münasibət heç də hər zaman birmənalı olmamışdır. Sovet hakimiyyəti illərində Azərbaycan Xalq Cümhuriyyətinin tarixi təhrif edilmiş, vacib məqamlar gizlədilmiş, tarix saxtalaşdırılmışdı. Lakin müstəqilliyimizin bərpası baş verdikdən sonra tarixi faktlar açıqlandı, arxiv materialları aşkarlandı, tarixi həqiqətlər ictimaiyyətə aşkar oldu. XX əsrin 90-cı illərində Azərbaycan tarixinin yenidən araşdırılması prosesi başlandı. Bu prosesin də gedişində tarixi faktların ifrat dərəcədə şişirdilməsi, şəxsiyyətlərin ideallaşdırılması və sairə bu kimi nöqsanlar baş verirdi. Heydər Əliyev bu prosesləri izləmiş və nöqsanları dilə gətirərək obyektivliyin təmin olunmasını alimlərə tövsiyə etmişdir: "Heç bir dövrü, heç bir şəxsi ideallaşdırmaq lazım deyildir. Təəssüf ki, bu ideallaşdırma xəstəliyi 70 ildir beynimizə girmişdir. Bundan xilas olmaq lazımdır. Əgər 70 il müddətində bütün ideoloji sistemimiz marksizm-leninizm elmini, onun prinsiplərini, Marksı, Lenini ideallaşdırmışdırsa, indi də ancaq Məmmədəmin Rəsulzadəni ideallaşdırırlar. Mən yenə də deyirəm: Məmmədəmin Rəsulzadə və onunla bərabər Azərbaycan Respublikasının böyük şəxsiyyətləri XX əsrin əvvəlində və xüsusən 1918-ci ildə, Azərbaycan Demokratik Respublikası qurarkən böyük şücaət göstərmişlər, böyük iş görmüşlər. Bu, şəksiz-şübhəsizdir." [1, s. 156]

Bir çox tarixçilər Heydər Əliyevin Milli Elmlər Akademiyasında ziyalılarla görüşündəki fikirlərinin bu məqamını əsas götürərək Məmmədəmin Rəsulzadə şəxsiyyətinə münasibəti dəyişdilər və ya Azərbaycan Xalq Cümhuriyyəti tarixindən bəhs edərkən bu böyük tarixi şəxsiyyətdən yan keçmək istədilər. Lakin Heydər Əliyev Məmmədəmin Rəsulzadə kimi tarixi şəxsiyyətin Azərbaycan Xalq Cümhuriyyəti tarixində rolunu danmadan, onu dürüst qiymətləndirərək ideallaşdırmanın əleyhinə idi. Çünki Ulu öndər cümhuriyyətin tarixinin bilicisi olaraq digər dövlət xadimlərinin də rolunu dərk edir və onların da digərləri ilə bərabər şəkildə tarixi rolunun tədqiq edilməsini arzulayırdı. Ziyalılarla görüşü zamanı mövqeyini açıq şəkildə bəyan edən Heydər Əliyev deyirdi: "Gəlin açıq danışaq: belə çıxır ki, bir vaxtlar deyirdilər, tariximizdə Kommunist Partiyasının, Sovet hökumətinin tarixindən savayı heç nə yoxdur. Bir müddət də deyirlər ki, Stalindən, sonra isə Lenindən başqa heç kəs yoxdur. Burada da deyirlər ki, Məmmədəmin Rəsulzadədən başqa heç kim yoxdur. Bəs Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyov, Hacınski, Əlimərdan bəy Topçubaşov, Behbud bəy Şaxtaxtinski və başqaları? Mən bu adların hamısını saymaq fikrində deyiləm, bəlkə də siz bu adları məndən də çox bilirsiniz. Ancaq bir adamı bütləşdirmək, ideallaşdırmaq lazım deyildir. Bu xəstəlikdən yaxa qutarıb tarixin hər bir dövrünü olduğu kimi yazmaq lazımdır. Bu tarixçilərimizin əsas vəzifəsidir. Azərbaycan müstəqil dövlət kimi, şübhəsiz ki, öz tarixi adət-ənənələri ilə və əsrlər boyu xalqın yaratdığı mədəniyyət əsərləri ilə fəxr edir." [1, s. 156]

Göründüyü kimi, Heydər Əliyev tarixi şəxsiyyətlərə eyni prizmadan baxılmamasının, subyektiv münasibətlərin, ideallaşdırmanın əleyhinə olduğunu, narahatlıq keçirdiyi məqamları dolayı yolla deyil, birbaşa açıq şəkildə bəyan etmişdir. Məhz Azərbaycan tarixi bu cür yanaşmaların qurbanına çevrilməsin deyə Heydər Əliyev öz tarixi konsepsiyasını ortaya qoydu. Tarixi proseslərdə şəxsiyyət və liderlərin rolu danılmazdı. Ulu öndər dəfələrlə öz çıxışlarında Məmmədəmin Rəsulzadənin və digər dövlət xadimlərinin xatirəsini əziz tutaraq minnətdarlığını bildirmişdi: "Bu gün – bu bayram günü biz Azərbaycanda ilk demokratik respublikanın qurulmasında, yaranmasında göstərdiyi xidmətlərə görə Məmmədəmin Rəsulzadəyə, Əlimərdan bəy Topçubaşova, Fətəlixan Xoyskiyə, onların silahdaşlarına bir daha minnətdarlığımızı, təşəkkürümüzü bildiririk. Onların gördüyü işlər Azərbaycan xalqının bu günü üçün çox böyük əhəmiyyət kəsb edir. Onların fəaliyyəti bizim üçün həmişə əziz olacaqdır. Onların xatirəsi bizim qəlbimizdə daim yaşayacaqdır. Bu günlər – bu bayram günləri Azərbaycanın Türkiyədə, Fransada, Gürcüstanda olan səfirlikləri bizim göstərişimizlə Məmmədəmin Rəsulzadənin, Əlimərdan bəy Topçubaşovun, Fətəlixan Xoyskinin qəbirlərini ziyarət edirlər və onların xatirəsinə Azərbaycan xalqının, dövlətinin hörmət və ehtiramını ifadə edirlər." [8, s.7] Bu yanaşma şəxsiyyətin şəxsiyyətə, dövlət xadiminin dövlət xadiminə, liderin liderə verdiyi dəyər idi. Heydər Əliyevin irsini araşdırarkən bir məqamın şahidi oldum-cümhuriyyətin dövlət xadimlərinin adını çəkərkən ilk olaraq Məmmədəmin Rəsulzadənin adını qeyd etmişdir. Bu, alicənab bir şəxsiyyətin tarixinə, keçmişinə ədalətli yanaşması və dərin hörmətidir.

XX əsrin sonunda ağır ictimai-siyasi vəziyyətə baxmayaraq Azərbaycan Respublikasını dünya miqyasında tanıtmağa çalışan, onu beynəlxalq ictimaiyyətə sivil dövlət olaraq qəbul etdirməyə səy göstərən Heydər Əliyev bu məqsədə çatmaq üçün zəngin milli-mənəvi dəyərlərimizi, qədim tariximizi,elmi-mədəni irsimizi tanıtmağı vacib sayırdı: "Əgər biz Azərbaycanı müstəqil bir dövlət kimi dünyaya yaxşı tanıtmaq istəyiriksə, Azərbaycanın qədim tarixini, əsrlər boyu keçdiyi yolu gərək öz vətəndaşlarımıza, həm də bütün ölkələrdə olan elm adamlarına, respublikamızın qarşısında çox böyük vəzifələr durur, onların üzərinə böyük məsuliyyət düşür. Mən o vaxtlar – Azərbaycanda işlədiyim dövrdə də deyirdim, indi də bu sözlərin üstündə dururam ki, tarixçilərimiz üçün bütün şəraiti yaratmağa hazıram. Bir şərtlə ki, bu şəraitin əvəzində biz tarixçilərimizdən Azərbaycan tarixini bu gün üçün, gələcək nəsillər üçün və bütün gələcək üçün yaxşı əks etdirən əsərlər ala bilək." [1]

Milli Lider Azərbaycan tarixi konsepsiyasında XX əsr tarixini Azərbaycan Xalq Cümhuriyyətinin tarixi rolu nəzərə alınaraq dövrləşdirmişdir. Bu, təsadüfi

deyildir. Heydər Əliyev sovet dövründən davam edən "1917-ci il fevral inqilabı"na əsasən edilən dövrləşdirmə prinsipinin üstündən xətt çəkdi. 2000-ci ildə Respublika gününə həsr edilmiş təntənəli mərasimdə Heydər Əliyev dövrləşdirməni açıqlayaraq XX əsr tarixinin ikinci mərhələsi kimi Azərbaycan Xalq Cümhuriyyətinin mövcudluğu dövrünü vurğulamışdı: "Azərbaycan üçün ikinci mərhələ çar Rusiyası dağılandan sonra respublikamızın ilk dəfə dövlət müstəqilliyi əldə etdiyi dövrdür. Həmin dövrdə Xalq Cümhuriyyəti yaranmış, Azərbaycan öz dövlət müstəqilliyini elan etmiş və demokratik, müstəqil dövlət quruculuğu prosesi həyata keçirmişdir." [1, s.157]

Heydər Əliyev sovet hakimiyyəti (1920-1991-ci illər) illərində Azərbaycan SSR-ə əhbərlik etdiyi dövrdə də Azərbaycan tarixinin qeyri-obyektiv yazılmasının narahatlığını yaşamış, o dövrün ağır qanunları çərçivəsində öhdəsinə düşən məsuliyyəti layiqincə yerinə yetirmişdir. Onun Vətən qarşısında missiyası dövlət idarə etməklə məhdudlaşmamış, Vətənin hər sahədə təəssübünü çəkmək olmuşdur. Heydər Əliyev o illəri belə xatırlayırdı: "Tarixçilərin yadındadır ki, mən alimlərlə dəfələrlə görüşmüşdüm, hər dəfə də öz narahatlığımı bildirirdim. O vaxtlar Sovetlər İttifaqının çərçivəsində başqa respublikalarla öz işimizi müqayisə edirdik. Həmin respublikaların tarixçilərinin işləri ilə tanış olarkən daha da narahat olurduq ki, nə üçün onlar öz tarixlərini yaxşı yaza bilirlər, biz isə yaza bilmirik."[1]

Milli Lider Azərbaycan Respublikasının müstəqiyini güclü liderlik keyfiyyətləri, möhkəm iradə, mətinlik, novatorluq, uzaqgörənlik, həlledici məqamlarda qətiyyətlilik, öz üzərinə məsuliyyət götürmək, düşünülmüş riskə getmək bacarıqları ilə qorudu. Hər zaman geriyə baxmaq, öz səhvlərimizi dərk edib onlardan ibrət dərsi almaq, keçmişimizlə bu günümüz arasında məntiqi əlaqəni düzgün təhlil etmək Heydər Əliyevin liderlik üslubu idi. Bu baxımdan Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyəti tarixinə nəzər salıb onu doğru-dürüst tədqiq etməyi, bu tarixi gənclərə, gələcək nəsillərə olduğu kimi çatdırmağı vacib hesab edirdi. Ən ağır günlərdə 1993-cü il sentyabrın 22-də Respublika Ali Sovetində gənclərin nümayəndələri ilə görüşdə Heydər Əliyev bir daha Azərbaycan Xalq Cümhuriyyəti məsələlərinə toxunaraq demişdi: "1918-ci ildə yaranmış müstəqil Azərbaycan dövlətinin hökuməti bir çox ölkələrlə, o cümlədən Rusiya ilə diplomatik əlaqələr yaratmışdı. Şübhəsiz ki, AXC yaşamış olsaydı, bu əlaqələr daha da genişləndirilərdi. İndi Azərbaycan Respublikası da bir müstəqil dövlət kimi öz müstəqilliyini təmin etmək üçün həm ikitərəfli müqavilələr bağlamalıdır, həm də ayrı-ayrı bloklara, ayrı-ayrı qruplara daxil ola bilər."[2, s.181]

Azərbaycan Xalq Cümhuriyyətinin yeritdiyi xarici və daxili siyasət regionda ağır şərtlər altında sərhədlərin qorunması məsələsini əsas tuturdu. Bu problemin

ağırlığı onda idi ki, erməni daşnakları Azərbaycana torpaq iddialarıyla dinclik vermirdilər. Bu baxımdan Naxçıvanın, Qarabağın, İrəvanın həm hərbi, həm siyasi müdafiəsi məsuliyyəti Xalq Cümhuriyyətinin hökumət rəhbərlərinin üzərinə düşürdü. Tarixin acı bənzərliyi onda idi ki, Heydər Əliyevin də taleyinə Naxçıvan MR-nın, Qarabağın və ümumilikdə Vətənin müdafiəsi məsuliyyəti yazılmışdı.[11] 1990-cı ildən Naxçıvana MR-na rəhbərlik edən Heydər Əliyev vəzifəsinin ağırlığını dərk etmiş, blokada şəraitində olan muxtar respublikanı müdafiə etmişdi. Naxçıvandan heç bir qarış torpaq da itirilmədi. Sonralar 1999-cu il 4 fevral tarixində "Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyinin qeyd olunması haqqında" fərmanda deyilirdi: "1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranması elan olundu. Rusiya imperiyasının dağılması nəticəsində Qafqazda öz müstəqilliyini əldə etmiş dövlətlər arasında sərhədlərin dəqiqləşdirilməsi prosesi getdi. Azərbaycan hökumətinin başçısı Fətəli xan Xoyskinin məşhur məktubunda bildirildi ki, Azərbaycan İrəvan mahalından könüllü surətdə əl çəkir. Azərbaycan hökuməti bu güzəştə getməklə Ermənistanın ölkəmizə qarşı torpaq iddialarından əl çəkəcəyini zənn etdi." [10]

Cümhuriyyətin tarixini izləyən zaman məkirli erməni siyasətinin yeni yaranmış, şərqdə ilk müstəqil demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətində Milli dövlət quruculuğunu necə ləngitdiyinin şahidi oluruq. Ermənistan bölgədə yaranmış mürəkkəb vəziyyətdən faydalanmaq üçün böyük planlar qururdu. Erməni daşnakları ümid edirdilər ki, Osmanlı imperiyasının Van gölü ətrafındakı torpaqlarında Aralıq dənizindən Qara dənizə qədər uzanan "Böyük Ermənistan" dövləti yaradacaq və ya ən azı muxtariyyət ala biləcəklər. Ermənistanın 1920-ci ildə Millətlər Liqasına göndərdiyi məktubda açıq-aşkar göstərilirdi ki, müttəfiq dövlətlərin Türkiyəyə qarşı döyüş əməliyyatları zamanı ermənilər və onların yaratdıqları könüllü silahlı dəstələr arxa cəbhədə müttəfiqlərə kömək göstərdiklərinə görə ermənilər məğlub olmuş Osmanlı imperiyasının torpaqlarında müstəqil dövlət yaratmaq haqqını qazanmışlar. Onlar həm Van gölü ətrafında məskunlaşdıqları torpaqlarda, həm də Rusiya-İran və Rusiya-Osmanlı müharibələri nəticəsində köçürüldükləri Azərbaycan torpaqlarında "Böyük Ermənistan" dövləti yaratmaq xülyası ilə yaşayırdılar.

Ulu öndər bu məkrli siyasətin tarixini çox yaxşı bilirdi. 90-cı illərin ağır sınaqları yenidən geriyə baxmağa, 1918-1920-ci illərin təcrübəsindən-səhvlərindən və nailiyyətlərindən ibrət almağa vadar etdi. Fərmanda deyilirdi: "Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq tarixi boyu erməni silahlı quldur dəstələri İrəvan, Naxçıvan və Qarabağ bölgələrində dinc azərbaycanlı əhaliyə divan tutur, yerli azərbaycanlıların sayını süni surətdə azaltmaq üçün hər cür vasitəyə əl atırdılar. Qafqazda bolşeviklərin hakimiyyətinin bərqərar olduğu ilk

günlərdən hələ 1918-ci ildə özünü mart qırğınları zamanı büruzə vermiş bolşe-vik-daşnak sövdələşməsi geniş vüsət aldı. Azərbaycan Xalq Cümhuriyyəti dövründəki sərhədlər alt-üst edilməyə başlandı. İlk olaraq əzəli Azərbaycan torpağı Zəngəzur mahalı Ermənistan SSR-in tərkibinə qatıldı. Əslində isə ermənilərin planları daha geniş idi və onların torpaq iddialarının əsas hədəfi məhz Naxçıvan idi. Onlar Zəngəzurun Ermənistana ilhaq edilməsini bu yolda atılmış mühüm addım hesab edirdilər. Beləliklə də, Naxçıvanı Azərbaycandan ayıran Azərbaycan torpaqlarının - Zəngəzur mahalının Ermənistana verilməsi Naxçıvanın muxtariyyət məsələsini zəruri etdi." [10]

Azərbaycan xalqının şərq xalqları tarixində yaratdığı ın ilk demokratik respublikası ağır və mürəkkəb şəraitdə fəaliyyət göstərirdi. Bir tərəfdən xarici qüvvələr, böyük dövlətlər Azərbaycanda müstəqil dövlətin yaranması ilə razılaşa bilməyərək cürbəcür vasitələrlə bu dövləti boğmağa çalışırdılar. Digər tərəfdən Rusiyada hakimiyyətə gəlmiş kommunist rejimi keçmiş Rusiya imperiyaının ərazisində öz hakimiyyətini tətbiq etmək istəyirdi.Azərbaycan üçün həmişə təhlükəli olan, torpaqlarımıza göz dikən erməni qəsbkarları, daşnaklar bu dövrdə Azərbaycana qarşı öz təcavüzkarlıq hərəkətlərini gücləndirmişdilər. Bununla yanaşı, Azərbaycanın daxili ictimai-siyasi vəziyyəti olduqca gərgin idi. Şübhəsiz ki, belə bir şəraitdə ilk demokratik respublikanın fəaliyyəti böyük çətinliklərlə üzləşirdi. Ulu öndər 1994-cü ildə 27 may tarixində Azərbaycan Respublikasının İstiqlal bayramına-Respublika gününə həsr olunmuş təntənəli yığıncağında çıxış edərkən demişdi: "Bəzən bu dövrə nəzər salarkən 1918-1920-ci illərdə gedən prosesləri xatırlayır, həmin proseslərin bir-birinə çox bənzədiyini görürsən. O vaxt da bir çox xarici qüvvələr Azərbaycana təzyiq göstərirdi. O zaman da Ermənistan Azərbaycanın torpaqlarını ələ keçirmək üçün təcavüzə başlamışdı, Azərbaycan xalqı öz torpaqlarını erməni qəsbkarlarından müdafiə edirdi. Həmin dövrdə də Azərbaycanın parçalamaq istəyirdilər. Məlumdur ki, 1918-20-ci illərdə Azərbaycanın parçalanması üçün bir neçə addım atılmışdı və parçalanma vəziyyəti yaranmışdı. İndi də, müstəqillik əldə edildikdən sonra bunlar təkrar olunur. Müstəqil Azərbaycan dövləti bir çox xarici qüvvələr tərəfindən təzyiq altındadır. Altı ildir ki, Azərbaycan xalqı torpaqlarımızı zəbt etmək niyyətndə olan Ermənistanın hərbi təzavüzünə məruz qalmışdır və öz ərazisini müdafiə edir." [12]

Azərbaycan Xalq Cümhuriyyətində baş verən proseslərlə onun varisi olan müstəqil Azərbaycan Respublikasında gedən proseslər arasında bənzərlik həm də hakimiyyət dairəsində olmuşdur. 1998-ci ildə 26 may tarixində Azərbaycan Xalq Cumhuriyyətinin 80 illik yubileyi münasibətilə Milli Məclisin təntənəli iclasında Heydər Əliyev bu məqamı dəyərləndirərək demişdir: "Bu gün çıxış edən deputatlar 1918-1920-ci illərdə Xalq Cümhuriyyətinin həyatında olmuş çə-

kişmələr, didişmələr, hakimiyyət mübarizəsi və şəxsi mənafeyə görə ümummilli mənafeyə zərbələr vurulması faktlarını da xatırlatdılar. Bu da həqiqətdir. Biz bütün keçmişdən ibrət götürməliyik. Keçmişin yaxşı cəhətlərindən, bu gün üçün xeyirli, yararlı tərəflərindən istifadə etməli, amma keçmişin zərərli tərəflərinin yenidən meydana gəlməsinə yol verməməliyik. Təəssüflər olsun ki, ötən altı il müddətində Azərbaycanın müstəqil yaşaması təxminən 1918-1920-ci illərdə baş vermiş hadisələrə bənzər hadisələrlə də müşayiət olunubdur." [13]

Azərbaycan Xalq Cümhuriyyətinin yaranışı və elan olunması çox sivil şəkildə baş vermişdi. Milli Şuranın elan etdiyi "İstiqlal bəyannaməsi" demokratik prinsipləri özündə cəmləşdirmiş ən parlaq hüquqi sənəd idi. Bu baxımdan cümhuriyyətin dövlət xadimləri daxili və xarici siyasətin prinsiplərini dəqiqləşdirmiş, bu prinsiplərin çərçivəsindən çıxmamağa çalışmışlar. Bu, qədim dövlətçilik ənənələri olan Azərbaycana yaraşan bir mövqe idi. Demokratik, hüquqi, unitar, suveren dövlət olan müstəqil Azərbaycan Respublikası bu varisliyi layiqincə daşıyır. Milli Lider də "İstiqlal bəyannaməsi"ni yüksək qiymətləndirmişdi: "Azərbaycan Milli Şurasının qəbul etdiyi tarixi bəyannamə yeni yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin daxili və xarici siyasətinin başlıca prinsiplərini bütün dünyaya bildirdi. Bəyannamədə elan edilmiş prinsiplər - Azərbaycan xalqının öz müqəddəratını müəyyən etmək, insanların hüquq bərabərliyinə hörmət, bütün xarici dövlətlərlə, habelə qonşu xalqlarla dinclik və əmin-amanlıq şəraitində yaşamaq, bir-birinin suverenliyinə və ərazi bütövlüyünə hörmətlə yanaşmaq prinsipləri Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq nüfuzunu artırdı. 1920-ci ilin yanvarında Azərbaycan dövlətinin müstəqilliyi de-fakto tanındı." [7]

"İstiqlal bəyannaməsi" adi bir bəyanat deyildi. Onun elan olunması ilə xalqımızın milli azadlığı bütün dünyaya bəyan edildi. Bu XIX əsrdən başlamış mürəkkəb ictimai-siyasi proseslərin Azərbaycan cəmiyyətində uğurlu nəticəsi idi. Yeni mühitdə formalaşan görkəmli ictimai və siyasi xadimlərimiz əsrin çağırış və tələblərinə layiqincə cavab verməyə qadir oldular. Azərbaycan Xalq Cümhuriyyətini qurdular. 1998-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə Heydər Əliyev demişdir: "Xalqımızın böyük insanları 1918-ci il may ayının 28-də Tiflisdə Azərbaycanın "İstiqlal bəyannaməsi"ni elan edərək respublikamızın müstəqilliyinin əsasını qoydular, Azərbaycan Xalq Cümhuriyyətini yaratdılar. Məlumdur ki, o vaxt əvvəlcə Milli Şura yaranmışdı və Milli Şuranın qərarı ilə də "İstiqlal bəyannaməsi" elan edilmişdi. Beləliklə, XX əsrin əvvəlində Azərbaycanda xalqımız milli azadlığını bəyan etdi, öz milli dövlətini yaratmağa başladı." [3]

1918-ci il noyabrında 19-da M.Ə.Rəsulzadənin sədrliyi ilə keçirilmiş iclasda Azərbaycan parlament tarixində çox mühüm qərar qəbul olundu. Ağır ictimai-

siyasi vəziyyətə baxmayaraq Xalq Cümhuriyyəti başçıları son dərəcə demokratik yol seçdilər. Qeyd olunan iclasda qərara alındı ki, Azərbaycanda yaşayan bütün millətlər, yəni azərbaycanlılarla yanaşı bütün qeyri millətlər parlamentdə təmsil olunsun. AMEA-nın müxbir üzvü Yaqub Mahmudovun "Azərbaycan: qısa dövlətçilik tarixi" əsərində bu fakt belə izah olunub: "Azərbaycan Milli Şurası ölkə əhalisinin (2 mln. 270 min nəfər) hər 24 min nəfərinə 1 nəfər nümayəndə hesabı ilə 120 nəfərdən ibarət olmalı idi. Onlardan 80 nəfər müsəlmanları, 21 nəfər erməniləri, 10 nəfər rusları, 1 nəfər almanları və 1 nəfər yəhudiləri təmsil etməli idi. Sayları çox az olduğu üçün, parlament seçkilərində iştirak etmək hüquqları olmadığı halda, gürcülər və polyaklar da hərəsinə bir deputatla parlamentdə təmsil olunmalı idilər." [11,s.52]

Göstərilən faktlar onu göstərir ki, XXI əsrdə bir çox dövlətlərin nail ola bilmədiyi demokratik prinsipləri Azərbaycan dövlətçiliyi XX əsrin əvvəllərində həyata keçirmişdi. Düzdür, cümhuriyyətin xalqa, parlamentə bu cür yanaşması heç də birmənalı qarşılanmamışdı. Hətta parlamentin açılışında ermənilər və ruslar iştirak etməmişdilər. Şərqdə ilk demokratik dövlətin yaranışını böyük qısqanclıqla qarşılayan qonşu dövlətlər Azərbaycan daxilində öz fitnəkarlıqlarını davam etdirir, hər vəchlə onun məhvinə çalışırdılar. Heydər Əliyev tarixin bu məqamını belə dəyərləndirmişdi: "Tarixçilər yaxşı bilirlər ki, 23 ay ərzində bu dövlətin tərkibi beş dəfə dəyişib, bu dövlətdə, bu parlamentdə beş partiya iştirak edib: Musavat Partiyası, İttihad Partiyası, Əhrar Partiyası, Sosialist Partiyası, hətta Daşnaksütyun Partiyası. Bu parlament sistemi dövlətin yaşamasına imkan vermədi və ayrı-ayrı qruplar, partiyalar arasında gedən çəkişmələr, çarpışmalar, intriqalar öz-özlüyündə bu dövlətin adına ləkə vurdu. Mən bunu nə üçün deyirəm? Ona görə ki, biz bundan ibrət dərsi almalıyıq. Biz o dövrü, o demokratik hökumətin fəaliyyətini qiymətləndiririksə və belə bir mərhələnin tariximizdə olması ilə fəxr ediriksə, həmin prosseslərin qüsurlarını da bilməliyik ki, o səhvləri daha buraxmayaq."[1]

Azərbaycan Xalq Cümhuriyyəti qısa müddətdə və çətin şəraitdə böyük işlər görmüş, bu günkü müstəqil Azərbaycan Respublikası üçün mühüm zəmin yaratmışdır. Azərbaycanın sərhədlərinin müəyyən edilməsi, dövlət atributlarının qəbul edilməsi, Azərbaycan dilinin dövlət dili elan edilməsi, milli ordunun yaradılması və bu kimi digər tədbirlər dövlətçilik yolunda mühüm addımlar olmuşdur. Heydər Əliyev 2000-ci ildə yeni əsr və üçüncü minillik münasibəti ilə xalqa müraciət edən zaman Azərbaycan Xalq Cümhuriyyətinin nailiyyətlərinə dəyər verərək demişdir: "AXC demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə, hərbi quruculuq sahələrində atdığı mühüm addımları başa çatdıra bilməsə də, onun qısa müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın ta-

rixində silinməz iz buraxmış, milli dövlətçilik ənənələrimizin bərpası işində böyük rol oynamışdır. Ən əsası odur ki, Azərbaycan Xalq Cümhuriyyəti az yaşasa da, xalqımızda azadlıq, müstəqillik fikirlərini daha da gücləndirmiş oldu...” [7]

Azərbaycan Xalq Cümhuriyyətinin mürəkkəb daxili və xarici təzyiqlər şəraitində gördüyü ən vacib işlərdən biri ordu quruculuğu məsələsidir. Bu strukturun olmaması, hərbi kadr çatışmamazlığı və digər ciddi problemlər cümhuriyyətin rəhbərlərini qorxutmadı. Bu baxımdan qonşu Türkiyənin köməyi də danılmazdır. 1998-ci il 25 iyun tarixində Azərbaycan Milli Ordusunun yaradılmasının 80 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində Heydər Əliyev demişdir: “Biz 26 iyun gününü bayram elan etmişik. Bu, tam əsaslıdır, məqsədəuyğun, qanunauyğundur. Çünki 80 il bundan öncə məhz bu gün Azərbaycan Xalq Cümhuriyyətinin - ölkəmizin müstəqilliyini elan edən xalq cümhuriyyətinin, müstəqil Azərbaycanı qurub-yaradan, hələ Gəncədə fəaliyyət göstərən hökumətin ilk addımlarından biri Azərbaycanın Milli Ordusunun yaranması haqqında verdiyi qərar olmuşdur. Həmin qərara, addıma böyük hörmət əlaməti olaraq biz 26 iyun gününü Azərbaycanın Silahlı Qüvvələri, ordusu günü elan etmişik.” [4]

Heydər Əliyev AXC-nin ordu quruculuğu işləriylə yaxından tanış idi. Çətin olduğu qədər şərəfli bir iş idi ordu quruculuğu. Çünki çar Rusiyasının müstəmləkə siyasətinin xüsusiyyətlərindən biri də türk-müsəlman xalqlarını hərbi xidmətdən yayındırmaqla baş verə biləcək milli azadlıq hərəkatının qarşısını almaq idi. Heydər Əliyev bu məqamı da nəzərindən qaçırmırdı: “Doğrudur, respublikamız çar Rusiyasının tərkibində olduğu zaman azərbaycanlıları, müsəlmanları orduya cəlb etmirdilər, ordudan azad edirdilər. Biz tarixi təhlil edərkən bunun nə qədər mənfi nəticələr verdiyini görürük. Millətimiz, xalqımız hərbi peşədən məhrum olmuşdu. Ancaq bununla yanaşı, o dövrdə hakim dairələrlə bağlı olan xan sülalələri övladlarını hərbi xidmətə göndərir, bunu özlərinə böyük şərəf hesab edirdilər.” [4]

Ordu quruculuğu məsələsinin nə qədər ağır bir proses olduğunu Heydər Əliyev çox gözəl bilirdi. Çünki eyni əsrin sonunda ölkənin ağır günlərində milli ordu yaratmaq, ordunun hərbi ehtiyatını təmin etmək, yüksək təcrübəli milli kadrları orduya cəlb etmək kimi problemlər Heydər Əliyevin də fəaliyyətində əsas məsələlərdən idi. Bu səbəbdən də o, ordu quruculuğu məsələsinin ağır və şərəfli yükünün məsuliyyətini dərk edərək Azərbaycan Xalq Cümhuriyyətinin ordu quruculuğu tədbirlərini belə qiymətləndirirdi: “Bəli, bu gün məmnuniyyət hissi ilə qeyd etmək olar ki, 1918-ci ildə xalq cümhuriyyəti, Azərbaycanın XC-nin ilk demokratik hökuməti dövlət quruculuğu işini çox mürəkkəb və çətin bir dövrdə apardığı zaman Silahlı Qüvvələrin yaranmasına və ordu quruculuğuna

xüsusi əhəmiyyət vermiş, qayğı göstərmişdir. Xalq cümhuriyyətinin iki illik - iki il tam olmamışdır - tarixini bu gün vərəqləyərkən ordu quruculuğu sahəsində nə qədər dəyərli işlər görüldüyü doğrudan da böyük hörmət hissi doğurur.” [4]

Azərbaycan Xalq Cümhuriyyətinin mədəni quruculuq siyasəti də tariximizə iz qoydu. Bakı Dövlət Universiteti cumhuriyyətdən yadigardır. 1919-cu ilin sentyabrın 1-də Bakı Dövlət Universitetinin təsis olunması haqqında qəbul edilmiş qanun cumhuriyyətin xalq qarşısında ən ümdə xidməti oldu. Tez bir zamanda ölkədə milli kadr çatışmamazlığını həll etməyə səy göstərən hökumət başçıları yüzlərlə gəncin təhsil almaq üçün xaricə göndərilməsini təmin etmişdilər. Bu və digər tədbirlər o dövrün tələbi idi. Bu ənənə Heydər Əliyev tərəfindən hakimiyyətinin hər iki dövründə davam etdirilmişdi. 1999-cu ildə Bakı Dövlət Universitetinin 80 illik yubileyi təntənəli şəkildə qeyd olundu. Bir çox böyük elm və dövlət xadimləri yetişdirmiş BDU Azərbaycanın ictimai-siyasi həyatında, elmi potensialının formalaşmasında oynadığı roluna görə fərqlənir. Bu baxımdan BDU-nun rolunu yüksək qiymətləndirən Heydər Əliyevin ünvanladığı təbrikdə deyilirdi: “Azərbaycan xalqının XX əsrin əvvəllərindən başlanmış kütləvi şəkildə maariflənməsi, savadlanması prosesində Bakı Dövlət Universitetinin açılması əlamətdar tarixi bir hadisə olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin təşəbbüsü ilə Azərbaycanda ilk ali təhsil ocağının yaranması o dövrdə gedən tarixi proseslərdən doğan bir zərurət idi.” [13]

Bir çox tarixçiləri Azərbaycan Xalq Cümhuriyyəti tarixini tədqiq etmiş və bu dövrün tarixi hadisələrini öz əsərlərində işıqlandırmışlar. Bütün dəyərləndirmələrin bir ortaq prinsipi var- Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycan tarixinin şanlı səhifəsidir. 1920-ci il aprel istilası baş verməsəydi cümhuriyyətin tutduğu yol uğurlu gələcəyi təmin etmiş olacaqdı. Professor Yaqub Mahmudovun “Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti” əsərində yazıldığı kimi- “Azərbaycan Xalq Cumhuriyyəti özünün siyasi quruluşuna, həyata keçirdiyi demokratik dövlət quruculuğu tədbirlərinə, həmçinin qarşısına qoyduğu məqsəd və vəzifələrə görə də Avropanın ənənəvi demokratik respublikalarından geri qalmırdı.” [11,s.63]

Cumhuriyyət 23 ay yaşaya bildi. Çox şərəfli bir tarix yazıldı. Enişli-yoxuşlu dövlətçilik yolunda ağır şərtlər altında qürur tarixi yazıldı. Bu tarix beş min il əvvəldən başlamış dövlətçilik ənənələrimizin, azadlıq mübarizəmizin məntiqi nəticəsi idi. 70 ildən sonra tarixi proseslər eyni nəticəyə gətirib çıxartdı. Cumhuriyyətin varisi – müstəqil Azərbaycan Respublikası yarandı. Eyni ağır ictimai-siyasi vəziyyət, eyni düşmən təcavüzü, eyni beynəlxalq durum müstəqilliyimizin bərpasını əngəlləyə bilmədi. Çünki Heydər Əliyev dərin zəkası ilə, uzaqgörən siyasəti ilə, liderlik qabiliyyəti ilə, möhkəm iradəsiylə, xalqın dəstəyi ilə bütün çətinliklərə

sinə gərdi və dövlətçiliyimizi qoruyub məhkəmləndirdi. Azərbaycan Xalq Cumhuriyyəti 23 ay mövcud ola bildisə, onun varisi - müstəqil Azərbaycan Respublikası 20 ildən çoxdur ki, yüksələn xətlə inkişaf edir. Fikirlərimi ulu öndərin Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubiley tədbirindəki son sözləri ilə yekunlaşdırmaq istəyirəm: "Azərbaycan xalqını, Azərbaycanın bütün vətəndaşlarını əmin edirəm ki, biz bundan sonra da Azərbaycan Xalq Cümhuriyyətinin sədaqətli varisləri olacağıq, xalqımızın milli azadlığını qoruyacağıq, saxlayacağıq. Biz Azərbaycanın dövlət müstəqilliyini göz bəbəyimiz kimi qoruyacağıq və günü-gündən möhkəmləndirəcəyik, daha da yüksəklərə qaldıracağıq!" [3]

## MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Elmlər Akademiyasında ziyalılarla görüşdə Heydər Əliyevin çıxışı//Bakı şəhəri, *21 sentyabr 1993-cü il*//Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 1-ci kitab.Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar/Bakı, Azərnəşr, 1997, səh.148
2. Respublika Ali Sovetində gənclərin nümayəndələri ilə görüşdə Heydər Əliyevin çıxışı//Bakı şəhəri,*22 sentyabr 1993-cü il*//Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 1-ci kitab.Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar/ Bakı, Azərnəşr, 1997, səh.164
3. Azərbaycan Xalq Cumhuriyyətinin 80 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi//Respublika sarayı, *28 may 1998-ci il*//Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 15-ci kitab.Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar/ Bakı, Azərnəşr, 2005, səh.417
4. Azərbaycan Milli Ordusunun yaradılmasının 80 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi//Bakı şəhəri, *25 iyun 1998-ci il*//Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 16-cı kitab.Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar/ Bakı, Azərnəşr, 2005, səh.81
5. 31 Mart azərbaycanlıların soyqırımı günü münasibətilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Azərbaycan xalqına müraciəti// Bakı şəhəri, *30 mart 1999-ui il*//Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 19-cu kitab.Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar/Bakı, Azərnəşr, 2005, səh.385.
6. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Respublika gününə həsr olunmuş təntənəli mərasimdə nitqi//Respublika sarayı, *27 may 2000-ci il*//prezident kitabxanası//www.preslib.az
7. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti //Bakı şəhəri, *29 dekabr 2000-ci il*//Əliyev Heydər. Müstəqilliyimiz əbədidir.31-ci kitab.Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar/ Bakı, Azərnəşr, 2010, səh.283.
8. Naxçıvan Muxtar Respublikasının 75 illiyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı//Bakı şəhəri, *4 fevral 1999-cu il* № 89 //Azərbaycan Respublikasının Qanunvericilik Toplusu 1999
9. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, I cild/baş red. Y. Mahmudov. Bakı, "Lider nəşriyyat", 2004, 440 s.

10. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir.10-cu kitab. Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar/ Bakı, Azərnəşr, 1999.
11. Yaqub Mahmudov. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Bakı, Təhsil, 2002
12. Prezident kitabxanasının portalı – www.preslib.az
13. Heydər Əliyev irsini araşdırma mərkəzi/Beynəlxalq elektron kitabxana - www.aliyevheritage.org

**L.A.Huseynova**

**APPROACH TO HEYDAR ALIYEV TO AZERBAIJAN DEMOCRATIC REPUBLIC**

**SUMMARY**

Bright page in the history of the state playing the role of an ideological movement was the major ideologies of the people. Estimates of Heydar Aliyev, who has the right to consider, he always put his own view of the basic criteria of the story. Heydar Aliyev always bothered subjective opinions of our history, distortions, writing problems idealization. Heydar Aliyev and the Soviet period involved in the problems of history and each time trying to write stories realnoy.

**А.Л.Гусейнова**

**К ВОПРОСУ ОБ ОТНОШЕНИИ К ИСТОРИИ АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ В НАСЛЕДИЕ ГЕЙДАРА АЛИЕВА**

Гейдар Алиев всегда имел собственный взгляд на исторические события. Он выступал против искажения или чрезмерной идеализации исторических событий или деятелей, призывая историков к объективной оценки прошлого.В данной статье рассматривается высказывания Гейдара Алиева в ходе различных своих выступлений об истории Азербайджанской Демократической Республики.

**Açar sözlər:** Heydər Əliyev, müstəqillik, Azərbaycan Xalq Cümhuriyyəti,

**Ключевые слова:** Гейдар Алиев, независимость, Азербайджанская Демократическая Республика

**Key words:** Heydar Aliyev, independence, Azerbaijan Democratic Republic

**Məqalə t.ü.f.d. Ə.Qasımovun və t.ü.f.d. S.Qurbanovanın müsbət rəyləri əsasında çap olunur.**

# NEFT STRATEGİYASININ TƏMƏL DAŞI – “ƏSRİN MÜQAVİLƏSİ”

**Ərəstun MEHDİYEV**
mehdiyevarastun@yahoo.com*

1980-ci illərin sonlarında Sovet İttifaqı rəhbərliyinin həyata keçirdiyi sosial-iqtisadi siyasət xırda və orta sahibkarlığın inkişafına, daxili kapital yığımının genişlənməsinə şərait yaratmaqla yanaşı, xarici investisiyaların da müxtəlif sahələrə cəlb olunmasına yol açırdı. Böyük maliyyə vəsaitinə və yeni texnologiyalara ehtiyac duyan SSRİ iqtisadiyyatı xarici iş adamlarının maraq dairəsində idi. Tarixən ölkə iqtisadiyyatının aparıcı sahələrindən olmuş Azərbaycan Respublikasının Neft sənayesi, ağır tənəzzülə uğramasına baxmayaraq, yenidən Qərb şirkətlərinin diqqətini özünə çəkirdi.

1989-cu ildə Bakıya gəlmiş Böyük Britaniyanın “Remko” neft şirkətinin nümayəndəsi S.Remp Azərbaycan Respublikasının Neft sənayesinin vəziyyəti və inkişaf perspektivləri ilə tanış olduqdan sonra Qərb şirkətlərinin Xəzər neftinə marağı daha da artdı. O, Azərbaycan Respublikası ilə bağlı təəssüratlarından danışarkən qeyd edirdi: “1989-cu ildə “dəmir pərdənin” çökməsi ərəfəsində neft kompaniyalarının əksəriyyəti öz səylərini Qərbi Sibirə yönəltmişdi. Belə fikir gəzirdi ki, Azərbaycanın sərvətləri çoxdan tükənib. Azərbaycanlı mütəxəssislərlə görüşlərdə özüm üçün kəşf etdim ki, Xəzər dənizində işlənməmiş nəhəng ehtiyatlar mövcuddur” (21,145).

O dövrdə hələ SSRİ-nin tərkibində olan Azərbaycan Respublikası hökumətinin respublikaya xarici sərmayələrin cəlb olunması haqqında sərbəst danışıqlar aparmaq və qərar qəbul etmək səlahiyyəti yox idi. Həmin illərdə artıq respublikada dərinləşməkdə olan sosial-iqtisadi böhranı aradan qaldırmaq və hakimiyyətin mövqeyini möhkəmləndirmək məqsədi güdən Azərbaycan Respublikası hökuməti Moskvadan Qərb şirkətləri ilə danışıqlara başlamağa razılıq ala bildi. Azərbaycan Respublikası hökuməti ilə Xəzərdəki neft yataqlarının birgə işlənməsinə dair danışıqlarda dünyanın nüfuzlu neft kompaniyaları – Böyük Britaniyanın “Britiş Petrolium”, Norveçin “Statoyl”, ABŞ-ın “Amoko” və “Yunokal” şirkətləri iştirak edirdi.

Tərəflər arasında danışıqlar 1991-ci ilin əvvəlində yekunlaşdı. SSRİ Neft və Qaz Sənayesi Nazirliyi və Azərbaycan SSR Nazirlər Sovetinin 1991-ci il 18 yanvar tarixli birgə qərarı ilə Xəzər dənizindəki “Azəri” yatağının kəşfiyyatı və işlənməsi üzrə “Xəzərdənizneft” İstehsalat Birliyi ilə müştərək müəssisənin yaradılmasına dair tenderin keçirilməsi qərara alındı (25, 194).

---

Ərəstun Balaxan oğlu Mehdiyev – t.ü.f.d. Bakı Dövlət Universitetinin dosenti

Tenderdə «BP", "Amoko" və "Yunokal" iştirak edirdi. Həmin ilin iyun ayında tenderə yekun vuruldu və "Amoko" tenderin qalibi oldu. Buna baxmayaraq, Azərbaycan Respublikasında işləməyə maraq göstərən digər şirkətlərlə əlaqələr kəsilmədi. Müsabiqə komissiyasının yekun sənədinə görə, "Amoko" Azərbaycan Respublikası hökumətinin razılığı ilə digər şirkətləri də "Azəri" yatağında birgə işləməyə dəvət etmək hüququna malik idi. Buna görə də qarşılıqlı razılıq əsasında Avropa və ABŞ-ın "BP/Statoyl", "Yunokal", "MakDermott", "Remko" kompaniyaları "Azəri" layihəsində əməkdaşlığa cəlb olundular. Layihədə 45%-lik paya malik olan "Amoko" üstün mövqeyini qoruyurdu (25,195; 19, 132).

Göründüyü kimi, Qərb dövlətləri ilə iqtisadi əməkdaşlığı inkişaf etdirməyə çalışan Azərbaycan Respublikası özünün siyasi maraqlarını da təmin etməyə səy göstərirdi. Belə ki, neft sənayesində əməkdaşlığa dair aparılan danışıqlarda ABŞ şirkətlərinin aparıcı rolunun saxlanılması ilə yanaşı, Avropanın nüfuzlu təmsilçisi Böyük Britaniya və habelə Norveç şirkətlərinə də yer ayrılırdı. Bu isə Qərb ölkələri ilə daha geniş iqtisadi və siyasi əlaqələrin yaradılmasına imkan verirdi. Lakin müstəqilliyin ilk illərində hökm sürən qeyri-sabit daxili vəziyyət Azərbaycan Respublikası hökumətinə danışıqları başa çatdırmağa mane oldu. 1992-ci ilin martında ölkədə siyasi hakimiyyətin dəyişməsi neft şirkətləri ilə danışıqlar prosesini ləngitsə də, ona son qoymadı. Çünki, əməkdaşlığın həyata keçirilməsində hər iki tərəf maraqlı idi.

İyun ayında Ə.Elçibəyin Prezident seçilməsindən sonra Qərb şirkətləri ilə danışıqlar yenidən intensivləşdi. İyulun 17-də Bakıda səfərdə olmuş BP-nin prezidenti Con Braun müqavilənin imzalanması və əməkdaşlığın perspektivlərinə dair ətraflı müzakirələr aparmışdı (15).

1992-ci il sentyabrın 7-də "BP/Statoyl" alyansı ilə imzalanmış sazişə görə "Dostluq" yatağının (sonradan "Çıraq" adlandırıldı) və "Şahdəniz" perspektivli sahəsinin işlənməsi hüququ şirkətlərə verildi. Həmin neft yataqlarının istismarına xüsusi hüquqlar aldığına görə "BP/Statoyl" Azərbaycan Respublikası hökumətinə 30 mln. dollar ödəməli idi (21, 147).

Sazişin imzalanması mərasimində Böyük Britaniyanın keçmiş Baş naziri M.Tetçer də iştirak etmişdir. (16) M.Tetçerin ilk dəfə olaraq Bakıya bu məqsədlə səfərə gəlişi Böyük Britaniya siyasi dairələrinin neft müqavilələrinin imzalanmasına böyük marağının təzahürü idi.

1992-ci ilin oktyabr ayında daha bir tanınmış şirkətlə – ABŞ təmsilçisi "Pennzoyl" ilə ARDNŞ arasında saziş imzalandı. Razılaşmaya əsasən, Azərbaycanın zəngin neft yatağı "Günəşli"nin birgə istismar hüququ Amerika şirkətinə verilirdi (21,148).

Bununla da Qərb ölkələrinin neft şirkətlərinin iştirakı ilə işlənməyə çıxarılmış dəniz neft yataqlarının çərçivəsi müəyyənləşdi. Danışıqların sonrakı gedişi məhz Azəri, Çıraq, Şahdəniz və Günəşli yataqlarının birgə işlənməsi məsələsini əhatə edirdi.

Layihənin daha səmərəli şəkildə həyata keçirilməsi və maliyyə vasitələrinə qənaət edilməsi məqsədilə "Yunokal" şirkəti "Azəri", "Çıraq "və "Günəşli" yataqlarında tədqiqat işlərinin birləşdirilməsi təklifi ilə çıxış etdi. Bu ideya ARDNŞ tərəfindən bəyənildi və 1992-ci ilin noyabr ayında layihə iştirakçıları olan şirkətlərlə vahid infrastruktur – müştərək təchizat bazası, dəniz boru xətləri və terminalların birgə sistemi haqqında anlaşma memorandumu imzalandı.

Layihələrin birləşdirilməsi ilə bağlı danışıqlar 1993-cü ilin mayına qədər davam etdi. Nəhayət, iyunun 4-də ARDNŞ-in Direktorlar Şurasının iclasında xarici neft şirkətləri ilə yataqların işlənilməsinə dair layihələrin birləşdirilməsi barədə qərar qəbul olundu. İyunun 5-də birləşmə planı haqqında bəyannamə xarici neft şirkətlərinin nümayəndələrinə təqdim edildi. Bəyannamədə şirkətlərin layihədəki pay bölgüsü müəyyənləşdirilirdi. Təsdiq olunmuş işçi qrafikə uyğun olaraq iyunun sonuna qədər vahid müqavilənin layihəsi hazırlanmalı idi (22).

Razılaşmaya görə, layihədə ARDNŞ-in payı 30% təşkil edir, qalan 70% isə xarici neft şirkətləri arasında bölüşdürülürdü. (25, 199) Lakin Azərbaycan Respublikasının gəliri ARDNŞ-in layihədəki iştirak payı ilə məhdudlaşmırdı. Hazırlanmaqda olan layihənin şərtlərinə görə yataqlardan əldə olunan gəlirlərin 70%-dən çoxu neft ehtiyatlarının qanuni sahibi olan respublikamıza çatmalı idi (1; 4). Bununla belə, yüksək gəlir faizi hələ nəzərdə tutulan şərtlərin Azərbaycan Respublikası üçün əlverişli olduğunu deməyə əsas vermir. ARDNŞ-in o zamankı prezidenti N.Əliyevin fikrincə, müqavilənin əsas zəif cəhəti ondan ibarət idi ki, "layihənin səmərəliliyinə onun dəyərinə və pul göstəricilərinə görə qiymət verilirdi. Bu isə belə kapitaltutumlu və uzunmüddətli layihələrdə real mənzərəni xeyli təhrif edir" (9).

Belə ki, müqavilənin qüvvədə olduğu 25-30 il ərzində baş verən inflyasiya, neft, avadanlıq və s. qiyməti əldə olunan ümumi gəlirlərə ciddi təsir göstərir. Buna görə də həmin müddət ərzində gəlirlərin tərəflər arasında bölüşdürülməsi nisbəti mühüm əhəmiyyət kəsb edir. Yəni müqaviləyə əsasən gəlirlərin böyük hissəsini qazanmalı olan Azərbaycan Respublikası öz payını istismar müddətinin əvvəllərində deyil, sonrakı dövründə əldə edərdisə, həmin illərdəki inflyasiya ölkənin real qazancını xeyli aşağı salardı.

Bu baxımdan müqavilədən əldə edilən gəlirlərin pul ilə yox, neftin həcmi ilə ifadə olunması və bu qazancın mümkün qədər tez alınmağa başlanması ölkənin maraqlarına uyğundur. Müqavilə layihəsinin 1993-cü ilin iyun variantında Azərbaycan Respublikasının neftlə gəlir payı 62,7 faiz təşkil edirdi. Həm də xarici

şirkətlər öz gəlirlərinin çox hissəsini əvvəlki illərdə götürməli idilər (9). Buna görə də layihədə nəzərdə tutulan şərtlər Azərbaycanın mənafeləri üçün heç də əlverişli hesab edilə bilməzdi.

İyun ayında ölkədə cərəyan edən siyasi proseslər nəticəsində hakimiyyət dəyişikliyinin baş verməsi müqavilənin yekun variantının hazırlanmasına və imzalanmasına mane oldu. Baxmayaraq ki, sabiq Baş nazir P.Hüseynov istefa verdikdən beş gün sonra – iyunun 11-də müqavilənin imzalanmasına dair hökumətin razılaşma sənədinə imza atmışdı, iyunun 24-də Azərbaycan Respublikasının Prezidenti səlahiyyətlərini icra etməyə başlayan Heydər Əliyev xarici neft şirkətləri ilə danışıqların dayandırılması haqqında qərar qəbul etdi (2; 24). Qərarın qəbul olunmasının əsas səbəbi müqavilə layihəsində müəyyən çatışmazlıqların və Azərbaycan Respublikasının mənafelərinə cavab verməyən şərtlərin mövcudluğu ilə bağlı məlumatların daxil olması idi. Məsələnin araşdırılması və layihənin dərindən öyrənilməsi üçün vaxt tələb olunurdu.

Digər tərəfdən, həmin dövrdə Ermənistan silahlı qüvvələrinin Qarabağda yenidən intensiv hücumlara başlaması hərbi vəziyyəti daha da gərginləşdirmişdi. Belə durumda Heydər Əliyev Azərbaycan neftinə maraq göstərən Qərb dövlətlərinin diqqətini cəbhədə yaranmış vəziyyətə yönəltmək və təcavüzün dayandırılması üçün siyasi dəstək almağa çalışırdı.

Müqavilələrin hazırlanmasına dair danışıqların dayandırılması xarici neft şirkətləri və Qərb dövlətləri tərəfindən narahatlıqla qarşılandı. Onların nümayəndələri ilə keçirdiyi çoxsaylı görüşlərdə Heydər Əliyev danışıqların dayandırılmasının səbəblərini izah edərək "köhnə rəhbərliyin bu sahədə səriştəsizliyə və tələskənliyə yol verdiyini" bildirir, neft sərvətlərindən "ağılla istifadə edilməsinin" zəruriliyini qeyd edirdi (3).

Qərb dövlətləri öz mənafelərini ön plana çəkərək, müqavilələrin imzalanması prosesini sürətləndirməyə çalışırdılar. ABŞ-ın energetika nazirinin müavini U.Uayt Azərbaycan Respublikasına səfəri zamanı Heydər Əliyev ilə keçirdiyi görüşdə "müqaviləyə tezliklə qol çəkilməsi üçün xüsusi protokol gətirdiyini" və ölkəsinin Azərbaycan Respublikasında "strateji marağının olduğunu" bildirdi. Heydər Əliyev müqavilənin imzalanmasının əleyhinə olmadığını qeyd edərək, öz fikrini açıq və qəti şəkildə ifadə etdi: "Azərbaycanın da Amerikada strateji marağı vardır. Bizi daha çox strateji maraqların nə dərəcədə bir-birinə uyğun gəlməsi düşündürür" (5).

Göründüyü kimi, strateji məsələlərin həllində neft amili mühüm əhəmiyyət kəsb edirdi. Azərbaycan Respublikası dövləti özünün sosial-iqtisadi və siyasi mənafelərinin təmin olunmasında bu amilin üstünlüklərindən maksimum yararlanmağa səy göstərirdi.

Danışıqların davam etdirilməsi məqsədilə Azərbaycan Respublikası tərəfi beynəlxalq ekspertlər qrupu yaratdı. Qrupa ABŞ, Kanada və Avropa ölkələrindən mütəxəssislər cəlb edildi. Bakıda və Londonda neft şirkətləri ilə aparılmış danışıqlar noyabrda başa çatdı. Azərbaycan Respublikasını təmsil edən ekspert qrupu ilə Qərbin neft şirkətləri arasında müqavilənin yekun layihəsinin kommersiya və hüquqi şərtləri barədə protokol imzalandı. Yeni layihəyə yalnız "Azəri" və "Çıraq" yataqları daxil edilmişdi. "Günəşli" yatağı danışıqlar prosesindən çıxarılmışdı.

Müstəqil ekspertlər qrupuna rəhbərlik edən Marat Manafovun bildirdiyinə görə, müqavilə layihəsinin şərtləri Azərbaycan Respublikasının üçün çox sərfəli idi: gəlirlərin 80%-i Azərbaycan, 20%-i isə neft şirkətləri konsorsiumuna çatırdı. Bu gəlirlər pulla ifadə olunduqda, 118 milyard dolların 94 milyardı Azərbaycan Respublikasının, 24 milyardı isə xarici şirkətlərin payına düşürdü (4).

Müqavilənin tezliklə imzalanmasına böyük maraq göstərən xarici şirkətlər müstəqil ekspert qrupu ilə memorandum imzalayaraq, onun rəyini qəbul etdiklərini təsdiqləyir və eyni zamanda, bu layihənin də imzalanmayacağı təqdirdə Azərbaycan Respublikasının tərk edərək danışıqları dayandıracaqlarını bildirirdilər. Bununla da xarici şirkət nümayəndələri Azərbaycanın mövqeyinə təsir göstərməyə və müqavilənin imzalanması prosesini sürətləndirməyə səy göstərirdilər.

Yeni layihənin şərtləri Azərbaycan Respublikası hökuməti tərəfindən təhlil edilərək qiymətləndirildi. Müzakirələr zamanı məlum oldu ki, təqdim olunmuş layihə, müəlliflərin müsbət rəyinə baxmayaraq, Azərbaycan Respublikasının mənafelərinə cavab vermir. Yenə də layihənin əhəmiyyəti tərəflərin gəlir payının maliyyə baxımından ümumi qiymətləndirilməsi ilə ölçülürdü. Bununla belə, gəlir neftinin bölüşdürülmə nisbətini müəyyən edən qrafik də xarici şirkətlərin maraqlarına uyğunlaşdırılmışdı.

ARDNŞ-in prezidenti Natiq Əliyev neft müqaviləsinin 1993-cü il noyabr variantından danışarkən qeyd edirdi ki, Azərbaycan Respublikasının payı neftlə qazancda əvvəlki varianta nisbətən daha az 53,42 faiz təşkil edirdi. Eyni zamanda, hasil olunan neftin bölüşdürülmə mexanizminə görə, xarici şirkətlər ilk dövrdə daha çox neft almalı idilər. Yəni ilk 10 ildə çıxarılacaq 98 mln. ton neftin yalnız 16 mln. tonu (16,3%-i) və ya gəlirli neftin 39 faizi Azərbaycana çatmalı idi (9).

Layihənin London variantını Azərbaycan Respublikasının mənafelərinə zidd hesab edən Prezident Heydər Əliyev onu da qəbul etmədi (14,12). Bundan sonra Dövlət Neft Şirkətinin Azərbaycan Respublikasının neft mütəxəssisləri və alimlərindən ibarət yaratdığı qrup məsələni yenidən öyrənərək, danışıqların

aparılması prinsiplərini müəyyənləşdirdi. Müzakirələrin yekunu olaraq ARDNŞ təkliflərini Prezident Heydər Əliyevə təqdim etdi.

Təklifləri təhlil edərək qiymətləndirdikdən sonra Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 4 fevral 1994-cü il tarixində "Azərbaycan Respublikasında dəniz neft və qaz yataqlarının işlənilməsinin sürətləndirilməsi haqqında" sərəncam imzaladı (14,8). Sərəncamda qeyd olunurdu ki, xarici neft şirkətləri ilə aparılan danışıqların əsas istiqamətləri barədə ARDNŞ-in təklifləri bəyənilsin və Dövlət Neft Şirkətinə həmin şirkətlərlə birlikdə "Azəri" və "Çıraq" yataqlarının kəşfinə və işlənməsinə dair danışıqların aparılması, müqavilənin hazırlanması və bağlanması səlahiyyəti verilsin.

Beləliklə, danışıqların davam etdirilməsi bilavasitə ARDNŞ-ə həvalə olundu. Bununla da bu prosesin yeni mərhələsi başlandı. Danışıqların gedişi böyük gərginliklə müşayiət olunurdu. Qərbin neft şirkətləri daha əlverişli şərtlər əldə etməyə, Türkiyə firması isə öz iştirak payını artırmağa çalışır, nəticədə konsorsiumda mövqelərini bir qədər də möhkəmləndirməyə can atırdılar.

İran da danışıqlar prosesinə qoşulmağa və müqavilədən pay almağa iddialı idi. Lakin ABŞ – İran münasibətlərinin dərin ziddiyyətləri onların iqtisadi əməkdaşlığını istisna edərək, amerikalıların təmsil olunduğu konsorsiuma İran şirkətinin yolunu bağlayırdı. Buna görə də cənub qonşusu ilə münasibətlərin kəskinləşməsində maraqlı olmayan Azərbaycan İrana növbəti müqavilələrdə pay ayrılması məsələsinə baxılacağını bildirdi.

Rusiya da neft müqaviləsində iştirak etmək üçün böyük səy göstərirdi. 1993-cü ilin noyabrında ARDNŞ və "Lukoyl" arasında imzalanmış sənədlər əməkdaşlığın əsasını qoydu (21,154). Xəzərin hüquqi statusu məsələsindən istifadə edərək, Azərbaycan Respublikasına təzyiq göstərməyə çalışan Rusiya Federasiyası regionda neft hasilatı və nəqli sahəsində öz maraqlarını maksimum təmin etmək məqsədi güdürdü.

Rusiya Federasiyası tərəfi ilə aparılan danışıqların yekunu olaraq, nəhayət, 1994-cü il martın 22-də ARDNŞ konsorsiumdakı Qərb tərəfdaşlarına rəsmi surətdə bildirdi ki, "Lukoyl" şirkəti 10%-lik payla konsorsiuma daxil olmuşdur (6).

Qərbin neft şirkətləri ilə danışıqların növbəti mərhələsi Bakıda və İstanbulda davam etdirilmişdir. 1994-cü ilin iyun ayında mətbuata sızan xəbərlərdən məlum oldu ki, İstanbulda gedən danışıqlar tərəflər arasında razılıq əldə edilmədiyindən dayandırılmışdır. ARDNŞ-in birinci vitse-prezidenti İlham Əliyev mövqelərdə böyük fərqlərin olduğunu qeyd etmişdir. Əsasən müqavilənin kommersiya şərtləri barədə razılığa gəlmək mümkün olmamışdır. Tərəflərin başlıca fikir ayrılığı müqavilənin ilk illərində neft gəlirlərinin bölüşdürülməsi məsələsində özünü büruzə vermişdir.

Xarici neft şirkətlərinin mövqeyi bundan ibarət idi ki, Azərbaycan Respublikası öz payını yalnız Qərb tərəfdaşları layihəyə yatırdıqları 9 milyard dollara yaxın kapitalı əldə etdikdən sonra götürməlidir. Azərbaycan Respublikası tərəfi isə böyük sosial-iqtisadi problemlər qarşısında qaldığını vurğulayaraq layihədən mümkün qədər tez gəlir götürməyə çalışırdı. Danışıqlarda iştirak edən İlham Əliyev bildirirdi ki, "onun hökuməti Azərbaycanın payına düşən gəlirin tezliklə alınmasını təmin etməyən sazişi öz ölkəsində müdafiə edə bilməz" (7).

Beləliklə, danışıqlar prosesi gərgin müzakirələr və tərəflərin öz mövqelərini ardıcıl olaraq qorumağa çalışması şəraitində davam edirdi. Danışıqların uzanması neft müqaviləsinə dərin sosial-iqtisadi böhranın aradan qaldırılmasında və beynəlxalq siyasi mövqelərinin möhkəmlənməsində mühüm amil kimi baxan Azərbaycanın mənafelərinə uyğun deyildi. Lakin Azərbaycan Respublikası hökuməti bütün çətinliklərə baxmayaraq, neft müqaviləsinin daha əlverişli şərtlərlə bağlanması və ölkənin maraqlarının maksimum nəzərə alınması üçün qətiyyət göstərirdi.

Danışıqların gedişində layihənin kommersiya baxımından səmərəliliyini artırmaq üçün müxtəlif təkliflər nəzərdən keçirilir, çoxsaylı hesablamalar aparılırdı. Layihənin bütün tərəflər, xüsusən də Azərbaycan Respublikası üçün daha sərfəli variantı sazişin əhatə etdiyi sahənin neft ehtiyatlarının 50 milyon ton artırılması hesab edildi. Buna görə də layihə sahəsinin "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsi hesabına genişləndirilməsi məqsədəuyğun sayıldı. Belə ki, Azərbaycan Respublikası rəhbərliyi "Günəşli"nin 200 metrdən artıq dərinlikdə yerləşən sahəsinin öz texnoloji imkanları ilə istismarının qeyri-mümkünlüyünü və danışıqların daha sərfəli şərtlərlə tezliklə başa çatdırılmasının zəruriliyini nəzərə alaraq, ehtiyatları 50 milyon ton qiymətləndirilən "Günəşli" yatağının dərin hissəsinin "Azəri" və "Çıraq" yataqlarına əlavə edilməsi barədə qərar qəbul etdi.

Əgər "Azəri" və "Çıraq" yataqlarının istismarı nəticəsində Azərbaycan Respublikasının gəliri 210 milyon ton neft (müqavilə üzrə gəlirli neftin 75%-i) olacaqdısa, "Günəşli"nin dərinlikdə yerləşən hissəsinin layihəyə əlavə olunan 50 milyon ton ehtiyatları bu payın 43 milyon ton artaraq 253 milyon tona (layihənin gəlirli neftinin 80%-nə) çatmasına şərait yaradırdı (9). Bununla da layihənin digər iqtisadi göstəriciləri üzrə səmərəliliyi yaxşılaşırdı. Azərbaycan Respublikasının ümumi payı artdıqca, müqavilənin ilk 15 illik dövründə onun əldə edəcəyi neftin həcmi də çoxalaraq 106 milyon tondan 128 milyon tona çatırdı. Yəni layihənin kommersiya şərtləri daha sərfəli olurdu. Qeyd etmək lazımdır ki, müqavilənin İstanbulda razılaşdırılmış kommersiya şərtləri iştirakçıları qane etdiyinə görə, saziş imzalanana qədər bir daha dəyişdirilmədi (14,67).

Yaranmış fikir ayrılıqlarını dəf etdikdən sonra danışıqların İstanbul mərhələsi 1994-cü ilin iyul ayında başa çatdı. ARDNŞ-in hesabatını və Qərb neft şirkətləri nümayəndələrinin məlumatını öyrəndikdən sonra Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev danışıqların nəticəsini müsbət qiymətləndirdi. Bununla da iyulun ortalarında Bakıda tərəflər arasında danışıqların İstanbul mərhələsinin sona çatması və müqavilə layihəsinin hazırlanmasına başlanması barədə protokol imzalandı (14,13-14).

Danışıqların gedişində prinsipial məsələlərə dair razılığın əldə edilməsi, nəhayət, yekun mərhələyə qədəm qoymağa – bilavasitə müqavilə layihəsinin mətni üzərində işə başlamağa imkan verdi. Qərb tərəfdaşlarının təklifi ilə ARDNŞ danışıqların bu mərhələsini ABŞ-ın Hyuston şəhərində apardı. İyulun 21-də başlanan danışıqlar prosesi 45 gün davam etdi (14,14).

Danışıqların Hyuston mərhələsi də gözlənildiyindən gərgin keçdi. Regiondakı geosiyasi mübarizənin təsiri özünü burada açıqlığı ilə göstərirdi. Rusiyanın konsorsiumda pay alaraq danışıqlarda iştirak etməsinə baxmayaraq, Xəzərin hüquqi statusu məsələsindən geosiyasi təsir vasitəsi kimi istifadə etmək səyləri Qərb şirkətlərini daha ehtiyatlı davranmağa şövq edirdi. Digər tərəfdən, bu, Azərbaycan Respublikasına təzyiq üçün onların manevr imkanlarını da artırırdı. Təsadüfi deyil ki, məhz Hyustonda xarici neft şirkətləri Xəzər dənizinin hüquqi statusu ilə bağlı müddəanın neft müqaviləsinə daxil olunmasına israr edirdilər. Bu müddəaya görə, neft müqaviləsi imzalansa da, Xəzər dənizinin hüquqi statusu məsələsi həll olunduqdan sonra qüvvəyə minəcəkdi (18).

Əlbəttə, məsələnin bu cür qoyuluşu Azərbaycan Respublikasının maraqlarına zidd idi. Çünki, belə halda müqavilə uzun müddət həyata keçirilmədən kağız üzərində qalardı. Tarix də bu riskin real olduğunu təsdiq etdi. Belə ki, Azərbaycan Respublikası, Rusiya Federasiyası və Qazaxıstan Respublikası arasında Xəzər dənizinin dibinin bölüşdürülməsi haqqında yekun razılıq 2003-cü ildə əldə olunsa da, bütövlükdə Xəzərin statusu ilə bağlı müzakirələr hələ də davam etdirilir.

Yaranmış vəziyyət danışıqların dalana dirənməsinə səbəb ola bilərdi. Azərbaycan Respublikası nümayəndə heyəti bunun qarşısını almaq üçün intensiv surətdə çıxış yolları axtarırdı. Belə vəziyyətdə nümayəndə heyətinin üzvü, ARDNŞ-in birinci vitse-prezidenti İlham Əliyev Hyustondan Vaşinqtona səfər edərək, ABŞ energetika nazirinin müavini U.Uayt ilə məsələ barədə müzakirələr apardı. Azərbaycan Respublikasının konstruktiv mövqeyi konsorsiumda daha çox neft şirkəti ilə təmsil olunan ABŞ hökuməti tərəfindən qəbul olundu. Nəticədə Amerika hökumətinin tövsiyəsi ilə Qərb tərəfdaşları Xəzərin hüquqi statusu haqqında müddəanı müqavilə layihəsindən çıxardılar (18; 19, 145-146).

Beləliklə, Hyustonda aparılmış müzakirələr üç ildən artıq müddətdə davam edən danışıqları yekunlaşdırmağa imkan verdi. Tərəflər bütün prinsipial məsələləri razılaşdıraraq müqavilə layihəsini hazırlamağa nail oldular. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti danışıqların nəticəsi barədə ölkə Prezidentinə təqdim etdiyi məruzədə layihənin Azərbaycan Respublikası üçün iqtisadi baxımdan əlverişli və səmərəli olduğunu qeyd edirdi.

Dövlət Neft Şirkətinin xarici neft kompaniyaları ilə apardığı danışıqların nəticələrinə dair məruzəsini nəzərə alan Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1994-cü il sentyabrın 14-də "Xəzərin Azərbaycan sektorunda neft yataqlarının birgə işlənməsi haqqında xarici neft şirkətləri konsorsiumu ilə danışıqların yekunları barəsində" Fərman imzaladı. Sənəddə ARDNŞ-in məruzəsi və habelə Xəzərin Azərbaycan Respublikası sektorunda "Çıraq", "Azəri" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi haqqında Dövlət Neft Şirkəti ilə "Amoko", "BP", "Statoyl", "Pennzoyl", "Remko", "Yunokal", "MakDermott", "Türkiyə Petrolleri", "Lukoyl" şirkətləri arasında sazişin layihəsi bəyənilir və ARDNŞ-in prezidenti Natiq Əliyevə həmin sazişi imzalamaq barədə tapşırıq verilirdi (14, 9-11).

Fərmanı imzaladıqdan iki gün sonra, yəni sentyabrın 16-da Prezident Heydər Əliyev brifinq keçirərək, sentyabrın 20-də Bakının "Gülüstan" sarayında neft müqaviləsinin imzalanacağını bəyan etdi (14,14).

Beynəlxalq aləmdə və Azərbaycan Respublikasında diqqətlə izlənən danışıqlar prosesinin yekunlarına dair bu qərar böyük maraqla qarşılandı. Danışıqların uzanması və razılaşdırılmış layihənin şərtləri barədə müxtəlif rəylər və mülahizələr səsləndirilirdi. Azərbaycan dövlətinin məsələ ilə bağlı mövqeyini ifadə edən Heydər Əliyev müqavilə layihəsinin Azərbaycan Respublikasının bütün arzularını əks etdirmədiyini və bu əməkdaşlıqdan daha çox mənfəət götürmək istəyinin olduğunu bildirərək, bununla belə, müştərək işin qarşılıqlı mənfəət prinsipinə əsaslandığını vurğuladı. Onun fikrincə, bu baxımdan layihə bütün iştirakçıların, xüsusən Azərbaycan Respublikası tərəfinin iqtisadi mənafelərini uzunmüddətli perspektiv üçün təmin edir.

Qeyd etmək lazımdır ki, neft müqaviləsinin hazırlanması prosesində Azərbaycan nəinki öz iqtisadi, həm də siyasi maraqlarını qorumağa və beynəlxalq mövqelərini möhkəmləndirməyə səy göstərmişdir. Müqavilədə ABŞ, Qərbi Avropa, habelə qonşu Rusiya və Türkiyə dövlətləri şirkətlərinin iştirak etməsi Xəzər hövzəsində cərəyan edən gərgin geosiyasi mübarizənin Azərbaycan Respublikası tərəfindən tarazlaşdırılmasının təzahürü kimi qiymətləndirilməlidir.

Amma Azərbaycan Respublikasında neft hasilatı sahəsində əməkdaşlığa maraq göstərən və bu sazişdən pay almaq istəyən ölkələrin sayı daha çox idi. Əgər xarici neft şirkətləri konsorsiumu ilə danışıqların yekunları haqqında Azərbaycan Respublikası Prezidentinin 14 sentyabr 1994-cü il tarixli Fərmanı ilə müqavilədə beş xarici ölkəni təmsil edən doqquz neft şirkətinin iştirakı təsdiq olunmuşdusa, cəmi bir neçə gün ərzində, yəni sentyabrın 20-də müqavilənin imzalanması mərasiminə qədər daha bir ölkə – müsəlman Şərqinin aparıcı dövləti olan Səudiyyə Ərəbistanının təmsilçisi "Delta – Nimir" şirkəti müqaviləyə qoşuldu. Bu şirkət "Yunokal"ın payının 15%-ni alaraq, konsorsiumda 1,68%-lik iştirak payı ilə yer tutdu (14,11; 21, 159).

Beləliklə, Azərbaycan Respublikası dünya dövlətləri ilə iqtisadi əməkdaşlığın inkişafında maraqlı olduğunu nümayiş etdirirdi. Danışıqların gərgin müzakirələrlə müşayiət olunmasına baxmayaraq, Azərbaycan Respublikası ABŞ və digər Qərb dövlətləri ilə qarşılıqlı əlaqələrin genişlənməsinə hazırlığını konkret addımlarla göstərirdi. Bunun bariz nümunəsi kimi hələ konsorsium ilə danışıqların davam etdiyi dövrdə ARDNŞ və ABŞ-ın neft kompaniyalarından biri arasında neft sənayesində əməkdaşlığa dair digər müqavilənin paralel olaraq hazırlanması və imzalanmasını qeyd etmək olar.

Məhz həmin dövrdə – 1994-cü il avqustun 10-da ARDNŞ-in birinci vitse-prezidenti İlham Əliyev ABŞ-da bu ölkənin "Yunayted BMB Qrupp" şirkəti ilə bir neçə yüz milyon barrel gücündə olan iki neft yatağının birgə işlənməsinə və istismarına dair müqavilə imzaladı (8). Uzadılması mümkünlüyü ilə 20 il müddətinə nəzərdə tutulmuş bu sənəd Azərbaycanın ABŞ şirkəti ilə imzaladığı ilk neft müqaviləsi idi. Bu addım Azərbaycanın öz neft yataqlarını Qərb sərmayədarları ilə müştərək surətdə istismar etməyə açıq olduğunu və daha irihəcmli müqavilələr çərçivəsində əməkdaşlığa maraq göstərdiyini təsdiq edirdi.

Xarici neft şirkətləri ilə qarşılıqlı faydalı əməkdaşlıq xəttini ardıcıl davam etdirən Azərbaycan Respublikası, nəhayət, 1994-cü il sentyabrın 20-də ölkənin sosial-iqtisadi həyatında mühüm rol oynamış tarixi hadisənin şahidi oldu. Həmin gün Bakıda "Gülüstan" sarayında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə ABŞ, Böyük Britaniya, Norveç, Türkiyə, Rusiya və Səudiyyə Ərəbistanını təmsil edən on neft şirkəti – "Amoko", "BP", "Pennzoyl", "Yunokal", "Statoyl", "MakDermott", "Remko", "Türkiyə Petrolleri", "Lukoyl" və "Delta-Nimir" arasında "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və neft hasilatının pay bölgüsü haqqında Saziş imzalandı (14, 30-43).

Sazişə görə, neft şirkətlərinin pay bölgüsü aşağıdakı kimi müəyyənləşdirildi: ARDNŞ – 20%, "BP" – 17,1267%, "Amoko" – 17,01%, "Lukoyl" – 10%, "Pen-

nzoyl" – 9,8175%, "Yunokal" – 9,52%, "Statoyl" – 8,5633%, "MakDermott" – 2,45%, "Remko" – 2,08%, "TPAO" – 1,75%, "Delta – Nimir" – 1,68% (21, 176).

Müqavilə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edildikdən sonra 1994-cü il dekabrın 12-də qüvvəyə mindi. Bundan sonra onun həyata keçirilməsi üçün ardıcıl tədbirlər görülməyə başlandı.

Layihənin iqtisadi göstəriciləri sırasında ilk növbədə yataqlardakı neft ehtiyatlarının 511 milyon ton həcmində qiymətləndirildiyini qeyd etmək lazımdır. Hasil olunan neftin 253 milyon tonu Azərbaycan Respublikasına məxsus olacaqdır. 64 milyon ton xarici neft şirkətlərinə çatacaq, 194 milyon ton isə kapital və istismar xərclərinin ödənilməsinə sərf olunacaqdır. Yəni mənfəət neftinin 80%-i Azərbaycan Respublikasının, 20%-i isə xarici şirkətlərin payı olacaqdır (14, 78-79; 21, 175).

Nəzərə almaq lazımdır ki, müqavilədə Azərbaycan Respublikasının gəlirləri üç mənbədən formalaşır: 1) Təbii ehtiyatların mülkiyyətçisi hüququnda əldə edilən gəlir; 2) Yataqların işlənməsinə sərmayə yatırılmasında iştiraka görə qazanılan gəlir (ARDNŞ layihədə 20%-lik pay bölgüsü ilə iştirak edərək kapital yatırmalı idi); 3) Ölkə büdcəsinə daxil olması nəzərdə tutulan konsorsiumun gəlirlərinin 25%-i həcmində vergi ayırmaları (14, 9-10).

Bundan başqa, neft hasilatı prosesində çıxarılacaq 55 milyard kubmetr səmt qazı təmənnasız olaraq Azərbaycan Respublikasına verilməli idi. Eyni zamanda, müqavilə sahəsində ehtiyatları 90 milyard kubmetr qiymətləndirilən sərbəst qaz yataqlarının istismarı da Azərbaycan Respublikasının müstəsna hüquqlarına aid edilirdi. Həmin qaz ehtiyatlarının istismarı üçün Azərbaycan Respublikası şirkətlərlə ayrıca müqavilə imzalaya bilərdi.

Layihənin təbii qaz ilə bağlı şərtləri sazişin Azərbaycan Respublikası üçün iqtisadi əhəmiyyətini daha da artırırdı. Çünki sənədin 1993-cü ilin iyun variantında neftlə çıxarılan səmt qazı indikindən fərqli olaraq Azərbaycan Respublikasına satılmalı idi.

Xarici şirkətlərin Azərbaycan Respublikasına ödəyəcəyi bonusun məbləği əvvəlki kimi, 300 milyon dollar həcmində müəyyən edilmişdi. Lakin onun ödənilmə şərtləri və müddəti daha sərfəli və əlverişli şəkildə razılaşdırılmışdı. İmzalanmış müqaviləyə görə, bonusun 50%-i Sazişin qüvvəyə minməsindən 30 gün sonra, 25%-i hasilatın orta sutkalıq debiti 40.000 barrelə çatdıqda və nəhayət, qalan 25%-i isə ixracat boru kəməri ilə neft nəql edilməyə başlayandan sonra ödənilməli idi (9; 14, 79).

Yataqların işlənilməsi üçün o zamankı qiymətlərlə 7,5 milyard dollar kapital qoyuluşu nəzərdə tutulurdu. Sərmayənin 80%-ni xarici şirkətlər, qalan hissəsini isə müqavilədə 20% paya malik ARDNŞ qoymalı idi.

Hesablamalara görə, layihənin həyata keçirilməsindən Azərbaycan Respublikasının mənfəəti o vaxtkı qiymətlərlə 34 milyard dollar, xarici şirkətlərinki isə 8 milyard dollar təşkil edəcəkdi (21, 175). Eyni zamanda, ARDNŞ-in prezidenti Natiq Əliyevin qeyd etdiyi kimi, 30 il müddətində inflyasiya nəzərə alınmaqla, layihədən əldə olunan ümumi gəlir 157 milyard dollar qiymətləndirilirdi. Kapital, istismar və nəqliyyat xərcləri çıxılandan sonra yerdə qalan məbləğin 81,7 milyard dolları Azərbaycan Respublikasına 19,5 milyard dolları xarici şirkətlərə çatmalı idi (9).

30 il müddətinə imzalanmış saziş əsasən üç mərhələdə həyata keçirilməlidir. Birinci mərhələ (qiymətləndirmə dövrü) sənədin qüvvəyə minməsindən sonra 18 aylıq dövrü əhatə edir. Həmin müddət ərzində minimum proqram çərçivəsində təsdiqlənmiş məcburi işlərin görülməsi nəzərdə tutulurdu. Buraya üç qiymətləndirmə quyusunun qazılmasından tutmuş modernləşdirilmiş “Çıraq-1” platformasından ilkin neftin hasil olunmasınadək bir sıra işlər daxil idi.

İkinci mərhələ yataqların tammiqyaslı istismarına başlanması ilə bağlıdır. Bu mərhələdə Sazişin parlamentdə təsdiq edilməsindən sonra 48 ay ərzində ilk məhsuldar quyunun istifadəyə verilməsi ilə yataqların geniş işlənməsinə başlanması planlaşdırılırdı. Nəhayət, üçüncü mərhələdə layihənin qüvvəyə minməsindən 54 ay sonra konsorsiumun hasil etdiyi neftin əsas ixrac boru kəməri ilə dünya bazarlarına nəql olunmasına başlanması nəzərdə tutulurdu (14, 78).

Beləliklə, müqavilədə həyata keçirilməsi zəruri hesab edilən bütün işlərin ardıcıllıqla müəyyən edilməsi layihənin uğurla yerinə yetirilməsinə zəmin yaradıldı.

Layihənin icrasına nəzarəti təmin etmək üçün Rəhbər Komitə formalaşdırılmalı idi. Rəhbər Komitəyə sədr Azərbaycan Respublikası, katib isə podratçı tərəfindən təyin olunurdu.

Sazişin şərtlərinə görə xarici şirkətlər müqavilədəki paylarını tam və ya qismən sərbəst şəkildə özlərinin ortaq şirkətlərinə vermək hüququna malikdirlər. Amma şirkətlər hər hansı payı üçüncü tərəfə vermək üçün mütləq ARDNŞ-in razılığını almalıdır. Bu müddəa Azərbaycan üçün strateji əhəmiyyət kəsb edən layihədə arzuolunmaz tərəflərin iştirakının qarşısını almağa imkan verir.

Müqavilə imzalandıqdan sonra beynəlxalq aləmdə ona diqqət daha da artdı. Dünyanın bir sıra nüfuzlu neft şirkətləri layihədə pay əldə etməyə böyük maraq göstərirdilər. Bu diqqət Azərbaycan nefti ətrafında cərəyan edən qlobal iqtisadi və geosiyasi maraqların təzahürü kimi özünü göstərirdi.

1995-ci ilin əvvəllərində Azərbaycan Respublikasının layihədəki 20 faizlik investisiya payını maliyyələşdirməsi ilə bağlı çətinliklər meydana çıxan zaman tanınmış xarici neft şirkətləri konsorsiuma qoşulmağa dair müxtəlif təkliflərlə çıxış etdilər. Aprelin əvvəlində Azərbaycan Respublikası hökuməti malik oldu-

ğu 20 faizlik payın 5 faizini "Türkiyə Petrolleri Anonim Ortaqlığı" şirkətinə, 5 faizini isə ABŞ-ın "Eksson" şirkətinə verdiyini bəyan etdi. Bu qərarın qəbul olunmasında təkcə iqtisadi amillər deyil, həm də siyasi məqamlar rol oynamışdı. Belə ki, Prezident Heydər Əliyev TPAO və "Eksson" şirkətlərinin rəhbərləri ilə görüşü zamanı xüsusi olaraq vurğulamışdı ki, Türkiyə Cümhuriyyəti və ABŞ-ın yüksək rəsmi dairələri Azərbaycan Respublikası rəhbərliyinə müraciət edərək həmin şirkətlərin uğurlu fəaliyyətinə dair zəmanət vermişlər (10).

Danışıqların yekunu olaraq hazırlanmış ilk sənəd 1995-ci il aprelin 12-də Bakıda Prezident Heydər Əliyevin və Türkiyənin Baş naziri Tansu Çillərin iştirakı ilə ARDNŞ və TPAO arasında imzalandı. Sazişə görə ARDNŞ müqavilədəki payının 5 faizini türk şirkətinə verdi. Bununla da TPAO-nun müqavilədəki payı 6,75 faizə çatdı (11).

Bu sazişin Azərbaycan Respublikası üçün mühüm cəhəti ondan ibarət idi ki, TPAO ARDNŞ-in müqavilədə özündə saxladığı iştirak payının 5 faizini maliyyələşdirməyi öhdəsinə götürürdü. ARDNŞ isə bunun əvəzini gələcəkdə müqaviləyə uyğun olaraq ödəməli idi (13, 54-55).

Azərbaycan Respublikasının ilk neft konsorsiumundakı payının daha 5 faizinin isə ABŞ-ın "Eksson" şirkətinə verilməsi haqqında saziş aprelin 19-da Bakıda "Gülüstan" sarayında imzalandı. ABŞ tərəfindən mərasimdə energetika nazirinin birinci müavini U.Uayt və konqresmen Q.Laflin iştirak edirdilər (12).

Sazişin şərtlərinə görə, "Eksson" şirkəti də ARDNŞ-in müqavilədəki iştirak payının 5 faizini maliyyələşdirməyi öz üzərinə götürürdü. (14, 88-89)

Bununla da ARDNŞ-in konsorsiumda əlində saxladığı 10 faizlik iştirak payının maliyyələşdirilməsi məsələsi öz həllini tapdı. Eyni zamanda, ilk konsorsiumdakı ABŞ şirkətlərinin sayı beşə çatdı.

Sonrakı illərdə layihə yenə də xarici neft şirkətlərinin maraq dairəsində idi. 1996-cı ildə Yaponiyanın "İtoçu" şirkətinin "MakDermot"un payını alaraq konsorsiuma qoşulması iştirakçı dövlətlərin coğrafiyasını daha da genişləndirdi (13, 311; 17). 2000-ci ildə "Remko" şirkəti layihədəki 2,0825 faizlik payını 150 milyon dollara ABŞ-ın üç şirkətinə satdı. "Amerada Hess" onun 1,0413 faizlik payını alaraq "Delta" ilə "Delta Hess" alyansında birləşdi. "Remko"nun payının qalan hissəsini isə "Devon Enerji" şirkəti (0,8087 faiz) və "Yunokal" (0,2325 faiz) əldə etdilər (20).

Beləliklə, konsorsiumun tərkibinin formalaşması prosesi davam edirdi. Bu proses neft şirkətlərinin sırf kommersiya maraqları ilə yanaşı, bir sıra dövlətlərin geosiyasi maraqlarının gerçəkləşdirilməsi ilə müşayiət olunurdu.

Konsorsium iştirakçılarının kommersiya maraqlarına uyğun olaraq səhm paketlərinin alqı-satqısı və layihəyə yeni şirkətlərin qoşulması nəticəsində sonra-

lar da pay bölgüsündə yeni dəyişikliklər baş verirdi. 2011-ci ildə yaranmış əlverişli şəraitdən istifadə edən ARDNŞ özünün formalaşmış maliyyə ehtiyatlarına söykənərək müqavilədəki iştirak payını artırmağa nail oldu. Belə ki, "BP" ilə danışıqların yekununa əsasən, ARDNŞ Böyük Britaniya Şirkətinin "Devon Enerji"dən aldığı payın bir hissəsini əldə edərək, öz iştirak payını 1,6461% artırıb 11,6461%-ə çatdırmışdır. "Devon Enerji" malik olduğu 5,63%-lik payını 2010-cu ildə "Əsrin müqaviləsi"ndəki tərəfdaşlarına – "BP"-yə (3,29%), "Şevron"a (0,99%), "İnpeks"ə (0,96%) və "İtoçu"ya (0,38%) satmışdı. Beləliklə, 2011-ci ildə baş verən sonuncu dəyişiklikdən sonra "Əsrin müqaviləsi"ndə iştirakçıların pay bölgüsü aşağıdakı kimi formalaşmışdır: "BP" – 35,83%, ARDNŞ – 11,65%, "Şevron" – 11,27%, "İnpeks" – 10,96%, "Statoyl" – 8,56%, "Eksson" – 8%, TPAO – 6,75%, "İtoçu" – 4,3% və "Hess" – 2,72% (23; 26).

Azərbaycan Respublikasının həyata keçirməyə başladığı neft strategiyasının təməl daşını qoyan müqavilə ölkənin iqtisadi, sosial, siyasi həyatında ciddi dəyişikliklərə yol açması və beynəlxalq mövqelərinin möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyətə malik idi. Qeyd etmək lazımdır ki, ABŞ Prezidenti B.Klinton sənədin imzalanması münasibətilə göndərdiyi təbrikdə bildirirdi ki, "Birləşmiş Ştatlar tarixdə bu növ sazişlər arasında ən böyüyü olan bu müqaviləni alqışlayır" (14, 68). Təsadüfi deyil ki, dünyanın bir sıra aparıcı dövlətlərinin nüfuzlu neft şirkətlərinin iştirakına, kapital qoyuluşunun böyük həcminə və bütövlükdə ciddi geosiyasi çəkisinə görə, layihə tezliklə beynəlxalq siyasi və iqtisadi dairələrdə "Əsrin müqaviləsi" adını aldı.

Müqavilənin imzalanması ölkənin iqtisadi həyatında aparıcı yer tutan neft-qaz sənayesinin dirçəlişinə və davamlı inkişafına yeni perspektivlər açırdı. Bununla yanaşı, saziş neft sənayesi ilə bağlı olan digər sənaye sahələrinə, habelə infrastruktura investisiya qoyuluşuna güclü stimul verir və onların inkişafı üçün əlverişli zəmin yaradırdı. Dünya təcrübəsinə görə, neft sənayesinə qoyulan bir dollar iqtisadiyyatın başqa sahələrinə əlavə təqribən üç dollar sərmayə cəlb olunmasını şərtləndirir.

Xarici investisiyanın köməyi ilə yenidən qurulan neft-qaz sənayesi Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiya olunmasına təkan verərək, bazar iqtisadi münasibətlərinə keçidin sürətlənməsi prosesində mühüm amilə çevrildi.

Müqavilə çərçivəsində həyata keçirilən işlər ölkəyə müasir texnika və texnologiyaların gətirilməsini, müxtəlif sahələrdə geniş tətbiq olunmasını təmin etmək baxımından əhəmiyyətli sayılırdı.

Ölkə iqtisadiyyatına irihəcmli investisiya axınına yol açan layihə Azərbaycanın sosial simasının da nəzərəçarpacaq şəkildə dəyişməsinə təsir etməli idi. Nəinki neft-qaz sənayesində, eləcə də digər sənaye və infrastruktur sahələrində

çoxsaylı iş yerlərinin yaradılması labüd idi. Bu isə iqtisadi böhranın doğurduğu kütləvi işsizliyin azalmasına, əhalinin məşğulluq probleminin tədricən həll olunmasına və sosial-rifah halının yüksəlməsinə şərait yaratmaqla, cəmiyyətdəki sosial gərginliyin aradan qaldırılmasında mühüm rol oynaya bilərdi.

Nəhəng müqavilənin imzalanması ilə Azərbaycan Respublikası hökuməti taleyüklü iqtisadi və siyasi qərarların qəbul edilməsinə qadir olduğunu nümayiş etdirdi və ölkədaxili siyasi sabitliyin möhkəmlənməsinə ciddi töhfə verdi. Bu addımla da ölkə ictimaiyyətinin diqqətini və bütün potensialını yeni sosial-iqtisadi bazanın yaradılmasına, müstəqil dövlətçiliyin möhkəmlənməsinə yönəlmiş quruculuq fəaliyyətinə istiqamətləndirdi. Inkişaf və sosial rifahla bağlı ümidlərin möhkəmlənməsi isə ölkədə ictimai-siyasi atmosferin sağlamlaşmasına, qarşıdurma əhval-ruhiyyəsinin və psixoloji gərginliyin tədricən aradan qalxmasına, sabit inkişafa olan inamın artmasına xidmət edirdi.

Xarici şirkətlər konsorsiumu ilə sazişi imzalamaqla Azərbaycan Respublikası siyasi müstəqilliyini və öz resurslarının tam sahibi olduğunu göstərdi. Eyni zamanda o, iqtisadiyyatın xarici investisiyalar üçün açıq olmasını təsdiq etməklə, dünya ölkələri ilə qarşılıqlı-faydalı əməkdaşlıq yolu seçdiyini sübut edirdi. Bu addım müstəqilliyə yeni qədəm qoymuş Azərbaycan Respublikasının beynəlxalq imicinin formalaşması və mövqelərinin möhkəmlənməsi baxımından əhəmiyyətli hesab olunmalıdır.

Hələ müstəqil dövlət kimi beynəlxalq arenaya çıxmamış hərbi təcavüzə məruz qalaraq, ərazilərinin bir hissəsini itirməsi Azərbaycan Respublikası qarşısında ərazi bütövlüyünün bərpası yolunda dünya birliyinin ədalətli mövqeyinin formalaşdırılmasını əsas vəzifələrdən biri kimi qoyurdu. Bu baxımdan müqavilə konsorsiumda təmsil olunmuş ölkələr – ABŞ, Böyük Britaniya, Norveç, Rusiya, Türkiyə, Səudiyyə Ərəbistanı və nəhayət, Yaponiya ilə münasibətlərin inkişafına geniş yol açırdı.

Azərbaycan Respublikası həmin ölkələr ilə maraqların uzlaşdırılmasına birtərəfli qaydada ümid bəsləmirdi. Eyni fikirlər müqavilənin imzalanması münasibətilə konsorsiuma daxil olan ölkələrin rəhbərlərindən və hökumət üzvlərindən alınmış təbrik məktublarında da ifadə olunurdu. Belə ki, ABŞ Prezidenti B.Klinton müqavilənin ölkələr arasında iqtisadi-ticarət əlaqələrinin möhkəmlənməsinə xidmət edəcəyini bildirərək qeyd edirdi ki, "Azərbaycan neftinin işlənməsi Dağlıq Qarabağ regionunun daxilində və onun ətrafında uzun müddət sürən münaqişənin həll olunması ilə yanaşı, Azərbaycan xalqı üçün sabitlik, iqtisadi inkişaf və firavanlıq gətirilməsində mühüm rol oynaya bilər" (14, 68).

Konsorsiuma daxil olan Böyük Britaniyanın Baş naziri Con Meycorun təbrik məktubunda isə müqavilə iki dövlət arasındakı əlaqələrin inkişafında yeni

mərhələnin başlanğıcı kimi qiymətləndirilirdi. Baş nazir göstərirdi ki, Birləşmiş Krallıq Dağlıq Qarabağ münaqişəsinin nizamlanması, "bölgənin bütün xalqlarının təhlükəsizlik və tərəqqinin bəhrəsini görməsi şərti ilə ədalətli və möhkəm sülhün bərqərar olmasında fəal rol oynamağa hazırdır" (14, 69).

Beləliklə, "Əsrin müqaviləsi" Azərbaycan Respublikasının sosial-iqtisadi və siyasi tərəqqisində, xarici ölkələrlə qarşılıqlı əlaqələrinin qurulması və inkişafında, habelə dünya birliyi ölkələri sırasında mövqelərinin möhkəmləndirilməsində mühüm amil kimi çıxış edir.

Ölkədaxili mürəkkəb ictimai-siyasi və iqtisadi kataklizmlərlə, Ermənistanın hərbi təcavüzü, dünyanın güc mərkəzlərinin gərgin geosiyasi mübarizəsi ilə müşayiət olunan və xarici neft şirkətləri ilə üç ildən artıq davam edən danışıqlar iddialı dövlətlərlə qarşılıqlı-faydalı əməkdaşlığa və Azərbaycan Respublikasının milli mənafelərinə söykənən sazişin imzalanması ilə sona çatdı. Azərbaycan Respublikasının iqtisadi tənəzzül və siyasi böhrandan milli dirçəliş yoluna çıxmaq fürsəti qazandı. Bu fürsətdən lazımınca bəhrələnmək üçün qarşıda gərgin və məqsədyönlü fəaliyyət dövrü dururdu.

## MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT


1. "Azərbaycan" qəzeti, 9 yanvar 1993
2. "Azərbaycan" qəzeti, 23 iyul 1993
3. "Azərbaycan" qəzeti, 10 avqust 1993
4. "Azərbaycan" qəzeti, 2 noyabr 1993
5. "Azərbaycan" qəzeti, 19 noyabr 1993
6. "Azərbaycan" qəzeti, 24 mart 1994
7. "Azərbaycan" qəzeti, 28 iyun 1994
8. "Azərbaycan" qəzeti, 17 avqust 1994
9. "Azərbaycan" qəzeti, 22 oktyabr 1994
10. "Azərbaycan" qəzeti, 4 aprel 1995
11. "Azərbaycan" qəzeti, 13 aprel 1995
12. "Azərbaycan" qəzeti, 20 aprel 1995
13. Əliyev Heydər. Azərbaycan nefti dünya siyasətində, IV kitab, Bakı, 1997
14. Əsrin müqaviləsi, Bakı, 1996
15. "Həyat" qəzeti, 18 iyul 1992
16. "Xalq qəzeti", 9 sentyabr 1992
17. "Xalq qəzeti", 12 mart 1996
18. "Xalq qəzeti", 21 sentyabr 1999
19. Xoşbəxt Yusifzadə. Ömrümün illəri və izləri. Bakı, 2004
20. "525-ci qəzet", 26 oktyabr 2000
21. Алиев Илхам. Каспийская нефть Азербайджана. Москва, 2003
22. "Бакинский рабочий", 8 июня 1993 г.
23. "Бакинский рабочий", 16 июля 2011 г.
24. "Известия", 4 августа 1993 г

25. Полухов Элхан. «Контракт века». (Проблема в исторической ретроспективе). «Azərbaycan neftinin dünəni, bu günü və sabahı». Bakı,1997
26. “ Зеркало”, 16 июля 2011 г.

**A.B.Mekhtiev**

## BOOKMARK OF THE BASE OF OIL STRATEGY - «THE CONTRACT OF A CENTURY»

## SUMMARY

In the late eighties of the XX century the petroleum industry of Azerbaijan worried deep financial and economic crisis. Despite it on the eve of disintegration of Soviet Union oil resources of the Azerbaijan sector of Caspian sea drew attention of the western oil companies. At the initiative of the head of British company "Ремко" who have arrived to Baku in 1989, «ВР», «Статойл», «АМОКО», «Юнокал» have started to carry on negotiations with the Azerbaijan government for working out of oil pools on Caspian sea.

After finding of independence by Azerbaijan negotiations with the western transnational companies proceeded. However, the new political crisis which has come in June, 1993 has suspended negotiating process. Gay gift Aliyev who has come to the country leaders during that difficult period, defending political and economic interests of Azerbaijan, achieved more favourable conditions during the conclusion of the oil contract.

At last, on September, 20$^{th}$ , 1994 the oil agreement with 10 foreign companies from 6 countries, the received name «Contract of a century» has been signed. The prisoner for 30 years the contract has put in pawn a basis of new oil strategy of Azerbaijan which promoted by attraction of foreign capitals and high technology introduction, to petroleum industry development that opened wide prospects for social and economic growth and strengthening of a world situation of republic.

**А. Б.Мехтиев**

## ЗАКЛАДКА ФУНДАМЕНТА НЕФТЯНОЙ СТРАТЕГИИ-«КОНТРАКТ ВЕКА»

## РЕЗЮМЕ

В конце 80-х годов ХХ века нефтяная промышленность Азербайджана переживала глубокий финансово-экономический кризис. Несмотря на это накануне распада Советского Союза нефтяные ресурсы азербайджанского сектора Каспия привлекали внимание западных нефтяных компаний. По инициативе руководителя британской компании «Ремко», прибывшего в Баку в 1989 г., «ВР», «Статойл», «АМОКО», «Юнокал» начали вести переговоры с азербайджанским правительством о разработке нефтяных залежей на Каспии.

После восстановления независимости Азербайджаном переговоры с западными транснациональными компаниями продолжались. Однако, новый политический кризис в июне 1993 г. приостановил этот процесс. Гейдар Алиев, пришедший к руководству страны в тот сложный период, отстаивая политические и экономические интересы Азербайджанской Республики, добивался более выгодных условий во время заключения нефтяного контракта.

Наконец, 20 сентября 1994 г. было подписано нефтяное соглашение с 10 зарубежными компаниями из 6-ти стран, получившее название «Контракт века». Заключенный на 30 лет договор заложил основу новой нефтяной стратегии Азербайджанской Республики, которая способствовала путем привлечения иностранного капитала и внедрения передовой технологии развитию нефтяной промышленности и открывала широкие перспективы для социально-экономического роста и укрепления международного положения страны.

**Açar sözlər**: neft, müqavilə, xarici şirkətlər, saziş, ölkə
**Ключевые слова:** нефть, договор, зарубежные фирмы, соглашение, страна
**Keywords:** oil, the contract, foreign firms, the agreement, the country

**Məqalə t.ü.f.d. Ə.Qasımovun və t.ü.f.d. A.Balayevin müsbət rəyləri əsasında çap olunur.**

# "ƏSRİN MÜQAVİLƏSİ"NİN İMZALANMASI VƏ ABŞ-IN MÖVQEYİ

**Əsmər NƏSİBOVA**[*]

"Soyuq müharibə"nin sona çatması ilə dünyada başlamış olan kardinal dəyişikliklər, beynəlxalq münasibətlərin istiqamətlərinin müəyyən olunmasında iqtisadi amillərin, o cümlədən neft amilinin böyük yeri, geosiyasətin və geoiqtisadiyyatın neftlə zəngin bölgələr, o cümlədən Qafqaz üçün oynadığı rol 1991-1993-cü illərdə hələ xarici siyasət prioritetləri, xarici siyasət strategiyası müəyyən olunmayan, iqtisadiyyatı tam tənəzzül yaşayan Azərbaycan Respublikası üçün də keçərli idi. ABŞ-ın, Rusiya Federasiyasının, İranın və Türkiyənin ciddi rəqabətinin getdiyi Avrasiya məkanında Qafqaz mərkəzi rollardan birini oynayırdı və bu bölgənin iri dövləti sayılan Azərbaycanın siyasətindən bir çox məqam asılı idi. Xüsusilə də bu, neft ehtiyatları ilə zəngin olan respublikanın enerji siyasətinə aid idi.

1992-1993-cü illərdə müstəqilliyinin "eyforiyası"nı yaşayan Azərbaycan Respublikası rəhbərliyi SSRİ-dən ona "miras" qalmış iqtisadi problemlərin nə qədər ağır olduğunu təsəvvür etmirdi: onilliklər ərzində müttəfiq respublikaların bir-birinə məcburi iqtisadi bağlarla bağlanmış, sərt təsərrüfat ixtisaslaşmasının aparıldığı Sovetlərin dağılması ilə, yeni dövlətlərin qarşısında iqtisadiyyatın böhrandan çıxarılması, müasir texnologiyaların və sosialist iqtisadiyyatı üçün yad olan investisiyaların cəlb edilməsi məsələsi də ortaya çıxdı. Konkret neft sənayesinə gəlincə, onun dirçəldilməsi yalnız iri vəsait deyil, həm də güclü strategiyanın işlənib hazırlanmasını tələb edirdi.

Məsələ burasındadır ki, müasir dünyanın infrastrukturu, onunla əlaqədar isə həm də siyasi həyatı bu və ya digər dərəcədə neftə bağlıdır. Bu gün dünyada istehsal olunan enerji ehtiyatlarının əsas mənbəyi neftdir və bu enerjinin 48 %-ni neft təşkil edir (19, s.23). Lakin neft bərpa edilməyən ehtiyatlara aiddir, başqa sözlə desək, tükənəndir. Dünyanın neft ehtiyatları hazırda təxminən 210 milyard ton (1200 milyard barrel) təşkil edir. Mütəxəssislərin 2006-cı ildə aparılan hesablamalarına görə neft ehtiyatlarının ən tez tükənmə müddəti ABŞ və Çində 11 il, ən son tükənmə müddəti isə Venesueladadır 194 il .Neft enerji mənbəyi olmaqla yanaşı, emal sənayesində də aparıcı xammaldır: kimya və neft-kimya sənayesində ondan sintetik kauçukların, plastmas və plassifikatorların, həmçinin boyaların alınmasında xammal kimi istifadə olunur. Neftin üstün keyfiyyətlərindən biri də onun nəqlinin, qaz və daş kömürlə müqayisədə daha asan başa gəlməsidir (24).

---

[*] Əsmər Şükür qızı Nəsibova – AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun aspirantı

Başqa sözlə desək, iqtisadi diplomatiyanın beynəlxalq münasibətlərdə əsas vasitə olaraq seçildiyi müasir dünyada neft amili həm onun istehsalçıları, həm də istehlakçıları üçün böyük önəm daşıyır. Müstəqilliyinin ilk illərini yaşayan Azərbaycan Respublikasının bu amili layiq olduğu səviyyədə saxlaması, daha doğrusu, ondan həm iqtisadiyyatının dirçəldilməsində, sosial problemlərinin həllində istifadə etməsi, həm də xarici siyasətə güclü vasitə olaraq cəlb etməsi əhəmiyyətli məsələ idi. Lakin bu ehtiyatların mövcudluğu, heç də həmin problemlərin özü-özülüyündə dərhal həlli demək deyildi. Neft ehtiyatları Azərbaycan Respublikası üçün neqativ təsirlərə də malik ola bilərdi: bu ehtiyatlar Rusiyanın sovet dönəmində olduğu kimi, nəzarətində saxlanması və ya iri siyasi və iqtisadi dividendlər vermədən, Qərb ölkələrinin şirkətləri tərəfindən amansız istismarı halında Azərbaycan üçün böyük poblemlərə yol aça bilərdi.

***Cədvəl 1***

**1990-1994-cü illərdə Azərbaycanda aparılan neft qazma işləri (milyon tonla)**

| **İllər** | **Sənaye qazması** | **Quruda** | **Dənizdə** | **Kəşfiyyat qazması** | **Quruda** | **Dənizdə** |
|---|---|---|---|---|---|---|
| 1990 | 427,3 | 244 | 183 | 88 | 47,1 | 40,9 |
| 1991 | 383,3 | 215 | 168 | 43 | 22,2 | 20,8 |
| 1992 | 386,6 | 235 | 152 | 41,6 | 19,8 | 21,8 |
| 1993 | 316,8 | 216 | 101 | 24,7 | 9,4 | 15,3 |
| 1994 | 162,4 | 114 | 48,5 | 5,7 | 2,8 | 2,9 |

*Qeyd:* Cədvəl aşağıdakı mənbənin materialları əsasında hazırlanmışdır: 16, s.137-138, cədvəl 1.10

Təsadüfi deyil ki, bütün bu sadaladığımız amillərin nəzərə alınmadığı 1991-1993-cü illərdə Azərbaycanda neft hasilatı acınacaqlı vəziyyətə düşmüşdü (bax: cədvəl 1). Hasilatın cədvəldən də görünən bu dövrdəki aşağı səviyyəsi, başlıca olaraq, mövcud yataqların sovet dönəmində amansızlıqla, intensiv şəkildə istismarı, yeni yataqların istifadəsi üçün maliyyə imkanlarının olmaması, texnikanın və texnologiyanın köhnəlməsi sayılırdı (16, s.138-139). Bu problemlərin sürətli həlli üçün xarici sərmayənin neft sənayesinə cəlb edilməsi də vacib şərtlərdən biri idi. Amma Azərbaycan Respublikasının bu sahədə də təcrübəsi, demək olar ki, yox dərəcədə idi.

Doğrudur, hələ 1980-ci illərin sonlarında Şotlandiyanın "Remco" şirkəti Azərbaycan nefti ilə yaxından maraqlanmağa başlamışdı: şirkətin sədri S.Rempin Bakıya gəlişi də faktdır (16, s.145). "British Petroleum"un mütəxəssislərinə də Xəzərin neft ehtiyatları haqqında ətraflı məlumatları elə S.Remp vermişdi və

Azərbaycan Respublikası neft sənayesinə xarici sərmayənin cəlb edilməsi üçün imkanlar açılmışdı. “Remco” şirkətinin Azərbaycan SSR hökuməti ilə apardığı danışıqlar sayəsində artıq 1990-cı ilə doğru digər məşhur şirkətlərlə - “AMOCO”, “Biritish Petroleum/Statoil”, “Unocal” ilə də əlaqələr yaradılmışdı. SSRİ Neft və Qaz sənayesi Nazirliyiyin və Azərbaycan SSR Nazirlər Sovetinin 18 yanvar 1991-ci il tarixli 25/25 saylı birgə qərarı ilə “Azəri” yatağının “Xəzərdənizneft” istehsalat birliyi ilə birgə kəşfiyyatı və tədqiqi üzrə tenderin keçirilməsi nəzərdə tutulmuşdu (12). Tenderi 1991-ci ilin iyununda “AMOCO” şirkəti qazanmışdı və digər neft şirkətlərini də həmin layihədə iştiraka dəvət etmişdi (16, s.146).

Lakin, ölkədə yaranmış qeyri-sabit siyasi durum, idarəçilikdə dəyişikliklər bu layihənin müvəqqəti dayanmasına gətirib çıxardı. Danışıqlar yalnız 1992-ci ilin payızında, respublikada hakimiyyət dəyişikliyindən sonra bərpa edildi. 1992-ci il sentyabrın 7-də Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə “BP/Statoil” şirkətlər alyansı ilə müqavilə imzalandı və alyansa “Dostluq” (sonralar adı dəyişdirilib “Çıraq” adlandırıldı) yatağının tədqiqi və “Şahdəniz” yatağının öyrənilməsi üzrə eksklüziv hüquqlar verildi. Alyans bu hüquq müqabilində 30 milyon dollar ödəməyi öhdəsinə götürürdü (16, s.147).

1993-cü ilin martında “BP/State Oil” şirkətlər alyansı ilə ARDNŞ arasında “Çıraq” və “Şahdəniz” yataqlarının birgə öyrənilməsi və işlənməsi üzrə ikinci preliminar müqavilə imzalandı. Həmin ilin oktyabrında ARDNŞ ilə digər iri neft şirkəti olan “Pennzoil” arasında üçüncü müqavilənin imzalanması baş tutdu: müqaviləyə görə, xarici şirkətə “Günəşli” yatağının işlənməsində iştirak etmək hüququ verilirdi (16, s.148). Xarici sərmayəçilərə dörd iri neft yatağı təklif olunurdu: “Azəri”, “Şahdəniz”, “Çıraq” və “Günəşli” (16, s.148). Bundan sonra “xarici, ilk növbədə amerikan və ingilis şirkətlərinin Azərbaycanın neft biznesinə nüfuz etməsi başlayır” (16, s.148).

Qeyd edək ki, həmin ildə ARDNŞ və xarici şirkət rəhbərlərinin arasında təklif olunan sahələrin genişləndirilməsi və layihə üzvlərinin sayının artırılması haqqında danışıqlar da gedirdi. Elə bu danışıqların nəticəsi olaraq müqavilə iştirakçıları arasında 1992-ci ilin noyabrında beş “vahid təchizat bazası, vahid boru kəmərləri və terminallar sistemi haqqında qarşılıqlı anlaşma memorandumu” imzalandı (16, s.148). Bunun ardınca Azərbaycan Respublikası tərəfi BP, AMOCO və Pennzoil şirkətlərinə hər üç layihəni vahid idarəçilikdə birləşdirmək arzusunda olduğunu xəbər verdi; lakin adı çəkilən şirkətlər birbaşa bildirməsələr də, bu təklifi xeyli ehtiyatla qarşıladılar (bax: 16, s.148).

Xeyli danışıqlardan sonra, yalnız 1993-cü ilin mayında şirkətlər üç yataqda aparılacaq işlərin vahid proqramı haqqında altıncı memorandumu imzaladılar

(16, s.149). Layihədə iştirak edən xarici şirkətlərin sırasına bu zaman "Remco" (Pennzoil ilə birgə), "MacDermott" və "Türkiye Petrolleri Anonim Ortaklığı" (TPAO) da qatılmışdı. 5 iyun 1993-cü ildə ARDNŞ-ın Direktorlar şurası üç yataqda - "Azəri", "Çıraq" və "Günəşli" yataqlarında aparılan işlərin birləşdirilməsi haqqında bəyannamə qəbul etdi; xarici şirkətlərin də qəbul etdiyi yeni şərtlərə müvafiq olaraq, ümumi payın 70 %-i ARDNŞ-a verilirdi, 30 %-i isə digər iştirakçılar arasında bölüşdürülürdü (23). Müqavilənin qəti olaraq imzalanması müddəti artıq bəlli olsa da (21 iyul 1993-cü il), ölkədəki mürəkkəb siyasi vəziyyət – faktiki vətəndaş müharibəsi bu prosesi yarımçıq qoydu.

Şübhəsizdir ki, adı çəkilən müqavilənin imzalanmasının səbəbi yalnız bir hadisə - ölkədə hakimiyyət uğrunda müxtəlif qruplaşmaların mübarizəsi və vətəndaş müharibəsi ilə müşayiət olunan mürəkkəb siyasi vəziyyət ilə izah oluna bilməz. Bununla əlaqədar, Prezident İlham Əliyevin 2003-cü ildə nəşr etdirdiyi "Azərbaycanın Xəzər nefti" ("Каспийская нефть Азербайджана") adlı kitabında çox ətraflı təhlillərə rast gəlmək olar. Müəllif müqavilənin 1992-ci və hətta 1993-cü ildə imzalanmamasının səbəblərini, daha doğrusu, buna mane olan amilləri aşağıdakı kimi qruplaşdırır:

- ABŞ Konqresi tərəfindən 1992-ci ilin dekabrında "Azadlığı Müdafiə Aktı" Qanununa "907-ci düzəliş"in qəbul edilməsi;
- Yataqlarda aparılan işlərin birləşdirilməsi ideyasına marağın durmadan artması;
- Layihənin hazırlanması üzərində çalışan azərbaycanlı mütəxəssislərin iqtisadi təhlillərinin zəif səviyyəsi;
- Ölkə rəhbərliyinin xarici siyasətdə yol verdiyi böyük səhvlər, o cümlədən, Rusiya və İranla onsuz da ağır olan münasibətlərin gərginləşməsinə rəvac verməsi (16, s.150-151).

Neft sənayesindəki məhz bu şərtlərin ağırlığı altında Azərbaycan Respublikasının yeni rəhbərliyi – Heydər Əliyev hökuməti düşünüşlmüş neft strategiyasını qurmalı, Azərbaycanı düşmüş olduğu ağır hərbi-siyasi vəziyyətdən qurtarmaqla yanaşı, onun iqtisadiyyatını tam məhv olmaqdan xilas etməli idi. Neft sənayesinin inkişafını ayrıca təsəvvür etmək (necə ki, bunu əvvəlki hökumət düşünürdü) böyük bir yanlışlıq olardı; ölkənin neft sənayesi ümumi iqtisadi inkişaf konsepsiyası çərçivəsinə salınmalı idi.

1993-cü ilin oktyabrında Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyev xarici siyasətin milli maraqlar çərçivəsində qurulmasının önəmli olduğunu, ölkənin gələcəyi üçün təməl rolu oynadığını təcrübəli dövlət xadimi olaraq tam anlayırdı: enerji sahəsində digər dövlətlərlə, o cümlədən ABŞ-la əməkdaşlıq da bu təməl prinsiplərə dayaqqlanmalı idi. Ona görə də imzalanması

21 iyul 1993-cü il olaraq nəzərdə tutulmuş neft müqaviləsinin yenidən işlənməsi, Azərbaycan Respublikası üçün sərfəli tərəflərinin diqqətlə öyrənilməsi, ziyanlı tərəflərinin isə minimuma endirilməsi lazım idi. Ölkədəki bu ərəfədə yaranmış ağır siyasi durum, Ermənistanın işğalçılıq aktlarının genişlənməsi də neft strategiyasında hər hansı yanlışlığa yol verilməsini imkansız edirdi. Məhz bu amillərdən çıxış edərək Heydər Əliyev Azərbaycan Respublikası üçün əlverişsiz olan və ölkənin iqtisadiyyatını xarici sərmayədən tam asılı salacaq neft müqaviləsinin imzalanmasından imtina etməli, sonra sözün əsl mənasında Azərbaycan Respublikasının neft strategiyasının formalaşması prosesi başladı. İlk olaraq əvvəlki illərdə xarici siyasət sahəsində buraxılmış səhvlərin vurduğu ziyanın aradan qaldırılması zəruri oldu. Neft strategiyası da ölkənin strateji maraqlarını əks etdirən xarici siyasət kursunun tərkibində formalaşdırıldı. İrəlidə duran vəzifələrin ən çətini "müxtəlif dövlətlərin bütövlükdə Qafqaz regionu və bilavasitə Azərbaycan Respublikası üzərində köklənmiş imperiya ambisiyaları, ərazi iddiaları, iqtisadi maraq və nüfuz dairəsi uğrunda mübarizəsinin reallıqlarını, onların kəsişən və toqquşan maraqlarını dəqiq müəyyənləşdirmək, çevik manevrlər və xüsusi taktiki gedişlərlə Azərbaycnaın dövlətçilik mənafelərini maksimum qorumaq" idi (11, s.228).

Bu vəzifələrin öhdəsindən gəlmək, xarici şirkətlərin böyük maraqla və bəzən hətta hövsələsizliklə gözlədikləri neft müqaviləsinin imzalanmasını daha artıq gecikdirməmək üçün ABŞ-la və Qərbi Avropa ölkələri ilə əlaqələr xeyli genişləndirildi, eyni zamanda Rusiya və İranla münasibətlərdəki gərginliklər aradan qaldırıldı. Adları çəkilən dövlətlərlə Azərbaycan Respublikasının həm ayrı-ayrılıqda, həm də birgə münasibətlərini qurmaq üçün başlıca strategiya da müəyyənləşdirildi.

1993-cü ilin sentyabrında Heydər Əliyev Moskvaya rəsmi səfər etdi, iki ölkə arasında münasibətlərin normallaşdırılması istiqamətində görüləcək işlər müzakirə edildi. Bu danışıqların qanunauyğun nəticəsi olaraq 1993-cü il sentyabrın 24-də Azərbaycan Respublikasının MDB-yə üzvlüyü bərpa oldu (1). Bu birliyə yenidən üzv olması, əslində yalnız Rusiya ilə münasibətlərin daha sıx çərçivəyə düşməsinə imkan yaratmırdı; birlik üzvü olan digər dövlətlərlə, o cümlədən Orta Asiyanın türk respublikaları ilə əvvəlki rejimin dövründə Azərbaycanın korlanmış münasibətlərinin neqativ təsirinin aradan qaldırılması da bu hadisələrlə sıx bağlı idi (10, 2001).

1993-cü ilin sonu - 1994-cü ilin birinci yarısında prezident Heydər Əliyevin Avropa ölkələrinə də rəsmi səfərləri baş tutdu. 1993-cü ilin dekabrında prezidentin Fransaya rəsmi səfəri gedişində Azərbaycan Respublikası ilə Fransa Respublikası arasında "Dostluq, qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında" müqa-

vilə imzalandı. 1994-cü ilin feavralında Heydər Əliyev Böyük Britaniyaya rəsmi səfər etdi və iki ölkə arasında "Dostluq və Əməkdaşlıq haqqında" Birgə Bəyannamə və başqa ikitərəfli sənədlər imzalandı. Hər iki rəsmi səfər və imzalanan sənədlər Azərbaycanın Qərbi Avropa ölkələri ilə inteqrasiyası yolunda böyük addımlar oldu (15, c.185; 11, s.338).

Azərbaycan Respublikasının ABŞ-la münasibətləri respublikanın xarici siyasətinin başlıca prioritetlərindən sayıldığından, həm də neft müqaviləsini imzalayacaq şirkətlərin bir qismi amerikan şirkətləri olduğundan, Heydər Əliyevin xarici siyasət strategiyasında bu məsələ xüsusi yer tuturdu. ABŞ-la münasibətlərin normallaşdırılması, xüsusilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində bu iri dövlətin təsir resurslarından istifadə etmək siyasətinə üstünlük verilməsi Heydər Əliyevin Naxçıvan MR Ali Məclisinin sədri olduğu zamandan başlamışdı. Bu siyasətini davam etdirən Heydər Əliyev artıq 1993-cü ilin sentyabrında Azərbaycan Respublikası Ali Sovetinin Sədri olaraq ABŞ prezidenti B.Klintona, vitse-prezident A.Qora və ABŞ Konqresinin spikeri T.Foliyə məktub göndərərək məlum "907-ci düzəliş"in qeyri-obyektiv olduğunu əsaslandırmış və bu düzəlişin ləğvi üçün tədbirlər görülməsini xahiş etmişdi (11, s.288). Heydər Əliyevə ABŞ dövlət katibinin yeni müstəqil dövlətlər üzrə müşaviri S.Talbott vasitəsilə çatdırdığı cavab məktubunda prezident B.Klinton həm Yerevan hökumətinə ciddi təzyiqlər göstəriləcəyi, həm də məlum "907-ci düzəliş"in qüvvədə qalması halında belə Azərbaycana qeyri-hökumət təşkilatları xətti ilə yardım göstəriləcəyi ilə bağlı məlumat verirdi (11, 288).

Növbəti ilin əvvəllərindən başlayaraq Azərbaycan-ABŞ münasibətləri yüksələn xətt üzrə inkişaf etməyə başlayır: hər iki tərəf bir-biri ilə bağlı maraq və mövqelərini dəqiq müəyyənləşdirir və qarşılıqlı əlaqələrin əsas konturları cızılır. Bu, öz əksini müxtəlif rəsmi görüşlər zamanı əldə olunan razılaşmalarda da tapır. 1994-cü ilin iyununda Heydər Əliyev Türkiyəyə rəsmi səfəri zamanı ABŞ dövlət katibi U.Kristofer ilə görüş keçirir və görüşdə iki ölkə arasındakı münasibətlərin strateji tərəfləri müzakirə olunur (11, s.291). Həmin ilin sentyabrında Bakıda Heydər Əliyevlə ABŞ prezidentinin şəxsi nümayəndəsi M.Olbraytla görüşündə də dövlətlərarası münasibətlərin perspektivləri müzakirə edilir (11, s.291). Bu müzakirələr Heydər Əliyevin 1994-cü ilin sentyabrında Qahirədə ABŞ-ın vitse-prezidenti A.Qorla və Nyu-Yorkda prezident B.Klintonla görüşlərində daha geniş şəkildə davam etdirilir (11, s.291-292). Başqa sözlə desək, çox qısa bir zaman kəsiyində (hərfən bir neçə ayın içində) Azərbaycan Respublikasının ABŞ-ın Qafqaz bölgəsində strateji tərəfdaşı qisminə daxil olması imkanları açılır.

ABŞ və Qərbi Avropa ölkələri ilə əlaqələrin yeni səviyyəsinin daha bir nümunəsi və ölkənin xarici siyasətinin daha bir uğuru Azərbaycanın 1994-cü il

mayın 4-də NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulması oldu (11, s.510). İşğalçı Ermənistanla sərhəd olan, bu respublika tərəfindən torpaqlarının bir hissəsinin ələ keçirildiyi Azərbaycan üçün, heç şübhəsiz, Proqram çox böyük siyasi və hərbi əhəmiyyət kəsb edirdi. Üstəlik, xarici dövlətlərin, o cümlədən NATO üzvü olan ölkələrin şirkətləri ilə neft müqaviləsi imzalamağa hazırlaşan Azərbaycan üçün bu hərbi əməkdaşlıq həm də böyük təminatın təzahürü idi.

Xarici siyasətdəki intensiv fəaliyyətlə eyni vaxtda, neft sənayesinin idarəçiliyi sahəsində də iri miqyaslı tədbirlər həyata keçirilir. Prezidentin 1994-cü il 10 yanvar tarixli 50 saylı sərəncamı ilə ARDNŞ-ın yeni idarəçilik strukturu yaradılır (23). İstehsalat birlikləri – "Azneft", "Azəriqaz", "Azərkimya", "Geologiya və mühəndis geologiyası" İB, trestlər və istehsal hüququ olan müəssisələr, həmçinin fərdi struktur vahidləri ARDNŞ-ın strukturuna daxil edilir. ARDNŞ-ın respublika qanunvericiliyi ilə müəyyən olunmuş başlıca fəaliyyət sahələri ayrılır. Neft müqaviləsini bütün detalları ilə öyrənmək üçün ARDNŞ-ın aparıcı mütəxəssislərindən ibarət qrup yaradılır, 1994-cü ilin mayında İlham Əliyev həmin qrupun işinə cəlb edilir (16, s.153). Qrup ona verilmiş çox qısa müddətdən (1994-cü ilin fevralından iyununadək) səmərəli istifadə edir və xarici şirkətlərlə əlaqələrin bütün tərəflərini, o cüməlxdən neqativ tərəflərini üzə çıxarır. Hyustonda və İstanbulda layihə iştirakçıları ilə görüşlər və müşavirələr keçirilir (bu barədə ətraflı bax: 16, s.158-160). Yalnız bundan sonra ARDNŞ-ın xarici şirkətlərlə danışıqları bərpa edilir.

Beləliklə, ağır siyasi, hərbi təlatümlərdən çıxmış, vətəndaş qarşıdurmasının bütün ağırlıqlarını çəkmiş Azərbaycan Respublikasının neft strategiyasının möhkəm təminatı qoyulmuş oldu.

20 sentyabr 1994-cü ildə Bakıda "Gülüstan" sarayında ARDNŞ ilə ABŞ, Böyük Britaniya, Norveç, Rusiya, Türkiyə, Səudiyyə Ərəbistanı, Yunanıstanın neft şirkətlərinini daxil olduğu konsorsium arasında Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının bir hissəsinin birgə işlədilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi haqqında 30 il müddətinə saziş bağlandı (7, s.404; 16, s.160). Saziş "Əsrin müqaviləsi" adını aldı. Müqavilənin imzalanmasında Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev, Böyük Birtaniyanın energetika naziri T.Eqqar, "AMOKO" şirkətinin prezidenti V.Larri, BP-nin prezidenti C.Braun, "Statoil" şirkətinin rəhbəri Y.Nik, "Lukoyl"un prezidenti V.Ələkbərov, "MacDermott" şirkətinin rəhbəri V.Vitis, "Pennzoil" şirkətinin prezidenti T.Hamilton, "Remco"nun prezidenti S.Remko, TPAO-nun rəhbəri S.Səncər, "Unocal" şirkətinin rəhbəri C.Amel və "Delta İnternational" şirkətinin prezidenti Fateh əl-Əlbi iştirak etdi. Heydər Əliyev imzalanma mərasimində tarixi bir çıxış etdi (çıxışın tam mətni

üçün bax: 16, s.160-172). Qeyd edək ki, Müqaviləni imzalayan xarici şirkətlərin sırasına (BP, AMOCO, Lukoil, Statoil, Pennzoil, Remco, Unocal, Delta İnternational, TPAO) sonradan İtochu (Yaponiya), Exxon Mobil və Amerada Hess (ABŞ) korporasiyaları da qatıldı (3; 6).

Müqavilənin şərtlərinə müvafiq olaraq, Azərbaycan Respublikasına 300 milyon ABŞ dolları həcmində bonus ayrılırdı ki, onun da 80 milyonu həmin müddətə qədər artıq ödənmişdi, digər bir qismi isə (70 milyon ABŞ dolları) müqavilənin respublika parlamenti tərəfindən ratifikasiya edilməsindən sonra ödənməli idi; daha 75 milyon dollar neftin gündəlik hasilatı 40.000 barrel təşkil edəcəyi halında, qalan 75 milyon isə neftin boru kəməri ilə ötürülməsi zamanı verilməli idi (16, s.176). Müqavilədə, həmçinin göstərilirdi ki, neft boru kəməri 54 ay müddətində çəkilməlidir.

"Əsrin müqaviləsi"nin bağlanması "XX yüzilliyin tarixində əhəmiyyətli hadisə oldu" (16, s.160), "Azərbaycanın neft sənayesi tarixində tamamilə yeni bir era başlandı" (11, s.664). 12 dekabr 1994-cü ildə müqavilə Azərbaycan Milli Məcilisi tərəfindən ratifikasiya edildi və Prezident Heydər Əliyevin müvafiq əmrindən sonra qanuni qüvvəyə mindi.

"Əsrin müqaviləsi"inin imzalanmasından az sonra onun reallaşdırılması işini həyata keçirəcək yeni idarə – Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ/ AIOC - Azerbayjan International Operating Company) yaradıldı və onun tərkibinə respublika hökumətinin və bütün şirkətlərin nümayəndələri daxil oldu, Şirkətin Şura sədri BP-nin Azərbaycan ofisinin rəhbəri T.Adams seçildi (16, s.180).

Növbəti bir neçə ildə "Əsrin müqaviləsi" çərçivəsində çox gərgin işlər həyata keçirildi və bu layihənin davamı olaraq dünyanın 16 dövlətinə məxsus 36 şirkətlə 26 yeni neft müqaviləsi imzalandı (11, s.666). Bunları qısa şəkildə aşağıdakı kimi icmal etmək olar:

1. "Qarabağ" strukturunda kəşfiyyat aparılması və yataqların istismarı haqqında 10 noyabr 1995-ci il tarixli müqavilə. ARDNŞ ilə LukAcip (Rusiya-İtaliya), Pennzoil (ABŞ), Lukoil (Rusiya) və Acip (İtaliya) arasında imzalanan müqavilə Milli Məclis tərəfindən 1996-cı il fevralın 23-də ratifikasiya edildi (2).
2. "Şahdəniz" yatağının birgə işlədilməsi haqqında 4 iyun 1996-cı ildə imzalanmış müqavilə aşağıdakı şirkətlər arasında bağlandı: ARDNŞ, Statoil, BP/AMOCO, "TotalFina Elf", "Acip", Lukoil, TPAO. Müqavilə Milli Məclis tərəfindən 17 oktyabr 1996-cı ildə ratifikasiya edildi (16, s.221).
3. "Dan Ulduzu" və "Əşrəfi" yataqlarının birgə işlədilməsi üzrə 1996-cı il dekabrın 14-də bağlanmış müqavilədə ARDNŞ, BP, Unocal, İtochu, Delta

Hess (Səudiyyə Ərəbistanı) iştirak edirdi (4). Müqavilə Milli Məclis tərəfindən 7 mart 1997-ci ildə ratifikasiya edildi (16, s.258).

4. "Lənkəran Dəniz" və "Talış Dəniz" yataqlarının birgə istismarı haqqında müqavilə 13 yanvar 1997-ci ildə Parisdə imzalandı ("Azərbaycan", 15.01.1997) və Milli Məclis tərəfindən 30 iyun 1997-ci ildə ratifikasiya edildi (16, s.258).
5. "Yalama-Samur D-222" yatağının birgə işlənməsi haqqında ARDNŞ Lukoil ilə 4 iyul 1997-ci ildə Moskvada müqavilə imzaladı və müqavilə Milli Məclis tərəfindən 10 dekabr 1997-ci ildə ratifikasiya edildi (16, s.258).
6. "Naxçıvan D-3", "Abşeron", "Oğuz" yataqlarında birgə iş haqqında ARDNŞ ilə Exxon arasında Vaşinqtonda 1997-ci il avqustin 1-də müvafiq olaraq üç müqavilə imzalandı və hər üç müqavilə Milli Məclis tərəfindən 5 dekabr 1998-ci ildə ratifikasiya edildi (8, v.49-50; 16, s.258).
7. "Kürdaşı" və "Cənub-Qərbi Qobustan" yataqlarının birgə işlənməsi haqqında ARDNŞ-n xarici şirkətlərlə 2 iyun 1998-ci ildə Bakıda bağladığı müqavilə Milli Məclis tərəfindən müvafiq olaraq 30 iyul və 23 noyabr 1998-ci ildə ratifikasiya edildi (9, v.51;16, s.258).
8. 21 iyul 1998-ci ildə "İnam", Araz", "Alov", "Şərq", "Muradxanlı" yataqlarının birgə işlənməsi haqqında Londonda ARDNŞ və BP, Shell, Statoil, TPAO, Exxon Mobil, Ramco, Albert Energy şirkətləri arasında üç müqavilə imzalandı. Müqavilələr müvafiq olaraq 1998-ci ilin noyabr-dekabr aylarında Milli Məclis tərəfindən ratifikasiya edildi (9, v.51; 16, s.258).
9. ARDNŞ ilə Çin Xalq Respublikasının PetroChina şirkəti arasında "Kürsəngi" və "Qarabağlı" yataqlarının birgə işlənməsi haqqında Bakıda 15 dekabr 1998-ci ildə imzalanan müqavilə Milli Məclis tərəfindən 16 aprel 1999-cu ildə ratifikasiya edilmişdir (16, s.258).
10. 1999-cu il aprelin 27-də Vaşinqtonda ARDNŞ ilə amerikan şirkətləri arasında üç müqavilə imzalandı: 1) "Zəfər" və "Məşəl" yataqlarının birgə istismarı; 2) "Savalan", "Dalğa" və "Lerik-Dəniz Cənub" yataqlarının birgə istismarı; 3) "Padar" yatağının birgə istismarı haqqında müqavilələr 2000-ci ilin aprel-iyun ayları ərzində Milli Məclis tərəfindən ratifikasiya edildi (16, s.258).
11. Yenə Vaşinqtonda, 2000-ci il sentyabrın 12-də "Mişov-Dağ" və "Kələməddin" yataqlarının birgə işlənməsinə dair ARDNŞ-ın amerikan şirkətləri ilə müqaviləsi imzalandı və həmin ilin oktyabrında müqavilə Milli Məclis tərəfindən ratifikasiya edildi (16, s.258).

2001-2003-cü illərdə ARDNŞ ilə xarici şirkətlər arasında daha bir neçə müqavilə imzalandı: bunlar *"Zığ", "Hövsan"* və *"Pirsaat"* yataqlarının birgə işlənməsinə dair müqavilələr olmuşdur (16, s.258).

Adları çəkilən neft müqavilələri çərçivəsində Azərbaycan Respublikasına 60 milyard ABŞ dolları həcmində sərmayə qoyulması nəzərdə tutulmuş, bu müddətdə xarici şirkətlər ilkin işlərin aparılması üçün 6 milyard dollara qədər sərmayə qoymuşlar (13).

"Əsrin müqaviləsi"nin imzalanması təkcə iqtisadi hadisə deyildi : bu müqavilə, Qafqaz bölgəsində strateji maraqları olan ABŞ-ın və digər iri dövlətlərin kəskin mübarizəsi və rəqabəti şəraitində Azərbaycan Respublikası rəhbərliyinin çox mürəkkəb və ağır əməyinin, ehtiyatlı, amma eyni zamanda, bacarıqlı siyasətinin məhsulu sayılmalıdır. Heydər Əliyevin neft strategiyası belə bir prioritet məsələyə söykənmişdi ki, ölkənin neft ehtiyatlarının xarici ölkələrə ixracı, əvvəlki rəhbərliyin düşündüyü kimi, texniki bir iş deyildir; bu məsələ daha çox siyasi və diplomatik hadisədir,neft strategiyası iri dövlətlərin elə özləri qədər iri miqyaslı mübarizəsində bölgə dövlətinin (yəni Azərbaycanın) öz suverenliyini, qüdrətini saxlamasına xidmət etməlidir. Amerika Birləşmiş Ştatları kimi dövlətlə münasibətləri yeni səviyyəyə çıxarmaq, əvvəlki illərdə buraxılan səhvləri təkrar etmədən, bu səhvlərin ağır nəticələrini aradan qaldırmaq yeni neft strategiyasının tərkibinə daxil olan məsələ idi.

"Əsrin müqaviləsi"nin imzalanmasının mənfəətləri də birtərəfli xarakter daşımırdı. Təbiidir ki, bu layihədə faktiki olaraq 40 % pay almış ABŞ-ın rəhbərliyi prezident Heydər Əliyev kimi bacarıqlı bir dövlət xadiminin aparmış olduğu məqsədyönlü siyasət sayəsində çox tezliklə Azərbaycan Respublikasını bölgədə strateji əhəmiyyətli dövlətə çevirəcəyini anlayırdı. Bu prosesin sürətlə gedəcəyi də artıq bəlli olurdu. O səbəbdən, hələ 1994-cü ildə B.Klinton administrasiyası Xəzər siyasətini işləyib hazırlamaq məqsədilə xüsusi işçi qrup təşkil etmişdi və onun tərkibinə Dövlət Departamentinin, Energetika Nazirliyinin, Ticarət Nazirliyinin, MKİ-nin və Milli Təhlükəsizlik Şurasının nümayəndələri daxil edilmişdi. Elə həmin ildə ABŞ Konqresi "enerji təhlükəsizliyinin təmin edilməsini ölkənini xarici siyasətinin başlıca prioritetlərindən olduğunu" da vurğulamışdı (bax: 21, s.209; 20, s.74). Təsadüfi deyil ki, ABŞ-ın enerji strategiyasını işləyib hazırlayan siyasi elitanın bir çox nümayəndəsi – Z.Bjezinski (AMOCO-nun konsultantı), B.Skoukroft (Pennzoil-un konsultantı), D.Beyker (Azərbaycanda fəaliyyət göstərən beynəlxalq neft konsorsiumunun hüquqi nümayəndəliyinin – "Beyker and Botts"un rəhbəri), A.Hartman (Türkmənistan neftinin nəqli məsələləri ilə məşğul olan şirkətin direktorlar şurasının sədri) həm də bu sahənin praktikləri idi (21, s.224).

Məhz 1994-cü ildən başlayaraq ABŞ Qafqazda Rusiyamərkəzçi siyasətdən uzaqlaşaraq, bölgə respublikalarının (oxu: Azərbaycanın) siyasi və iqtisadi müstəqilliyinin passiv deyil, fəal şəkildə dəstəkləməsi xəttini götürür. 1995-

1997-ci illərdə iki ölkə arasında əlaqələr yüksələn xəttlə inkişaf edir. 1995-ci ilin mayında Heydər Əliyevin Moskvada prezident B.Klintonla və Londonda vitse-prezident A.Qor ilə görüşləri baş tutur; həmin ilin oktyabrında Nyu-Yorkda BMT Baş Məclisinin iclasında hər iki ölkənin prezidentləri arasında yeni görüş olur (11, s.294-295). 1995-1996-cı illərdə politoloq Z.Bjezinski, senator R.Şelbi, konqresmen Q.Lafli, ABŞ-ın yeni müstəqil dövlətlər üzrə xüsusi müşaviri, səfir C.Kollinz Azərbaycan Prezidenti tərəfindən qəbul edilir (11, s.295-299). Bu görüşlərdə dünyada və bölgədə gedən ciddi və çox mürəkkəb proseslər, enerji siyasəti, ikitərfli və çoxtərəfli münasibətlər, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli yolları, Azərbaycanda aparılan dövlət quruculuğu və iqitsadi siyasətin istiqamətləri və b. məsələlər müzakirə olunmuşdur.

Şübhəsiz, istər prezidentlər səviyyəsində, istərsə də parlament səviyyəsində aparılan danışıqlar və müzakirələr iki ölkə arasında münasibətlərin strateji tərəfdaşlıq çərçivəsinə daxil omasına böyük təkan vermiş olur. 1996-cı ilin yanvarında konqresmen C.Vilsonun təşəbbüsü və rəsmi dairələrin bir çox nümayəndələrinin dəstəyi ilə ABŞ Konqresində "Azərbaycana birbaşa humanitar yardım göstərilməsi haqqında" Qanun layihəsi bəyənilir və erməni lobbisinin bütün maneələrinə baxmayaraq, prezident B.Klinton tərəfindən imzalanır (11, s.296-297).

1997-ci il ABŞ-ın Qafqazda siyasətinin yeni mərhələsi olur: Vaşinqton "Xəzər dənizinin geostrateji əhəmiyyətini reallaşdırmaq xətti götürür və xarici siyasətini də buna müvafiq qurur" (22, s.23). Təsadüfi deyil ki, məhz həmin il iyulun 27-dən avqustun 7-dək Azərbaycan Respublikasının Prezidenti H.Əliyev ABŞ Prezidenti B.Klintonun dəvəti ilə ABŞ-da rəsmi səfərdə olur və avqustun 1-də iki ölkə arasında münasibətlərin başlıca prinsiplərini və istiqamətlərini müəyyən edən sənəd – "ABŞ-Azərbaycan münasibətləri haqqında" Prezidentlərin birgə bəyanatı imzalanır (14). Bəyanatda ABŞ Azərbaycan Respublikasını özünün stratji tərəfdaşı elan etdi.

1993-cü ilin ortalarından başlayaraq 2000-ci ilədək olan mərhələdə Azərbaycan Respublikasının ABŞ-la münasibətlərindəki bütün ziddiyyətlər aradan qaldırıldı və münasibətlərin növbəti illərdə strateji tərəfdaşlıq səviyyəsində qurulması üçün hüquqi-normativ baza yaradıldı.

Konkret olaraq "Əsrin müqaviləsi" ilə bağlı ABŞ-ın mənfəətlərinə gəlincə, onlar strateji əhəmiyyət kəsb edir: müqavilələrdə özünə 40 %-lik iştirakı təmin edən Birləşmiş Ştatlar "bir neçə onillik üçün əhəmiyyətli neft zonasına nəzarət imkanı əldə etdi" (16, s.354), üstəlik, enerji diplomatiyasından istifadə etməklə o, Azərbaycanla, Gürcüstanla, Qazaxıstanla və Türkiyə ilə hərtərəfli əlaqələrini də möhkəmlətməyə nail oldu. Rusiya mətbuatında, siyasi ədəbiyyatında və hətta rəsmi dairələrində "Əsrin müqaviləsi"ndə ABŞ-ın gözlədiklərinin heç də hamı-

sının təmin olunmadığı, onun Qafqaz siyasətinin fiaskoya uğradığı haqqında rast gəlinən xeyli sayda yazılara və xəbərlərə gəlincə (məsələn, bax: 17; 18; 20; 21 və s.), bunlar imperiyapərəst dairələrin "məyusluğu"ndan və sayıqlamalarından başqa bir şey deyildir.

Birləşmiş Ştatların Qafqaz bölgəsində maraqlarının nəinki azalmadığı, əksinə, "Əsrin müqaviləsi"ndən sonra daha da artması öz təsdiqini ABŞ Dövlət Departamentinin 1997-ci il üçün "Xəzər hövzəsinin Enerji inkişafı" adlı hesabatında tapdı. Hesabatda ABŞ hökuməti Qafqaz bölgəsindəki siyasətini təkcə enerji məsələləri ilə deyil, həm də siyasi və hərbi sabitliyin də təmin edilməsi istiqamətləri ilə də tənzimləməyi planlaşdırırdı. Bunun üçün regional münaqişələrin həlli, bölgə ilə bağlı ambisiyaları olan bir qisim dövlətlərin izolyasiyası və və bölgə dövlətlərinin müstəqilliyinin və suverenliyinin təmininə yardım da nəzərdə tutulurdu (bu barədə ətraflı bax: 11, s.670-671).

ABŞ-ın Qafqazda fəal iştirakının daha bir əhəmiyyətli məqamı – NATO-nun şərqə genişlənməsi sayıla bilər. Cənubi Qafqaz respublikalarının bu təşkilatda bu və ya digər dərəcədə iştirakı, əslində, təkcə həmin respublikaların suverenliyinin müdafiəsinə xidmət etməklə kifayətlənmir; bu istiqamət həm də ABŞ-ın və NATO üzvü olan, həm də "Əsrin müqaviləsi"ndə iştirak etmiş dövlətlərin enerji maraqlarının da qorunmasına təminat verir. Başqa sözlə desək, Azərbaycan Respublikasının xarici siyasəti və onun tərkib hissəsi olaraq Heydər Əliyevin neft strategiyası 1990-cı illərin ortalarından başlayaraq həm bölgənin təhlükəsizliyi, həm də iri dövlətlərin bu bölgədəki maraqlarının toqquşaraq münaqişə halına girməməsi üçün sülh və əmin-amanlığın təminatçısı olaraq çıxış edir.

Beləliklə, "Əsrin müqaviləsi"nin imzalanması və sonrakı ilk illər üçün ABŞ-ın Qafqazdakı strategiyasının təkamülü göstərir ki, 1990-cı illərin ortalarında Vaşinqton bölgədə özü üçün yeni vasitələr tapmağı başardı. 1990-cı illərin əvvəlləri ilə müqayisədə, Vaşinqton Qafqaza nüfuz etmənin elə mexanizmlərini işləyib hazırladı ki, bunlar fövqəldövlətə həm münaqişəli məsələlərin həllində iştirak etmək, həm də energetika sahəsinin inkişaf etdirmək imkanları açdı (21, s.226). Yeni vasitələrin məhz hansından istifadə olunması isə bölgə dövlətlərindəki konkret şəraitdən asılı olaraq dəyişməyə başladı.

## MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT


1. "Azərbaycan" qəzeti, 30.11.1993
2. "Azərbaycan" qəzeti, 11.11.1995
3. "Azərbaycan" qəzeti, 16.10.1996
4. "Azərbaycan" qəzeti, 17.12.1996
5. "Azərbaycan" qəzeti, 15.01.1997
6. "Azərbaycan" qəzeti, 21.09.1999

7. Azərbaycan tarixi. 7 cilddə. VII cild. Bakı, "Elm", 2003 – 676 s.
8. ARDNŞA, Kollegiyanın materialları, 2000-ci il, v.49-50
9. ARDNŞA, Kollegiyanın materialları, 2000-ci il, v.51
10. Əliyev Heydər. Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına müraciət // Respublika", 30.12.2001
11. Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, "Azərbaycan" nəş-tı, 2005 – 752 s.
12. "Kommunist" qəzeti, 18.01.1991
13. "Respublika" qəzeti, 27.05.2001
14. "Xalq qəzeti" qəzeti 28.08.1997
15. Аббасбейли А., Гасанов А. Азербайджан в системе международных региональных организаций. Баку, 1999
16. Алиев Ильхам. Каспийская нефть Азербайджана. Москва, «Известия», 2003 – 712 с.
17. Делягин М.Г. Юго-Восточная Европа и Кавказ: некоторые проблемы интеграции // Средиземноморье – Черноморье – Каспий: между Большой Европой и Большим Ближним Востоком. Москва, Издательский дом «Граница», 2006 – с.22-42
18. Денисов А., Савкин Н., Холоден П. Геополитическое измерение // Южный Кавказ: тенденции и проблемы развития (1992-2008 гг.). Москва, 2008 – с.24-54
19. Донна Либ, Стивен Либ. Фактор нефти: как защитить себя и получить прибыль в период грядущего энергетического кризиса. Москва, «Вильямс», 2006 – 320 с.
20. Жизнин С.З. Энергетическая дипломатия США // США и Канада. Москва, 2000, 2 – с.72-94
21. Жильцов С.С. Геополитика Каспийского региона. Москва, «Международные отношения», 2003 – 401 с.
22. MacDougall J. A New Stage in US-Caspian Sea Basin Relations // Central Asia, 1997, 5 (11) – pp. 34-46
23. http://www.socar.az
24. http://library.fentu.ru/book/inig/Istoria_neft_gas/23_.html


**A.Sh.Nasibova**

## CONCLUSION THE "CONTACT OF THE CENTRY AND U.S. POLICY SUMMARY


Ongoing since the late 1980's negatiations with oil companies with an interest in Azeri oil to the spring of 1993 came to an end. At that time,Azerbaijan was close to signing suchan agreement, wich not only took into account the interests of the people, but also causedenormous damage to the economy. Only a return to power of Heydar Aliyev, according to the will of the people was the begining of momentous changes in political and economic life of Azerbaijan.Discussions and negotiations on the oil agreement actually started from scratch and finally, after a difficult negation process had reached an agreement which meets the interests of Azerbaijan. September 20, 1994 in Baku, an agreement was reached between Western oil companies and independent Azerbaijan.The agreement, later earned the title "Contact of the Centry", is clear evidence of implementation of the new oil strategy ,developed an outstanding politician Heydar Aliyev, and part of economic development of independent Azerbaijan. Thanks to the "Contact of the Centry", U.S. got a strategic advantage in the struggle for The Caucasus region, and its advantages are not only economically but also politically. Azerbaijan has become a strategic partner in the region. Well thought-out by Heydar Aliyev of Azerbaijan oil strategy

has turned into a state that Has mastered the enormous energy potential of the Caspian Sea and put a qualitatively new Economic model of development regions, improve political and economic ties between Europe and Asia.

**А.Ш.Насибова**

**ПОДПИСАНИЕ «КОНТРАКТА ВЕКА» И ПОЗИЦИЯ США**

**РЕЗЮМЕ**

Ведущиеся с конца 1980-х годов переговоры с нефтяными компаниями, проявляющими интерес к азербайджанской нефти, к весне 1993 года подходили к завершению. В тот период Азербайджан был близок к подписанию такого соглашения, который не только не учитывал интересы народа, но и нанес бы огромный ущерб экономике страны.

Лишь возвращение по воле народа к власти Гейдара Алиева положило начало судьбоносным изменениям в политической и экономической жизни Азербайджанской Республики,. Обсуждения, переговоры по нефтяным соглашениям фактически начались с нуля и, наконец, после трудного процесса переговоров было достигнуто соглашение, полностью отвечающее интересам страны.

20 сентября 1994 года в Баку было заключено соглашение между западными нефтяными компаниями и правительством Азербайджанской Республики. Соглашение, впоследствии заслуженно названное «Контрактом века», было наглядным свидетельством претворения в жизнь новой нефтяной стратегии, разработанной президентом Гейдаром Алиевым и составлявшей новую концепцию экономического развития независимого Азербайджана.

США благодаря «Контракту века» получили стратегическое преимущество в борьбе за Кавказский регион и выгоды как в экономическом, так и в политическом отношении. Азербайджанская Республика, стала стратегическим партнером США в регионе.

Глубоко продуманная Гейдаром Алиевым нефтяная стратегия превратила страну в государство, который освоил громадный энергетический потенциал Каспийского моря и создал качественно новую экономическую модель развития региона, расширившим политические и экономические связи между Европой и Азией.

**Açar sözlər**: neft, siyasət, dövlət, hökümət, strateqiya

**Ключевые слова**: нефть, политика, государство, правительство, стратегия

**Keywords**: oil, a policy, the state, the government, strategy

**Məqalə t.ü.f.d. C.Ə.Bəhramovun və t.ü.f.d. A.M.Balayevin müsbət rəyləri əsasında çap olunur.**

# MİRZƏ BALA MƏMMƏDZADƏNİN AZƏRBAYCAN MİLLİ DÖVLƏTÇİLİK İDEOLOGİYASI HAQQINDA DÜŞÜNCƏLƏRİ

**Rafail ƏHMƏDLİ***

XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanda başlayan yeniləşmə və milliyyətçilik hərəkatları Azərbaycanın müstəqillik tarixində yeni bir dövrün başlanğıcı olmuşdur. Bu dövrdə Azərbaycanın istər cənubunda, istərsə də şimalında baş verən siyasi və tarixi hadisələr Azərbaycan ideoloji tarixi və dünyagörüşünün də dönüş nöqtəsi olmuşdur.

Azərbaycan xalqında təmelləşən və uğrunda bütün milləti belə ölümə sövq edən «Dövlətçilik fikrinin» mənbəyini hər şeydən əvvəl mədəni inkişaf nəticəsində «milliyət» halından «millət» halına gəlməsində aramağın lazım olduğunu bildirən milli ideoloq Mirzə Bala Avropadan Azərbaycana bir sıra ictimai, iqtisadi fikirlərin gəlməsini qəbul etməklə bərabər, göstərir ki: «Dövlət fikri Azərbaycan üçün yeni və yabançı bir fikir deyil. Çünki Azərbaycan Türkü əsrlər boyu eyni ərazi üzərində müstəqil, müəzzəm və qüdrətli dövlətlər qurmuş və hakimiyyət həyatı yaşamış bir millətdir» [1,72].

Azərbaycan Türkünün xarakterik xüsusiyyətlərini şərh edən Mirzə Bala göstərir ki, bu xarakterik xüsusiyyət «hər Türk üçün müştərək bir səciyyə olan hürriyyətə məftunluq, hakimiyyət və istiqlal qürurundan ibarətdir. Türk heç bir zaman məhkum və əsir olmamışdır. Onun üçündür ki, məhkum bulunduğu son əsrlər ərzində daima məğrur, təkəbbürlü olmuş, hür və sərbəst olmağa can atmışdır. Bu onun daima müstəqil, hakim kimi yaşamış olduğunun nişanəsidir»[2,73].

Tarixən Azərbaycanda mövcud olmuş müstəqil dövlətlərin qısa xülasəsini şərh edən Mirzə Bala qeyd edir ki, «Azərbaycanda dövlət fikri bu torpaqlara türklərlə bərabər gəlmiş, onlarla bərabər yaşamış, bərabər təkamül və inkişaf edərək çağdaş bir şəkil almışdır». Dövlət haqqında öz fikirlərini şərh edən müəllif göstərir ki, təbiidir ki, dövlət fikri müxtəlif təkamül və inkişaf yollarından keçmişdir. Siseronun anladığı və anlatdığı dövlətlə bugünün dövlət tərifi bir deyildir. Birincidə ərazi, əhali və hökümət kimi üç əsas ünsürdən birincisini (yəni ərazini-R.Ə.) görmədiyimiz halda sonuncular bu üç ünsürdən biri olmadığı təqdirdə dövlət təsəvvür edə bilmirlər. Hətta müasir dövlət tərifində əhalinin bir millət olması, yəni ən təbii dövlətin «Milli Dövlət» olması fikri hakim olmağa başladığı halda belə indi bu fikri Avropada inkar edənlər mövcuddur. Bu da çox təbiidir. Çünki millətlər müxtəlif ictimai və iqtisadi mərhələ keçmişdilər»[1,73-74] .

---

Rafail Ayvaz oğlu Əhmədli – f.ü.e.d.Azərbaycan Respublikası Prezidenti yanında AAK-nın şöbə müdiri

Azərbaycanın istiqlal günü olan 28 May xalqımızın «ən xoşbəxt və ən şanlı günü», «milli doğum günü», «dövlət oluş günü» adlandarın Mirzə Bala Məmmədzadə göstərir ki, bir cəmiyyətin müştərək istəyi ilə, müştərək qərar və iradəsi ilə, kollektiv əzmi nəticəsində dövlət olmaq demək, o cəmiyyətin, sözün tam mənası ilə Millət halına gəlmiş, yetkinləşmiş olması deməkdir. Çünki, Millət ancaq Milli Dövlət qurduğu və Milli Dövlət qurmaq üçün çarpışdığı zaman Millət olur. Çünki Millət, varlığını qorumaq və gələcəyini əmniyyət altına almaq üçün dövlət halında təşəkkül edər. Dövlət halında təşəkkül etməyən və yaxud dövlət qurmaq üçün çarpışmayan milli cəmiyyətlər belə hələ Millət olmamışlar deməkdir. Millət isə Milliyyətin inkişafı nəticəsində doğulur. Milliyyəti isə dil, ədəbiyyat, tarix, adət-ənənə, din, mədəniyyət və yurd kimi ünsürlərin varlığı və birliyi təşkil edir. Öz milli simasını, milli xüsusiyyətlərini qorumaqla millətlər nəticə etibarilə Milli Hakimiyyət əldə etməyə doğru yürüyürlər. Bu baxımdan siyasi və dövlət milliyyətçiliyinin əsasını və təməlini təşkil edən milli milliyyətçiliyimizin yol başçıları şanlı bir iş görmüşlər (seçmələr müəllifindir) [2,195].

Azərbaycan dövlətçilik tarixini şərh edən Mirzə Bala Məmmədzadə göstərir ki, miladdan 4 əsr əvvəl Makedoniyalı İsgəndərin böyük imperatorluğu içində və o imperatorluğun çöküşündən sonra onun yıxıntıları üzərində bir «Midiya Atropaten» (yəni, Cənubi Azərbaycan), onun şimalında, indiki Qafqaz Azərbaycanında bir «Albaniya», Ərəb xilafətinin çöküşündən sonra «Midiya Atropateni»in yerində Qarabağ, Naxçıvan, Erivan və Muğanı da içinə alan Azərbaycan, Albaniyanın yerində Aran və Şirvan, Səlcuqlu İmperatorluğunun çöküşündən sonra Atabəylərin qurduğu Aran və Şirvanı da içinə alan «Türk- İslam Azərbaycan dövləti», daha sonra Azərbaycanın İlxanilər, Teymurlu İmperatorluğundan sonra Qaraqoyunlu və Ağqoyunlu, daha sonra Səfəvi, Əfşar dövlətləri, Nadir şahın ölümündən sonra isə yaranan xanlıqların mövcudluğu onu deməyə əsas verir ki, tarix uzunu Azərbaycan daima bir dövlət olaraq yaşamışdır. Təəssüflər olsun ki, Nadir şahın ölümündən sonra şiddətli qardaş qırğınları milləti parçalamış, xanların dikbaşlığı və şüursuzluğu üzündən Azərbaycan 19-cu əsrin əvvəllərndən başlayaraq Rusiya tərəfindən 30 il müddətində istila edilmişdi. Buna baxmayaraq XIX əsrin ortalarından başlayan milli oyanış həmləsi sonda «bizi 28 May Dövlət Oluş Gününə qovuşdurmuşdur. Və bu saysız xanlıqlar yerinə bütün və parçalanmaz bir yurd üzərində milliyyətini, birliyini, mənliyini, müdrik yetişmiş bir millətin kollektiv iradə və əzmi nəticəsində müasir və demokratik bir Cumhuriyyət qurulmuşdur» (seçmələr müəllifindir) [2,196 -197].

28 May Azərbaycan Xalq Cumhuriyyəti gününün bayram edilməsini yasaqlayan Moskva Azərbaycanın Rusiyadan ayrılmasını bir «cinayət» hesab etmiş, bunu hüquqi cəhətdən əsaslandırmağa çalışmış və iddia etmişdi ki, 28 mayda

Azərbaycan istiqlalını elan edən Azərbaycan xalqı deyil, bir ovuc xan-bəy sinfi olmuşdur. Buna cavab olaraq Mirzə Bala göstərmişdi ki, Azərbaycan istiqlalını yoxsul və zəngin, qadın və kişi bütün millətin sərbəst, demokratik və gizli səs vermə yolu ilə seçdiyi millət vəkilləri tərəfindən yaradılan Milli Şura tərəfindən elan edilmiş və bu istiqlal elanı millət tərəfindən sevinclə qarşılanmışdır. Azərbaycan istiqlalının Azərbaycan Türkünün kollektiv istəyindən doğduğunu 27 aprel 1920-ci ildə baş verən istilanın doğurduğu xalq reaksiyası isbat etmirmi? Bu istilaya qarşı başlayan ümumi üsyan və davam edən 15 illik qanlı savaş, verilən on minlərlə qurbanlar, zindanları, Sibirləri, Solovkiləri dolduran qəhrəmanlar, yüz minləri keçən gözü yaşlı analar, bacılar, gəlinlər, adaxlılar… bunlar kafi deyilmi? Bolşeviklər nə deyirlərsə desinlər 28 may bizim Dövlət Oluş Günümüzdür və elə olaraq da qalacaqdır. Bütün millət bu günü hörmətlə anır, içəridə, zindanlarda, Sibirdə, Solovkidə, gizli dairələrdə, xaricdə isə düşmən tərəfindən 3-4 qitəyə səpələnmiş mühacirət arasında bu gün də müqəddəs bayram kimi xatırlanır. Bu gün millət vahid bir orqanizma kimi hərəkət edir. Bu gün hər kəsi eyni şeyi düşünür, eyni həcəyanı, eyni duyğunu duyur. Bu gün Azərbaycan türkü eyni ruhu daşıdığını, eyni məfkurəyə tapındığını elan etməkdədir. Bu gün millət milli dilə, milli yurda, milli mədəniyyətə, milli vicdana, milli imana daha sıx bağlanacağına and içir. Çünki o, bu yollarla istiqlalına qovuşmuşdur. 28 maya biz bu müqəddəsliyi qorumaqla erməyə müvəffəq olduq və ona yenə bunları qorumaqla qovuşa biləcəyik (seçmələr müəllifindir)[2,197-198].

İstiqlal tariximizin ən böyük ən şərəfli günlərindən biri də 15 sentyabr 1918-ci ildə Bakının birləşmiş Azərbaycan-Türkiyə ordusu tərəfindən düşmənlərdən azad edilməsi günüdür. Bu günlə bağlı Mirzə Bala bir çox bir-birindən dəyərli məqalələr yazmışdır. Bakının düşmənlərdən təmizlənməsi və onun əsil sahibi olan Azərbaycan Türklərinin əlinə keçməsini Yaxın və Orta Şərqin tarixində yeni bir dövr açdığını qeyd edən Mirzə Bala göstərir ki, Bakının düşmənlərdən alınması Azərbaycan istiqlalının istiqlalını təmin etmiş, qonşu Qafqaz Cumhuriyyətlərindən Gürcüstanın bolşevik istilasına uğramasının qarşısını almış və Şimali Qafqazın qurtulmasına yol açmışdı. Bakının axıdılan Türk qanı bahasına Azərbaycanın faydasına olan həlli yalnız Azərbaycan və Qafqaz baxımından deyil, bütün Türk və müsəlman aləminin mənfəətləri baxımından da yararlı idi. Çünki Bakı yalnız sonsuz və bitməz-tükənməz sərvətlri etibarilə deyil, mövcud olduğu coğrafi möbvqeyi baxımından da dünya əhəmiyyətlidir. Qərbi Şərqlə birləşdirən tarixi ticarət yolları üzərində yerləşən Bakı Xəzər dənizinə hakim bir qala və bu dənizin biricik limanı (o dövrdə Bakı Xəzər dənizindəki tək liman şəhəri idi R.Ə.), ticarət və tranzit mərkəzidir. İranın və Türküstanın dünya ilə olan münasibəti Bakı vasitəsilə yapılır. Bakı kimindirsə, Xəzər dənizi də onundur.

Xəzər dənizi isə Trürküstanla İdil-Uralı Azərbaycanla birləşdirən bir körpüdür. Bu baxımdan Bakı məsələsinin həlli ilə Türklük məsələsinin həlli üçün də yol açılmış olurdu (seçmələr müəllifindir)[3,9-12].

Mirzə Bala Məmmədzadə hələ 9 avqust 1919-cu ildə Xəzər dənizinin xalqımızın həyatında oynadığı rolu yüksək qiymətləndirərək göstərmişdi ki, bizim həyatımız, səadətimiz və tərəqqimiz bir çox cəhətlərdən Xəzərin əlimizdə olmasından asılıdır. Əks təqdirdə Xəzər dənizinin bizimlə düşmən bir əldə olması bütün tərəqqimizi və istiqlaliyyətimizi böyük bir təhlükə altına almış olar. Bunu bilmək üçün Azərbaycanın coğrafi durumu nəzərə alınmalıdır. Belə ki, Şərq sahilimizi başdan-başa Xəzər dənizi yuyur. Vətənimizin paytaxtı Xəzər sahilində yerləşir. Məmləkətimizin sərvəti və dövləti Xəzər dənizi sahilindədir. Yurdumuzun varidatının bir hissəsi xəzər dənizi üzərində üzməkdədir. Xəzər iki dünyanın arasındadır. Bundan istifadə edərək Azərbaycan Xəzər dənizi vasitəsilə Avropa, Türküstan, Şimali Qafqaz və İran kimi məmləkətlərlə ticarət yapır. Çıxardığı nefti, cövhəri, benzini və Avropadan aldığı hazır malları Xəzər vasitəsilə alıb satır. Xəzər dənizi indi deyil, ta qədimdən də bir Türk dənizi olaraq Türk gəmilərinin seyrinə meydan olmuşdu. Xəzər ticarət gəmiləri İdildən (indiki adı Volqa) keçərək Xəzər vasitəsilə İran Azərbaycanı (Cənubi Azərbaycan nəzərdə tutulur), Türküstan məmləkətləri ilə münasibət yapar və ətrafların sərvətini toplayıb Xəzəristana qayıdardı. Xəzər dənizi dörd bir tərəfdən Türk torpağı ilə bürünmüş, Şərqdə Türküstan, Qazaxıstan, Şimaldan İdil Tatar yurdu yəni keçmiş Qızıl Orda Xaqanlığı, sabiq Altın Orda Xaqanlığı, Batı, Toxtamış xaqanlar səltənəti, cənubunda və qərbində Dağıstan və Azərbaycan durmaqdadır. Bu cür sərt coğrafi nöqteyi- nəzərindən Xəzər hələ də bir türk dənizidir və Türk xalqını həmişə rabitə və münasibətdə saxlayacaq asan və təbii bir yoldur. Xəzəri bürüyən Türk elləri, Türk torpaqları bu dəniz vasitəsilə əsarətə düşmüşdülər. Yırtıcı «mədə»nilər dəfələrlə paytaxtımızın qalasına yaxınlaşmış, fəqət qalanın açarlarını ala bilməmiş, əvəzində orada məzara gömülmüşlər. Fəqət Xəzər onların əlinə keçincə məmləkətimiz təhdid altına düşmüşdü. Yurdumuzda əsir durumuna düşmüşdük. Çünki Türklər quruda nə qədər qəhrəmandırlarsa, dənizdə də o qədər acizdirlər. O vaxtın Xəzər boyu türkləri dənizdən xəbərsiz idilər. Fəqət indi Xəzər sahilində Azərbaycan kimi bir Cənnət yarada bilmişik. Məmləkətimizi məktəblər, mədənlər və dəmir yolları ilə bəzəmiş, məmləkətimizin və xalqımızın hürriyyətini, vətənimizin sərvət və sabitliyini, hökümətimizin davam və hakimiyyətini mühafizə etmək üçün qurudan müstəbidlərə, imperalistlərə qarşı qüvvətli bir ordu vücuda gətirə bilmişik. Fəqət dəniz- o gözəl Xəzər hələ əsarətdə inləyir. Əsarəti ilə bərabər bizim mövcudiyyətimizi də qurğular altında saxlayır. Çünki dəniz başqalarının əlindədir. Bu vaxta kimi yenə bitərəf bir əldə idi, indi isə bizə qarşı ədavət bəsləyən, bizi bir an əvvəl

yox etməyə çalışan çar həsrətkeşləri xunxar Denikinlərə təslim edilir. Halbuki Xəzər dənizi keçmişdə və indi də yalnız bir Türk dənizi olduğundan Azərbaycana təslim olması lazım gəldiyindən başqa onu bir qorxulu hala salan flotlar və gəmilər də bizimdir. «Ərdəhanlar», «Qarslar» və bunlara oxşar gəmilər Türk xalqının zəhmətilə yapılmış, Türk sərvəti ilə təmin edilmiş, turk pulu ilə bəslənmiş, Türk yurdunda saxlanır. Bütün bunlar haqq verir ki, bu dəniz flotonu və hakimiyyətini tələb edərək öz əlimizə alaq. Çünki Xəzər bir Türk dənizi olaraq qalacaqdır (seçmələr müəllifindir)[4].

Azərbaycan Xalq Cumhuriyyətinin təhdid altında olduğunu dərindən dərk edən Mirzə Bala «İstiqlal» qəzetinin 23 aprel 1920-ci il sayında yazırdı ki, bir aydan sonra Azərbaycan istiqlalının ikinci ili tamam olacaq. Bir il on bir ay bundan öncə 28 may 1918-ci ildə Azərbaycan Mili Şurası Azərbaycanı müstəqil bir Xalq Cumhuriyyəti elan etmişdir. Bu böyük tarixi həqiqətdən sonra təşkil edilən hökümətlər Bakı uğrunda aparılan mübarizələr və axıdılan qanların hamısı Milli Şuranın elan etdiyi və qəbul etdirdiyi bu əsaslı prinsiplər üzərində qurulmuşdur. Bu iki il içərisində Milli Şuranın bu prinsipləri artıq xalqın yeganə və ümumi arzu və qayəsi şəklini almış olduğundan millət hər bir vaxtda vahid bir orqanizm kimi bir dəfə cahana elan və qəbul etdirmiş istiqlalın müdafiə və qorumağa səy göstərmişdir. İstiqlalımız ilə əlaqədar olan o böyük günləri millət qətiyyən unutmayacaqdır. Çünki o şərəfə millət ağır zəhmət, böyük fədakarlıqdan, saysız qurbanlardan sonra nail olmuşdur. Bu yolda hökümət millətdən qüvvət, camaatdan ümid almışdır. Bundan sonra da Azərbaycan üzərinə nə kimi qorxular gəlir-gəlsin şanlı istiqlalımızı nə kimi qüvvələr qoruxudur- qorxutsun bu bizim xarici və daxili siyasətimizi bir dəfə elan etdiyimiz o müqəddəs prinsiplərimizi dəyişməməlidir. Hər hansı bir hökümət iş başına gəlir- gəlsin, hər hansı bir cərəyan məmləkət taleyini əlinə alır- alsın, istiqlal və Xalq Cumhuriyyəti prinsiplərindən ayrı bulunmamalıdır. Bilməlidir ki, millətin istiqbalı, məmləkətin nicatı ancaq bu prinsiplər üzərində təmin oluna bilər. Qurtuluşumuzu ancaq bu yol ilə əldə edə bilərik. İstiqlal və Xalq Cumhuriyyəti. Bu iki əsaslı prinsipləri müdafiə etməyəcək və bu barədə millət və Parlament qarşısında yəmin etməyəcək hökümətə, hansı firqədən olur-olsun, kimin tərəfindən təşkil olunur- olunsun, bir dəfə bilməlidir ki, nə millət, nə də bu prinsipləri elan və müdafiə etmiş firqəmiz etimad etməyəcək və elə bir hökümətə daxil olmayacaqdır. Biz belə bir hökümətin meydana gələcəyinə inanmırıq. Bu hal millətin arzusuna, istiqlal uğrunda verdiyimiz şəhidlərin ruhuna qarşı xəyanətdən başqa bir şey olmaz. Bu hərəkət ya qorxaqlıq, ya da millət arasında nifaq və ittifaq salmaqdan başqa ayrı bir məqsəd ilə icra edilməz. Yeni təşkil ediləcək kabinənin əsas məqsədi Azərbaycanın istiqlalı olmalıdır. Bunlarla bərabər istər daxildə,

istərsə də xaricdə istiqlalımızı yıxmaq istəyən qüvvələrə qarşı hökümət laqeyd deyil, ciddi və qəti tərpənməlidir. Zamanın ciddiyyəti, halın mühümlüyü bu barədə daha cəld və qəti tərpənməyi tələb edir. Millət gözləyir ki, «İstiqlalı göz bəbəyi kimi müdafiə edəcəyəm» deyəcək hökümətinə «Var quvvəmlə arxanca gedəcəyəm» deyə cavab versin (seçmələr müəllifindir)[5].

Böyük ideoloq M.B.Məmmədzadənin XX əsrin birinci yarısında uzaqgörənliklə yazdığı bir sıra ideoloji-siyasi fikirləri bu günümüzdə də sanki gözümüz önündə canlanır. İstiqlal günü olan 28 Mayı xalqımızın "ən xoşbəxt və ən şanlı günü" adlandırdığı gün bu günümüzdə dövlətimizin, xalqımızın rəsmı və əziz bayramlarından biridir. Mütəfəkkirin hər hansı bir hökumət iş başına gəlir-gəlsin, hər hansı bir cərəyan məmləkət taleyini əlinə alır-alsın,istiqlal və Xalq Cumhuriyyəti prinsiplərindən ayrı bulunmamalıdır fikirləri dövrümüzdə xalqımızın və hakimiyyətimizin həyat fəlsəfəsinə cevrilib. Xəzər dənizi haqqında düşücələri isə öz əhəmiyyəti və mahiyyəti ilə daha çox diqqətimizi cəlb edir.

### MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT

1. Məmmədzadə M.B. Azərbaycan dövləti «Odlar Yurd» dərgisi, yıl:3, sayı:3 (28), 28 mayıs, 1931.
2. Məmmədzadə M.B Devlet oluş günümüz, «Kurtuluş» dergisi, №7-8, Berlin 1935.
3. Məmmədzadə M.B Baku məsələsi, «Kurtuluş» dergisi, yıl:3, sayı:24, Berlin 1936.
4. Məmmədzadə M.B Xəzər Türklərinin dənizidir, «İstiqlal», qəzeti, 9 avqust, 1919
5. Məmmədzadə M.B «Zaman və xətti-hərəkət», «İstiqlal» qəzeti, 23 nisan, 1920

**R.A. Akhmadli**

### OUTLOOK MIRZA BALA MAMMEDZADE ABOUTE OF THE OUR NATIONAL STATEHOOD IDEOLOGISTS

### SUMMARY

Thisarticle analyzes the reflections on the state mmedzade Mirza Bala, who played an indispensable role in the formation and ideologts of the наліз statehood of Azerbaijan and making it a permae. The author analyzed the principle positions M.B.Mammedzade on the grouse ideological line, wich leading people to progress, based on the depth of history, national traditions and inexhaustible intellectual resources, has received significant results for the modern philosophical and political studies.

**Р.А. Ахмедли**

### РАЗМЫШЛЕНИЯ МИРЗЫ БАЛЫ МАММЕДЗАДЕ ОБ ИДЕЛОГИИ НАЦИОНАЛЬНОЙ ГОСУДАРСТВЕННОСТИ

### РЕЗЮМЕ

Статья посвящена нализу взглядов о национальной государственности Мирза Балы Маммедзаде, сыгравшего большую роль в формировании идеологии национальной государственности Азербайджана. Автор анализировал взгляды М.Б.Маммедзаде об этапах формирования национальной государственной идеологии, основанной на глубоком знание истории, национальной культуры и традиций народа.

# LƏNKƏRAN XANLIĞININ ƏHALİSİ I RUSİYA- QACARLAR İRANI MÜHARİBƏSİ DÖVRÜNDƏ

**İradə MƏMMƏDOVA**

XIX əsrin əvvəllərində baş verən I Rusiya-Qacarlar İranı müharibəsi (1804-1813) dövründə Lənkəran xanlığında** əhalinin vəziyyətinə mənfi təsir göstərən bir çox amillər mövcud idi. Lənkəran xanlığının ərazisinin I Rusiya-Qacarlar İranı müharibəsinin gedişində döyüş meydanına çevrilməsi, Rusiyanın burada həyata keçirdiyi ağır müstəmləkə siyasəti, Gülüstan müqaviləsinin şərtlərinə görə xanlığın ərazisinə daxil olan Gərgənrud, Nəmin və Zuvandın Qacarlar İranına keçməsi, eyni zamanda Lənkəran xanlığının Ərdəbil və Ənzəli tərəfdən Qacarlar İranı ilə olan sərhədlərinin uzun müddət dəqiqləşdirilməməsi, həmçinin bu müqavilənin imzalanmasından sonra xanlığın ərazisinin 3 dəfə azalması, Rusiya idarəçiliyini qəbul etmək istəməyən xanların və əhalinin Qacarlar İranın ərazisinə köçmələri, müharibə zamanı əhalinin qırılması, xanlığın əhalisinin qonşu xanlıqların ərazilərinə miqrasiyası əhalinin sayının azalmasına, sakinlərinin güzəranının pisləşməsinə gətirib çıxardı, həmçinin xanlığın əhalisinin iqtisadi vəziyyətinə mənfi təsir göstərmiş oldu.

1804-cü ilin mayında Qacarlar İranı hökmdarı Fətəli şahın rus qoşunlarını Cənubi Qafqazdan çıxarılması tələbinin rədd olunması və iyulun 10-da Rusiya ilə Qacarlar İranı arasında diplomatik əlaqələrin kəsilməsi 10 il davam etmiş rus-İran müharibəsinin başlanmasına səbəb oldu [2, s. 20-21].

I Rusiya-Qacarlar İranı müharibəsinin gedişində əhalinin əsir alınıb bir ərazidən digər əraziyə köçürülməsi halları da baş verirdi. Məsələn, 1806-cı ildə Qacarlar İranı qoşunu Şamaxıya girib geri çəkilərkən altı min əsir aparmışdı. Bu zaman qacarlar iki min ailəni Lənkəran xanı Mir Mustafa xana təhvil vermişdilər. Bu hadisə ilə bağlı olaraq rus qoşunlarının Qafqazdakı yeni baş komandanı general Qudoviç (o, 1806-cı ildə baş komandan təyin edilmişdi-İ.M.) Mir Mustafa xandan 2 min ailəni geri qaytarmağı və Sisianovun "qatili" Hüsenyqulu xanı ruslara təhvil verməyi tələb etsə də xan buna əməl etməmişdi [1, sən. 670].

1809-cu ilin əvvəllərində Çar Rusiyasının Cənubi Qafqazda vəziyyəti daha da mürəkkəbləşdi. 1809-cu ilin uyulunda Qacarlar dövləti qoşun yığmağa və hərbi hazırlıqlar görməyə başladı [2, sən. 1059]. Hərbi hazırlıqlardan sonra

---

* İradə Malik qızı Məmmədova – t.ü.f.d. AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun böyük elmi işçisi

** 1747-ci ildə müstəqil xanlığın əsasını qoymuş Seyid Camaləddin (Qara xan – 1747-1786-cı illər) Səfəvi nəslinə mənsub Mir Abbas xanın oğlu idi. I Rusiya-Qacarlar İranı müharibəsi dövründə Lənkəran xanlığının hakimi Qara xanın oğlu Mir Mustafa xan (1786-1814-cü illər) olmuşdur.

Fətəli şah Dağıstana, Quba xanı Şeyxəli xana, Lənkəran xanı Mir Mustafa xana, osetiyalılara, İmeretiya çarı Solomona və Gürcüstanla qonşu türk paşalıqlarına fərman göndərərək birlikdə Rusiyaya qarşı hərbi əməliyyatlarda iştirak etməyə dəvət etdi [2, sən. 1062].

I Rusiya-Qacarlar İranı müharibəsinin gedişində hücüma məruz qalan Lənkəran xanı əhalini daha təhlükəsiz yerlərə köçürürdü. 1809-cu ilin avqustun əvvəlində Qacarlar şahının sərdarı Fərəcullah xan nəsəqçibaşının 10000 nəfərlik qoşunla Ərdəbil yaxınlığında duraraq, Lənkəran xanlığına hücuma hazırlaşdığını eşidən Mir Mustafa xan qoşunlarını, kənxuda, bəylər və Astara çayından şimal tərəfə olan bütün əhalini (3 min ailə) daha etibarlı sığınacaq olan Qamışavana köçürmüşdü [2, sən. 874; sən. 764].

Bir çox hallarda Qacarlar İranı dövləti ona tabe olmayan xanların təbəələrini öz tərəfinə çəkirdi. Məsələn, 1809-cu ildə Lənkəran xanı Mir Mustafa xanın Fətəli şahın ona boyun əymək təklifinə rədd cavabı verdikdən sonra Qacarlar İranı dövləti xandan narazı olan bəyləri öz tərəfinə çəkməyə başladı. Belə ki, Qacarlar İranı ilə sərhəddə olan ərazilərin əhalisinin az hissəsi, bir neçə bəylərlə birlikdə Mir Mustafa xana tabe olmaqdan boyun qaçıraraq Qacarlar İranı tərəfinə keçdilər [2, sən. 877]. Lənkəran xanından ayrılan adamların sayı 2 mindən çox olduğu üçün bu Mir Mustafa xanın vəziyyətini pisləşdirmişdi.

I Rusiya-Qacarlar İranı müharibəsi dövründə qacar qoşunları tərəfindən mühasirəyə alınan Lənkəran xanlığının əhalisinin acınacaqlı vəziyyətə düşdüyü arxiv sənədlərindən məlum olur. Belə ki, 1809-cu ilin hərbi əməliyyatları iyulda iki Qacarlar İranı qoşununun Qarabağ və Pəmbəkə yürüşləri ilə eyni zamanda başladı. Avqust ayında Gəncəyə hücüm edən Abbas Mirzə döyüşə girmədən, bir neçə yaşayış məskənini talan edərək Arazın o biri tayına çəkildi. 1809-cu ilin sentyabrında isə Lənkəran xanlığını tabe etmək üçün 13 min qoşun göndərildi [2, sən. 876]. Qacarlar İranı qoşunları üç istiqamətdə Lənkəran xanlığına hücüm etdilər [2, sən. 879]. Muğan tərəfdən Fərəcullah xan 6 minlik, Gilan tərəfdən Məhəmməd Rza xan 5 minlik qoşunla Lənkərana doğru hərəkət etdi. Mirzə Büzürgün 2 minlik korpusu da bunlara qoşuldu. Əvvəlcə Mir Mustafa xan Muğan tərəfə yönələrək 6 minlik qoşuna qarşı çıxdı və Qacarlar İranı hərbi korpusunun birinci bölməsini 2 və ya 3 mil geri çəkilməyə məcbur etdi. Lənkəran şəhəri boşaldılmış, əhali və xanın ailəsi ərazisi yalnız 7 verst olan yarımadaya çəkilmişdi [2, sən.876].

12 minlik Qacarlar İranı qoşunu hər iki tərəfdən Mir Mustafa xana hücüm etdiyindən xanın qoşunu az olduğu üçün onlara qarşı dura bilmədi. Ona görə də Mir Mustafa xan Muğandakı düşərgəsini tərk etdi, Lənkərana gələrək burada 8 minlik Gilan və Kəskər qoşunu ilə döyüşə girdi. Qoşunun sayı az olduğundan

heç bir tərəfdən köməyi olmayan Mir Mustafa xan Qamışavanda sığınacaq tapdı [2, sən. 869]. Qamışavan hər tərəfdən dəniz və bataqlıqla əhatə olunmuşdu, yalnız bir tərəfdən – quru hissədən Lənkərana bitişirdi [5, s. 92]. Yalnız Çelyayevin rəhbərlik etdiyi hərbi gəmi dəniz tərəfdən Qacarlar İranı gəmilərinin gəlişinə, Ənzəli tərəfdən gələn 50 kirjimin Lənkərana desant çıxarmasına əngəl törədə bilirdi.

Sentyabrın 16-da Mir Mustafa xanı hücüm mövqeyindən geri çəkilməyə məcbur edən qacarlar bir neçə dəstəyə bölünərək qoşunun bir hissəsini xanı tutmaq üçün orada qoydular və Lənkərana doğru iqtiqamətləndilər. Qacarlar İranı hərbi qüvvələri 4 saat ərzində Lənkəranı yandıraraq, şəhəri külə döndərdilər. Bütün hadisələr meşənin arxasında baş verdiyindən Çelyayevin başçılıq etdiyi hərbi gəmi heç vəchlə qacarlara maneə ola və hadisələrə qarışa bilmədi [2, sən. 880]. Bu məlumatdan göründüyü kimi, Qacarlar İranı qoşunlarının Lənkəranı yandırması əhalinin ev-eşiyinin yandırılması, onların təsərrüfatlarının məhv edilməsi, tacir və sənətkarların dükan və əmlaklarına ziyan vurulması demək idi. Bütün bunlar təbii ki, əhalinin iqtisadi vəziyyətinə təsir edirdi.

Əhalinin düşdüyü dəhşətli mənzərənin təsvirini Rusiya qoşunlarının kapitan-leytenantı Çelyayev öz raportunda vermişdir. Kapitan-leytenant Çelyayev bütün əhalinin öz mal-qarası ilə pis hava şəraitində daldanacaq yeri olmayan bir mil uzunluğundakı yarımadaya, heç bir yaşayış üçün və mal-qara üçün yem ehtiyatı olmadan sığınmasını, onların vəziyyətinin daş ürəkli hər kəsi riqqətə gətirə biləcəyini yuxarı dairələrə təsvir edərək, xanın çıxılmaz vəziyyətə düşdüyünü xəbər verirdi. Kapitan-leytenant Çelyayev yazırdı: "Əgər kömək olmasa xan mühasirəyə davam gətirə bilməyəcək, belə halda Rusiya həm bu xanlığın verdiyi mənfəətdən, həm də etibarlı təbəəsindən məhum olaraq, qınağ sahibi olacaqdır". Çelyayev davam etdirərək bildirirdi: "Əgər xana ailəsi ilə birlikdə gəmidə yer verəriksə, onda Rusiya təbəəsi olan 3000 yaxşı əsgər düşmənə çevrilər. Onda xanlığı müharibə ilə geri almalı olarıq. Müharibə isə itkisiz olmur; əgər xanı əhali ilə birlikdə Sarı adasına köçürsək, ada bu qədər adamı tutmaz. Həmçinin orada həm adamlar, həm də mal-qara üçün ərzaq yoxdur" [2, sən.880; 13, s. 45-46]. Lakin, Mir Mustafa xan və Çelyayevin müraciətindən sonra da çar hökuməti piyada qoşunla köməklik göstərmədi. General Tormasovun 1809-cu il sentyabrın 24-də qraf Rumyantsevə yazdıqlarından belə nəticəyə gəlmək olurdu ki, Qacarlar İranı ilə müharibə etmək üçün lazımı qüvvələr yoxdur və şah Lənkəran xanlığını öz mülkü hesab etdiyindən, çar hökuməti onunla münaqişəyə girərək, xanlığa acıq-aşkar silahlı kömək edə bilməzdi [2, sən. 881].

Buradan belə nəticə çaxarmaq olar ki, Lənkəran xanlığını acıq-aşkar müdafiə etmək Rusiya dövlətinin maraqlarına uyğun gəlmirdi, bu xanlığa görə

sülh danışıqlarını pozmaq istəmirdi və Lənkəran xanlığının əhalisinin düşdüyü vəziyyət onu narahat etmirdi. Bununla belə, Arazın o biri tayındakı torpaqlara iddiası olduğu üçün güclənənədək Lənkəran xanlığına gizli olaraq kömək etməyə çalışırdı.

Qacarlar İranı Şah hökuməti Rusiyaya sülh təklif etdikdən sonra öz qoşunlarını Rusiya sərhəddindən geri çəkməyə başladı. Bununla bağlı general Tormasov general-leytenant Repinə bildirirdi: "Əgər Mir Mustafa xan çıxılmaz vəziyyətə düşərsə və taborları heç bir təhlükə gözləməzsə, onda Sevastopol alayından 2 tabor ayıra bilər [2, sən. 882]". Lakin, Repin cavabında indiki vəziyyətdə 2 tabor deyil, yalnız 100 nəfər ayıra biləcəklərini yazdı. Həmçinin o, xanın özünün ona indiki yerində 3 ay davam gətirə biləcəyini yazdığını bildirirdi [2, sən. 883]. 2, 7, 10 oktyabrda qacarlar xanın yeganə dayaq nöqtəsi olan sığınacağı tutmağa çalışdılar. Həm dəniz tərəfdən edilən artilleriya atəşi, həm də xanın müqavimət göstərməsi Qacarlar İranı qoşunlarını geri çəkilməyə məcbur etdi [2, sən.884].

Kapitan-leytenant Çelyayev 1809-cu il 15 oktybar tarixli məlumatında bildirirdi: "Düşmən qüvvələri xanlığın ən əlçatmaz yerlərində belə öz istədikləri kimi yerləşmişlər. Xan isə əvvəlki inamını itirmişdir. Ərzaq ehtiyatı tükənmiş və yəqin ki, gələn ayın ortalarına kimi ancaq çatar. Əhalinin əsas əmlakı olan malqara yem olmadığından qırılmışdır" [2, sən.884; 13, s. 47].

General Tormasovun kapitan-leytenant Çelyayevə yazdığı 1809-cu il 20 noyabr göstərişindən onun Lənkəran xanlığına münasibəti aydın görünür: "Lənkəran xanlığı heç vaxt birbaşa Rusiya imperiyasının himayəsində olmamışdır. Ona görə də siz xanlığın müdafiəsindən çox, orada eskadra və taborunun təhlükəsizliyini təmin etməyin qayğısına qalmalısınız [2, sən. 887]".

Mir Mustafa xan Qacarlar İranı qoşunları düşərgəsinin baş komandanına göndərilən şah fərmanı və məktublarını ələ keçirərək, bu məktubların məzmunundan başa düşdü ki, qacar qoşunları Lənkəran xanlığını belə vəziyyətdə yanvar ayınadək saxlayacaqdır [2, sən. 887; 8, s. 247]. Bu isə evsiz və ərzaqsız qalan əhalini dəhşətli vəziyyətə sala bilərdi. Ona görə də Mir Mustafa xan qoca, qadın, uşaqlar ayaq altında qalmasın deyə Fərəcullah xanın yanına adam göndərib, ondan imdad dilədi. Bu danışıqlarda Mir Mustafa xanın əmisi Əmirgünə bəyin müsbət rolu oldu [4, ş. XVI-1070, inv.5208; 13, s. 49]. Lənkəran xanı Əmirgünə bəyin vasitəsilə sülh bağlayaraq düşmənçiliyi "bitərəf"etdi [5, s.162; 14, s. 98].

Qacar qoşunlarının Lənkəran xanlığının ərazisini tərk etməsinə baxmayaraq, Mir Mustafa xanın qacar tərəfinə keçmiş təbəələrinin ona tabe olmaması digər sakinlərin də vəziyyətinə təsir edirdi [2, sən. 888].

Bu hadisədən sonra Qacarlar İranı Mir Mustafa xana münasibətdə başqa siyasət yeritməyə başladı. Qacarlar İranı şahı Lənkəran xanlığının bir çox bəylərinə xan tutulu verməklə, onları öz mülklərində xan elan etdi və onları Mir Mustafa xana qarşı qaldırdı [2, sən.1092; 13, s. 52-53]. Bunu Ləmbton da təsdiq edirdi: "Əvvəlki sülalərdə olduğu kimi Qacarların hakimiyyəti dövründə də tayfaların birinin gücləndirilməsi, digərinin zəiflədilməsi üçün yerdəyişmə siyasətindən istifadə olunurdu. Məsələn, Fətəli şah Talışda Mir Mustafa xanın ailəsini zəiflətmək üçün bütün Talışı orada qalan başlıca ailələr arasında bölmüş, İran tərəfdarı olan bəylərin təsirini gücləndirmək üçün onları xan elan etmişdi [11, s.140; 13, s. 52-53]".

Bir çox hallarda qacarlara üstünlük verən əhali Mir Mustafa xana qarşı üsyan qaldırırdılar. 1810-cu ilin martın 28-də Mir Mustafa xanın leytenant Neklyudovla görüşündəki danışıqdan xanlığın ərazisində baş verən hadisələrdən, həmçinin əhalinin vəziyyətindən xəbərdar olmaq mümkündür. Belə ki, Lənkəran xanı üçün çətin olan məqamda xanın qohumu olan Qızılağac bəyi və bir sıra məmurları ondan tamamilə ayrılmaq fikrinə düşdüyündən, onlara tabe olan kəndlilər qiyama hazırlaşırdılar. Xanlığın bütün əhalisinin qiyam edəcəyindən qorxan Mir Mustafa xan, leytenant Neklyudovun girov göndərmək xahişinə baxmayaraq, Əmirqulu bəyi Tehrana göndərmək fikrinə gəldi. Buna baxmayaraq Mir Mustafa xandan ayrılan təbəələri o dərəcədə hədlərini aşdılar ki, hətta xana sadiq qalan məmurları öldürmək və qarət etmək üçün Lənkəranın yaxınlığınadək gəldilər. Bundan başqa astaralılar da qiyama meyilli olub, Qacarlar İranı qoşunları görünən kimi xandan ayrılmağa hazır idilər [2, sən. 898]. Əslində demək olmaz ki, əhali xana xəyanət etməyə hazır idi. Sadəcə olaraq, keçən il qacarlar xanlığa hücüm edərkən, rus məmurları onlara lazımı köməklik göstərmədiyindən və əhalinin əmlakı talan edildiyindən, sakinlər daha rus məmurlarına inanmır və öz mülklərinin qarət olunmasını istəmirdilər. Digər tərəfdən, ehtimal ki, Mir Mustafa xan üzdə əhali ilə razılaşmadığını ruslara nümayiş etdirsə də, həqirətdə əhalinin fikri ilə razı idi. Mir Mustafa xan da Rusiyanın ona kömək edəcəyinə o qədər də inanmırdı və xan artıq bir dəfə çar hökümətinin öz maraqlarını müdafiə edərək, sülh danışıqlarını pozmamaq üçün onu çıxılmaz vəziyyətdə qoymasını unutmamışdı. Belə olmasa idi, xan qohumu Əmirqulu bəyi əmanat kimi şah sarayına göndərməzdi. Bununla belə, Mir Mustafa xan Qacarlar İranına da etibar etmirdi. Qacar şahının imkan düşən kimi onu xanlıqdan məhrum edəcəyini də yaxşı bilirdi.

1810-cu ilin aprelində Əsgəranda Rusiya ilə Qacarlar İranı arasında başlanan danışıqlar [17, s. 160] zamanı Rusiya Naxçıvan və İrəvan xanlıqlarını, Qacarlar İranı isə Lənkəran xanlığını tələb etdi.

1810-cu ilin iyununda qacar qoşunları Qarabağa, Gəncəyə və Pəmbəkə doğru irəlilədi və Mehridə möhkəmləndi. Belə bir vəziyyətdə Lənkəran xanlığının əhalisi Qacarlar İranı tərəfinə keçməyə meyilli idi. Xan həm iranlıların yeni talançı yürüşlərindən qorxduğu üçün, həm də öz təbəələrindən çəkindiyi üçün divanxanada Qacarların tərəfini saxladığını nümayiş etdirmişdi [2, sən.901].

1813-cü ilin mayında qacarlar bir neçə min süvari toplayaraq Muğan düzünə doğru hərəkət etdilər və burada yaşayan Mir Mustafa xana məxsus 150-dək tərəkəmə ailəsini özləri ilə apardılar. Həm xanın, həm də rusların dəstələri gəlib çıxanda artıq gec idi. Qorxuya düşmüş Qızılağac sakinləri sahilboyu qamışlıqda gizlənməli olmuşdular. Digər tərəfdən Şamaxı xanı Dilağardca kəndi sakinlərini öz tərəfinə keçməsinə nail olmuşdu. Bu da xanlığın sərhədlərinin qorunmasını çətinləşdirirdi [3, sən. 724].

1813-cü ilin oktyabrın 12/24-də Qarabağın Gülüstan kəndində Qacarlar İranı ilə Rusiya arasında bağlanan müqaviləyə görə Qacarlar İranı Şərqi Gürcüstanı, Dağıstan, Qarabağ, Gəncə, Şəki, Şamaxı, Dərbənd, Quba, Bakı xanlıqları və Lənkəran xanlığının bir hissəsi Rusiya ilhaqını qəbul və təsdiq etdi [14, s. 99; 9, s.229; 16, s. 643-644; 18, s. 126; 6, s.294]. Bu müqavilənin ikinci bəndində bildirilirdi: "Talış mülkləri müharibənin gedişində bir əldən digərinə keçdiyi üçün bu xanlığın Ərdəbil və Ənzəli tərəfdən sərhədlərinin dəqiqləşdirilməsi traktatın bağlanması və ratifikasiyasından sonra hər iki tərəfin seçdiyi komissiyalar tərəfindən təyin ediləcək. Bunun üçün hər iki tərəfin baş komandanları bu vaxtadək hər iki tərəfə doğrudan da mənsub olan torpaq, kənd və dərələrin, çay, dağ, göl, bataqlıq, yarğan və s. ətraflı təsvirini verməli idilər [7, s. 209-210; 13, s. 106]". Yalnız bundan sonra sərhədlər təyin ediləcəkdi. Leqkobıtovun məlumatına görə, Gülüstan müqaviləsinin şərtlərinə əsasən Lənkəran xanlığına məxsus olan Gərgənrud, Nəmin, Zuvand Qacarlar İranına keçmiş oldu [15, s.175-176; 10, v.6; 12, s. 110]. Göründüyü kimi, Gülüstan müqaviləsindən sonra Lənkəran xanlığı ərazisinin bir hissəsini itirmişdi və bu eyni zamanda əhalinin sayının azalması demək idi. Gülüstan müqaviləsinin imzalanmasından sonra Lənkəran xanlığının və əhalisinin vəziyyəti haqqında məlumatı kapitan Vesyolovun general Rtişşevə verdiyi 1814-cü il 16 fevral tarixli raportundan bəlli olur [3, sən. 728]. Raporta görə, Gülüstan müqaviləsinin imzalanmasından sonra Lənkəran xanlığının ərazisi əvvəlkinə nisbətən 3 dəfə azalmışdı. Əvvəllər geniş əraziyə malik olan xanlıq dörd hissəyə bölünmüşdü: 2 əsas hissə, həmişə qacar hücümüna qarşı dayaq nöqtəsi olan Nəmin və Gərgənrud 1812-ci ilin hərbi əməliyyatları zamanı Qacarlar İranının işğalı altına keçmiş və sonra da onun hakimiyyəti altında qalmışdı. Üçüncü hissəsinin əhalisi Muğan tərəfdən qacar qoşunu hücüm edərkən şamaxılı Mustafa xanın təhriki ilə Şamaxı və Salyana

qaçmış və orada məskunlaşmışdı. Dördüncü hissə isə xanlıqda qalmışdı. Lakin, onlar da vəziyyətdən asılı olaraq qonşu ərazilərə qaça bilərdilər. Ona görə də kapitan Vesyolov kəndlərini itirmiş bəylərin nazını çəkərək, əhalinin əvvəlki ərazilərinə qaytarılacaqlarını və möhkəm sərhədlə müdafiə olunacaqlarını söz versə də, buna baxmayaraq əhalinin qonşu ərazilərə axını çoxalırdı. Belə olduqda kapitan Vesyolov fevralın 11-də general Rtişşevə məktub yazaraq Şamaxı və Salyanda olan ailələrin geri qaytarılmasını, Gərgənrud və Nəminin digər ayrılan kəndlərlə birlikdə xanlığa qatılmasını və sərhədlərin dəqiqləşdirilməsini xahiş edirdi. Kapitan Vesyolov yuxarı dairələri əks halda Lənkəran xanlığının tamamilə boşalacağı ilə hədələyirdi [3, sən.728; 12, s. 111-112].

1814-cü ildə Lənkəran xanlığının bəzi bəylərinin təbəələri ilə birlikdə Qacarlar İranına qaçması faktları da mövcuddur. Belə ki, 1814-cü ilin mayında əvvəllər xana sadiq olan, xan tərəfindən Lənkəran düşərgəsinin yaxınlığında yerləşdirilən və ona az imtiyazlar verilməsindən narazı qalan Nəmin sakini Mansur bəy ona məxsus 12 ailə ilə birlikdə gecə vaxtı öz əmlakını və xan ilxısından 20 at götürərək qaçmışdı. Onun qaçmasında qacar casuslarının da rolu az olmamışdı. Bundan xəbər tutan Mir Mustafa xan pis hava şəraitində, güclü yağışa baxmayaraq Nəmin yolu ilə onları təqib etsə də, sərhədə yaxınlaşan xan orada qaçqınları gözləyən silahlı nəminliləri gördüyündən yoluna davam edib, heç bir tədbir görə bilmədi. Rusiya ilə Qacarlar İranı arasında Lənkəran xanlığı tərəfindən sərhədlər dəqiqləşdirilmədiyindən bu ərazinin ona və ya başqa xana məxsus olduğunu bilməyən Mir Mustafa xan geriyə Lənkərana qayıtmalı olur [3, sən. 728; 13, s. 108].

Onu da qeyd etmək lazımdır ki, hərbi əməliyyatlar bitdikdən sonra bəzi xanlar öz xanlıqlarına daxil olan əhalinin vəziyyətini yaxşılaşdırmaq üçün tədbirlər görmüşdülüər. Buna misal olaraq Lənkəran xanı Mir Mustafa xanı göstərmək olar. Mir Mustafa xan təbəələrinin qayğısına qalaraq, xanlığa daxil olan mülklərinin azalmasına baxmayaraq, ərzağa ehtiyacı olan kasıbların vəziyyətini yaxşılaşdırmaq üçün tədbirlər gördü. Sərhəddə yerləşən əraziləri idarə edən bəyləri mükafatlandırdı. Bu bəylərin kəndləri qacar qoşununun hücümü zamanı qarət olunmuş, əhalisi aparılmış və nəticədə sərhədlər təyin olunmadığından xana sadiq olan bəylər isə öz sahələrindən məhrum olaraq heç nəsiz qalmışdılar və Mir Mustafa xanın hesabına yaşayırdılar. Buna baxmayaraq Mir Mustafa xan onlara nə qədər kömək edirdisə də, ərazisi az qaldığından bəylərin və təbəələrinin ehtiyaclarını ödəyə bilmirdi. Çünki hər bəy ona tapşırılan sahəni idarə etdiyi vaxtlar firavanlıq içərisində yaşamağa adət etdiyindən həmişə belə yaşamağa can atırdı. Lənkəran xanlığının hər bir sakininin isə öz torpaq sahəsi olanda, burada möhkəm ev tikir, təhlükəsiz olaraq torpağı becərir və ailəsini yaxşı

dolandırırdı. Lakin, bundan məhrum olan təbəələr yazın gəlişi ilə hansı ərazidə əkinçilik və maldarlıqla məşğul olacaqlarını bilmədiklərindən, torpağı lazım olan şəkildə becərmirdilər. Onlar sərhədlər dəqiqləşdirildikdən sonra yerlərini dəyişə biləcəklərini bildiklərindən sərf etdikləri əməyin itmiş olacağını düşünürdülər. Digər tərəfdən Mir Mustafa xanın qonşuları hər vasitə ilə onları öz tərəfinə çəkərək, xanın tabeliyindən çıxmağa sövq edirdilər [3, sən.728; 13, s. 108-109]. Göründüyü kimi, sərhədlərin dəqiqləşdirilməməsi Lənkəran xanlığında əhalinin vəziyyətinə mənfi təsir göstərmiş, əkinçilik və maldarlığa ziyan vurmuş, ərzaq ehtiyatının eləcə də əhalinin sayının azalmasına səbəb olmuşdu.

Beləliklə, I Rusiya-Qacarlar İranı müharibəsi zamanı Rusiya imperiyası ilə Qacarlar İranı arasında sərdəddə yerləşən Lənkəran xanlığının ərazisi rus və Qacarlar İranı ordularının arasında gedən hərbi əməliyyatların meydanına çevrildiyindən, həmçinin bu müharibənin nəticəsi olaraq bağlanmış 1813-cü il Gülüstan müqaviləsinə görə mülklərinin bir hissəsini itirərək ərazisi 3 dəfə azaldığından, xana tabe olan xan, bəy və əhalinin qacarlara meyilli olub xana qarşı üsyan etdiklərindən, həmçinin qonşu dövlətlərin xanlığa etdikləri dağıdıcı yürüşlər ümümilikdə xanlığın iqtisadiyyatına ağır zərbə vurmuş, eləcə də əkinçilik təsərrüfatlarına, heyvandarlığa, sənətkarlıq və ticarətə böyük siyan dəymiş, əhalinin vəziyyəti pisləşmiş, sakinlər bir yerdən başqa yerlərə köçürülmüş və ya özləri yaşadıqları əraziləri tərk etmək məcburiyyətində qalmış, qırğınlara məruz qalmış, kəndlər, şəhərlər və yaşayış məntəqələri yandırılmışdır.

## Qaynaqlar və ədəbiyyat


1. Акты, собранные Кавказской Археографической Комиссией (АКАК), т. III, Тифлис, 1869.
2. АКАК, т. IV, Тифлис, 1870.
3. АКАК, т.V, Тифлис, 1873.
4. AMEA Əlyazmalar İnstitutunun Elmi arxivi, şifr XVI – 1070, inv. 5208 – عبدالرزاق دنبلی، ماثر سلطانیه، تبریز، ۱۲۴۱.
5. Бакыханов А.А. Гюлистани-Ирам, В., 1991.
6. Дело Закавказское 1804-1813. Новая история, Петроград, 1919.
7. Договоры России с Востоком. Политические и торговые (собрал и издал Т.Юзефович), Санкт-Петербург, 1869.
8. Дубровин Н.Ф. История войны и владычества русских на Кавказе. т.V, СПб., 1887.
9. Иванов М.С. История Ирана (с древнейших времен до конца XVIII в), Москва, 1977.
10. Краткое военное обозрение Талышинского ханства (составил подполковник Иванов), 1816 ноябрь, //РГВИА, ф. ВУА, д.19229.

11. Lambton A.K. Landlord and peasant in Persia, London, Oxford. University Press, 1969.
12. Memmedova İ.M. Rusya ile İran arasında Azerbaycan (Lenkeran hanlığı). İstanbul, 2011.
13. Məmmədova İ.M. Lənkəran xanlığı Birinci Rusiya-İran müharibəsi dövründə, B., 2007.
14. Müxtəsər Azərbaycan tarixi. Cahangir Zeynaloğlu. B., 1992.
15. ОРВЗ (в статическом, этнографическом, топографическом и финансовом отношениях), ч.I-III, Санкт-Петербург, 1836
16. Полный Сборник Законов России (ПСЗРИ). т. XXXII.
17. Потто В.А. Утверждение русского владычества на Кавказе, т. I, Тифлис, 1901.
18. Сборник Материалов для Описания Местностей и Племен Кавказа (СМОМПК). Вып.46, Махачкала, 1929.


**İradə Məmmədova**

**LƏNKƏRAN XANLIĞININ ƏHALİSİI**
**I RUSİYA- QACARLAR İRANI MÜHARİBƏSİ DÖVRÜNDƏ**

**Xülasə**

Məqalədə XIX əsrin əvvəllərində baş verən Birinci rus-iran müharibəsi (1804-1813) dövründə Lənkəran xanlığında əhalinin vəziyyəti və ona mənfi təsir göstərən bir çox amillər araşdırılmışdır. Məqalədə müəllif Lənkəran xanlığının ərazisinin Birinci Rusiya-İran müharibəsinin gedişində döyüş meydanına çevrilməsinin, Rusiyanın burada həyata keçirdiyi müstəmləkə siyasətinin, Gülüstan müqaviləsinin şərtlərinə görə xanlığın ərazisinə daxil olan Gərgənrud, Nəmin və Zuvandın Qacarlar İranına keçməsinin, eyni zamanda Lənkəran xanlığının Ərdəbil və Ənzəli tərəfdən Qacarlar İranı ilə olan sərhədlərinin uzun müddət dəqiqləşdirilməməsinin, həmçinin bu müqavilənin imzalanmasından sonra xanlığın ərazisinin 3 dəfə azalmasının, Rusiya idarəçiliyini qəbul etmək istəməyən xanların və əhalinin Qacarlar İranın ərazisinə köçmələrinin, müharibə zamanı əhalinin qırılması və xanlığın əhalisinin qonşu xanlıqların ərazilərinə miqrasiyasının Lənkəran xanlığında əhalinin sayının azalmasına, sakinlərinin güzəranının pisləşməsinə gətirib çıxardığı, həmçinin xanlığın əhalisinin iqtisadi vəziyyətinə mənfi təsir göstərdiyi qənaətinə gəlir.

**Ирада Мамедова**

**НАСЕЛЕНИЕ ЛЯНКЯРАНСКОГО ХАНСТВА**
**ВО ВРЕМЯ I РУССКО-ИРАНСКОЙ ВОЙНЫ**

**Резюме**

В статье исследуется положение населения Лянкяранского ханства в XIX веке во время I русско-иранской войны (1804-1813) и многие факторы повлиявшие на положение населения. Автор в статье приходит к выводу, что превращение территории Лянкяранского ханства в поле боя в ходе I русско-иранской войны, осуществление на территории ханства колониальной политики России,

переход Гяргянруда, Нямина и Зуванда на территорию Каджарского Ирана по условиям Гюлистанского договора, а также не уточнение границ Лянкяранского ханства со стороны Ардебиля и Энзели с Каджарским Ираном в течение длительного периода, даже после подписания этого соглашения, да еще уменьшение территории ханства в три раза, миграция в Каджарский Иран ханов и населения, не принявшие российского управления, уничтожение населения во время войны и миграция населения ханства на территории соседних ханств привело к снижению численности населения, ухудшению жизни жителей Лянкяранского ханства, а также отрицательно повлияло на экономическое положение.

**Irada Mammadova**

**THE POPULATION OF LANKARAN KHANATE DURING THE FIRST RUSSIAN-IRANIAN WAR**

**Summary**

In the article is investigated the condition of the population of the the Lankaran khanate during the first Russian-Iranian war in the early nineteenth century (1804-1813) and many factors affecting negatively to it. The author comes to the conclusion in the article that turning of the territory of Lankaran khanate into a battleground in the course of the first Russia-Iran war, the colonial policy carried out by Russia, the passing of the territories of Garganrud, Namin and Zuvand which entered the territory of the khanate to Gajars Iran under the terms of the Treaty of Gulistan, not specified borders of the Lankaran khanate from the side of Ardabil and Anzali with the Qajar Iran for a long time, as well as reduce in the number of the khanate for 3 times after the signing of this treaty, also the move of those khans and population who did not want to accept the management of Russia, the annihilation of population during the war and the migration of khanate population to the territories of neighboring states led to the reduce in number of the population in Lankaran khanate, worsening the lives of residents and the negative impact on the economic condition of the khanate population.

**Açar sözlər:** Lənkəran xanlığı, Birinci Rus-İran müharibəsi, Gülüstan müqaviləsi, müstəmləkə sistemi, əhalinin vəziyyəti

**Ключевые слова:** Лянкяранское ханство, I русско-иранская война, Гюлистанский договор, колониальная система, положение населения

**Keywords:** the Lankaran khanate, the first Russian-Iranian war, the Treaty of Gulistan, the colonial system, the condition of the population

**Məqalə t.e.d., prof. C.Mustafayevin və t.ü.f.d. M.İskəndərovanın müsbət rəyləri əsasında çap olunur.**

# MÜNDƏRİCAT

*Fəridə Əliyeva.* Azərbaycan əhalisinin antik dövrdə məşğuliyyəti ................ 3
*Allahverdi Əlimirzəyev.* Azərbaycan diplomatiyasının miladdan öncəki tarixindən ........................................................................................ 12
*Рауф Меликов.* Древнейшие миграции и этнонимы армян........................ 20
*Заур Гасанов.* Идентификация версии происхождения и миграции «Царских скифов» Геродота с «Огузнаме» Рашид ад-Дина: и их сопоставление с археологическими памятниками ранних скифов............... 30
*Rəşad Mustafa.* Tiflis əmirliyində idarəetmə sistemi ..................................... 44
*Оксана Василюк.* Азербайджанская Албания в исследованиях Агафангела Крымского .................................................................... 49
*Nərgiz Əliyeva.* Arranda ərəb-islam mühitinin yaranması.............................. 63
*Ярослав Пилипчук.* Огузо-Кыпчакские отношения в XI-XIII в ................ 70
*Yeganə Gözəlova.* XV əsrdə Avropa-Asiya ticarət əlaqələri .......................... 83
*Nizami Süleymanov.* Azərbaycan Səfəvi dövlətinin maliyyə idarələrinin quruluşu və statusu............................................................................... 103
*Tofiq Nəcəfli.* Asafi Dal Mehmed Çələbinin «Şücaətnamə» əsəri – 1578-1590-cı illər Osmanlı-Səfəvi müharibəsinə dair mühüm mənbə .................... 111
*Тофиг Мустафазаде.* Несколько реляций русского резидента И.И.Неплюева в Стамбуле как ценный источник по истории международных отношений 1722 года ................................................................ 131
*Олег Купчик. Али-Иса Дамиров.* Студенты-Азербайджанцы г. Киева и революционное движение в Украине (1900 – 1917 гг............................ 138

*İradə Əliyeva.* XIX əsrin əvvəllərində çar Rusiyasinin Cənubi Qafqazla bağli işğalçiliq siyasətində dini amillər və İngiloylar ..................................... 153
*Şamil Rəhmanzadə.* 1917-ci il fevral inqilabından sonra Gürcüstanın siyasi partiyalarının milli ərazi proqramları və Zaqatala dairəsinə iddialar ....... 161
*Фарид Гулиев.* Армяно – Азербайджанский, Нагорно-Гарабахский конфликт и азербайджанская диаспора ...................................................... 175
*Leyla Hüseynova.* Heydər Əliyev irsində Azərbaycan Xalq Cümhuriyyəti tarixinə münasibət məsələləri .................................................. 184
*Ərəstun Mehdiyev.* Neft strategiyasinin təməl daşi – "əsrin müqaviləsi"........ 197
*Əsmər Nəsibova.* "Əsrin müqaviləsi"nin imzalanması və ABŞ-ın mövqeyi........................................................................................... 215
*Rafail Əhmədli.* Mirzə Bala Məmmədzadənin Azərbaycan milli dövlətçilik ideologiyası haqqında düşüncələri................................................. 229
*İradə Məmmədova.* Lənkəran xanliğinin əhalisi I Rusiya- Qacarlar Irani müharibəsi dövründə.......................................................................... 235

## MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ!

AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun «Elmi Əsərlər»ində çap olunmaq üçün məqalə təqdim olunarkən aşağıdakılar nəzərə alınmalıdır.*

1. Məqalələr üç dildə – Azərbaycan, rus və ingilis dillərində çap oluna bilər. Məqalənin yazıldığı dildən əlavə, digər iki dildə xülasəsi verilməlidir.
2. Məqalədə üç dildə – Azərbaycan, rus və ingilis dillərində açar sözlər verilməlidir.
3. Mövzu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır və istifadə olunmuş ədəbiyyat xülasələrdən əvvəl kodlaşdırma üsulu ilə göstərilməlidir.
4. Məqalələrin mətnləri 1 intervalla Times New Roman – 13 ölçülü şriftlərlə yığılmalıdır.
5. Məqalə haqqında redaksiya heyəti üzvlərindən ən azı birinin, həmin sahə üzrə mütəxəssisin rəyi və müvafiq elmi müəssisənin Elmi Şurasının protokolundan çıxarış olmalıdır (bunlar məqalə nəşr olunarkən göstəriləcəkdir).
6. Məqalənin elektron və çap olunmuş variantı ayrıca faylda təqdim edilməlidir.

Bu tələblərə cavab verməyən məqalələr çap edilməyəcəkdir. Əlyazmalar geri qaytarılmır.

**Qeyd:** Bu şərtlər müəyyənləşdirilərkən Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının dissertasiyaların əsas elmi nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlərə verdiyi tələblər əsas götürülmüşdür.

# ELMİ ƏSƏRLƏR
**2011, cild 36-37**

# SCIENTIFIC WORKS
**2011, volume 36-37**

# ТРУДЫ
**2011, том 36-37**

F.ç.v. 15,5. Tirajı 500

«Turxan» NPB MMC